**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**A.A.BAKIXANOV adına TARİX İNSTİTUTU**

# AZƏRBAYCAN-GÜRCÜSTAN MÜNASİBƏTLƏRİ TARİXİ

**XVIII əsr – XXI əsrin əvvəlləri**

Şərq Qərb 1986-cı ildən
East West since 1986
BAKI 2013

Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına
Tarix İnstitutu Elmi Şurasının qərarı ilə nəşr olunur

**Layihənin rəhbəri:**
**Y.M.Mahmudov**
Tarix elmləri doktoru, professor,
AMEA-nın müxbir üzvü,
əməkdar elm xadimi

---

**Müəlliflər:**

**İ.Bağırova**
Tarix üzrə elmlər doktoru

**Ş.Həmidova**
Tarix üzrə fəlsəfə doktoru

**S.Əliyeva**
Tarix üzrə fəlsəfə doktoru

**Ş.Rəhmanzadə**
Tarix üzrə fəlsəfə doktoru

**İ.Ağasıyev**
Tarix üzrə fəlsəfə doktoru

**R.İbrahimov**
Tarix üzrə fəlsəfə doktoru

**M.Qəribov**
Tarix üzrə fəlsəfə doktoru

**İ.Əliyeva**
Elmi işçi

**N.Əliyeva**
Elmi işçi

**M.Sadıxov**
Coğrafiya üzrə fəlsəfə doktoru

---

**Elmi redaktor:**
**İ.S.Bağırova**
Tarix elmləri doktoru

**Rəyçilər:**
**C.Ə.Bəhrəmov**
Tarix üzrə fəlsəfə doktoru
**H.N.Həsənov**
Tarix üzrə fəlsəfə doktoru

**Azərbaycan-Gürcüstan münasibətləri tarixi**
**(XVIII əsr – XXI əsrin əvvəlləri).**
Bakı, **“Şərq-Qərb”** Nəşriyyat Evi, 2013, 392 səh.

**ISBN** 978-9952-34-985-6

Monoqrafiyada XVIII əsrin ikinci yarısından XXI əsrin əvvəllərinə qədər Azərbaycan-Gürcüstan münasibətləri tarixinin bir sıra maraqlı məqamları araşdırılmışdır. Azərbaycanda xanlıqlar dövrü, XIX əsrdə Rusiyanın işğalından başlayaraq 1918-1920-ci illərin müstəqillik dövrünədək, sovet və postsovet zamanı iki xalq arasında inkişaf edən və heç də birmənalı olmayan siyasi, iqtisadi və mədəni əlaqələr monoqrafiyanın predmeti olmuşdur.

1986-cı ildən since 1986 BAKI 2013
www.eastwest.az
www.fb.com/eastwest.az

© AMEA Tarix İnstitutu, 2013
©“Şərq-Qərb” Nəşriyyat Evi, 2013

## MÜNDƏRİCAT

**Giriş** ........ 5

**I Fəsil. Azərbaycan-Gürcüstan münasibətləri XVIII əsrin ikinci yarısında** ........ 13

§1. XVIII əsrin ikinci yarısında Azərbaycan xanlıqları ........ 13
§2. XVIII əsrin ikinci yarısında Kartli-Kaxetiya çarlığı ........ 16
§3. Şəki xanlığının Kartli-Kaxetiya çarlığı ilə münasibətləri ........ 23
§4. Quba xanlığının Kartli-Kaxetiya çarlığı ilə münasibətləri ........ 29
§5. Qarabağ xanlığının Kartli-Kaxetiya çarlığı ilə münasibətləri ........ 36
§6. Gəncə xanlığının Kartli-Kaxetiya çarlığı ilə münasibətləri ........ 41

**II Fəsil. XVI əsrin son 30 ili - XIX əsrin ilk 30 ilində Azərbaycan-Gürcü münasibətlərində Şimali Qafqaz xalqları** ........ 54

§1. XVI əsrin son 30 ili – XIX əsrin əvvəllərində Qafqazın müsəlman xalqlarının öz müstəqilliyi uğrunda mübarizədə hərbi-siyasi ittifaqı ........ 54
§2. XIX əsrin ilk otuz ilində Qafqaz müsəlman xalqlarının Rusiyanın regionda mövcudluğuna qarşı hərbi-siyasi ittifaqı ........ 70

**III Fəsil. (XIX əsrdə) 1861-ci il islahatlarına qədərki Tiflis quberniyasında yaşayan azərbaycanlıların sosial-iqtisadi vəziyyəti** ........ 90

**IV Fəsil. Almanların Azərbaycan və Gürcüstanda məskunlaşması və onların yerli xalqlarla qarşılıqlı münasibətləri** ........ 98

**V Fəsil. XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycan və Gürcüstanda ictimai hərəkat və maarifçilik** ........ 124

**VI Fəsil. 1861-1913-cü illərdə Tiflis quberniyasında yaşayan azərbaycanlıların inzibati quruluşu və sosial-siyasi durumu** ........ 137

§1. Tiflis quberniyasının azərbaycanlılarının inzibati-ərazi quruluşu üzrə yeni tədbirlər ........ 137
§2. 1913-cü ilə qədərki sosial-iqtisadi və inzibati islahatların Tiflis quberniyasının Azərbaycan əhalisinə təsiri ........ 144

**VII Fəsil. XX əsrin əvvəllərində Azərbaycan-Gürcüstan ictimai-siyasi əlaqələri** ........ 163

**VIII Fəsil. Birinci Dünya müharibəsi dövründə Azərbaycan-Cürcüstan münasibətləri (1914-1917)** ... 193
**IX Fəsil. Müstəqillik dövründə Azərbaycan-Gürcüstan münasibətləri və Borçalı (1918-1920)** ... 202
**X Fəsil. Azərbaycan-Gürcüstan münasibətlərində ərazi məsələləri (Zaqatala mahalına gürcü iddiaları, 1918-1920)** ... 219
**XI Fəsil. 1920-ci ilin aprel 1921-ci ilin noyabrına qədərki dövrdə Azərbaycan-Gürcüstan münasibətləri tarixindən** ... 238
§1. 1920-ci ilin aprel çevrilişinin Cənubi Qafqazda siyasi vəziyyətə təsiri ... 239
§2. Azərbaycan-Gürcüstan münasibətləri: siyasi müttəfiqlikdən hərbi konfrontasiyaya dönüş ... 241
§3. Moskva və Ağstafa müqavilələri. Zaqatala mahalın siyasi mənsubluğu məsələsinin yenidən aktuallaşması ... 245
§4. Zaqatalada 1920-ci il iyun üsyanı. Üsyan rəhbərliyinin "Gürcüstana birləşmək haqqında saziş"ə imza atması və onun siyasi mahiyyəti ... 252
§5. 1920-ci ilin iyun üsyanından sonra Zaqatala mahalının siyasi və iqtisadi vəziyyəti ... 257
§6. Gürcüstanın sovetləşməsi və Zaqatala mahalının mənsubluğu haqqında məsələnin həll olunması ... 261
**XII Fəsil. Sovet dövründə Gürcüstanda azərbaycanlıların sosial-mədəni və iqtisadi durumu** ... 272
**XIII Fəsil. XX əsrin 90-cı illərində Azərbaycan Respublikası ilə Gürcüstan arasında münasibətlər** ... 281
**XIV Fəsil. Müasir dövrdə Azərbaycan-Gürcüstan əlaqələri** ... 321
**XV Fəsil. Sovet və postsovet dövründə Azərbaycan-Gürcüstan mədəni əlaqələri** ... 334
§1. Ədəbiyyat sahəsində əlaqələr ... 335
§2. Azərbaycan-Gürcüstan əlaqələrinin hər iki ölkənin təsviri incəsənətinə təsiri ... 338
§3. Kinematoqraf sahəsində Azərbaycan-Gürcüstan partnyorluğu ... 342
§4. Musiqi və balet sahəsində mədəni əlaqələr ... 350
§5. Cənubi Qafqazda cərəyan edən etnik konfliktlərin Azərbaycan və Gürcüstanın mədəniyyətinə təsiri ... 356
**Biblioqrafiya** ... 369

# GİRİŞ

Oxucuların nəzərinə təqdim olunan kollektiv əsər Azərbaycan-Gürcüstan münasibətlərinin son üç əsrlik tarixinə həsr olunmuşdur. Monoqrafiya geniş xronoloji çərçivəni – XVIII əsrin ikinci yarısından XXI əsrin əvvəllərinə qədər, yəni bu günümüzədək olan dövrü əhatə edir və AMEA Tarix İnstitutunun böyük elmi kollektivi tərəfindən yazılmışdır. Qeyd etmək lazımdır ki, bu mövzunun ayrı-ayrı aspektləri tarixçilər tərəfindən öyrənilsə də, bütövlüklə kompleks şəkildə və belə uzun müddətli dövr ərzində tədqiq olunmamışdır. Məlum olduğu kimi, sovet tarixşünaslığında Azərbaycan-Gürcüstan münasibətləri beynəlmiləlçi siyasət prizmasından nəzərdən keçirilmiş, xalqlar arasında sarsılmaz dostluğun nümunəsi kimi təqdim edilmişdi. Post-sovet dövründə isə keçmiş sovet respublikalarının əlaqələrinin qırıldığı bir şəraitdə əks tendensiya müşahidə olunmaqdadır; qonşu ölkələrin aralarında olan münasibətlər demək olar ki, tədqiqatçıların maraq dairəsindən kənarda qalmışdır. Son zamanlar tarixçilər yenə də həmin mövzuların araşdırmasına qayıdırlar, lakin tamamilə fərqli səviyyədə, ideoloji göstəriş və təzyiqlər olmadan. Bu baxımdan Tarix İnstitutunun Qafqaz tarixi şöbəsinin hazırladığı yeni monoqrafiya son dövrlərdə yaranmış boşluğu aradan qaldırmaqla yanaşı, tarix elminə bir sıra yeniliklər gətirir və öyrənilməmiş süjetləri qərəzsiz, obyektiv şəkildə araşdırmağa çalışır.

Məlum olduğu kimi, XVIII əsrin ikinci yarısında Cənubi Qafqazda nisbi müstəqilliyə malik Azərbaycan xanlıqları və Kartli-Kaxetiya çarlığı mövcud idi. Bu dövlətlərin arasında təşəkkül tapmış və müxtəlif sınaqlardan keçmiş qarşılıqlı əlaqələr heç də birmənalı olmamışdı; bu münasibətlər çərçivəsində müvəqqəti ittifaqlarlar da yaranırdı, zaman-zaman hərbi qarşıdurma səviyyəsinə gəlib çatmış ixtilaf və münaqişələr də meydana çıxırdı. Monoqrafiyanın həmin dövrə həsr olunmuş müvafiq fəslində müxtəlif xanlıqların və gürcü çarlarının mənafelərinin konyuktura mülahizələrinə görə vaxtaşırı üst-üstə düşməsindən və bu səbəbdən digər xanlara və dövlətlərə qarşı onların bəzən öz qüvvələrini birləşdirməsindən, habelə Azərbaycan və Gürcüstanın o dövrdəki dövlət qurumlarının daxili və xarici siyasi həyatının digər önəmli səhifələrindən bəhs olunmuşdur. Adı gedən münasibətlər kontekstində Azərbaycanın

Şəki, Qarabağ, Gəncə, Quba, İrəvan xanlıqları xüsusilə seçilirdilər. Hələ XVIII əsrin 50-ci illərində Şəki xanı Hacı Çələbi Kartli və Kaxetiya çarları II Teymuraz və II İrakli ilə şəraitdən asılı olaraq müxtəlif şəkildə diplomatik münasibətlər yaratmışdı. Lakin bu münasibətlər heç də qarşılıqlı dostluq əsasında qurulmamışdı. Kartli-Kaxetiya çarları Hacı Çələbi xanın simasında regionda özlərinin potensial rəqibini görürdülər. Cənubi Qafqazın mərkəzində hegemonluğu ələ keçirməkdən ötrü Hacı Çələbi xan Teymuraz və II İrakli ilə dəfələrlə üz-üzə gəlməli olmuş, hətta hərbi qarşıdurmaya çıxmışdı. Müharibələrdə üstünlük əsas etibarilə Şəki xanlığının tərəfində olsa da, 1755-ci ildən, yəni Hacı Çələbinin ölümündən sonra Şəki xanlığı ilə Kartli-Kaxetiya çarlıqları arasında siyasi münasibətlərində gərginlik müəyyən qədər səngimişdi. 1762-ci ildən birləşmiş Kartli-Kaxetiya çarlığının yeganə başçısı olmuş II İrakli əsas etibarilə dövləti daxildən möhkəmlətmək və çarlığı Türkiyə və İrandan qorumaq məqsədi ilə bəzi Azərbaycan xanları ilə ittifaqa girmişdi.

Məlum olduğu kimi, öz dövrünün görkəmli siyasi xadimi olan Qubalı Fətəli xan Azərbaycan torpaqlarını vahid dövlət şəklində birləşdirməyə çalışmış və bu işdə həm daxildən, həm də xaricdən şiddətli müqavimətlə rastlaşmışdı. Fətəli xana birləşdirici siyasətini həyata keçirməkdə maneə törədən feodal hakimlərindən biri də Kartli-Kaxetiya çarı II İrakli olmuşdu. Kartli və Kaxetiyanı birləşdirməklə qane olmayan II İrakli bəzi Azərbaycan xanlıqlarını da özünə tabe etmək iddiasına düşmüşdü. Fətəli xanla II İrakli arasında baş verən münaqişəyə də səbəb məhz elə bu idi. Fətəli xanın əleyhinə tək gürcü hökmdarları çıxış etmirdi. Quba xanının birləşdirici siyasəti Qarabağ və Şəki xanlıqlarının da əndişəsini doğurmuşdu ki, bu da həmin qurumların hərbi ittifaqına gətirib çıxarmışdı; yeri gəlmişkən, həmin ittifaqda II İrakli də iştirak edirdi. Fətəli xanla mübarizədə İrakli hətta Rusiya komandanlığı ilə əlaqə saxlamış, II Yekaterinaya Fətəli xana qarşı müttəfiqlik etməyə təklif etmişdi. Lakin Rusiya Cənubi Qafqazda heç bir xanlığın və ya çarlığın güclənməsini istəmədiyinə görə bü təklifi rədd etmişdi. Qarabağ xanlığı ilə İraklinin münasibətləri isə əksinə, daha yaxşı və səmimi olmuşdur ki, bunun da səbəbi qohumluq əlaqələri idi. Qarabağ xanı İbrahim Xəlil xan gürcü tavadlarından birinin qızı ilə evlənmiş və onun bu izdivacından Gövhər ağa və İzzət bəyim adlı qızları dünyaya gəlmişdi.

XVIII əsrin 80-90-cı illərində Quba, Gəncə, Qarabağ xanlıqları ilə Kartli-Kaxetiya çarlığı arasında gərgin siyasi münasibətlər, daxili şəraitdən və xarici amillərdən asılı olaraq bu münasibətlərin gah yaxşılaşması, gah da kəskinləşməsi kitabda öz əksini tapmışdır.

XIX əsrdə Şimali Azərbaycanın və Gürcüstanın əraziləri Rusiya imperiyasının tərkibinə daxil olandan sonra iki xalq arasında münasibətlər öz inkişafının keyfiyyətcə yeni mərhələsinə qədəm basdı. Bəhs edilən dövrdə Qafqaz xalqları arasında hərbi-siyasi əlaqələr mövcud olan tarixi vəziyyətlə şərtlənirdi və ilk növbədə Rusiyanın Qafqazda öz hökmranlığını bərqərar etmək siyasəti çərçivəsində baş verirdi. İnqilabdan əvvəlki Rusiya, daha sonra isə həmçinin Sovet tarixşünaslığında belə bir fikir formalaşmışdı ki, rus qoşunlarının Cənubi Qafqaza girməsi və onu qəti şəkildə işğal etməsi Gürcüstanın və digər ərazilərin dağlı xalqlarının yürüşlərindən qorumaq istəyi ilə şərtlənmişdi. Lakin monoqrafiyada bu tezis təkzib edilir. Gətirilən faktlarla sübut olunur ki, artıq XVIII əsrin sonu – XIX əsrin birinci rübündən başlayaraq dağlıların yürüşləri təsadüfi və spontan səciyyədən çıxaraq, məhz Şimali və Cənubi Qafqaz xalqları ilə, ələlxüsus azərbaycanlılarla birgə hərbi əməliyyatlar xarakeri kəsb etmişdi. Bu, faktiki olaraq Rusiyanın Qafqaza təcavüzünə qarşı hərbi ittifaqın yaranması demək idi. Gürcü əhalisinin bir qisminin, məsələn, Sığnaq və Telavi sakinlərinin Rusiya qoşunlarına müqavimət göstərmələrinə baxmayaraq, bütövlüklə Gürcüstan bu qarşıdurmada 1783-cü ildən başlayaraq Rusiyanın müttəfiqi kimi çıxış edirdi. Nəticədə, kitabda göstərildiyi kimi, Rusiya Quriyanın muxtariyyətinin ləğv edib, Car-Balakən, Abxaziya və Svanetiya üzrə nəzarəti ələ keçirmişdi. Müasir Dağıstan isə bütövlüklə Rusiyanın tərkibində Dağıstan vilayətinin sərhədlərinə sıxışdırılmışdı ki, bu da azərbaycanlıların böyük hissəsini həm torpaqlarından məhrum olması, həm də soydaşlarından didərgin salınması ilə nəticələnmişdi. İki rus-İran müharibəsinin yekunu olaraq isə Azərbaycan xanlıqları da Rusiya imperiyası tərəfindən işğal edilmişdi. Yeni inzibati-ərazi bölgüsü, yeni idarəetmə və vergilər sistemı regionun etno-siyasi xəritəsini kəskin surətdə dəyişmiş, digər etnosların müsəlman xalqlarının ərazisinə köçürülməsi isə sonuncuları təcrid olunmuş vəziyyətə salmışdı.

XIX və XX əsrin əvvəllərində Tiflis quberniyasında yaşayan azərbaycanlıların sosial-iqtisadi vəziyyəti də böyük maraq kəsb edir və monoqrafiyada demək olar ki, öyrənilməmiş bu mövzuya xüsusi yer ayrılmışdır. Cənubi Qafqazın Rusiya imperiyasının tərkibinə daxil olmasından sonra Azərbaycan torpaqları etnik və tarixi reallıqlarla uzlaşmayan yeni inzibati vahidlərin – quberniyaların və vilayətlərin arasında bölüşdürülmüşdür. Azərbaycanın tarixi ərazilərindən olan Borçalı torpaqları Tiflis quberniyasının tərkibinə qatılmışdı. Bununla da Borçalı

azərbaycanlıların tarixinin indiyə qədər davam edən mərhələsi başlanıldı. Soydaşlarımızın əksəriyyəti kənd ərazisində yaşayır, əkinçilik və maldarlıqla məşğul olurdu. Monoqrafiyanın bu mövzuya həsr olunmuş bölümündə onların sosial-iqtisadi vəziyyəti, təbəqələşməsi prosesi, ali zümrəyə məxsus olan bəylər və ağalarların hüquq və vəzifələri, azərbaycanlı zadəgan nəsillərin indiyə qədər məlum olmayan siyahıları, Rusiyada keçirilən islahatların onlara təsiri və s. məsələlər təfərrüatı ilə araşdırılmışdır. Çar Rusiyasının hakim dairələri çox yaxşı başa düşürdülər ki, Boraçalı azərbaycanlıları Osmanlı imperiyası ilə mübarizədə əlverişli müttəfiq ola bilməz; məhz bu səbəbdən azərbaycanlı əhali hər bir vasitə ilə Türkiyə ilə həmsərhəd ərazilərdən köçürülürdü. Misal üçün, Axalkələk qəzasının qərb hissəsi Türkiyə sərhəldərinə yaxın olduğundan buradan yerli əhali olan türk-müsəlman əhalisi köçürülür, onların əzəli torpaqlarında kütləvi şəkildə ermənilər yerləşdirilirdi. 1870-90-ci illərin inzibati-idarətmə islahatları zamanı 1880-ci ildə Tiflis qəzasının bir hissəsində əsas əhalisi azərbaycanlılar olan Borçalı qəzası təşkil edilmişdi. Ümumiyyətlə isə Cənubi Qafqazın xəritəsində Tiflis, Kutais, Bakı, Yelisavetpol, İrəvan quberniyaları, Dağıstan vilayəti, Zaqatala və Qara dəniz dairələri kimi inzibati vahidlər meydana gəlmişdi. Monoqrafiyada Tiflis və Kutais quberniyalarının bütün qəzalarında yaşamış azərbaycanlılıran sayı, sosial tərkibi və məşğulluq növləri ilə əlaqədar əhəmiyyətli faktlar gətirilmişdir.

XX əsrin əvvəllərində Rusiya imperiyasının sosial-iqtisadi və siyasi böhran dönəminə qədəm basdığı bir şəraitdə Tiflis quberniyasının azərbaycanlıları da çoxsaylı problemlərlə üzləşməli olmuşdular. Bu zaman çar hakimiyyətinin Qarayazı və Borçalı torpaqlarına digər etnosların nümayəndələrini daha fəal şəkildə məskunlaşdırması səbəbindən həmin ərazidə azərbaycanlıların sayı getdikcə azalırdı. Soydaşlarımızın bir hissəsi ağır iqtisadi vəziyyətə dözə bilməyib, iş tapmaq ümidi ilə Tiflisə, Bakıya və digər şəhərlərə üz tuturdular.

Həmin dövrün əlamətdar xüsusiyyətlərindən biri də milli-dirçəliş hərəkatının başlanması idi. Azərbaycan və gürcü ziyalıları millətin tərəqqipərvər arzu və diləklərini daha fəal şəkildə təmsil edirdilər. Bu zaman hər iki xalqın cəmiyyətlərində demək olar ki, oxşar proseslər cərəyan etməkdə idi. Maarifçilik hərəkatı və onun parlaq nümayəndələri həm Tiflisdə, həm də Bakıda ictimai-siyasi prosesləri müəyyən mənada öz fəaliyyətləri ilə şərtləndirmişdilər. Gürcü xalqının görkəmli xadimləri İ.Çavçavadze və A.Tseretelinin Tiflis şəhərində yaşayan azərbay-

canlı publisist və marifçiləri M.Şaxtaxtılı, C.Məmmədquluzadə, E.Sultanov, F.Köçərli, Terequlov qardaşları, S.M.Qənizadə ilə dostluq münasibətləri iki xalqın mədəniyyətlərinin zənginləşməsinə və milli özünüdərk hissinin yüksəlməsinə gətirib çıxarmışdı. Onların açdığı məktəblər, buraxdığı qəzetlər, yazdığı əsərlər XX əsrin birinci rübündə inkişaf edən milli-azadlıq hərəkatının əsaslarını qoymuş, hər iki millətin müstəqillik qazanmasında mühüm rol oynamışdı.

Bundan başqa monoqrafiyada XIX-XX əsrin əvvəllərində Cənubi Qayqazda yaşayan almanların Azərbaycan və gürcü xalqları ilə sosial-iqtisadi, siyasi və mədəni əlaqələri təhlil olunmuşdur. Müvafiq fəsildə göstərildiyi kimi, azərbaycanlılar və gürcülər almanlarla simbioz münasibətlərdə olmuş, iqtisadi, siyasi, mədəni məsələlərin həllində alman kolonistlərinə yardımçılıq etmişdilər.

XX əsrin əvvəllərində Azərbaycan-Gürcüstan ictimai-siyasi əlaqələri də dirçəliş dövrünü yaşayırdı. Sözügedən zaman kəsiyində Rusiyanın özündə demokratik-inqilabi proseslər başlanmışdı, cəmiyyətdə baş verən sosio-mədəni dəyişikləlår və yeni siyasi ab-hava Azərbaycan və gürcü xalqlarının milli şüurunun təşəkkülünü şərtləndirmişdi. Bu dövr inqilabi, sosial partlayışların, iqtisadi böhranın baş verdiyi, milli-azadlıq hərəkatların oyanışı dövrü idi. Bu hadisələr imperiyanın bütün ucqarlarında, o cümlədən Cənubi Qafqazda geniş əks-səda doğurmuşdu. Azərbaycanda və Gürcüstanda ilk demokratik respublikaların meydana gəlməsində böyük rolu olan siyasi partiyalar və təşkilatların təşəkkülü də bu dönəmə təsadüf edirdi. Kitabda iki xalqın ictimai-siyasi təşkilatları, ələlxüsus sosial-demokrat və sosial-federalist partiyaları arasında olan qarşılıqlı əlaqələr, onların proqlamlarının və fəaliyyətlərinin eyni istiqamətdə qurulması və bir-birinə təsiri məsələləri araşdırılmışdır. Rusiya imperiyasının süqutundan sonra Cənubi Qafqaz xalqlarının nümayəndələri əvvəl Müvəqqəti hökumətin regionda təmsilçisi olan Xüsusi Zaqafqaziya Komitəsinin (Ozakomun) tərkibinə daxil olmuş, oktyabr çevrilişindən sonra isə regionun ali hakimiyyət orqanı statusuna iddialı Zaqafqaziya Seymini təşkil etmişdilər. Təbii ki, bir dövlət qurumu çərçivəsində Azərbaycan və gürcü xalqlarının siyasi elitaları və müxtəlif təbəqələri arasında əlaqələr daha sıx olmuşdur. 1918-ci ilin mayında müstəqillik qazandıqdan sonra da Azərbaycan-Gürcüstan münasibətləri mahiyyətcə yeni inkişaf mərhələsinə qədəm basmış, bir sıra çətinliklərin mövcudluğuna baxmayaraq, iki ölkə beynəlxalq arenada müttəfiq kimi çıxış etmişdir.

Fəqət qarşılıqlı münasibətlər bir sıra problem və ixtilaflardan da xali deyildi. Bu keşməkeşli dövrdə Azərbaycan-Gürcüstan münasibətlərində müşahidə olunan müəyyən gərginlik özünü ilk növbədə ərazi məsələlərində büruzə verirdi. İki respublikanın sərhədlərində yerləşən Zaqatala mahalı 1918-1921-ci illərdə gürcü iddialarının hədəfinə çevrilmişdi və bu iddialar monoqrafiyanın müvafiq bölümlərində xüsusi olaraq tədqiq olunmuşdur. Bu vaxta qədər tarixçilərin yetərincə diqqət göstərmədiyi iki dövlət arasında mövcud mübahisəli sərhədyanı ərazi məsələləri (Borçalı, Zaqatala, Qarayazı, Sığnaq), onlar ətrafında gedən mübahisə və müzakirələr sözügedən fəsillərdə dərindən araşdırılmışdır. Gürcü tərəfinin müxtəlif sənədlərdə Zaqatala mahalını öz ərazisi kimi qələmə verməsinə baxmayaraq, mahal əhalisinin Gürcüstana birləşməyi qəti surətdə rədd etməsi gürcü siyasi dairələrini radikal addımlardan çəkinməsini şərtləndirmişdi. Gürcü və Azərbaycan xalqları arasında qanlı ixtilaf və ziddiyyətlərin olmaması da bu məsələdə öz rolunu oynamışdı.

1920-ci ilin aprelin 28-i ilə 1921-ci ilin martı arasındakı zaman kəsiyində Cənubi Qafqaz tədricən formalaşmaqda olan yeni sovet sisteminə daxil edilmişdi. Yeni sosial-siyasi şərtlər daxilində Azərbaycan-Gürcüstan qarşılıqlı münasibətləri, o cümlədən mövcud ərazi mübahisələri də məzmunca yeni mərhələyə qədəm qoydu. Monoqrafiyada xüsusi olaraq qeyd edilmişdir ki, Azərbaycanda 28 aprel hadisələrindən sonra iki ölkənin siyasi oriyentasiyası müxtəlif istiqamətlərdə inkişaf edirdi. Rusiya bolşevikləri imperiyanın yeni hakim strukturu olaraq vahid siyasi və ideya təməli üzərində burada yaşayan etnosları inteqrasiya etməyə çalışırdılar. Bu isə etnoərazi münaqişələrinin, o cümlədən Gürcüstan və Azərbaycan arasında mövcud ərazi mübahisələrinin tezliklə yoluna qoyulmasını obyektiv olaraq şərtləndirirmişdi. Məhz bu səbəbdən Sovet hakimiyyəti, Zaqatala əhalisinin rəyini əsas götürərək, ərazinin Azərbaycanın inzibati sərhədləri daxilində saxlanılmasını dəstəklədi ki, bu məsələ monoqrafiyanın müvafiq bölümündə bütün təfərrüatı ilə, yeni sənədlər əsasında işıqlandırılmışdır.

Sovet dövrünü əhatə edən hissədə yenə də çox az araşdırılmış mövzunun – Gürcüstanda yaşayan azərbaycanlıların sosial-mədəni həyat tərzi və iqtisadi durumunun tədqiqinə həsr olunmuşdur. Bölümdə göstərildiyi kimi, azərbaycanlıların kompakt yaşayan Marneuli, Bolnisi, Qarayazı, Başkeçid, Laqodexi, Saqareco, Telavi rayonlarının əhalisinin real gəliri respublikanın qeyri-azərbaycanlı əhalisinin real gəlirindən təxminən 2, 2,5 dəfə aşağı olmuşdur. Monoqrafiyada 30-80-ci illər ərzində

yerli hakimiyyət orqanlarının himayəsi ilə azərbaycanlıların qədim tarixi abidələrinin dağıdılmasından, yerli toponimlərin gürcüləşdirilməsindən və sair bu kimi neqativ məqamlardan xüsusi bəhs edilir. Belə vəziyyət azərbaycanlıların iqtisadi, mədəni və sosial həyat səviyyəsinin aşağı olmasını şərtləndirirdi və təəsüflər olsun ki, bugünümüzədək davam edir.

Azərbaycan-Gürcüstan münasibətlərinin SSRİ-nin süqutu və sonrakı illərdə inkişaf etməsi monoqrafiyanın bu dövrə həsr edilmiş hissəsində əksini tapmışdır. Bu dövrün xüsusiyyəti ondan ibarətdir ki, müstəqillik qazanmış hər iki ölkə oxşar sosial-iqtisadi problemlərlə üzləşmişdi. Bu problemlər sırasında ilk növbədə milli münaqişələr, etnik separatizmə məruz qalma, Rusiyanın və Qərb dövlətlərinin regionda rəqabəti, Gürcüstanda yarım milyondan çox azərbaycanlının üzləşdiyi çətinliklər və s. məsələləri göstərmək olar. Fəsildə qeyd edildiyi kimi, Azərbaycan Respublikası ilə Gürcüstan arasında diplomatik əlaqələr 1992-ci il noyabrın 18-dən qurulmuşdu. 1993-cü ilin fevralında Gürcüstanın dövlət başçısı Eduard Şevardnadzenin Bakıya ilk rəsmi səfərinin, həmin səfər çərçivəsində müxtəlif sənədlərin, xüsusilə də "Dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında" müqavilənin imzalanması ikitərəfli münasibətlərin hüquqi-normativ əsasını qoydu və SSRİ-nin dağılması ilə qırılmış iqtisadi əlaqələrin bərpasına zəmin yaratdı.

1993-cü ilin iyununda hakimiyyətə qayıtmış Heydər Əliyevin xarici siyasət sahəsindəki ilk addımlarından biri də məhz mövcud Azərbaycan-Gürcüstan münasibətlərinin inkişafını normal məcraya salması oldu. Fəsildə qeyd olunduğu kimi, 1993-1995-ci illəri əhatə edən birinci mərhələdə dövlətlərarası mınasibətlərdəki müəyyən gərginlik aradan qaldırıldı, ikitərəfli əməkdaşlığın inkişafı və genişləndirilməsi üçün zəmin hazırlandı, beynəlxalq və regional xarakterli məsələlər üzrə qarşılıqlı etimad və ümumi mövqelər əldə olundu. 1996-2000-ci illəri əhatə edən ikinci mərhələdə isə ikitərəfli münasibətlər yüksələn xətlə inkişaf edərək, strateji tərəfdaşlıq və iqtisadi əməkdaşlıq səviyyəsinə qalxdı və hal-hazırda da Prezidentlər İlham Əliyev və Mixail Saakaşvili tərəfindən inkişaf etdirilməkdədir.

Monoqrafiyanın xüsusi bölümü müasir dövrdə Azərbaycan-Gürcüstan əlaqələrinə həsr olunmuşdur. Son onillikdə iki ölkə arasında strateji əməkdaşlıq yüksələn xətlə inkişaf etməkdədir və bunun bariz nümunəsi nəhəng enerjı daşıyıcıları olan neft və qaz kəmərlərinin tikilməsi və istifadəyə verilməsidir. TRASEKA, Transxəzər qaz (Bakı-Tbilisi-Ərzurum) və Bakı-Tbilisi-Ceyhan əsas neft ixracı kəmərləri

həm Gürcüstanın, həm də Azərbaycanın iqtisadi inkişafı ilə bərabər təhlükəsizlik sistemlərinin də möhkəmləndirilməsi deməkdir. Qars-Axəlkələki-Tbilisi-Bakı (QATB) dəmir yolunun tikintisi layihəsi də Gürcüstan-Azərbaycan əlaqələrinin inkişafı baxımından olduqca önəmlidir. Hər iki ölkə dünya təsərrüfat əlaqələri sisteminə inteqrasiya yollarını axtarır və hətta öz silahlı qüvvələrinin NATO-ya cəlb edilməsini istisna etmirlər.

Azərbaycanı Gürcüstanla bağlayan təkcə səmimi qonşuluq münasibətləri və regional iqtisadi layihələr deyil, həmçinin təhsil və mədəniyyət sahəsində olan əməkdaşlıq əlaqələridir. Monoqrafiyanın sonuncu hissəsi məhz bu mövzuya, yəni ölkələrimiz arasında sovet və post-sovet dövründə mədəni əlaqələrin qurulmasına və inkişaf etməsinə həsr olunmuşdur. Bu bölümdə ədəbiyyat, təsviri incəsənət, kino, teatr, musiqi sahəsində ölkələrimiz arasında qarşılıqlı münasibətlərdən söhbət açılır, hər iki respublikanın rastlaşdığı etno-siyasi münaqişələrin bu əlaqələrə təsiri göstərilir.

Zəngin faktlara və mənbə bazasına əsaslanan və böyük tədqiqatçı əməyinin nəticəsi kimi nəzərinizə təqdim olunan monoqrafiya son illərdə inkişaf edən tarix elmimizə böyük töhfə kimi qiymətləndirilə bilər.

Monoqrafiyanın yazılmasında şöbə müdiri İ.Bağırova (elmi redaktor və V, VII fəsillərin müəllifi), şöbənin aparıcı elmi işçisi S.Əliyeva (II fəsil), baş elmi işçiləri Ş.Rəhmanzadə (X-XI fəsillər), İ.Ağasiyev (IV fəsil), elmi işçilər İ. Əliyeva (III, VI- IX fəsillər), N.Əliyeva (XV fəsil), M.Qəribov (XIV fəsil) iştirak etmişdilər. Monoqrafiyaya həmçinin “Azərbaycanın qonşu dövlətlərlə əlaqələr” şöbəsinin mərhum baş elmi işçisi Ş.Həmidovanın (I fəsil), “Azərbaycan diasporası” şöbəsinin b.e.i. M.Sadıxovun (XII fəsil) və Azərbaycan tarixi muzeyinin əməkdaşı R.İbrahimovun (XIII fəsil) mətnləri daxil edilmişdir.

Diqqətinizə təqdim olunan monolqrafiya AMEA-nın müxbir üzvü, Əməkdar Elm xadimi, Tarix institutunun direktoru, professor Yaqub Mahmudovun rəhbərliyi altında görülmüşdür və müəlliflər kollektivi ona bu işin başa çatdırılması və nəşr olunmasına görə öz dərin minnətdarlığını bildirir.

*Elmi redaktor, AMEA Tarix institutunun “Qafqaz tarixi”*
*şöbəsinin müdiri, tarix elmləri doktoru*
*İradə Bağırova*

# I FƏSİL

## AZƏRBAYCAN-GÜRCÜSTAN MÜNASİBƏTLƏRİ XVIII ƏSRİN İKİNCİ YARISINDA

### §1. XVIII əsrin ikinci yarısında Azərbaycan xanlıqları

XVIII əsrin ikinci yarısında Azərbaycan-Gürcüstan münasibətləri mövcud olan tarixi şərait çərçivəsində inkişaf etmişdir. Bu dövrdə mövcud olan tarixi şərait, xaricdən gələn təhlükələr Azərbaycan və gürcü xalqlarının arasında hərtərəfli əlaqələrin möhkəmlənməsinə səbəb olmuşdur. Sənədlər göstərir ki, şəraitdən asılı olaraq bəzi hakim təbəqələr öz işləri xatirinə bü və ya digər xalqın nümayəndəsinə nəinki rəğbət bəsləməklə əvəz etmiş, hətta onlara sarayda yüksək rütbələr də vermişlər. Məsələn, Kartli-Kaxetiya dövləti çətinliyə düşdükdə, xüsusilə müsəlman dövlətlərindən təhlükə gözlədikdə, II İrakli onlarla sülh yaratmaq üçün diplomatik nümayəndə kimi azərbaycanlılardan istifadə etmişdir. II İrakli azərbaycanlılara eyni zamanda hərbi əməliyyatlarda da etibar edirdi.

Məlum olduğu kimi, XVIII əsrin ikinci yarısında Azərbaycan feodal dövlətlər olan xanlıqlardan ibarət idi, ölkənin vahid siyasi və iqtisadi mərkəzi yox idi. Lakin bununla belə, böyük bir fasilədən sonra yenidən istiqlaliyyət əldə etmiş qədim Azərbaycan torpağında həmin dövrdə məhsuldar qüvvələrin inkişafı üçün müəyyən qədər zəmin yarandı, Qarabağ, Quba, Şəki, Gəncə və s. xanlıqlarda nisbi təsərrüfat yüksəlişi özünü göstərdi. Azərbaycanın iqtisadi inkişafını ləngidən ciddi siyasi hadisələr, feodal qarşıdurması, daxili dövlət çevrilişləri və s. hadisələrlə dolu idi.

Azərbaycan xanlıqlarının siyasi tarixini zənginləşdirən amillərdən biri də onun gürcü xalqı ilə qarşılıqlı əlaqələri olmuşdur. O dövrdə mövcud olan Kartli-Kaxetiya çarlığı ilə ən çox tamasda olan Qarabağ xanlığı idi. Həmin xanlığın banisi Pənah Əli xan

müəyyən müddət qardaşı ilə birlikdə Nadir şahın sərkərdələrindən biri olmuşdur. Lakin qardaşı şah tərəfindən edam olunduqdan sonra Pənah Əli xan Nadir şahın sarayını tərk edərək Qarabağa qayıdıb, yarımköçəri həyat tərzi keçirən Cavanşir tayfasına arxalanaraq tezliklə öz mövqeini möhkəmdətmişdir. Nadir şahın ölümündən sonra o, rəsmi olaraq Qarabağ əyalətini xanlıq, özünü isə xan elan etdi. Pənah Əli xan Gəncə və Ərdəbil xanlıqlarında öz tərəfdarlarının hakimiyyət başına keçməsinə də nail ola bilmişdir. Pənah Əli xanın varisi, İbrahim xanın hakimiyyəti dövründə (1762-1808) Qarabağ xanlığı Azərbaycanın siyasi həyatında daha əhəmiyyətli rol oynamışdır. Bu dövrdə Qarabağ xanlığı Naxçıvan və Gəncə xanlıqlarının işinə müdaxilə etmiş, Qubalı Fətəli xanla qanlı müharibələr edərək, Kartli-Kaxetiya çarı II İrakli ilə əsasən yaxşı münasibətdə olmuş, nigah diplomatiya vasitəsi ilə avar xanı Ümmə xanla qohumluq əlaqəsi saxlayaraq, lazım gələndə, onun qoşunlarından da istifadə etmişdir.

XVI əsrin birinci yarısından XVIII əsrin əvvəllərinə qədər mövcud olan Qarabağ bəylərbəyliyi üzərində kök atıb inkişaf edən Gəncə xanlığı da XIX əsrin əvvəllərinə qədər davam etmişdir. Gəncə və yaxud Qarabağ bəylərbəyinin ilk bəylərbəylisi yerli Ziyadoğlular sülaləsinin nümayəndələri XVIII əsrin əvvəllərində də öz nüfuzlarını itirməmişdilər. Belə ki, 1736-cı ildə Muğan qurultayında Nadir Qulu xanın tacqoyma mərasimində bu sülalənin nümayəndəsi II Uğurlu xan Ziyad oğlu şahlıq üçün namizəd verilmiş Nadir Qulu xanın əleyhinə çıxmışdır.[1]

Lakin bir çox etiraza baxmayaraq, İran taxtını ələ keçirən Nadir şah düşmənlərinə, o cümlədən gəncəlilərə də divan tutdu. O, Gəncə-Qarabağ bəylərbəyliyinə daxil olan beş məlikliyi, habelə Mil-Qarabağ düzənliyini Ziyadoğluların əlindən aldı. Gəncə əyalətinin yerli əhalisinin çoxunu Xorasana sürgün etdi. Qazax, Şamxor və Şəmşəddili fərmanla Kartli çarı Teymurazın ixtiyarına verdi.[2]

XVIII əsrin ortalarında Əfşar sülaləsinin süquta uğraması ilə Azərbaycanın siyasi tarixində əmələ gələn dəyişikliklərlə əlaqədar olaraq Gəncə şəhərinin ətrafında xanlıq şəklində xırda feodal dövləti yarandı. Gəncə xanlığının ilk hakimi II Şahverdi xan

Ziyad oğlu olmuşdur. Şahverdi xan Nadir şahın yanında saxlanılan Ziyadoğlular sülaləsinin nümayəndələrindən biri idi.

1747-ci ildə Nadir şaha edilən sui-qəsddən sonra Şahverdi xan Azərbaycana qayıtmağı, doğma vətəndə ata-baba taxtını ələ keçirməyi qərara aldı. O, qısa bir müddətdə öz adamları ilə şimala doğru hərəkət edib, etibar etdiyi Kartli çarı II İraklinin yanına gəldi.

Tezliklə Şahverdi xan II İraklinin köməyi ilə Gəncədə yerləşdirilmiş İran qarnizonunu darmadağın edib, Gəncə əyalətinin müstəqil xanlıq, özünü isə kiçik dövlətdə mütləq hakim elan etdi. II İraklinin etdiyi köməyi müqabilində Şahverdi xan ona müəyyən müddət 10 min tümən qızıl pul boyun olmuşdu.[3]

Bu hadisədən sonra tədricən inkişaf edən müstəqil Gəncə xanlığı Azərbaycanın siyasi-ictimai həyatında mühüm rol oynadı.

Şahverdi xandan sonra onun yerinə oğlu Məhəmməd Həsən xan Gəncə xanlığının taxtına çıxdı. Məhəmməd Həsən xan (1760-1778) atasına nisbətən daha mübariz və uzaqgörən xanlardan olmuşdur. O, atasının II İrakliyə ildə verdiyi müəyyən miqdarda puldan imtina etdi.

Məhəmməd Həsən xan Gəncə xanlığının inkişafı naminə daha bir çox tədbirlər həyata keçirmək fikrində idi. Lakin o hakimiyyətə can atan doğma qardaşı Məhəmməd xan tərəfindən xaincəsinə zəhərlənib öldürüldü.

Taxt-tacından qorxan Məhəmməd xan hətta Gəncə taxtına varis ola biləcək bütün qohumlarının hamısını zəhərlədib öldürtdü. Söz yox ki, belə bir şəxs düşmənlərinə qarşı da amansız olmalı idi. O da II İrakliyə boyun əyməyib, ona xərac vermədi, hətta onunla müharibə də etdi. Lakin bu müharibə zamanı Məhəmməd xan II İraklinin müttəfiqi qarabağlı İbrahim xan tərəfindən əsir alınmış və kor edilmişdir.

1780-ci ildə kor edilib İbrahim xanın sarayında saxlanılan Məhəmməd xan 1785-ci ilin payızında sabiq müttəfiqlərin – Qarabağlı İbrahim xanın və Kartli-Kaxetiya çarı II İraklinin arasında gedən münaqişənin qurbanı olmuşdur.

1780-ci ildən 1785-ci ilə qədər Gəncə taxtında Həzrətqulu xan, Hacı bəy, nəhayət, tarixdə özünə məxsus yer tutan Cavad

xan Ziyad oğlu oturmuşlar. Cavad xanın hakimiyyəti dövrü xanlığın son illərinə təsadüf etmişdir. Onun hakimiyyət başında olduğu illər Gəncə xanlığının çiçəklənən dövrü idi. Bu zaman Gəncə xanlığı bir çox Azərbaycan xanları kimi Kartli-Kaxetiya çarı II İrakli ilə, habelə Rusiya dövləti ilə diplomatik münasibətlərdə olmuş, Gəncə əyalətindən vaxtı ilə təcrid edilən qədim Azərbaycan torpaqları uğrunda müharibələr aparmışdır.

## §2. XVIII əsrin ikinci yarısında Kartli-Kaxetiya çarlığı

1760-cı ildə Kartli çarı II Teymuraz Peterburqa getmişdir. Onun əsas məqsədi qonşu feodal dövlətlərin tez-tez Gürcüstan ərazisinə etdikləri hücumların qarşısının alınması üçün Rusiya dövlətindən pul və hərbi qüvvə almaq idi.

Lakin beynəlxalq vəziyyətlə əlaqədar olaraq, Türkiyə və İranla münasibətlərini pozmaq istəmədiklərinə görə Rusiyanın hakim dairələri o dövrdə Gürcüstana kömək etməkdən boyun qaçırdılar.[4]

XVIII əsrin 60-cı illərində İranda və Cənubi Qafqazda mühüm siyasi dəyişikliklər baş verdi. 1762-ci ildə II Teymurazın Peterburqda ölməsindən istifadə edən II İrakli Kartli və Kaxetiya çarlığını öz hakimiyyəti altında birləşdirdi. İranda isə hakimiyyət uğrunda gedən mübarizələr sona çatırdı. 1761-ci ildə Kərim xan Zənd öz rəqibləri üzərində qələbə çalaraq demək olar ki, İranın böyük bir hissəsini öz hakimiyyəti altına ala bildi. Kartli-Kaxetiya dövlətinin başçısı II İrakli Kərim xan Zəndi İran dövlətinin başçısı kimi rəsmi surətdə tanıdı. Kərim xan Zənd də öz növbəsində Kartli-Kaxetiyanı birləşmiş dövlət kimi tanıdı.

XVIII əsrin 60-cı illərində Kartli-Kaxetiya çarlığında mürtəce tavadların mübarizəsi və ölkədə hökm sürən feodal pərakəndəliyi bir çox xarici siyasət sahəsindəki məsələlərin həllinə mane olurdu. II İraklinin siyasəti əleyhinə çıxan gürcü tavadlarının xaricdən kömək almaq ümidləri tamamilə kəsilmişdi. Bir tərəfdən Kərim xan Zənd II İraklini tanımış və öz himayəsinə götürmüşdü, digər tərəfdən isə mühafizəkar tavadlar Rusiyanın köməyinə ümid etmirdilər. Bu zaman Osmanlı Türkiyəsi də

Şərqi Qafqazın işinə qarışmırdı. Qonşu Azərbaycan xalqı arasında Kartli-Kaxetiya dövlətinə dərindən kin bəsləyən hakim də yox idi. Belə bir şəraitdə rəqib tavadlar öz mübarizə üsullarını dəyişib sui-qəsdə əl atdılar. Sui-qəsdə VI Vaxtanqın kəbinsiz oğlu şahzadə Paata başçılıq edirdi. 1765-ci ildə II İrakliyə və onun ailəsinə qarşı hazırlanan sui-qəsdin üstü açıldı. Qəsdin başçısı şahzadə Paata, həmçinin onun əlaltıları olan Davud və Elizbar Takaişvililərin əmlakları müsadirə edilmək şərti ilə ölüm cəzasına məhkum olundular.

Kartli-Kaxetiyada baş vermiş sonrakı hadisələr Rusiya-Türkiyə müharibəsi (1768-1774) dövrünə təsadüf edir. XVIII əsrin birinci yarısında Qərbi Gürcüstanda baş vermiş feodal hərc-mərcliyi hələ də zəifləməmişdi. Burada tavad sistemi tam hökmran idi. Çarın əmlakı və qalaları bir çox tavadlar tərəfindən zəbt edilmişdi.

Ölkə daxilindəki ağır vəziyyət Türkiyənin maraqlarına cavab verirdi. Bu zaman Poti, Batumi, Sixis-Dairi, Süxumi və s. qalalar türklərin əlinə keçdi.

1752-ci ildə İmeretidə I Solomon hakimiyyət başına gəldi. Bu zaman İmereti tavadlarından Levan Abaşidze və Raca eristavisi Rostom ən qüdrətli knyazlarından sayılırdılar. Rostom I Solomonun atası Aleksandr ilə qatı düşmən idi. İmereti dövlətinin vəziyyəti son dərəcə ağır idi. Tavadlar çar torpaqlarının demək olar ki, böyük bir qismini çoxdan ələ keçirmişdilər. Onlarla mübarizə aparmaq I Solomonun qüvvəsindən kənar idi. Xırda feodallar qüvvətli feodalların təsiri altında idilər. Cəmiyyətin tərəqqipərvər nümayəndələri çar hakimiyyətini möhkəmləndirmək məqsədilə siyasi cəhətdən, Lixt-İmereti ərazisini Qara dənizə qədər birləşdirməyə çalışırdılar. Bu, həm ümumi düşmənə qarşı vahid cəbhə yaratmaq üçün əsas şərtlərdən biri idi, həm də Şərqi və Qərbi Gürcüstanın ümumi mənafeyinə uyğun gəlirdi. Ehtiyatlı siyasət yürüdən I Solomonun ətrafına tədricən xırda tavadlar toplaşmağa başladılar. Ölkəni parçalayan iri knyazlıqların çəkişmələrindən və narazılıqlarından bacarıqla istifadə edən I Solomon vaxtı ilə rəqabət apardığı Quriyalı Mamiya ilə barışdı.

1758-ci ildə İmereti və Kartli-Kaxetiya arasında hərbi ittifaq yarandı. Bu ittifaq 1770-ci ilə qədər davam etmişdir.[5]

1758-ci ildə İmereti qoşunları iki dəfə türklərlə vuruşmalı olmuşlar. Birinci vuruşda türklər, ikinci vuruşda isə gürcülər qələbə qazanmışlar. Qüvvətli rəqib üzərində qələbə çar hakimiyyətinin hörmətinin daha da artmasına və eləcə də Qərbi Gürcüstan torpaqlarının siyasi cəhətdən birləşməsinə səbəb oldu.

Bir çox vacib məsələləri həll etmək üçün Qərbi Gürcüstanın ali təbəqələrindən və ali ruhani nümayəndələrindən ibarət fövqəladə yığıncaq çağırıldı. Burada katalikos başda olmaqla ölkənin ali ruhaniləri, İmereti şahzadələri, tavadları, aznaurları Meqreli tavadları və b. iştirak edirdilər.[6]

Yığıncaqda həll olunan başlıca məsələ Qərbi Gürcüstanın birləşdirilməsi idi. Türkiyəyə qarşı mübarizə aparmaq üçün İmeretinin hakim dairələri Rusiyaya müraciət etməyi qərara aldılar. 1768-ci ildə Kutaisi mitropoliti Maksim səfir sifətilə Peterburqa göndərildi.[7] Bu zaman Rusiya-Türkiyə müharibəsi başlandı. İmereti nümayəndəsinin xahişinə cavab olaraq Rusiya dövləti xüsusi səlahiyyətlə Gürcüstana poruçik Xvalovu göndərdi. Ona tapşırılmışdı ki, gürcü çarlıqlarından Kartli-Kaxetiyanı və İmeretini Türkiyəyə qarşı müharibəyə qaldırılmasına nail olsun.[8]

Fikir mübadiləsi zamanı müəyyən oldu ki, həm İmereti, həm də Kartli-Kaxetiya çarlığı Türkiyəyə qarşı müharibəyə hazırdırlar. Lakin Rusiyadan pul və qoşun almadan bunu həyata keçirmək mümkün deyildi. Gürcüstanın Rusiya-Türkiyə müharibəsində iştirakının əhəmiyyətini nəzərə alaraq, Rusiya dövləti Qafqaza qoşun göndərməyi qərara aldı. 1768-ci ildə Rusiya Gürcüstana general Q.Totleben başda olmaqla 400-ə yaxın qoşun göndərdi. Lakin tezliklə Q.Totlebeni geri çağırmağa məcbur oldu. Onu əvəz edən Suxotin də Potini ala bilməyib geriyə döndü. Heç bir müvəffəqiyyətə nail ola bilməyən rus korpusu 1772-ci ildə geri çağırıldı. Buna baxmayaraq müharibə nəticəsində Türkiyənin mövqeyi Qara dənizdə v Qafqazda xeyli zəiflədi.

Bu savaşın nəticəsində imzalanan Küçük-Qaynarcıq müqaviləsinin 23-cü bəndi Gürcüstana həsr edilmişdi. Müqaviləyə görə Türkiyə müharibədə iştirak edən gürcülərə əfvi-ümumiyyə verə-

cəyinə boyun oldu. Eyni zamanda Türkiyə Qərbi Gürcüstanın ilhaq edilməsindən İmeretidən "vergi" şəklində aldığı oğlan və qızlardan də imtina edəcəyinə boyun oldu. Müharibə zamanı Kutaisi, Şoropani və Bağdadi rus-gürcü qoşunları tərəfindən tutulmasına baxmayaraq, Türkiyə burada öz hüquqlarını saxlamaqda davam edirdi.

1774-cü ildə Kartli-Kaxetiya çarlığında nizami ordu təşkil etmək məqsədilə təntənəli yığıncaq çağrıldı. Burada "moriqe" qoşun dəstəsi yaratmaq qərara alındı. Dağlarda yaşayan gürcülərdən, habelə Tuş, Pşavlı xevsurlardan başqa, əli silah tutan bütün kişiləri də bir ay müddətində ordu sıralarında qulluq etməli idilər.

"Moriqe" qoşunlarının başçısı II İraklinin oğlu Levan idi. İlk vaxtlar "moriqe" qoşununun tərkibində hər ay bir neçə min döyüşçü olurdu. Daimi qoşunun yaradılması tezliklə öz bəhrəsini verdi. Gürcüstan ərazisinə qonşu feodalların hücumunun arası kəsildi, dövlət daxilində dinc həyat başlandı.

"Moriqe" qoşun dəstələrinin yaranması dövlətin siyasi cəhətdən möhkəmlənməsinə gətirib çıxarırdı. Məhz elə buna görə də tavadlar bu dəstələrin dağılması üçün əllərindən gələni əsirgəmirdilər. Nəticədə "moriqe" qoşun dəstələri irticaçı tavadların faliyyəti nəticəsində xeyli zəiflədi. Bu, tavadların hakim dairəyə endirdikləri böyük zərbə idi.

XVIII əsrin 70-ci illərində Qərbi və Şərqi Gürcüstan çarlıqları arasında qarşılıqlı münasibətlər gərginləşdi. Kartli və İmereti feodalları qərblə şərq arasında 1773-cü ildə bağlanmış dostluq əldaqələrini pozmağa çalışırdılar. Tavadları Axalisixe paşası müdafiə edirdi. 1778-ci ildə hakimiyyət üstündə öz atasının əleyhinə çıxan Solomonun oğlu Aleksandr II İraklinin yanına pənah gətirdi. Öz növbəsində Solomon da II İraklinin əleyhdarları olan Ksan eristavisi Elizbar və İrandan İmeretiyə gələn şahzadə Aleksandr Bakaroviçi öz tərəfinə çəkdi. Solomonun məqsədi şahzadə Aleksandrı Kartli taxtına qoymaq idi.

Gürcüstanın belə bir ağır vəziyyətində Rusiyanın himayəsinə keçmək məsələsi yenidən ortaya atıldı. Rusiya dövlətinin nümayəndələri ilə II İrakli arasında danışıqlar başlandı. 1783-cü il

iyunun 24-də Georgiyevskidə (Şimali Qafqaz) Rusiya ilə Kartli-Kaxetiya çarlığı arasında dostluq müqaviləsi bağlandı. Həmin müqaviləyə əsasən Kartli-Kaxetiya çarlığı Rusiya dövlətinin himayəsini qəbul etdi. Kartli-Kaxetiya çarı taxta çıxmasından əvvəl Rusiya imperatoru tərəfindən təsdiq edilməli və ona and içməli idi.

Kartli-Kaxetiya çarı xarici dövlətlərlə müstəqil siyasi əlaqələrdə də olmamalı idi. Lazım gəldikdə isə o, bütün hərbi qüvvəsi ilə Rusiya tərəfinə keçməli idi. Rusiya dövləti də öz tərəfindən təntənəli surətdə söz vermişdi ki, Kartli-Kaxetiya dövlətini himayəsi altında saxlayacaq və həmişə onu müdafiə edəcəkdir. Ölkənin daxili işlərinin idarəsində isə II İrakliyə müəyyən müstəqillik verilmişdi.

Müqaviləyə bəzi xüsusi qeydlər də əlavə edildi. II İrakli İmereti çarı I Solomonla sülh şəraitində yaşamalı idi. Onların arasında münaqişə baş versə idi, münasibətləri bərpa etməkdə Rusiya bir münsif kimi çıxış etməli idi. Gürcüstanı xarici düşmənlərdən qorumaq və gürcü qoşunlarının müdafiə qüvvəsini artırmaq üçün II Yekaterina Gürcüstana iki batalyon qoşün göndərəcəyini də vəd etdi. Rusiya sərhəd rəisinə səlahiyyət verilmişdi ki, müharibə baş verdikdə ümumi düşmənə qarşı gürcülərlə birlikdə mübarizə aparsın.

Georgiyevskidə bağlanan müqaviləyə müvafiq olaraq 1783-cü ilin noyabrında rus qoşunları təntənəli surətdə Tiflisə daxil oldular. Həmin il noyabrın 23-də II İrakli Rusiya dövlətinə sadiq qalacağına and içdi.[9]

1787-ci ilin avqustunda Rusiya-Türkiyə müharibəsi başlandı. Georgiyevski müqaviləsinə əsasən Kartli-Kaxetiya çarlığı da Türkiyə ilə müharibə vəziyyətində oldu. Lakin daxili çəkişmələrlə əlaqədar olaraq müharibədə demək olar ki, iştirak edə bilmədi.

XVIII əsrin 90-cı illərində Şərqi Gürcüstanın daxili vəziyyəti xeyli ağırlaşmışdı. Ölkə daxilində mürtəce tavadlar yenidən baş qaldırdılar. Digər tərəfdən isə Gürcüstanı İran təcavüzü hədələyirdi. Tavadların irticası, şahzadələr arasındakı münaqişələr, "moriqe" qoşun dəstələrinin dağılması, satqınlıq və s. ölkənin dinc həyatını pozmuş, hakim siniflər arasına çaxnaşma salmışdı.

1791-1792-ci illərdə tavadları müdafiə edən İraklinin arvadı Darecan xanım və onun oğlanları çarı iki yeni qanun verməyə məcbur etdilər. Birinci qanuna görə taxt atadan oğula deyil, çar ailəsində ən yaşlı şəxsə keçməli idi.[10] II İrakli bu qanunu sonradan ləğv etdi.[11] Lakin ikinci qanun öz qüvvəsində qaldı. Həmin qanuna əsasən çar şahzadələrin hərəsinə 1000-dən artıq kəndli ailəsi verdi. Beləliklə, gərgin mübarizələr nəticəsində yaranmış çar malikanəsi tavadlardan daha mürtəce olan feodalların əlinə keçdi. Şahzadələr malikanələrdə özlərini müstəqil hakim kimi aparırdılar. Bundan sonra onlar tavad irticasının dayağına və başçılarına çevrildilər.

1792–ci ildə yenidən Şərqi və Qərbi Gürcüstanın birləşdirilməsi məsələsi ortaya atıldı. İmeretidə I Solomonun ölümündən sonra çarın qardaşı Arçilin oğlu kiçik yaşlı David II Solomon adı ilə hakimiyyət başına keçmək iddiasına düşdü. Bir neçə il ərzində hakimiyyət uğrunda feodallar arasında gərgin mübarizə getdi. Belə bir şəraitdə bir neçə İmeretili feodal II İrakliyə müraciət edərək İmeretini Kartli-Kaxetiya dövlətinə birləşdirməyi təklif etdi. Lakin bu münasibətlə II İraklinin sarayında çağırılan üç günlük yığıncaq nəticəsiz qaldı. Türkiyədən ehtiyat edən II İrakli birləşmə təklifinə tərəddüd edirdi.

Gürcüstanın hakim dairələri başda Solomon Leonidze və II İrakli olmaqla 1790-cı ildə Kartli-Kaxetiya ilə İmereti arasında müqavilə bağlanılmasına nail ola bildilər. Həmin müqavilədə ümumi düşmənə qarşı birgə mübarizə əsas yer tuturdu.[12] Müqavilənin ardınca müttəfiqlər 1793-cü ildə Rusiyaya müraciət edərək onları birlikdə öz himayəsi altına almağı xahiş etdilər.[13]

XVIII əsrin 90-cı illərində Gürcüstan İran şahının dağıdıcı hücumlarına məruz qaldı. İranda hakimiyyət uğrunda uzun illərdən bəri davam edən mübarizədən qalib çıxan Ağa Məhəmməd xan Qacar Kartli-Kaxetiyanın Rusiya ilə bağladığı müqavilənin ləğv olunmasını və Gürcüstan üzərində İran hakimiyyətinin bərpa olunmasını tələb etdi. Onun II İrakliyə göndərdiyi fərman hədə-qorxu ilə dolu idi.[14] İrakli hədə fərmanını alan kimi, Rusiya dövlətinin Qafqazdakı hərbi nümayəndəliyinə xəbər göndərib kömək istədi. Ağa Məhəmməd xan eyni ilə Azərbaycanın feodal hakimlərini də hədələmişdi.

1795-ci ilin yayında Ağa Məhəmməd xan Cənubi Qafqaza böyük bir qüvvə ilə hücuma başladı. Həmin ilin avqustunda İran qoşunları Şuşaya və İrəvana yaxınlaşdılar. Şuşadakı müvəfəqiyyətsizlikdən sonra İran qoşunları Tiflisə hərəkət etdilər.

Qeyd etmək lazımdır ki, rus sərhəd qoşunları rəisi general İ.B.Qudoviç gürcülərə əməli kömək etmək əvəzinə öz işini Peterburqla uzun-uzadı məktublaşma ilə məhdudlaşdırırdı. Gürcüstana kömək məqsədi ilə qoşun göndərilməsi haqqında sentyabrın 4-də verilən əmr oktyabrın 1-də yerinə yetirilmişdi.

1795-ci il sentyabrın 10-da Ağa Məhəmməd xan 35 min qoşunla Tiflisə yaxınlaşdı. II İrakli düşmənə qarşı yalnız 5 min qoşunla çıxa bildi. Bunlardan 3 minini II Solomon tərəfindən göndərilən qoşun hissəsi təşkil edirdi. Gürcü qoşunları sayca az olsa da, Qacarların ön dəstələrinə qalib gələ bildilər. Lakin bu zaman satqınlar II İrakli qoşunlarının azlığı barədə şaha məlumat verdilər. Bundan sonra Ağa Məhəmməd xan qəti hücuma keçdi. Krsanisidə, "Tiflis qapısı" adlanan yerdə baş verən döyüşdə gürcü qoşunlarının kəskin müqavimət göstərməsinə baxmayaraq, II İrakli hərbi Gürcüstan yolu ilə Mtiuletiyə tərəf çəkilməyə məcbur oldu. II Solomon isə öz qoşunları ilə İmeretiyə qayıtdı. Ağa Məhəmməd xan Tiflisə daxil oldu, şəhəri darmadağın edib yandırdı, yerli əhalini qismən qırıb, qismən də əsir aldı. Eyni zamanda İran sərbazları dəstə-dəstə bölünərək ölkəni qarət etmək üçün başqa şəhər və kəndlərə üz qoydular.[15] Ağa Məhəmməd xan Tiflisdə qaldığı müddətdə II İrakli ilə danışığa başladı. Ananuridə olan II İrakli vaxt əldə etmək üçün Ağa Məhəmməd xanla danışıqlarını uzadır və eyni zamanda danışıqlar barədə İ.V.Qudoviçə xəbər verirdi. Lakin Ağa Məhəmməd xan Gürcüstanda çox qalmadı. Sentyabrın axırında o, Azərbaycana çəkildi 1796-cı ilin qışını Muğanda keçirən Ağa Məhəmməd xan Xorasandan həyəcanlı xəbər aldığı üçün geriyə qayıtmağa məcbur oldu.

Nəhayət, 1795-ci dekabrında Rusiyadan Gürcüstana iki minlik qoşun göndərildi. 1796-cı ilin baharında isə V.Zubovun komandası altında 30 minlik rus qoşunu Dərbənddən keçərək Qubanı, Bakını, Salyanı, Şamaxını tutdu. Rus qoşunları Muğandan İran istiqamətində hərəkət etməyə hazırlaşdı.

Gürcüstanda əmin-amanlıq bərpa olmağa başladı, başqa yerlərdə gizlənənlər üzə çıxdılar.

1796-cı ilin noyabrında II Yekaterina vəfat etdi. Yeni imperator I Pavel yürüşü dayandırıb, rus qoşunlarını geriyə çağırdı. Bu zaman İranda Cənubi Qafqaza qarşı yeni hücum hazırlanırdı. Lakin Ağa Məhəmməd xana bir daha Gürcüstana gəlmək qismət olmadı. O, 1797-ci ildəki yürüşü zamanı Şuşada öldürüldü.

XVIII əsrin sonları Gürcüstan üçün ən ağır illər idi. 1798-ci ildə 80 yaşlı II İrakli vəfat etdi. Onu oğlu XII Georgi əvəz etdi. II İraklinin vəfatından sonra mürtəce knyazlar qüvvətləndilər. Sülalələr arasında gedən mübarizə kəskin şəkil alırdı. XII Georgiyə qarşı onun şahzadə qardaşları ciddi mübarizəyə başladılar. Onlardan biri kömək üçün İrana müraciət etdi. Başqaları isə Dağıstan feodallarına müraciət edərək onları Gürcüstana qoşun çəkməyə çağırdılar. Kəndlilər yenidən başqa yerlərə qaçmağa başladılar. Yaranmış ağır vəziyyətdə XII Georgi yenə də Rusiyaya müraciət etməli oldu. Sonrakı danışıqlar 1801-ci ildə Gürcüstanın gələcək iki əsir ərzində Rusiya dövlətinin tərkibinə daxil olması ilə nəticələndi.

## §3. Şəki xanlığının Kartli-Kaxetiya çarlığı ilə münasibətləri

Tarixi mənbələrdə gürcü tacirlərinin Şəkiyə, Şəki tacirlərinin isə tez-tez Gürcüstan topağına getmələri, orada alver etmələri və s. barədə az da olsa məlumat vardır.[16]

Şəki xanlığının banisi Hacı Çələbi xanlığı daxili cəhətdən möhkəmləndirdikdən sonra qısa bir müddətdə Qutqaşen və Ərəş sultanlığını özündən asılı vəziyyətə salmış, Car-Balakən camaatını isə Şəki xanlığına tabe etmişdir.[17]

Tədricən Azərbaycan tarixində özünə məxsus yer tutan Şəki xanlığı qonşu feodal dövlətləri ilə siyasi-iqtisadi əlaqələrdə olmuşdur.

XVIII əsrin 50-ci illərində Hacı Çələbi xan təkcə Azərbaycan xanları ilə deyil, eyni zamanda qonşu feodal dövlətləri, xüsusilə

Kartli və Kaxetiya çarları II Teymuraz və II İrakli ilə də şəraitdən asılı olaraq müxtəlif vaxtlarda, müxtəlif şəkildə diplomatik münasibətlərdə olmuşdur.

Gürcüstanın müasir tarixçilərindən G.Kikodze II Teymuraz və II Teymuraz və II İraklinin daha geniş tədbirlər həyata keçirmək istədikləri barədə məlumat verir. Onun yazdığına görə atasına nisbətən daha bacarıqlı olan II İrakli gürcü qoşunları ilə hətta İrana qədər gedib orada "qayda-qanun yaratmaq fikrində idi".[18] Öz xulyalarına çatmaqdan ötrü II İrakli İrana getməzdən əvvəl Azərbaycan və Dağıstan hakimlərinə kömək üçün müraciət etmişdir.[19] Lakin onun belə bir hərəkəti Azərbaycan xanlarının narazılığına səbəb olmuşdur və onlar II İraklinin onların köməyi ilə İran taxtına çıxmaq istədiyindən şübhələnərək Gürcüstana qoşun göndərməkdən imtina etmişdilər.

Kartli-Kaxetiya çarları Hacı Çələbi xanın simasında özlərinin potensial rəqibini görürdülər. II Teymuraz və II İrakli əmin idilər ki, onların qoşunları Şəki xanlığının ərazisinə daxil olduqda başqa Azərbaycan xanları da cənubdan, qərbdən və şərqdən Şəki xanlığına zərbə endirə bilərlər.

Azərbaycanın şimalında qüvvətlənməkdə davam edən şəkili Hacı Çələbi xanı II İrakli və II Teymurazın niyyətləri daha çox narahat etdiyindən onlara zərbə endirmək üçün təcili qoşun toplamağa başladı. Onun az bir vaxt içində topladığı səkkiz minlik qoşunun arasında şəkililərdən savayı şirvanlılar və hətta ermənilər də var idi.[20]

Hacı Çələbinin qoşun toplamasını eşidən II Teymuraz və II İrakli vaxt itirmədən böyük qoşun dəstəsi ilə Alazan çayını keçərək Şəki xanlığının ərazisinə daxil oldu. Maraqlıdır ki, gürcü çar qoşunlarının tərkibində qazaxlı və borçalılardan ibarət azərbaycanlı dəstələri də var idi. Bu fakt bir daha göstərir ki, Şəki xanı ilə gürcü çarları arasında olan münasibətlər milli zəmində qurulmamış, sırf hakimiyyət uğrunda rəqabət xarakteri daşıyırdı.

Şəki torpağında ilk vuruşda gürcü qoşunları şəkililərin öz dəstəsini geri çəkilməyə məcbur etdilər. Lakin bu, Hacı Çələbi xan tərəfindən qurulmuş tələ idi. Düşməni bir qədər də irəli buraxan

Hacı Çələbi xan qəfildən ona hücum etdi. Gözlənilməz zərbə II İrakli və II Teymurazın qoşunlarını o qədər çaşbaş saldı ki, onlar pərakəndə halda geri çəkilməyə məcbur oldular.[21] Həmin müharibədə şəkililər çoxlu dəvə, sursat, çadır və ərzaq əldə etdilər. Bu döyüşdə xanın özü başda olmaqla hücum edən süvari qoşunları düşməni darmadağın etdi. Kartli-Kaxetiya qoşunları 400 nəfərədək itki verdi. Onların bəziləri həlak olmuş, bəziləri əsir alınmış, bəziləri isə geriyə qaçarkən Alazan çayında boğulmuşdular.

Həmin məğlubiyyətdən sonra II Teymuraz və II İrakli Şəkiyə ikinci dəfə hücum edib, Hacı Çələbi xandan intiqam almaq üçün qüvvə topladılarsa da, həmin qüvvəni başqa istiqamətə yönəltməyə məcbur oldular. Məsələ burasındadır ki, 1752-ci ildə Gürcüstana cənub-qərbdən başda əfqanlı Azad xan olmaqla Urmiya hakimi Fətəli xan Əfşarın qoşunları hücum çəkmişdilər.[22] Məhz bu səbəbdən gürcü çarları topladıqları qoşunları istər-istəməz Əfşar və Əfqan qoşunlarına qarşı çevirməli oldular. Gürcü çarlarının bu növbəti hərbi əməliyyatı çoxlu bac xərac və girov verdiyinə baxmayaraq, uğurlu olmuşdur və II Teymuraz və II İrakli öz ölkələrini xarici qoşunlardan təmizləməyə nail oldular.[23] Bu hadisədən sonra gürcü çarları dövlətlərini möhkəmləndirməyi və müharibələrdə itirdikləri vəsaiti bərpa etməyi qərara aldılar.

Feodalizmdə məhsuldar qüvvələrin zəif inkişaf etdiyi bir dövrdə uğurlu müharibələrin özü də bir gəlir mənbəyi idi. Odur ki, II Teymuraz və II İrakli Şəki xanlığına nisbətən zəif və eyni zamanda qat-qat zəngin olan Gəncə xanlığını ələ keçirməyi qərara aldılar.[24] Lakin Hacı Çələbinin buna mane olmasından ehtiyat edən gürcü çarları Şəki xanı ilə ədavət aparan Azərbaycan xanları arasında özlərinə müttəfiqlər axtarmağa çalışırdılar. Gürcü çarları üçün bu işdə daha münasib müttəfiq Azərbaycanda ən qüdrətli xanlardan biri sayılan Qarabağ xanlığının hakimi Pənah Əli xan idi. Beləliklə, atasının göstərişi ilə II İrakli Pənah xanla danışığı girib, Hacı Çələbi xanın əleyhinə itifaq yaratmağa nail oldu.

Şəkili Hacı Çələbi xanın əleyhinə yaranan Kartli və Kaxetiya çarları arasındakı ittifaqa gəncəli Şahverdi xan, qarabağlı Pənah xan, qarabağlı Kazım xan, irəvanlı Hüseyn Əli xan, naxçıvanlı

Heydərqulu xan daxil idilər.[25] Müttəfiqlər müşavirə üçün Gəncəyə toplaşmağı qərara aldılar.[26] Azərbaycan torpağında I Teymurazı və onun oğlu II İraklini Şahverdi xan, Kazım xan və Pənah xan hədiyyələrlə qarşıladılar.[27] Lakin bu görüş heç də xanların gözlədiyi kimi nəticələnmədi.

I Teymuraz və II İrakli hədiyyələri aldıqdan sonra, xanlarla danışıqlar aparmaq üçün onlarla birlikdə əvvəlcədən qurulmuş çadıra daxil oldular. Bu zaman çadırı qəfildən çarların Gürcüstandan özləri ilə xəlvəti gətirdikləri gizli qonşu mühasirəyə aldı. I Teymuraz və II İrakli çadırdakı xaincəsinə Azərbaycan xanlarını əsir elan edib, onlarla birlikdə Gürcüstana yola düşdülər.[28] Çarlar xanları əsir edib, Gürcüstanda girov saxlamaqla xanlıqları özlərindən asılı vəziyyətə salmaq, xanlığın taxtına öz tərəfdarlarını oturtmaq və beləliklə də, ildə hər xanlıqdan istədiyi qədər bac almaq məqsədini güdürdülər.

Gürcü tarixçisi K.Kikodze isə bunu başqa şəkildə belə izah edir: "...İrakli və Teymuraz qarşılarına növbəti məsələ qoymuşdular. Hacı Çələbinin və onun müttəfiqlərin əl-ayağını bağlasınlar. Çarlar gürcü qoşunları ilə Gəncəyə gəldilər. Onlar Gəncə, Qarabağ və İrəvan xanlarının qoşunlarını öz qoşunları ilə birləşdirdilər. Lakin xanlar ikitirəli siyasət yürüdərək Hacı Çələbi ilə gizli danışıqlar aparmışlar. Gürcü çarları bundan xəbər tutmuş və onları əsir almışlar".[29]

Üç xanlığın qoşunlarının Gəncə şəhərinə gəlmələri və müharibə etmədən xanların əsir götürülməsi heç bir məntiqə uyğun gəlmir. Lakin G.Kikodzenin yazdığı "İrakli İranda qayda-qanun yaratmaq məqsədini güdürdü" və yaxud "İran taxtına çıxmaq istəyirdi"[30] cümlələri çarların belə hərəkətlərini xanların "xəyanəti deyil", onların özlərinin xudpəsənd və riyakar niyyətləri ilə izah edilməlidir.

Azərbaycan xanlarının əsirlikdən azad olmaları barədə digər gürcü mənbəyində yazılmışdır, gürcü çarları xanları əsir elan edən zaman qarabağlı Pənah xanın təkidi ilə oğlu İbrahim Xəlil xan imkan tapıb aradan çıxmış, vaxt itirmədən özünü Şəkiyə çatdırıb, əhvalatı Hacı Çələbiyə bildirmiş və xanların onun köməyinə ehtiyajları olduğunu söyləmişdir.[31] İbrahim Xəlil xanın

dediyinə görə, Hacı Çələbi onları əsirlikdən azad edərsə, onlar Şəki xanlığına tabe olacaqlarına söz vermişlər. Hacı Çələbi xan xanların ona qarşı toplaşdığını bilsə də, dərhal ordu toplayıb, o zaman Cənubi Qafqazda öz şücaəti ilə böyük hörmət qazanan Ağa Rza bəylə Gürcüstana yola düşür.[32] Hacı Çələbini belə bir addım atmağa vadar edən xanların verdikləri vəd yox, onun çarlarla olan sabiq ədavəti idi. Tiflisə üç-dörd kilometr qalmış şəkililər gürcü qoşunlarına çatdılar. Hacı Çələbi xanın qoşunlarının gözlənilmədən gəlmələri çarları karıxdırdı. Onlar döyüşə hazır olmadıqlarından müqavimət göstərə bilmədilər. Əsirləri tərk edib özlərini güclə qurtara bildilər. Bu, Hacı Çələbinin çarlar üzərində ikinci qələbəsi idi.[33] Beləliklə, Hacı Çələbinin əleyhinə çarlarla ittifaqa girən Azərbaycan xanları əsirlikdən azad oldular.

Mirzə Adıgözəl bəyin yazdığına görə, Hacı Çələbi xan xanları azad etdikdən sonra onlarla görüşməyi belə lazım bilmədi.[34] O, Gəncəyə gələrək oradan Gürcüstanın qonşuluğunda yerləşən Borçalı, Qazax və Şəmşəddildə yaşayan azərbaycanlılara nümayəndələr göndərərək onlardan Kartli-Kaxetiya çarlarına qarşı çıxmağı tələb etdi, əks təqdirdə isə onları müharibə ilə hədələdi.[35] Onlar Hacı Çələbi xanın təklifini qəbul edib, silahla çıxışa hazırlaşdılar. Qazax, Borçalı, Şəmşəddil, İrəvan və Gəncə xanlıqları Hacı Çələbi xanın qoşunu ilə birləşərək, Kartli çarlığı əleyhinə çıxdılar.[36]

Çarəsiz qalan II İrakli vəziyyətdən çıxmaq üçün vaxtı ilə Tiflisdə girov qalan Gəncə xanının əmisi Qoca xandan istifadə etmək fikrinə düşdü. Ondan Hacı Çələbi xanla danışıq aparmağı xahiş etdi. Qoca xan öz adından Hacı Çələbi xana aşağıdakı məzmunda məktub yazdı: "Əgər istəsən, səninlə Kartli-Kaxetiya çarlığı arasında sülh yarada bilərəm".[37]

Hacı Çələbi xan sülh danışıqları aparmaq üçün nümayəndələrin göndərilməsinə razılıq verdi. Gürcü nümayəndələri belə şərtlərin yerinə yetirilməsi barədə səlahiyyətləri olmadıqlarını bildirdikdə, onları Hacı Çələbi xanın əmri ilə zindana saldılar.

Nümaynədələrin həbs olunması xəbəri Gürcüstana çatdıqda II İrakli vaxt itirmədən böyük qoşun toplayıb Gəncə tərəfə yollandı. Lakin bu dəfə rəqiblər arasında vuruşma baş tutmadı.

Hacı Çələbi sayca çoxlu qoşuna malik olan II İrakli ilə döyüş meydanında toqquşmaqdansa, əsirləri azad etmək üçün qoşun toplamaq məqsədi ilə Şəkiyə yola düşməyi məsləhət bildi. Hacı Çələbi xan Şəki xanlığından lazımınca qoşun topladıqdan sonra gəncəli Şahverdi xan və naxçıvanlı Bəhman xanı da öz tərəfinə çəkib, birləşmiş qoşun hissələri ilə Gürcüstana hücum etmiş, lakin bu döyüşdə məğlub olmuşdur.

Başqa bir gürcü mənbəsində XVIII əsrin 50-ci illərində Hacı Çələbi xanla gürcü çarları arasında baş verən daha bir döyüşdən xəbər verilir. Həmin döyüşə Hacı Çələbi xan yox, onun oğlu Ağakişi başçılıq etmişdir. Düşmən qoşunları Kür çayının sahilində toqquşmuşlar. Bu döyüşdə Şəki qoşunlarından başqa Şamaxı və Gəncə xanlıqlarının əsgəri hissələri, habelə Dağıstandan gələn qoşunlar da iştirak etmişlər.[38] Lakin birləşmiş qoşunlara ümumi rəhbərlik pis təşkil edildiyindən baş verən döyüşdə gürcü qoşunları qələbə qazanmışlar. G.Kikodze Ağakişinin başçılıq etdiyi qoşunların Şəmşəddildə gürcü qoşunları ilə üzbəüz gəldiyini xəbər verir.[39] Lakin Şəki xanlığının tarixinə dair yazılmış xüsusi əsərlərdə Hacı Çələbi xanın çarlarla apardığı müharibədə məğlub olması göstərilmir.[40]

A.A.Bakıxanov isə göstərir ki, Ağakişi Gürcüstanın 24 kilometrliyində istehkam düzəldərək, Qazax və Borçalıda iki il qalmışdır.[41]

Qeyd etmək lazımdır ki, XVIII əsrin ortalarında Cənubi Qafqazın mərkəzində hegemonluğu əldə etməkdən ötrü Hacı Çələbi xan Teymuraz və II İrakli ilə dəfələrlə üz-üzə gəlməli olmuşdur. Müharibələrdə üstünlük əsas etibarilə Şəki xanlığının tərəfində olsa da, 1755-ci ildən, yəni Hacı Çələbinin ölümündən sonra Şəki xanlığı ilə Kartli-Kaxetiya çarlıqları arasında gərgin siyasi münasibətlər davam etməmişdir. Əsas səbəblərdən biri Osmanlı Türkiyəsinin daima Kartli-Kaxetiyanı hədələməsi idi. Daha sonralar birləşmiş Kartli-Kaxetiya çarlığının yeganə başçısı olmuş II İrakli əsas etibarilə dövləti daxildən möhkəmlətmək məqsədilə bir sıra mühüm tədbirlər həyata keçirmiş, öz çarlığını Türkiyə və İrandan qorumaq üçün bir sıra Azərbaycan xanları ilə ittifaqa girmişdir.

## §4. Quba xanlığının Kartli-Kaxetiya çarlığı ilə münasibətləri

XVIII əsrin 60-80-ci illərində Azərbaycan torpaqlarını vahid dövlət ətrafında birləşdirməyə çalışan Qubalı Fətəli xan dövrün ictimai-siyasi mühitindən doğan bir çox çətinliklərlə qarşılaşmalı olmuşdur. Bu barədə tarixi ədəbiyyatda kifayət qədər məlumat vardır.[42]

Quba xanlığı Gürcüstanla da heç də az əhəmiyyəti olmayan münasibətlərdə olmuşdur. Məhz Kartli-Kaxetiya çarı II İrakli Fətəli xana birləşdirici siyasətini həyata keçirməkdə maneə törədən feodal hakimlərindən biri olmuşdur.

Azərbaycanın vahid dövlət olmaması, ölkədə feodal pərakəndəliyinin mövcudluğu onun müstəqilliyinə xələl gətirə bilərdi. Ölkə bir neçə müstəqil xanlıqlardan ibarət idi. Bu xanlıqlar gec-tez özlərindən bir qədər qüvvətli dövlətin qurbanı ola bilərdilər. Bunu yaxşı dərk edən dövrünün görkəmli dövlət xadimlərindən olan Qubalı Fətəli xan Azərbaycan torpaqlarını birləşdirmək barədə çox səy göstərdi və müvəqqəti də olsa, öz arzusuna nail oldu.[43]

Orta əsrlərdə hakim feodalın varı birinci növbədə onun tabeliyində olan əhalinin sayı ilə ölçülürdü. Əhalinin çoxluğu vergi toplamaq obyektinin çox olması və gəlirin artması demək idi. Məhz buna görə də təkcə gürcü torpaqlarını birləşdirməklə qane olmayan II İrakli nisbətən zəif hesab etdiyi bəzi Azərbaycan xanlıqlarını da özünə tabe etmək iddiasına düşdü. Şimal-Şərqi Azərbaycanı birləşdirməyə çalışan Qubalı Fətəli xanla II İrakli arasında baş verən münaqişəyə də səbəb məhz elə bu idi.

Hakimiyyətinin ilk günlərindən Azərbaycan torpaqlarını vahid dövlət ətrafında birləşdirməyi qarşısına məqsəd qoyan Qubalı Fətəli xan arzusuna çatmaq üçün müxtəlif vasitələrdən istifadə edirdi. Düşmən zəif olduqda, o silaha əl atır, qüvvətli olduqda isə ya diplomatik yollara müraciət edir, yaxud da başqa hakimlərlə, müvəqqəti də olsa, ittifaqa girirdi.

Fətəli xan 1770-ci ildə Şəki xanlığına qarşı əməliyyata başlayarkən qarabağlı İbrahim xanla ittifaq yaratmaq təşəbbüsündə

oldu.[44] Belə hərəkət etməklə Fətəli xan əsasən iki məqsəd güdürdü. Birincisi, Qarabağ qoşunları hesabına öz hərbi qüvvəsini möhkəmlətmək, ikincisi isə İbrahim xanın köməyi ilə onun müttəfiqi Kartli-Kaxetiya çarı II İrakli ilə münasibətlərini müəyyən qədər yaxşılaşdırmaq idi.[45] Bu məqsədlə Fətəli xan yeznəsi Bakı xanı Hacı Məlik Məhəmmədi nümayəndə sifəti ilə Qarabağlı İbrahim xanın yanına göndərdi. İbrahim xan isə Fətəli xanın təklifini qəbul etməyib, Hacı Məlik Məhəmmədi zindana saldırdı.[46] Fətəli xanın məqsədinin həyata keçirməsi ilə öz müstəqilliyini itirməkdən ehtiyat edən İbrahim xan Quba xanlığına qarşı bağlanılan ittifaqın təşəbbüsçüsü oldu. II İrakli də Fətəli xan əleyhinə Qarabağ-Şəki ittifaqında iştirak edirdi.[47]

Kartli-Kaxetiya çarı II İraklinin Şimal-Şərqi Azərbaycan torpaqlarını birləşdirməyə çalışan Fətəli xanın əleyhinə bağlanılan ittifaqda iştirak etməsinin iqtisadi kökləri də var idi. Məsələ burasındadır ki, həm II İrakli, həm də Fətəli xan həmin dövrdə Rusiya dövləti ilə yaxınlaşmaq və bu yaxınlıqdan öz mənafeləri üçün istifadə etmək məqsədini güdürdü. Fətəli xan çalışırdı ki, Rusiyanın Şərq ölkələri ilə apardığı ticarət mərkəzini Şimal-Şərqi Azərbaycana tərəf çevirsin. II İrakli isə bunun əksinə, Rusiyanın ticarətini Trabzon vasitəsi ilə aparmaq və Tiflisi həmin ticarət yolunun düyün nöqtəsinə çevirmək fikrində idi.

Doğrudur, XVIII əsrin ikinci yarısında Kartli-Kaxetiya çarlığı Gəncə və daha sonra İrəvan xanlıqlarının özündən müəyyən dərəcədə asılı vəziyyətə salmışdı. Lakin Quba xanlığı ilə müharibə etmək o qədər də asan deyildi. Fətəli xanın şücaəti çoxlarına məlum idi. Fətəli xanın qoşunlarının sayı özünə tabe etdiyi xanlıqların qoşunlarının hesabına çoxalırdı. Kartli-Kaxetiya çarlığının hərbi qüvvəsi isə əsas etibarilə "moriqe" qoşunlarından ibarət idi.[48] Bu isə Quba xanlığı kimi dövlətlə mübarizədə qələbə çalmağa heç bir ümid vermirdi. II İraklinin özündən qat-qat güclü müttəfiqə ehtiyacı var idi. Bu məqsədlə də o, 1770-ci ildə Rusiyaya nümayəndə göndərib, Şimal-şərqi Azərbaycanı tutmağı təklif etdi. II İrakli Həştərxanda olan general de Medemə rus qoşunlarını Fətəli xanın mühüm iqamətgahı olan Dərbəndə, oradan isə Şamaxıya və Salyana çəkməyi məsləhət gördü.

II İrakli məktub vasitəsi ilə II Yekaterinanı inandırmağa çalışırdı ki, Rusiya Azərbaycanı zəbt edə bilər və bu işdə Kartli-Kaxetiya çarı Rusiya dövlətinə yaxından kömək edəcəkdir. Kartli-Kaxetiya çarı ümid edirdi ki, əgər onun bu təklifi qəbul olunsa, Rusiya Şimal-Şərqi Azərbaycanı zəbt etdikdən sonra onun müəyyən bir hissəsini İrakliyə verəcək.[49]

Azərbaycan xanlıqları ilə Rusiya arasında mövcud olan siyasi münasibətlərə yaxından bələd olan rus konsulu İ.Boqolyubov II İraklinin xudbin niyyətini duyduğu üçün ona hər cür vasitə ilə maneçilik törədirdi.[50] O, yaxşı başa düşürdü ki, II İraklinin tutduğu mövqe ilk növbədə Rusiya dövlətinin Cənubi Qafqazda həyata keçirmək istədiyi siyasətinə və mənafeyinə mənfi təsir göstərə bilər. Digər tərəfdən Rusiya Türkiyə ilə müharibə vəziyyətində (1768-1774) olduğu üçün Cənubi Qafqazda ən qüvvətli müsəlman dövləti olan Quba xanlığı ilə heç də münasibətlərini pozmaq fikrində deyildi.[51] Əks təqdirdə Qubalı Fətəli xan türklərin tərəfinə keçə bilərdi və yaxud türk qoşunlarını öz ərazisindən Rusiyanın cənub sərhəddinə keçməyə yol verə bilərdi. Fətəli xan bu barədə dəfələrlə türklərin təklifini rədd etmişdi.

Rusiya dövləti eyni zamanda Şərq ölkələri ilə əlaqə saxalamaqla da Fətəli xandan nüfuzlu bir hakim kimi istifadə edirdi. II İraklinin təklifinə şərik çıxmaq Fətəli xanın simasında sadiq bir müttəfiqi itirmək demək idi. Elə buna görə də II Yekaterina 1770-ci ildə xarici işlər kollegiyasına II İraklini təcavüzkar planlarından yayındırmağı və Fətəli xanla münasibətlərini yaxşılaşdırmaq üçün müəyyən tədbirlərin görülməsini təklif etdi. Bu o demək idi ki, Rusiya Cənubi Qafqaz çərçivəsində feodal hakimlərin heç birisinin qüvvətlənməsini istəmirdi. Əks təqdirdə çarizm müstəmləkəçilik planlarının həyata keçirilməsində çətinliklərə rast gələ bilərdi. Buna görə də Boqolyubov həmişə Fətəli xanı müdafiə etmiş və Kartli-Kaxetiya dövlətinin Quba xanlığına qarşı düşmənçilik niyyətlərini pozmuşdur. Məhz Rusiya dövlətinin işə qarışması sayəsində II İrakli həmişəlik olaraq Quba xanlığına qarşı mübarizə aparmaqdan imtina etdi. Lakin bu heç də o demək deyildi ki, II İrakli Fətəli xana qarşı mübarizəni dayandırmışdı, əksinə, yeri gəldikcə o dolayı yollarla da olsa, düşməninə

zərbələr endirirdi.[52] Öz növbəsində Fətəli xan da İraklidən heç də geridə qalmırdı.

1773-cü ildə Dağıstan, habelə Şəki və Şamaxı xanlıqlarının birləşmiş qüvvələri Şimal-Şərqi Azərbaycana hücum etdikləri zaman II İrakli Fətəli xanın əleyhinə qalxan feodal hakimlərə kömək məqsədi ilə çoxlu qoşun göndərdi. Həmin ildə Qızılyar qalasının komendantı polkovnik Ştender tərəfindən əhalinin ümumi vəziyyətini öyrənmək üçün Azərbaycana göndərilən dvoryan Andrey Filatov raportunda şahid olduğu hadisələrdən bəhs edərək yazırdı ki, II İrakli tərəfindən Dağıstan və Şirvan feodallarının köməyinə göndərilən qoşunların əksəriyyəti qazaxlılardan və borçalılıardan ibarət idi.[53]

II İrakli ölkənin daxili işləri ilə məşğul olduğu üçün təqribən iki il Quba xanlığı ilə maraqlanmadı. 1775-ci ildə isə II İrakli Fətəli xana qarşı Rusiyadan kömək istəmiş, lakin heç bir nəticə əldə etməmişdi. II Yekaterina general de Medemə tapşırmışdı ki, əgər İrakli ikinci dəfə belə xahişlə müraciət edərsə, ona bildirilsin ki, bu iş mümkün olmayacaqdır.[54]

II Yekaterinanın cavabı II İraklinin planlarını alt-üst etdi. Çariça nə Fətəli xanın qüvvətlənməsinə, nə də II İraklinin gəlib bu yerlərdə möhkəmlənməsinə razı ola bilməzdi. Çünki bu gələcəkdə özünə rəqib hazırlamaq demək idi.

Azərbaycan xanlarının əksəriyyəti İbrahim xanla II İraklinin siyasətindən haqlı olaraq narazı idilər. Onlar müttəfiqlərin niyyətini pozmaq məqsədi ilə arası kəsilmədən Fətəli xanın yanına nümayəndələrini göndərirdilər. Fətəli xan isə onlara bildirmişdi ki, II İraklini Azərbaycan xanlarına qarşı olan təşəbbüsündən uzaqlaşdırmaq üçün bir neçə dəfə cəhd edib məktub göndərmişdirsə də, heç bir müvəfəqiyyət əldə edilməmişdir. Fətəli xan müharibəyə də hazır olduğunu bildirmişdi.[55]

Digər tərəfdən, Quba xanı Kartli-Kaxetiya çarlığının Rusiyanın himayəsində olduğundan II İrakliyə qarşı açıq müharibəyə girişməkdən ehtiyat edirdi. Məhz buna görə də hərbi əməliyyata başlamazdan əvvəl o, Rusiya hökmdarı II Yekaterinaya müraciət edərək, ondan II İrakliyə təsir edib, Gəncədən öz nümayəndəsinin geri çağırılmasını xahiş etmişdi. Fətəli xan həmçinin Rusiya

dövlətinin köməyi ilə II İraklinin İrəvandan vergi almaqdan imtina etməsinə çalışırdı. Fətəli xanın Rusiya dövlətindən başlıca xahişi isə ondan ibarət idi ki, II İrakli Azərbaycan xanlarının birbinə olan münasibətlərinə qarışmasın, onların arasına nifaq və düşmənçilik salmasın.[56]

Fətəli xan əslində II İrakliyə qarşı heç bir təcavüzkarlıq niyyətində olmamışdır. O, hətta 1782-ci ildə Dağıstanın hakim feodallarından Ümmə xanın və Əli Sultan xanın Gürcüstana olan hücumunun qarşısının alınmasına nail olmuşdur.[57]

Məlumdur ki, II İraklidən əvvəl Kartli hökmdarı Bakar idi. Ümumi qaydaya görə, ondan sonra onun oğlu Aleksandr atasının taxt-tacına sahib olmalı idi. Lakin müxtəlif səbəblər üzündən hakimiyyət başına Aleksandr yox, II İrakli gəlmişdi. Ömür boyu Gürcüstanda hakimiyyəti ələ almaq arzusu ilə yaşayan Aleksandr Fətəli xanın II İrakli ilə düşmən münasibətini eşidib onun yanına gəlmişdi. Fətəli xan isə onu bu fikrindən daşındırmışdı. O, həmçinin Aleksandrın Dağıstan feodallarından Murtuz Əli xan, Əmir Həmzə xan, Ümmə və Əli Sultanla birləşib Gürcüstana qoşun çəkməsinin ciddi surətdə əleyhinə çıxmışdır.[58]

Fətəli xan Aleksandrın Qubaya gəlməsini II Yekaterinaya çatdırmış və onun xahişi ilə Aleksandrı Rusiyaya göndərmişdi.[59] Rus tarixçisi P.Q.Butkov bu hadisələrdən bəhs edərək yazmışdır: "II İraklinin xahişi ilə II Yekaterina Aleksandrı Fətəli xandan tələb etdi. İmperatriçə onun qarşısında iki məsələ qoymuşdu: ya xanlıq üzərində rus toplarının atəş açmalarına razı olmalı və yaxud da 500 qızıl çervonla Aleksandrı geri qaytarmalı idi".[60]

G.Kikodze bu məsələni belə şərh etmişdir ki, vaxtı ilə bəzi səbəblər üzündən Rusiyadan İrana qaçan şahzadə Aleksandrı Fətəli xan II İrakli əleyhinə müharibədə ondan istifadə etmək üçün Qubaya gətirmiş, sonra isə Rusiyadan ehtiyat edərək onu II Yekaterinanın təklifi ilə geriyə qaytarmışdır.[61]

Lakin arxiv sənədlərində Fətəli xanın dəvəti ilə Aleksandrın Qubaya gəlməsi barədə məlumat yoxdur. Əgər doğrudan da G.Kikodzenin qeyd etdiyi kimi olsa idi, Fətəli xan Aleksandrın əli ilə Kartli-Kaxetiya çarlığına hər halda zərər vura bilərdi. Əksinə, Fətəli xan belə bir əlverişli fürsətdən istifadə etməmişdir.

Fətəli xanın Aleksandra qarşı bu münasibətini onun qorxaqlığı ilə yox, bacarıqlı dövlət başçısına xas olan uzaqgörənliyi ilə izah etmək lazımdır.

1782-ci ildə II İrakli Fətəli xanı II Yekaterinanın nəzərindən salmaq məqsədilə onun Türkiyə sultanının Dədədgül və Xəlil Əfəndinin vasitəsi ilə göndərdiyi hədiyyələri qəbul etməsi və Rusiyaya qarşı qoşun toplaması haqqında raport yazmışdı.[62] Şübhəsiz, bu, böhtan idi. Rəsmi sənədlərdə bunu təkzib edən faktlar çoxdur.

II İraklinin iftiralarına dözməyən Fətəli xan nəyin bahasına olursa-olsun Qarabağ xanlığı Kartli-Kaxetiya ittifaqını pozmağı və düşmənə sarsıdıcı zərbə endirməyi qərara aldı.

1783-ci ildə Fətəli xan 13 min[63] qoşunla Qarabağın ərazisinə daxil oldu. Güclü müqavimətə rast gələn Quba qoşunları qarşılarına çıxan kəndləri talan edib, qarət etdiklərini götürüb Qubaya qayıtdılar.[64]

Fətəli xanın hücumundan təkcə qarabağlılar deyil, bu əraziyə gələn gürcü tacirləri də xeyli ziyan çəkmişdilər.[65] Qubalıların Qarabağa hücumunu eşidən II İrakli təcili olaraq İbrahim xana kömək məqsədi ilə çoxlu qoşun göndərdi. Lakin müharibə uzun çəkmədi. II İraklinin xahişi ilə Rusiya dövləti Fətəli xandan müharibəni dayandırmağı və geri çəkilməyi tələb etdi.[66] Həmin hadisələrdən sonra II İrakli Fətəli xana məktub yazmış, ona qarşı ədavət saxlamadığını bildirmişdir.

Fətəli xan da öz növbəsində 1783-cü ildə II İrakliyə yazdığı cavab məktubunda razılıq etmiş və onun Gəncəyə hücum etməsi barədə yayılmış şayiənin yalan olduğunu bildirmişdi. II İrakli P.S.Potyomkinə göndərdiyi məktubların birində Fətəli xanla münasibətlərinin düzəlməsi barədə yazmışdır.

Sülhə ehtiyacı olan Fətəli xan 1785-ci ildə P.S.Potyomkinə göndərdiyi məktubunda yazırdı ki, artıq o Qarabağdan uzaqlaşmış və Kartli-Kaxetiyaya hücum etməkdən əl çəkmişdir.[67]

1786-cı ilin dekabrında II İrakli Tiflis taciri S.Yevanqulovu P.S.Potyomkinin yanına göndərdi. Çox keçmədən P.S.Potyomkin Cənubi Qafqazda yaranan gərginliyi aradan qaldırmaq məqsədilə Fətəli xanla II İraklinin rəsmi barışması üçün əməli tədbir

gördü.[68] Elə bu zaman Gəncə xanlığı üstündə sabiq müttəfiqlər İbrahim xanla II İraklinin arası dəydi. Bu, Kartli-Kaxetiya çarlığı ilə Quba xanlığı başçılarının daha tez yaxınlaşması üçün zəmin yaratdı. II İrakli Fətəli xanla barışıb İbrahim xana qarşı birlikdə çıxmağı təklif etdi.[69]

1787-ci ildə müttəfiqlər məktub vasitəsilə məsləhətləşərək belə qərara gəldilər ki, II İrakli Gəncə tərəfə çoxlu qoşun gətirsin. Fətəli xan da qoşunlarını göndərəcəyinə söz verdi. Quba xanlığı ilə Kartli-Kaxetiya çarlığı arasındakı münasibətlərin yaxşılaşması gürcü hakim dairələrini daha çox sevindirdi. Çünki gürcülər Fətəli xanın Türkiyə ilə birləşib Gürcüstana hücum edə biləcəyindən çox ehtiyat edirdilər.[70]

Tezliklə II İrakli sərkərdə D.Batoniya və O.Amilaxvariyə müharibə üçün qoşun toplamağı əmr verdi. Onlar da naib H.Qogiyanın və M.Xıdırbekişvilinin köməyi ilə kifayət qədər döyüşçü qüvvəsi toplaya bildilər. II İrakli bu müharibədə Gəncəyə tam sahib olacağına əmin idi. II İrakli eyni zamanda oğlu Yulonun başçılığı ilə Qazaxdan da qoşun toplanılması üçün əmr verdi.[71] O, Gəncəni əsas etibari ilə Fətəli xanın qoşunlarının hesabına zəbt etmək istəyirdi.

Fətəli xan isə öz növbəsində Gəncə üstündə İbrahim xanla müharibə aparmaqda qeyri-fəal hərəkət edirdi. O, qəti addım atmazdan əvvəl Rusiya dövlətinin nümayəndələri ilə məsləhətləşmək məqsədi ilə general Təkəlliyə məktub yazdı.[72] Lakin Fətəli xan cavabı çox gözləməli oldu. Bu müddət ərzində isə Kartli-Kaxetiya dövlətinin qoşunları artıq Gəncə ətrafında idilər.[73]

Nəhayət, söz verdiyi üçün Fətəli xan 1787-ci il dekabrın əvvəllərində qoşunlarını müəyyən edilən yerə göndərdi.[74] Maraqlı burasıdır ki, Fətəli xan da bu könülsüz müharibəyə əsas qoşunlarını göndərməmişdi. Onun qoşunu əsas etibarilə ləzgilərdən ibarət olan muzdlu dəstələr idi. Fətəli xan tutduğu qoşunların hər birinə 10 manat pul verməyi vəd etmişdi. İbrahim xan alban məliklərindən, habelə qohumu avarlı Ümmə xandan kömək alıb, Kürün sahilində düşməni gözləyirdi.[75]

Silahlı toqquşma zamanı qarabağlılıar çoxlu tələfat verdilərsə də, müharibə nəticəsiz oldu. Sərt keçən qış və həddən artıq

yağan qar müharibənin aparılmasına mane oldu.[76] Bu hadisədən sonra Fətəli xan II İrakli ilə şəxsən görüşməyi məsləhət bildi. O, II İraklini qarşılamaq üçün əvvəlcə oğlunu Şamxordan Gəncəyə göndərdi.[77] [Sonra isə 1789-cu ildə Fətəli xanın dəvəti ilə II İrakli Şamxora gəldi. Burada Fətəli xandan başqa Gəncə və Şəki xanları da iştirak edirdilər.[78] Beləliklə, uzun illər rəqabət aparan iki dövlət başçısı görüşdü.

Həmin hadisələr Ağa Məhəmməd xanın İranda nüfuzunun gücləndiyi və Cənubi Qafqaz hakimlərini hədələdiyi bir dövrə təsadüf edirdi. Fətəli xan böyük ustalıqla II İraklini Azərbaycan xanlıqlarına hücum etmək fikrindən yayındırdı və bütün qüvvələri İran və Türkiyəyə qarşı çevriməyi təklif etdi. II İrakli Fətəli xanla razılaşmalı oldu.

Bu hadisədən sonra Quba xanlığı ilə Kartli-Kaxetiya çarlığı arasında gəliş-gediş çoxaldı. Hər iki dövlətin müharibədən çıxmasına və Kartli-Kaxetiya çarlığında iqtisadi vəziyyətin ağır olmasına baxmayaraq, II İrakli münasibətləri daha da yaxşılaşdırmaq xatirinə Tiflisə gələn qubalıların ərzaq və ümumiyyətlə, ehtiyacı olan hər bir şeylə təmin olunmaları barədə əmr verdi.

1789-cu ildə Fətəli xanın vəfatından sonra Quba xanlığı ilə Kartli-Kaxetiya çarlığı arasında olan diplomatik münasibətlər yenidən pozuldu. Fətəli xanın varislərindən olan oğlu Şeyxəli xan İranın tərəfdarı olduğu halda, II İrakli İran hökmdarı Ağa Məhəmməd xana açıq düşmən olduğunu bildirdi.

## §5. Qarabağ xanlığının Kartli-Kaxetiya çarlığı ilə münasibətləri

XVIII əsrin son rübündə Qarabağ xanlığını İrandan başqa həmin dövrdə xeyli möhkəmlənən Quba xanlığı da hədələyirdi. Qarabağ xanlığının hakimi İbrahim xan düşmənlərinə qarşı təklikdə ciddi müqavimət göstərə bilməyəcəyinə əmin olduğu üçün uzun müddət Quba xanlığı ilə rəqabət aparan Kartli-Kaxetiya çarı II İraklini ittifaqa çağırdı. 1780-ci ildə hər iki müttəfiq Qubalı Fətəli xanın Gəncə xanlığını tutacağından ehtiyat edib, bu xanlığı zəbt etdi.

Bu hadisədən sonra İbrahim xanla II İraklinin münasibətləri daha da yaxşılaşdı. Hər iki dövlət başçısı həm siyasi və həm də iqtisadi cəhətdən əlaqə saxlayaraq bir-birinə qarşılıqlı yardım edirdi.[79] 1783-cü ildə Qarabağda quraqlıq nəticəsində baş verən aclıq zamanı İbrahim xan II İrakliyə müraciət edərək ondan Qarabağa ərzaq buraxılmasını xahiş etmişdi.[80] Müttəfiqindən müsbət cavab alan İbrahim xan çörək, buğda və un almaq üçün öz adamlarını Gürcüstana göndərmişdi.

1783-cü ildə II İrakli İbrahim xana İranın, habelə başqa qonşu feodal dövlətlərin basqınlarından və həmçinin hədə-qorxusundan həmişəlik yaxa qurtarmaq məqsədilə daha qüvvətli Rusiya dövlətinin himayəsinə keçmək fikrində olduğunu bildirdikdə İbrahim xan bu fikri nəinki bəyənmiş, hətta Rusiya dövlətinin qarşısında Qarabağ xanlığı barədə də məsələ qaldırılmasını ondan xahiş etmişdir.

Həmin ildə Kartli-Kaxetiya çarlığı Georgiyevskidə bağlanan müqaviləyə əsasən Rusiya dövlətinin himayəsinə keçdikdən sonra II İrakli məktub vasitəsi ilə dəfələrlə İbrahim xanın xahişini P.S.Potyomkinə bildirmişdir. İbrahim xanın özü də bu barədə Rusiya dövlətinin nümayəndələrinə müraciət etmişdir.[81] II Yekaterina İbrahim xanın Rusiya dövlətinə olan meylini bəyənmiş, hətta P.S.Potyomkinə bu barədə tədbir görməsini tapşırmışdır.

Lakin Qarabağ xanlığı ilə Kartli-Kaxetiya çarlığı arasındakı normal münasibətlər daimi olmamışdır və feodalizm mühitinə xas olan şəxsi mənafe hissləri özünü büruzə vermişdir. Georgiyevsk müqaviləsindən bir qədər keçdikdən sonra İbrahim xanla II İrakli arasında bütün Cənubi Qafqazda zəngin ticarət mərkəzlərindən olan və gəlirindən şərikli istifadə etdikləri Gəncə xanlığı üstündə iğtişaş başlandı. İbrahim xanla II İrakli bir-birini Gəncədən müxtəlif yollarla sıxışdırıb çıxarmağa səy göstərməyə başladılar.

Qarabağ xanlığına nisbətən Gəncə xanlığı Kartli-Kaxetiya çarlığı üçün böyük əhəmiyyət kəsb edirdi. Əsas karvan yollarının düyüm nöqtəsində yerləşən Gəncə Gürcüstan üçün də böyük ticarət əhəmiyyətinə malik olan bir körpü idi.

Gəncəni ələ keçirməkdə İbrahim xan II İraklidən cəld tərpəndi. O, yerli əhali arasında II İrakli əleyhinə təbliğat apararaq onun Gəncədəki nümayəndəsinin qovulmasına nail oldu.[82] II İrakli də öz növbəsində Qarabağda İbrahim xanın əleyhinə qalxan məlikləri müdafiə edərək onlara vədlər verirdi. Rusiyadan gəlmiş bir nəfər ermənin gətirdiyi məxfi məktubun Qarabağ məlikləri arasında yayılmasında II İrakli böyük fəaliyyət göstərmişdi.[83] O, bəzi məliklərə öz yanında sığınacaq da vermişdi. İbrahim xan II İraklini inandırmağa çalışırdı ki, onun Gəncədəki nümayəndəsinin qovulmasından, II İrakli isə İbrahim xanı inandırmağa cəhd göstərirdi ki, onun məliklərin Qarabağ xanlığına qarşı çıxmaları haqqında heç bir xəbəri yoxdur. Lakin hər iki feodal hakim diplomatik mübarizədən əl çəkməyərək bir-birinin əleyhinə tədbirlər hazırlayırdılar. İbrahim xan II İraklinin Qarabağ xanlığına, məliklərin isə Rusiyaya olan münasibətlərini dəqiq öyrənmək üçün məlik Abo və məlik Məcnunu yanına çağıraraq onlardan maraqlandığı məsələləri soruşmuşdur. Hər iki məlik İbrahim xana söz vermişdir ki, Tiflisə gedib məsələnin nə yerdə olduğunu şəxsən öyrənsinlər. Lakin onlar ailələri ilə Tiflisə gedib, bir daha oradan qayıtmamışlar.[84] Əksinə, onlar II İraklidən Qarabağ məliklərinə kömək etmək üçün qoşun göndərilməsini xahiş etmişlər. II İrakli Qarabağda İbrahim xana qarşı məliklər arasında yaranmış düşmənçilik əhvali-ruhiyyədən istifadə edərək Darecan xanımın böyük oğlu Yulonu süvari dəstəsi ilə onların köməyinə göndərmişdir. İbrahim xan gürcü qoşunlarına qarşı müharibəyə əmisi oğlu Qazı bəyin başçılığı altında qoşun göndərmişdir. Vuruşmada Qazı bəy məğlub olmuş və 300 nəfər itirmişdir. Gürcü qoşunları qənimət və əsirlərlə geri qayıtmışdılar.[85]

XVIII əsrin son rübündə Türkiyə Cənubi Qafqazda baş verən feodal aravuruşmalarından istifadə edib buradan Rusiyanın əleyhinə çıxmaq məqsədi ilə hazırlıq görməyi qərara aldı. Türkiyənin vəkilləri Dədəgül Əfəndi və Xəlil Əfəndi Azərbaycana gələrək xanlar arasında Türkiyə sultanının məktublarını yaymağa başladılar. Həmfikir çıxanlara müəyyən miqdarda qızıl, rusların Qafqaz dağlarından keçib gəldiyi yolu dağıtmaq üçün isə hətta xəzinə ayrıldığı bildirilirdi.[86]

Tarixi sənədlərdən aydın olur ki, ilk çağlarda İbrahim xan Rusiya və Gürcüstan əleyhinə çıxan Türkiyə paşasının məktubuna müsbət münasibət bəsləmişdir.[87] Lakin hadisələrin sonrakı gedişi göstərir ki, İbrahim xanın bu hadisəyə qarşı olan münasibəti müvəqqəti, həm də şəxsi hisslərlə əlaqədar olmuş və əsasən II İrakliyə qarşı ədavətdən doğmuşdur.

Lakin İbrahim xanla II İraklinin rəqabəti çox çəkmədi. Onlar yenidən əlaqələrini bərpa etməyə məcbur oldular. Əvvəla ona görə ki, 1789-cu ildə vəfat etmiş Qubalı Fətəli xanın simasında İbrahim xan özünün Azərbaycanda ən güclü rəqibini, II İrakli isə müttəfiqini itirdilər. İkincisi və ən başlıcası, 1790-cı ilin əvvəllərində İranda hakimiyyəti ələ almış Ağa Məhəmməd xandan gələn təhlükə idi.

Qacar sülaləsinin banisi Ağa Məhəmməd xan 1795-ci ildə bütün Azərbaycan xanlarına, habelə Kartli-Kaxetiya çarına fərmanlar göndərib onlardan tabeçiliyi tələb etmişdi. Ağa Məhəmməd xan şəxsən İbrahim xandan böyük oğlu Məhəmməd Həsən ağanı girov almaq üçün 12 nəfər nümayəndə göndərmişdi. Lakin İbrahim xan əmri rədd edərək ona silahla cavab verəcəyini bildirdi. Ağa Məhəmməd xanın fərmanına II İrakli də rədd cavabı verdi. Beləliklə, İbrahim xanın ümumi təhlükəyə qarşı vahid cəbhə yaratmaq məqsədi II İrakli ilə ittifaqını bərpa etdi. Bu ittifaqa eyni dərəcədə Kartli-Kaxetiya çarlığının da böyük ehtiyacı var idi. Hər iki dövlət başçısı bir-birinə sadiq qalacaqlarına and içdi.[88]

Ağa Məhəmməd xanın Cənubi Qafqaza yürüşə hazırlaşmasından xəbər tutan II İrakli 1795-ci ilin iyununda İbrahim xana müdafiə qüdrətini möhkəmləndirmək məqsədi ilə 120 min manat məbləğində pul göndərdi və zəruri olduqda qoşun da göndərəcəyinə söz verdi.[89]

Ağa Məhəmməd xanın qoşunlarının Cənubi Qafqaza tərəf hərəkət etmələri xəbərini eşidən İbrahim xan Şuşa qalasından kənarda yerləşən məşhur cins Qarabağ at ilxılarını düşmən əlinə keçməsindən ehtiyat edib Gürcüstana köçürdü.[90] Mirzə Adıgözəl bəy qarabağlıların Gürcüstan torpağında hörmətlə qarşılandığını qeyd edir.[91]

Ağa Məhəmməd xanın qoşunlarının kiçik Qafqaz silsilə dağlarının ətəklərində Gürcüstandan şahzadə Aleksandrın, Qarabağ məliki Şahnəzərin və İbrahim xanın birləşmiş qoşunlarının ciddi müqavimətinə rast gəlmişlər. Şuşa qalası mühasirədə olduğu günlərdə də qarabağlılar qəhrəmancasına müqavimət göstərmiş və düşmənə sarsıdcı zərbələr endirmişlər.

Nəhayət, 36 günlük uğursuz mühasirədən sonra Ağa Məhəmməd xan Şuşanı arxada buraxıb Gəncə yolu ilə Cavad xanın müşaiyyəti ilə Tiflisə tərəf hərəkət etdi. 1795-ci il sentyabrın 12-də Qacarlar qoşunu Tiflisə daxil oldu və şəhəri darmadağın etdi.[92] II İraklinin arvadı Darecan xanım şəhəri tərk edib çətin yollarla Tuşetə getməli oldu. Maraqlı dəlillərdən biri odur ki, Daecan xanımı Yadigarovlar ailəsindən olan azərbaycanlı qadınların dəstəsi müşayiət etmişdir.[93]

Ağa Məhəmməd xan TİflisdƏ uzun müddət qala bilmədi. O, İran daxilində baş vermiş bir sıra hadisələr və eləcə də Rusiyanın Cənubi Qafqaza göndərəcəyi qoşunlarla üz-üzə gəlməkdən ehtiyat edərək, çoxlu qənimət və əsirlə geriyə döndü. Gəncədə qısa müddət qalan Ağa Məhəmməd xan 1795-ci il sentyabrın 17-də II İrakliyə sülh müqaviləsi bağlamağı təklif etdi.

II İrakli Ağa Məhəmməd xanla müharibə aparmaq iqtidarında deyildi. Ona görə də sülh bağlamağı məsləhət bildi. Ağa Məhəmməd xanın Soğanlıqda yerləşən düşərgəsinə Keyxosrov Avalişvilini göndərdlilər lakin sülh baş tutmadı. Çünki tərəflərin bir-birinə inamı yox idi. Bundan başqa qəncəli Cavad xan da bu işə mane oldu. Çunki bilirdi ki, İranla Gürcüstan arasında sülh bağlanarsa, bu onun üçün böyük təhlükə yaradar.

Azərbaycan xanlarının əksəriyyətini özünə tabe edə bilməyən Ağa Məhəmməd xan 1797-ci ildə böyük bir qüvvə ilə Cənubi Qafqaza yenidən hücum etdi. O, bu dəfə Rusiya ilə əlaqələrinə görə bir çox xanlara qarşı vuruşmağı da qarşısına məqsəd qoymuşdu.

İbrahim xan Ağa Məhəmməd xanın ikinci hücumunun planları barədə II İrakliyə çapar vasitəsi ilə xəbər göndərdi.[94] Lakin bu dəfə Şuşa qalasında İbrahim xana xəyanət edildi. O, yaxınlaşan düşmənlə vuruşmaq üçün qaladan çıxdı, döyüşdən sonra isə

Şuşa qalasına qayıda bilmədi. Çünki xainlər qala darvazalarını bağlamışdılar. Məhz buna görə də o sağ qalan dəstəsi ilə Şuşadan uzaqlaşmalı oldu. İbrahim xan Car tərəfə çəkildi.

Beləliklə, Ağa Məhəmməd xanın qoşunları asanlıqla Şuşa qalasına daxil oldular. Lakin Ağa Məhəmməd xan öz təcavüzkar planlarını həyata keçirə bilmədi. O, öz gözətçiləri tərəfindən öldürüldü. Onun başı Cara gətirildikdən sonra İbrahim xan Şuşaya qayıtdı.[95]

Mirzə Adıgözəl bəy Ağa Məhəmməd xanın başının İbrahim xan tərəfindən II İrakliyə göndərildiyini qeyd edir.[96] Halbuki Ağa Məhəmməd xanın öldürülməsini II İrakli İbrahim xandan daha tez xəbər tutmuş və Tiflisdə həmin günü – 11 iyun 1797-ci ili bayram mərasimi keçirmişdir.[97]

1798-ci ildə II İraklinin vəfatından sonra Qarabağ xanlığı ilə Kartli-Kaxetiya çarlığı arasında münasibətlər demək olar ki, pozuldu. Buna səbəb Rusiya ilə İranın münasibətlərinin pozulması, hər iki dövlətin mənafelərinin Cənubi Qafqazda toqquşması, həm Gürcüstanda və həm də Azərbaycanda Rusiya və İran tərəfdarlarının mübarizəsi, daxili saray çəkişmələri və s. idi.

Qeyd etmək lazımdır ki, Qarabağ xanlığı ilə Kartli-Kaxetiya çarlığı arasında müəyyən əyintilərə baxmayaraq, hər iki feodal dövləti çox vaxt təmin edən, onların mənafeyinə cavab verən münasibətlər mövcud olmuşdur.

## §6. Gəncə xanlığının Kartli-Kaxetiya çarlığı ilə münasibətləri

Azərbaycanın ən qədim şəhərlərindən biri olan Gəncə XVII əsrin ikinci yarısında eyniadlı xanlığın paytaxtı olmaqla bərabər, dövrünə görə iqtisadi, siyasi və mədəni cəhətdən inkişaf etmiş şəhərlərdən biri idi. Beynəlxalq tranzit ticarət yollarının qovşağında yerləşdiyindən, habelə nəfis sənətkarlıq məmulatına görə Gəncə şəhəri sərhədlərindən çox-çox uzaqlarda şöhrət tapmışdı.[98]

Gəncə xanlığının banisi Ziyadoğlu sülaləsinin nümayəndəsi II Şahverdi xan (1747-1760) olmuşdur. Yarandığı ilk gündən Gəncə xanlığına bir neçə dəfə qonşu feodal dövlətləri basqın

etmişlər. Bu cəhətdən Qarabağ xanlığının hakimləri Pənah Əli xan, daha sonra İbrahim xan, habelə Kartli və Kaxetiya çarları Teymuraz, xüsusilə II İrakli fərqlənmişlər. II Şahverdi xan qarabağlı Pənah Əli xandan daha çox ehtiyat etdiyi üçün Teymuraz və İrakli ilə sazişə girib onlardan kömək istəmiş və beləliklə də onlardan asılı vəziyyətə düşmüşdür. Lakin Şahverdi xanın vəfatından sonra hakimiyyət başına gələn Məhəmməd Həsən (1760-1778) öz hakimiyyətini möhkəmləndirdikdən sonra Gəncə xanlığının Kartli-Kaxetiya dövlətindən asılı vəziyyətdə qalmasına son qoymağı qərara aldı. Bu asılılıq həm xanlığın iqtisadi vəziyyətinə mənfi təsir edirdi, həm də qonşu xanlıqlar arasında onun nüfuzdan düşməsinə səbəb olurdu. Buna görə də Məhəmməd Həsən xan atasının hər il II İraklinin xəzinəsinə göndərdiyi 10 min manat qızıl puldan imtina etdi.[99] Onun bu hərəkəti xalqın vəziyyətini yaxşılaşdırmadısa da xəzinənin xərcini müəyyən qədər azaltdı.

Gürcüstanın bir çox peşəkar ipəkçi ailələrinin Gəncəyə köçüb burada işləmələri Kartli-Kaxetiya çarlığını narahat etməyə bilməzdi. II İraklinin qocalığından və xəstəliyindən istifadə edib hökumət işlərinə müdaxilə edən arvadı Darecan xanım xəzinədar İosifə əmr etmişdi ki, nəyin bahasına olursa olsun Gəncəyə köçən gürcü ipəkçilərinin geri qayıtmalarına nail olmalıdır.[100] Məhəmməd Həsən xanın hakimiyyəti dövründə Gəncədə ipəkçiliyin inkişafını və istehsalatda əsas mövqe tutmasını şəhərin gerbində həkk edilmiş böyük baramaaçan tiyanın və iki nəfər gənc oğlanın təsvirindən daha aydın görmək olar.

1778-ci ildə saray çəkişmələrinin qurbanı olan Məhəmməd Həsən xanı ona sui-qəsd edən qardaşı Məhəmməd xan əvəz etdi. Məhəmməd xan dövlət işlərində ona maneçilik törədə biləcək qohumlarının demək olar ki, hamısını aradan götürdü. Doğma əmisi Rzaqulu xanın isə gözünü çıxartdırdı. Belə ağılsız tədbirləri ilə dövlət aparatını zəiflədən Məhəmməd xan xanlığı çox pis vəziyyətə saldı. Xanlığının zəifləməsini görən II İrakli Gəncəni özündən asılı vəziyyətə salmaq üçün tədbirlər görməyə başladı. O, əvvəllər Qəncə xanlığından aldığı məbləğin əlindən çıxması ilə heç cür razılaşı bilmirdi. Tezliklə Karli-Kaxetiya çarlığının

ucqar yerlərindən zorla təsərrüfatından ayrılmış kəndlilərdən "moriqe" qoşun hissələri təşkil edildi.

Lakin digər Azərbaycan xanlarının qəzəbindən ehtiyat edən II İrakli Gəncəyə tezliklə hücum etməyib, bu işdə Azərbaycanda böyük nüfuza malik olan sabiq müttəfiq İbrahim xandan istifadə etməyi qərara aldı. Zəngin Gəncə şəhərində çoxdan gözü olan İbrahim xan tərəddüd etmədən II İraklinin təklifini qəbul etdi.

Beləliklə, 1780-ci ildə müttəfiqlərin qoşunları Gəncə qalasını mühasirəyə aldılar. Ciddi müqavimət göstərə bilməyən Gəncə qarnizonu təslim oldu.

Bu hadisədən sonra altı il müddətində Gəncə xanlığı İbrahim xanın təyin etdiyi Həzrətqulu bəy və İraklinin nümayəndəsi knyaz Keyxosrov tərəfindən idarə olundu.[101] Həm Qarabağ və həm də Kartli-Kaxetiya nümayəndələrini həmin yerlərdən gəlmiş qoşun hissələri müdafiə edirdilər. Təkcə knyaz Keyxosrovun keşiyində 1000 nəfər gürcü qoşunu dururdu. Belə bir hal bir tərəfdən qaliblərin yerli əhaliyə etibar etməməsini göstərirdisə, digər tərəfdən həmin qoşun hissələrinin şəhər əhalisinin hesabına yaşaması barədə də fikir yürütməyə əsas verir. Tezliklə İbrahim xanla II İrakli arasında Gəncə üstündə rəqabət başlandı.

Gəncəyə təklikdə yiyələnmək istəyən II İrakli gec-tez Gəncə üstündə İbrahim xanla mübarizə etməli olacağını hiss edirdi. O, bunu da yaxşı bilirdi ki, təkcə öz qüvvəsi ilə qələbə əldə edə bilməyəcək. Odur ki, o, arzusuna çatmaq üçün vasitə axtarırdı.

1783-cü ildə Kartli-Kaxetiya çarlığı Rusiyanın himayəsinə keçdikdən sonra II İrakli bu işdə əsas etibarilə Rusiya dövlətinin qüdrətindən istifadə etməyi qərara aldı. O, 1784-cü ildə Rusiyaya müraciət edib, Tiflisə "Gürcüstanın hesabına" əlavə olaraq daha bir alay göndərilməsini xahiş etdi.[102] Rus qoşunlarının gəlməsinə böyük ümid bağlayan və Qəncədə hərbi qulluqda olan gürcü zadəganlarından Evtlis Beri II İraklinin arvadı Darecana göndərdiyi məktublarının birində yazırdı: "Ruslar Gürcüstana gələn zaman söz yox ki, Gəncəyə də baş çəkəcəklər. Bu zaman Gəncə qalası və cəbbəxanası bizim əlimizə keçəcəkdir. Ruslar gedəndən sonra isə Gəncə bizim olacaqdır".[103] Amma II İraklinin bu cəhdləri boşa çıxdı. Onun gizli tədbirlərindən xəbər tutan

qarabağlı İbrahim xanın təhriki ilə yerli feodallardan Hacı bəyin başçılığı altında gəncəlilər Kartli-Kaxetiya qoşunlarına qarşı qalxıb, onları Gəncədən qovdular. Knyaz Keyxosrov qaçmaqla canını qurtara bildi. Gəncədən əli çıxan II İrakli başqa bir siyasətə əl atmağa məcbur oldu. O, İbrahim xanın yanında əsirlikdə qalan Məhəmməd xanı yenidən Gəncəyə hakim qoymaq və burada İbrahim xana qarşı özünə müttəfiq qazanmaq fikrinə düşdü. Lakin İbrahim xan rəqibinin məqsədini duyub, 1785-ci ilin payızında Məhəmməd xanı öldürtdü.[104]

İbrahim xanın da nümayəndəsinə Gəncədə uzun müddət qalmaq müyəssər olmadı. 1786-cı ildə gəncəlilər İbrahim xanın nümayəndəsi Həzrətqulu bəyə qarşı üsyan qaldırıb onu da qovdular. Gəncə taxtı üsyanın təşkilatçılarından biri olan yerli feodallardan Rəhim bəyin əlinə keçdi.[105]

Rəhim bəy hakimiyyət başında çox qala bilmədi. Bir ildən sonra Gəncə xanlığının taxtına onun qardaşı Cavad xan çıxdı. Cavad xanın hakimiyyət başına gəlməsi haqqında da müxtəlif fikirlər vardır. Rus qafqazşünası P.Q.Butkovun yazdığına görə, Cavad xanın Gəncədə hakimiyyət başına gəlməsinə də II İrakli yaxından kömək etmişdir.[106] Bu fikri XIX əsrin əvvəllərində yaşamış gürcü tarixçisi Platon İoseliani də təsdiq edir.

Cavad xanın hakimiyyət başına gəlməsi barədə digər və daha obyektiv mülahizə tamamilə birinci iki fikrin əksidir. Gürcü dilində yazılmış arxiv sənədlərinin birində deyilir ki, Cavad xanın Gəncə taxtına oturmasında qarabağlı İbrahim xanın əli olmuşdur.[107]

Bu fikri irəli sürməyə bizə gürcü dilində yazılmış sənəddən götürdüyümüz aşağıdakı sözlər bir daha əsas verir: “İbrahim xan bizim istəmədiyimiz Cavad xan Ziyad oğlunu Gəncəyə xan təyin etdi”.[108]

Gəncə xanlığının möhkəmlənməsi Kartli-Kaxetiya çarlığının zəifləməsi dövrünə təsadüf edirdi. Daxili feodal çəkişmələrinə məruz qalan Kartli-Kaxetiya çarlığında dövlət işlərinə çarın arvadı Darecan xanımın müdaxilə etməsi üçün geniş imkan yaranmışdı. Həmin vaxtdan etibarən faktiki olaraq Kartli-Kaxetiya çarlığının əri ilə yanaşı o da istədiyi kimi idarə etməyə başladı.[109] Saray daxilində hakimiyyət uğrunda gedən mübarizə,

II İraklinin oğlanlarının, hətta nəvələrinin özbaşınalığı XVIII əsrin sonuncu rübündə dövləti həm iqtisadi, həm də siyasi cəhətdən zəiflətmişdi. Vaxtı ilə Kartli-Kaxetiyanın tabeliyinə verilmiş Qazaxdan və Şamxordan bir çox ailənin Şuşaya və Gəncəyə köçməsinin səbəbini də məhz dövlətin zəifləməsi ilə izah etmək lazımdır.

Qazaxdan 1500 ailə, Şəmşəddildən isə 3200 ailə Gəncə xanlığına köçmüşdü.[110] Məsələ gəlib o yerə çatmışdı ki, hətta yerli gürcülərin özləri belə köçüb Mozdoka, Qızılyara gedirdilər.[111]

Dövlətin daxildən belə ağır vəziyyətə düşməsi II İraklinin başını elə qatmışdı ki, Gəncənin daxili işlərinə qarışmaq iqtidarında deyildi. Əksinə, belə ağır vaxtda özü Cavad xandan imdad gözləyirdi.[112]

Gürcüstanın ağır vəziyyətə düşməsindən qarabağlı İbrahim xan istifadə edərək Cavad xanı öz tərəfinə çəkdi.[113] Həmin vaxtdan etibarən Cavad xan, demək olar ki, II İrakli ilə büsbütün əlaqəsini kəsdi. Vəziyyətin belə bir şəkil alması II İraklini narahat etməyə bilməzdi.

II İrakli Cavad xana kin bəsləyən Rəhim bəy və gürcü qoşunları ilə Gəncəyə hücum edib xanlığı ələ almağa təhrik etdi. Lakin 1795-ci ildə İran tərəfdən yaxınlaşan qorxu II İraklini belə bir addım atmaqdan çəkindirirdi.

Bu dövrdə Kartli-Kaxetiya çarlığı ilə Gəncə xanlığının münasibətləri daha da kəskinləşdi.

Cavad xanın Ağa Məhəmməd xanla ittifaqda Tiflisin darmadağın olunmasında iştirak etməsi nəinki II İraklinin, eyni zamanda Azərbaycan xanlarının xüsusilə Qarabağlı İbrahim xanın da qəzəbinə səbəb oldu.

Ağa Məhəmməd xan Azərbaycan ərazisini tərk etdikdən sonra Qarabağlı İbrahim xan və II İrakli Cavad xanı cəzalandırmağı qərara aldılar. Tezliklə İbrahim xan qaynı avarlı Ümmə xanı da Gəncəyə yürüşdə iştirak etməyə çağırdı.[114] 3000 nəfərdən ibarət olan gürcü dəstəsinə əvvəlcə şahzadə Aleksandr, daha sonra isə David başçılıq etdi.[115]

Qeyd etmək lazımdır ki, Ağa Məhəmməd xanın yürüşündən sonra gürcü qoşunları hələ də özlərinə gəlməmişdilər. Tarixi

ədəbiyyatda o zaman Gəncəyə gələn gürcü qoşunlarının əksəriyyətinin ayaqyalın və silahsız olması barədə məlumat vardır.[116] Müttəfiqlər buna laqeyd qala bilməzdilər. Qarabağlı İbrahim xan Ümmə xan imkanları dairəsində Aleksandrın qoşunlarının zəruri ərzaq və silahla təmin olunmasına kömək etdilər.

Müttəfiqlərin qoşunları ilə Gəncə qoşunlarının ilk toqquşması hər iki tərəfdən böyük tələfata səbəb oldusa da, gəncəlilər sayca daha çox olan düşmənin qarşısında tab gətirə bilməyib, qala divarlarının arxasında qorunmağa məcbur oldular. Gəncə qalasına sığınmış gəncəlilər düşmənə ciddi müqavimət göstərdikləri üçün mühasirənin müddəti qeyri-müəyyən vaxta qədər uzana bilərdi. Odur ki, müttəfiqlərin qoşunları düşməni mühasirədə saxlamaqla bərabər, ətraf kəndləri qarət etməyə başladılar.

Gəncədəki "Şah Abbas məscidi"ndəki kitabələrin birində 1796-cı ildə gürcü qoşunlarının Gəncəyə hücum etdikləri zaman qarətə yol verdikləri barədə məlumat vardır.[117]

Lakin Ağa Məhəmməd xanın hücumundan sonra Gürcüstan çox ağır vəziyyətə düşmüşdü. Məhz bunun nəticəsi idi ki, Gəncənin ilkin mühasirəsi uzun sürmədi. Çünki qoşunları sursatla təmin etmək üçün xəzinədə lazımi vəsait yox idi. Buna görə də II İrakli gürcü qoşunlarını Gəncədən geriyə çağırmağa məcbur oldu. Lakin o, Gəncə qalasından 1795-ci ildə Tiflisdən aparılan gürcü əsirlərini azad etmək fikrindən dönməmişdi. Çox ehtimal ki, gürcü qoşunları geri dönərkən Cavad xanın əsir düşmüş oğlunu da elə bu məqsədlə İbrahim xanın razılığı ilə Tiflisə aparmışdılar.

Əsas düşməninin geriyə çəkilməsindən isisfadə edən Cavad xan İbrahim xan və Ümmə xanın yanına öz nümayəndəsini göndərib, onlardan Gəncə qalasını tərk etməyi xahiş etdi. Bunun müqabilində Cavad xan İbrahim xana müharibə xərci və tabelik rəmzi olaraq girov verəcəyinə də söz verdi. İbrahim xan şərtə razı oldu, eyni zamanda Cavad xana Gürcüstandan gətirdiyi 400 gürcü əsirini II İrakliyə qaytarmağı təklif etdi. Cavad xan buna da əməl edəcəyinə söz verdi. Tezliklə İbrahim xan Cavad xanın oğlu, 10 nəfər yaxın adamını girov götürüb, 10000 manat pul təzminat aldıqdan sonra Gəncə ətrafından qoşunlarını çəkdi.[118]

İbrahim xanın müttəfiqi Ümmə xan Gəncəni tərk etməzdən əvvəl Cavad xandan qoşununun sayına görə hər adambaşına 40 manat pul aldı.[119]

Müttəfiqlərin qoşunları Gəncədən çəkilər-çəkilməz 7000 nəfərlik gürcü qoşunu yenidən Gəncə qalasına yaxınlaşıb onu mühasirəyə aldı. Lakin bu dəfə də mühasirəyə çox davam etmədi. Tezliklə Cavad xan gürcü əsirlərini qaytarıb, qalanı mühasirədən azad etdi.[120] Çox güman ki, bunun müqabilində Cavad xan Tiflisdə əsirlikdə olan oğlunu geri almışdır. Lakin bu, II İrakli ilə Cavad xan arasında olan münasibətlərin normal hala düşməsinə səbəb olmadı. II İraklinin əmri ilə gəncəlilərin Tiflisdə və Kizixidə olan malları müsadirə edilib Tiflisdə saxlanıldı. Sənədlərin birində qeyd olunur ki, II İrakli gürcü əsirlərinin Gəncədə qoyub getdikləri pulları Cavad xan geri göndərməyincə həmin malların Tiflisdə saxlanılmasını əmr etmişdi.[121]

1798-ci il yanvarın 11-də II İrakli vəfat etdi. Onun dəfn mərasimi qurtarmamış varislər arasında Kartli-Kaxetiya hakimiyyəti uğrunda qızğın mübarizə başlandı. Əsas mübarizə II İraklinin oğlanları şahzadə ALeksandrla Georgi arasında gedirdi.

Qısa müddətdə Georgi öz rəqiblərinə qalib gələrək XII Georgi adı ilə hakimiyyət başına gəldi. Bu hadisədən sonra Kartli-Kaxetiya çarlığının siyasi və iqtisadi cəhətdən xeyli zəiflədiyini görən şahzadə Aleksandr Cavad xanın yanına pənah gətirdi.[122] Bu vaxt Cavad xan dövlət işlərində təcrübəsi az olan XII Georgidən vaxtı ilə zəbt olunmuş Azərbaycan torpaqlarından Borçalı və Şəmşəddili Gəncə xanlığına geri qaytarmağı tələb etdi. Yenicə taxta çıxmış dövlət işlərinə alışmamış XII Georgi Cavad xanla müharibə meydanında üzləşmək istəmədi. Ona görə də Cavad xana məktub vasitəsi ilə Şəmşəddili Gəncəyə qaytaracağını bildirdi.[123]

1801-ci ildə Gürcüstan Rusiya dövlətinin himayəsinə keçdikdən və bununla əlaqədar olaraq, Tiflisə xeyli rus qoşunlarının gəlməsindən sonra XII Georgi Gəncə xanlığına olan münasibətini tamamilə dəyişdi. Artıq Şəmşəddilin Gəncəyə qaytarılması barədə heç bir söz ola bilməzdi. Buna görə də Cavad xan 1802-ci ildə oğlu Uğurlu xanın başçılığı ilə Şəmşəddilə 500 nəfərdən

ibarət qoşun dəstəsi göndərdi. Uğurlu xan buradan xeyli ailənin Gəncəyə köçməsinə nail oldu.[124] Gürcüstanda olan rus qoşunlarının sərkərdəsi general Georgi Cavad xandan öz fikrindən əl çəkməyi təklif etdi. Lakin Cavad xan özünün haqlı olduğunu sübut edərək general Georginin təklifini qəbul etmədi.[125]

Bununla bərabər, Cavad xan ata-baba torpaqlarından olan Şəmşəddil barəsində onun işinə qarışmamasını Rusiya dövlətindən xahiş etdi.[126] Cavad xan eyni zamanda Gürcüstan taxtına çıxmaq üçün şahzadə Aleksandra kömək edəcəyinə də söz verib, tədbirlər görməyə başladı.[127]

Göründüyü kimi, almanların Baden-Vürtemberqdən Qafqaza köçməsində bir sıra amillərin təsiri olsa da, dini amillər bu prosesdə əsas rol oynamışlar və bu fakt həm köçmə prosesinin təşkil olunmasında, həm də kolonistlərin gələcək həyatında dərin iz buraxmışdır. Təsadüfi deyil ki, köçkünlərin ilk qrupu dini etiqadları hələ də köhnə qaydada yerinə yetirən konservator xristianlardan təşkil olunmuşdur. Kral II Fridrix Vürtemberqskinin apardığı kilsə islahatlarını qəbul etməyənlər müxtəlif təqiblərə məruz qalırdılar: onları lüteran icmaları sıralarından xaric edir, əmlakları müsadirə olunur, bəzən həbs edilib zindana salınırdılar. İldən ilə vəziyyəti pisləşən Vürtemberq pietistləri xarici ölkələrdə mövcud olan pietist qrupları ilə əlaqə yaradaraq onların köməyilə müxtəlif ölkələrə mühacirata başladılar. Daha praqmatist düşüncəli pietistlər təsərrüfat fəaliyyəti üçün nisbətən əlverişli ərazilərə üstünlük verdilər. Cənubi Qafqaza yola düşənlər üçün öz dini etiqadına sədaqət hər hansı maddi nemətdən üstün idi və deyə bilərik ki, Qafqaza pietistlərin ən konservativ, ən fanatik hissəi köçməyi qət etdi.

Çar I Aleksandr alman pietistlərinə rəğbətlə yanaşdığından alman separatistlərinin Cənubi Qafqazda məskunlaşmasına icazə verdi və dərhal, artıq 1816-cı ilin sentyabrında 40 ailədən ibarət qrup Fridrix Fuksun başçılığı ilə Şvaykgel kəndindən Cənubi Qafqaza – Gürcüstana yola düşdülər.[2] 40 ailədən 9-u Odessa yaxınlığındakı Qrosliben koloniyasında məskunlaşmağı qərara aldılar – yerdə qalan 31 ailə yol xərcləri aldıqdan sonra Starşına Qotlib Leflerin başçılığı ilə 1817-ci ilin baharında Gürcüstana səfərlərini davam etdirdilər. 21 sentyabr 1817-ci il tarixdə onlar Tiflisə çatdılar. 148 nəfərdən ibarət 31 alman ailəsi Tiflis şəhərindən 38 km aralı, İorn çayı sahillərində, azərbaycanlıların

yaşadığı Sartiçala kəndi yaxınlığında yerləşdirildilər.[3] Beləliklə, Cənubi Qafqazda ilk alman koloniyası yarandı ki, o da çar I Aleksandrın anası, Vürtemberq şahzadəsi Mariya Fyodorovnanın şərəfinə Marinenfeld adlandırıldı.

Kolonist icmasına hökumət tərəfindən yardım məqsədilə 16 kotan, 35 at, həmçinin, basqınlardan qorunmaq məqsədilə 31 tüfəng verildi.[4] Hökumətin yardımı kolonistlərin ehtiyaclarını tam ödəmirdi və o dövrün tanınmış şəxsləri könüllü olaraq almanlara yardım əli uzatdılar. Məsələn, general-mayor İsmayıl xan Şəkinski kolonistlərə 30 inək, 27 dana və 200 qoyun bağışlamışdı.[5] Əsgərlərin köməyi ilə kolonistlər üçün yaşayış evlərinin tikintisi başladı. Tarixi mənbələrdən görünür ki, 1817-ci ilin payızında kolonistlərin mənzil məsələsini tam həll etmək mümkün olmadı və qışın yaxınlaşması ilə bağlı alman mühacirləri qonşu Şartiçala kəndində, yerli əhalinin mənzillərində yerləşdirildilər. Kolonistlərin ərzaq məhsulları ilə təminatında da çatışmazlıqlar var idi və bu çətin vaxtda Tiflis qəzasının azərbaycanlı əhalisi Şvab köçkünlərinə yardım əlini uzatdı.

Kolonistlərin birinci qrupunun Gürcüstanda məskünlaşmasından sonra Baden-Vürtemberqdə başqa bir mühacir qrupunun formalaşması prosesi başladı. Bu işdə Marbaxlı Kox qardaşları daha çox fəallıq göstərirdilər.

Tiflis quberniyasının rəhbərliyinə çoxsaylı alman mühacirlərinin özbaşına Cənubi Qafqaza köçmə hərəkatı barədə məlumat çatdırılmışdı. Quberniya rəhbərliyi almanların bu regionda kütləvi məskunlaşmasının tərəfdarı deyildi. Moskvaya gələn alman deputat qrupu hakimiyyət orqanlarında görüşlərdən sonra Cənubi Qafqazda məskunlaşmaq hüququ əldə etdilər. Bu işdə mənşəcə alman olan və çar ailəsi yanında böyük nüfuza malik olan qraf Nesselrodenin az xidmətləri olmamışdır.

1818-ci ilin baharına Vürtemberq mühacirləri Cənubi Qafqazda məskunlaşmaq hüququ aldıqdan sonra Odessadan Tiflisə doğru hərəkətə başladılar və 1818-ci ilin sentyabrın sonunda mühacirlərin böyük hissəsi Tiflisə gəldi. Bəzi mənbələrə görə 500 ailədən yalnız 486-sı Tiflisə sağ-salamat gələ bilmişdi.[6] Almanların Cənubi Qafqaza köçməsini şərtləndirən amillərlə bağlı

mühacirlərin sosial tərkibi müxtəlifliyi ilə xarakterizə olunurdu: onların arasında kəndlilərə, sənətkarlara, təxris olunmuş hərbçilərə, Napoleon ordusunda xidmət edənlərə, fərarilərə və sair kateqoriyadan olan şəxslərə rast gəlmək olardı.

Beləliklə, 1818-ci ilin payızında Tiflis ətrafında aşağıdakı 6 alman koloniyası meydana gəldi və onlar coğrafi lokallaşma, təsərrüfat vərdişləri, düşdükləri etno-demoqrafik mühitə görə bir-birindən fərqlənirdilər:

1) Marinenfeld koloniyası – 1817-ci ildə Tiflis şəhərindən 38 km aralıda, azərbaycanlıların yaşadığı Sartiçala kəndi yaxınlığında salınmışdır. Əhalisi – 148 nəfər idi. Əsas məşğuliyyətləri əkinçilik olmuşdur;

2) Noy-Tiflis koloniyası – 1818-ci ildə yaranmışdır, Tiflisdən 3 km aralıda yerləşirdi. Koloniyada 200 nəfər yaşayırdı və hamısı sənətkarlıqla məşğul idilər;

3) Katerinenfeld koloniyası, 1818-ci ildə azərbaycanlıların kompakt şəkildə yaşadığı Borçalıda yaranmışdır. Koloniyada 350 nəfər yaşayırdı və əsas məşğuliyyətləri əkinçilik idi;

4) Yelizavettal koloniyası – 1818-ci ildə Somxitidən 38 km aralı, Alqeti çayı yaxınlığında, gürcülərin kompakt yaşadığı bir ərazidə yaranmışdır. Əhalisi 307 nəfər idi və əsasən əkinçiliklə məşğul olurdular;

5) Aleksandersdorf koloniyası – 1818-ci ildə Tiflisdən təqribən 10 km şimalda, Diduba rayonunda yaranmışdır. Bu koloniya da azərbaycanlıların qonşuluğunda yaranmışdı və əhalisi cəmisi 98 nəfər idi. Əsasən əkinçiliklə məşğul olurdular;

6) Petersdorf koloniyası – 1818-ci ildə Tiflisdən təqribən 15 km aralıda salınmışdır və burada cəmi 17 ailə məskunlaşmışdı. Qonşuları gürcü əhalisi kimi onlar da əkinçiliklə məşğul olurdular.

Hökumət dairələrində alman kolonistlərinə böyük ümidlər bəslənirdi. Belə ki, onlar yeni məskunlaşdıqları ərazilərdə yeni təsərrüfatçılıq metodları tətbiq edərək, "qabaqcıl" Avropa mədəniyyəti gətirərək "kulturtregerlik" missiyasını yerinə yetirməli idilər. Buna görə də çar hökuməti mühacirlərin yeni ərazilərdə yerləşməsi məqsədi ilə o dövrün ölçülərinə görə çox böyük maliyyə vəsaiti ayırmışdı. Arxiv sənədlərindən görünür ki, Cənubi

Qafqaz almanlarının təmin edilməsi üçün dövlət xəzinəsindən 697,428 rubl gümüş pul xərclənmişdi.[7] Mühacirlərin Baden-Vürtemberqdən tutmuş Tiflisə qədər uzun miqrasiya prosesində bütün xərclər Rusiya hökuməti tərəfindən maliyyələşdirilmişdi. Qeyd etməliyik ki, mühacirlərə xərclənən pul vəsaiti ciddi şəkildə hesaba alınırdı və gələcəkdə kolonistlər mərhələ-mərhələ onlara çəkilən xərcləri xəzinəyə ödəməli idilər.

Lakin boş torpaq sahələrinin qıtlığı səbəbindən mühacirlərin sonuncu kolonlarını Tiflis ətrafında yerləşdirmək mümkün olmadı və onlara Azərbaycan ərazisində Yelizavetpol şəhəri ətrafında məskən salmaq təklif olundu. 1818-ci ilin sonlarına 209 alman ailəsinin Yelizavetpol dairəsində, Şamxor çayı ətrafı ərazilərdə məskunlaşması nəzərdə tutulmuşdu. Qışın düşməsi ilə kolonistlərin müvəqqəti qazma evlərdə, çadırlarda yaşaması mümkün olmadı və alman ailələri təcili şəkildə Yelizavetpol şəhəri və onun ətraf kəndlərində yaşayan azərbaycanlı ailələrində yerləşdirildilər. Qeyd etmək yerinə düşərdi ki, o vaxt rəsmi sənədlərdə "tatar" kimi adlandırılan azərbaycanlı əhalisi alman mühacirlərini 3 aya yaxın bir müddət öz evlərində saxladılar. Bu birgəyaşayış almanların sosial-mədəni uyğunlaşmasına müsbət təsir göstərdi, azərbaycanlılarla almanlar arasında dostluq münasibətlərinin təməlini qoydu. 1819-cu ilin baharında alman kolonistləri yerli əhalinin evlərini tərk etdilər və kazak dəstələrinin nəzarəti altında Gəncə çayının sağ sahilində Yelenendorf koloniyasının əsasını qoydular. Çar I Aleksandrın bacısı Yelena Pavlovnanın şərəfinə adlandırılan bu koloniya Yelizavetpol şəhərindən 7 verst aralıqda, keçmiş Xanlıqlar kəndinin ərazisində yerləşirdi. Bu koloniyada 127 alman ailəsi məskunlaşmışdı və onlara 2600 des. torpaq sahəsi ayrılmışdı.[8] Azərbaycana gətirilmiş mühacirlərin qalan hissəsi Şəmkir ərazisində, Yelizavetpoldan 25 verst, Tiflsdən 155 verstlik məsafədə yerləşdilər və koloniya Niderland kraliçası, çar I Aleksandrın bacısı Anna Pavlovanın şərəfinə Annenfeld adlandırıldı. Annenfelddə məskunlaşan alman ailələrinin sayı barədə müxtəlif fikirlər söylənilmişdir. Arxiv sənədlərinə əsaslanaraq deyə bilərik ki, Annenfeld koloniyasında 84 alman ailəsi məskunlaşmışdı. Gürcüstan və Azərbaycan

ərazilərində alman mühacirlərinin yerləşdirilməsi müxtəlif xristian missionerlərinin fəaliyyəti üçün geniş imkanlar açırdı. Əsasən protestantizmə mənsub olan əcnəbi xristian missionerlərin Qafqazda fəaliyyət göstərməsi bu regionda müstəmləkəçilik və qeyri-xristian xalqların xristianlaşdırılması siyasəti yeridən çar Rusiyasının geosiyasi maraqların cavab verirdi.

Roma katolik kilsəsi ilə Rus pravoslav kilsəsi arasında yaşanan ideoloji mübarizə Rusiyada katoliklərin təqib olunması ilə nəticələndi və XVIII əsrin sonlarında Baltikyanı ərazilərdə yaşayan alman katoliklərin bir qismi Gürcüstanda sığınacaq tapdılar. Gürcüstanda XIX əsrdə məskunlaşan almanlar isə əsasən protestantizmin adeptləri olduğundan onlarla alman katoliklər arasında dini zəmində ixtilaflar baş verirdi.[9] Katolik kilsəsinə nisbətən çar hökuməti protestantizmə loyal münasibət bəsləyirdi və hətta protestant missionerlərin Rusiyada fəaliyyətinə həm maddi, həm də mənəvi dəstək verirdi.

Cənubi Qafqaza almanların köçürülməsinə növbəti cəhd 1842-ci ildə edildi, lakin yerli iqlim şəraitinə uyğunlaşa bilməyən alman kolonistləri onların köhnə yaşayış yerlərinə-Tavriya quberniyasına qaytarılmasını xahiş etdilər və hökumət onların xahişini yerinə yetirdi.

Beləliklə, XIX əsrin I yarısında Gürcüstanda, o cümlədən bütün Cənubi Qafqazda alman məskənləri meydana gəldi və onların hamısı Şimali Qafqazdan fərqli olaraq, xarici məskunlaşma prosesinin nəticəsi idi. Tarixi ədəbiyyatı və arxiv mənbələrini təhlil etdikdən sonra belə nəticəyə gələ bilərik ki, XIX əsrin I yarısında Cənubi Qafqazda 8 alman koloniyası yaranmışdı: onlardan 6 koloniya müasir Gürcüstan, 2-si isə Azərbaycan ərazisində yerləşirdi.[221]

Regionda alman məskunlaşmasının iki mərkəzi vardı: ilk 6 koloniya bilavasitə Tiflis şəhəri ətrafında cəmləşmişdilər və onlar gələcəkdə Gürcüstan ərazisində yaranan yeni koloniyalar üçün "ana koloniya" rolunu oynayırdılar.

Sonuncu iki koloniya – Yelenendorf və Annenfeld həmvətənlərinin kompakt yaşadıqları Gürcüstandan uzaqda, tamamilə fərqli coğrafi, etnik və konfessional mühitdə yaranmışdılar.

Təkcə Cənubi Qafqazda deyil, ümumiyyətlə bütün Rusiyada alman koloniyalarına xas olan xüsusiyyətlərindən biri onların əhalisinin azlığı olmuşdur: orta hesabla, alman koloniyalarında 100 nəfərdən 300 nəfərədək əhali yaşayırdı. Gürcüstanda yaranan 6 koloniyadan əhalisinə görə ən irisi Katerinenfeld (350 nəfər) və Yelizavettal (307 nəfər) idi. Azərbaycanda yaranan iki koloniyada birlikdə 1100 nəfər yaşayırdı ki, bu da Yelenendorf və Annenfeldin nəinki Qafqazda, o cümlədənn Rusiyada ən iri koloniyalardan olduğuna sübutdur. Gürcüstanda yaranan 6 koloniyada ümumilikdə 1165 nəfər məskən salmışdı ki, onların 715 nəfəri Tiflis quberniyasında, 450 nəfəri Borçalı distansiyasında yaşayırdılar.[11] Ümumilikdə götürdükdə, 1819-cu ildən 1836-cı ilə qədər Cənubi Qafqazın alman əhalisinin sayı əhəmiyyətli dərəcədə olmasa da, artmışdı: əgər 1819-cu ildə regionda 2265 alman kolonisti yaşayırdısa, 1836-cı ildə onların sayı 2650-ə çatmışdı.[12] Alman əhalisinin sayının artması Gürcüstandakı koloniyaların hesabına təmin edilmişdi.

XIX əsrin ortalarında Qafqazda cəmi 13 alman koloniyası yaranmışdı ki, onlarda da təqribən 5 minə yaxın əhali yaşayırdı. Təbii ki, slavyan və yaxud ermənilərin məskunlaşması ilə müqayisədə alman əhalisinin demoqrafik proseslərə təsir etmə qabiliyyəti o qədər də əhəmiyyətli deyildi. Lakin almanların Qafqaza köçürülməsinin siyasi, dini əhəmiyyəti olduqca yüksək qiymətləndirilirdi: alman kolonistlərinə xüsusi missiya – “kulturtregerlik” missiyası ayrılmışdı. Onlar məskən saldıqları ərazilərdə həm yerli xalqlar, həm də gəlmə mühacirlər arasında yeni təsərrüfatçılıq vərdişləri yaymalı, Avropa mədəniyyətinə uyğun insanların yetişməsinə öz töhfələrini verməli idilər.

XIX əsrin II yarısı – XX əsrin əvvəllərində Şimali Qafqazdan almanların kütləvi məskunlaşması prosesi gedirdisə, Cənubi Qafqazda əcnəbi miqrantların axını müşahidə olunmurdu. Bunun əsas səbəbi onunla izah olunur ki, Şimali Qafqaza nisbətən Cənubi Qafqazda əhali sıxlığı mövcud idi və region əhalisi torpaq çatışmamazlığından əziyyət çəkirdi. Bundan savayı, çar hökuməti dairələrində tez-tez Cənubi Qafqazda aparılan miqrasiya siyasəti tənqid hədəfinə çevrilir, bu regionda əcnəbilərin deyil,

rus, slavyan mənşəli əhalinin yerləşdirilməsinə daha çox diqqət yetirilməsi tələb olunurdu. 1870-80-ci illərdən başlayan "antialman" əhval-ruhiyyəsi ilk növbədə sərhədyanı quberniyalarda yaşayan alman əhalisinə qarşı yönəlmişdi və bu baxımdan çar hökuməti Cənubi Qafqaz quberniyalarında əlavə alman əhalisinin yerləşdirilməsinə mənfi yanaşırdı.

XIX əsrin II yarısında Cənubi Qafqaza xaricdən alman mühacirlərinin axını demək olar ki, kəsildi. Bununla yanaşı, Cənubi Qafqazda yeni alman koloniyalarının yaranma prosesi davam edirdi və bu daha çox artıq mövcud olan koloniyaların daxili rezervləri hesabına gedirdi. Koloniyalarda əhalinin sayının artması, torpaq qıtlığının yaranması koloniya rəhbərliyini məcbur edirdi ki, problemin həlli üçün əlavə rezervlər axtarsın. Koloniyalarda mövcud olan ümumi xəzinənin vəsaitləri hesabına yeni torpaq sahələri əldə edilir və bu torpaqlarda köhnə koloniyaların əhalisi hesabına yeni koloniyalar yaradılırdı. Tarixşünaslıqda bu cür koloniyalar "törəmə" və yaxud "qız" ("doçernie" kolonii) koloniyalar adlandırılmışdı. Azərbaycanda "törəmə" koloniyaların yaranma prosesi XIX əsrin 80-ci illərinin ortalarından başladı.

Azərbaycan ərazisində yaranan ilk "törəmə" koloniyanın əsası 1888-ci ildə Yelenendorf kolonistləri tərəfindən qoyuldu. Hələ 1866-cı ildə dövlət yerli bəylərə məxsus olan və "Seyfəli bağları" adlı ərazinin bir hissəsini öz hesabına əldə edərək Yelenedorf koloniyasına vermişdi.

1888-ci ildə 1750 des. 1200 kv. sajen əraziyə malik olan bu torpaqlarda Yelenendorf koloniyasından 90 aztorpaqlı və torpaqsız alman ailəsi köçürülürdü və yeni Georqsfeld adlı koloniya meydana gəldi.[13] "Törəmə" koloniyaların yaranması prosesi sonrakı illərdə də davam etmişdi. Belə ki, 1902-ci ildə Alekseyevka.[14], 1905-ci ildə Qryünfeld,[15] 1907-ci ildə Ayqenfeld, 1912-ci ildə Traubenfeld[16] koloniyaları yarandı. Azərbaycan ərazisində sonuncu "törəmə" koloniya 1914-cü ildə indiki Ağstafa rayonu ərazisində yaradılan Yelizavetinka koloniyası olmuşdur.[17] Qeyd edək ki, bu koloniyalar indiki Azərbaycanın qərb rayonlarında – Tovuz, Ağstafa, Qazax, Şəmkir rayonları ərazisində yaradılmışdılar və onların yaradılmasında əsasən 1819-cu ildən bu

regionda mövcud olmuş iki koloniya – Yelenendorf və Annenfeld koloniyalarının sakinləri iştirak etmişlər. Məsələn, Qeorqsfeld, Alekseyevka, Qrünfeld, Traubenfeld "törəmə" koloniyaları Yelenendorf kolonistləri tərəfindən, 1907-ci ildə Şəmkir rayonunun indiki İrmaşlı kəndində əsası qoyulan Ayqenfeld isə Annenfeld kolonistləri tərəfindən yaradılmışdılar. Yelizavetinka koloniyasının yaradılmasında həm Azərbaycan, həm də Gürcüstan ərazisində mövcud olan "ana" koloniyaların sakinləri iştirak etmişlər.

Beləliklə, XX əsrin əvvələrinə daxili miqrasiya hesabına Azərbaycan ərazisində alman koloniyalarının sayı 8-ə çatdı. Bu koloniyalarda 9 min 971 nəfər alman əhalisi yaşayırdı.[18]

Gürcüstan ərazisində yaranan ilk "törəmə" koloniya Aleksandersqilf koloniyası olmuşdur ki, onun əsas 1857-ci ildə qoyulmuşdur. Qafqazın canişini olmuş Aleksandr Baryatinskinin şərəfinə adlandırılan bu koloniyanın əsasını Yelizavettal kolonistləri qoymuşlar. Arxiv sənədlərindən göründüyü kimi, Yelizavettal koloniyasının sakinləri XIX əsrin 40-cı illərində torpaq sarıdan əziyyət çəkirdilər və bu məsələ ilə bağlı dəfələrlə rəsmi dövlət orqanlarına müraciət etmişdilər.[19] Dövlət Əmlak Ekspedisiyası Yelizavettal koloniyasının torpaqla təchizatı məsələsini araşdırdıqdan sonra Qafqaz canişininə hesabat təqdim etdi. Hesabatda koloniyada hər kolonist ailəsinə düşən torpaq sahəsinin qanunla qəbul edilmiş 35 desyatindən aşağı olduğu göstərilirdi. Canişinin göstərişi ilə Yelizavettal koloniyasının 38 aztorpaqlı ailəsi üçün Salka adlı ərazidə 1330 desyatində əkinə yararlı torpaq sahəsi ayrıldı. Yelizavettal kolonistlərinin yeni koloniyaya – Aleksandersqilfə köçməsi prosesi 1862-ci ildə tam başa çatdı.[20]

1818-ci ildə Kuki qəsəbəsi yaxınlığında yaranmış Tiflis koloniyası şəhər böyüdükcə onun anqlomerasiyasına çevrildi və 1852-ci ildə Tiflis şəhərinə aid edildi. 1861-ci ildən Tiflisdə yaşayan bütün kolonistlərin ixtiyarlarında olan torpaq sahələri şəxsi mülkiyyət kimi tanındı.[21]

Azərbaycanla müqayisədə Gürcüstanda "törəmə" koloniyaların yaranması prosesi o qədər də geniş vüsət almamışdır və fikrimizcə, bu onunla izah olunur ki, Gürcüstanda boş torpaq sahələri o qədər də çox deyildi. XIX əsrin sonu – XX əsrin

əvvəllərində Tiflisdən cənuba, Kür çayının sağ və sol sahillərində yaranan Traubenberq və Qrüntal koloniyalarını nəzərə almasaq, baxdığımız dövrdə Gürcüstanda yeni koloniyalar meydana gəlməmişdir. Bunun səbəblərindən biri də başda gürcü pravoslav kilsəsi olmaqla, din xadimlərinin, kəndlilərin çarizmin məskunlaşdırma siyasətinə qarşı etiraz çıxışları olmuşdur.

Əslində Azərbaycan kəndliləri də torpaq çatışmazlığından əziyyət çəkirdilər. Lakin çar hökuməti buna məhəl qoymayaraq alman koloniyalarında yaranan torpaq çatışmazlığı məsələsini Azərbaycanlı kəndlilərin hesabına həll edirdi. Tarixi mənbələrdən göründüyü kimi, Azərbaycan ərazisində yaranan "törəmə" koloniyalar hamısı Azərbaycan kəndlilərinin məskunlaşdığı ərazilərdə salınmışdılar.[22] Qeyd edək ki, həm Azərbaycanda, həm də Gürcüstanda yaranan "törəmə" koloniyalar "Qafqaz diyarının kolonistləri haqqında Qaydalara" görə deyil, "Zaqafqaziya diyarında kəndlərin ictimai idarəedilməsi haqqında Əsasnamə"yə görə idarə olunurdular. Yəni, rəsmi şəkildə yeni yaranan "törəmə" koloniyalar "koloniya" statusu almamışdılar,[23] ancaq buna baxmayaraq köhnə koloniyalarda mövcud olan sosial münasibətlər, bütün qayda-qanunlar yeni koloniyaların daxili həyatına transformasiya olunmuşdu.

1870-1913-cü illərdə Cənubi Qafqazda əcnəbilərin ən çox məskunlaşdığı region Abxaziya ərazisi olmuşdu. Çar hökumətinin bu bölgəyə diqqətinin artması bir sıra siyasi səbəblərlə bağlı idi.

Etnik, coğrafi, mədəni inkişaf xüsusiyyətlərini nəzərə alaraq Rusiya yalnız Abxaziyanın daxili müstəqilliyinə toxunmadı və 1864-cü ilə qədər Abxaziya muxtariyyətə malik knyazlıq kimi mövcud olmuşdur. Abxaziyaya qarşı bu cür xüsusi həssaslıqla xarakterizə olunan siyasətin aparılması həm Qafqaz müharibəsi illərində çar hökumətinin Şimali Qafqazda mövqelərinin zəifliyi, həm də Abxaziyada əhalinin daha çox Tükiyəyə meyliliyi ilə əlaqəli idi. Abxaziyanı Rusiyanın ayrılmaz bir hissəsinə çevirmək üçün çar hökuməti çox ehtiyatla davranırdı. Təsadüfi deyil ki, işğaldan sonra bura hərbi qüvvələrlə bərabər dövlət qulluqçuları alimlər, səyyahlar göndərilirdilər və onların arasında alman mənşəli alimlər əhəmiyyətli yer tuturdular.

XIX əsrin 60-cı illərinə qədər Abxaziyada məskunlaşdırma siyasəti həyata keçirilməmişdir və çar hökumətinin müstəmləkə siyasətinin daşıyıcısı rolunu hərbiçilər yerinə yetirmişlər.

Alman mənşəli hərbçilər Abxaziyada sənayenin texniki tərəqqinin əhali arasında populyarlaşmasında böyük rol oynadılar. Məsələn, 1845-ci ildə Suxumidə, Mrambedə, Pitsundada kərpic zavodlarının tikilməsi alman mənşəli general Budberqin adı ilə bağlı idi. Alman mənşəli alimlər, maarifçilər Abxaziyanın mənəvi mədəniyyətinin inkişafına böyük töhvə verdilər. Yerli əhali arasında savadsızlığın ləğv edilməsində, elmi biliklərin yayılmasında alman mənşəli alimlər, maarifçilər, hərbçilər xeyli iş gördülər. Ədalət naminə qeyd etməliyik ki, almanların Abxaziyada mütərəqqi fəaliyyəti abxaz xalqı üçün müəyyən qazanclarla yanaşı, neqativ nəticələrə də gətirirdi. Abxaz cəmiyyətinin mənəvi birliyinin əksinə yönələn addımlardan biri onlar arasında xristianlığın təbliğ edilməsi idi ki, bu işdə almanlar xüsusi fəallıq göstəririrdilər.

1860-cı ildə Tiflisdə "Qafqazda pravoslav xristianlığının bərpası cəmiyyəti" yarandı. Bu cəmiyyət qarşısına Qafqaz xalqları arasında savadsızlığın ləğv edilməsi kimi mötəbər vəzifə qoysada islam dininə qarşı təbliğat aparır, müsəlman əhalisi arasında xristianlığın yayılması istiqamətində fəallıq göstərirdi. Cəmiyyətin təşəbbüsü ilə 1862-ci ildə xüsusi komissiya yaradılmışdı ki, bu komissiyaya alman Bartolomey sədrlik edirdi. Tərkibinə daha bir neçə alman və abxaz mənşəli missionerlər daxil olan bu komissiyanın əsas məqsədi Abxaziyada xristianlığın yayılması üçün zəruri maddi və mənəvi şəraitin yaradılması idi.[241]

XIX əsrin 60-cı illərindən Qafqaz müharibəsində qələbə çalan Rusiya dağlı xalqlarına qarşı sərt siyasətə keçdi və 1864-cü ildə Abxaziyanın müxtariyyəti ləğv edildi. 11 oktyabr 1866-cı il tarixli fərmanla bütün Şimali Qafqazda və Abxaziyada hərbi – xalq idarə üsulu bərqərar oldu. Çar hökumətinin apardığı xristianlaşdırma və ruslaşdırma siyasəti abxaz əhalisini kütləvi şəkildə Türkiyəyə üz tutmağa vadar etdi: XIX əsrin əvvəllərindən başlayan mühacirlik hərəkatı 1877-ci ildən sonra kütləvi xarakter aldı. Bu 1877-1878-ci illərin rus-türk müharibəsi dövründə

Abxaziyada çarizmin müstəmləkə sisteminə qarşı başlayan xalq üsyanının məğlub olması ilə bağlı idi. Üsyan rus qoşunları tərəfindən amansızcasına yatırıldı və minlərlə abxaz ailələri qisasdan qorxaraq Türkiyəyə köçməyə məcbur oldular.

1870-ci illərin sonuna Abxaziyanın dənizkənarı bir sıra rayonları, demək olar ki, əhalisiz qaldı və gündəmə bu ərazilərin məskunlaşdırılması məsələsi çıxdı. Çar hökuməti Abxaziya kimi strateji bir regionda özünə siyasi baxımdan sadiq əhalinin yerləşdirilməsinə üstünlük verirdi. Bundan savayı, boş qalmış ərazilərdə təsərrüfat həyatının canlandırılması, Rusiyanın daxili bazarları üçün xammal istehsalı da dövlət əhəmiyyətli məsələlərdən idi. Beləliklə, 1870-ci illərin sonundan başlayaraq çar hökuməti Abxaziyada çox həssaslıqla köçürmə siyasəti yetirməyə başladı.

1880-ci illərdə Rusiyada başlayan "antialman" siyasəti çar hökumətinə köçürmə siyasətində müəyyən dəyişikliklər etməyə imkan verdi: hökumət daha çox slavyan və pravoslav dininə mənsub əhalinin yerləşdirilməsi xəttini götürdü. Bunun nəticəsidir ki, 1870-ci illərdən başlayaraq Abxaziyanın düzən ərazilərində əsasən ruslar, moldovanlar, yunanlar, ermənilər, estonlar və az miqdarda almanlar yerləşdirilməyə başladılar. Abxaziyada köçkünlər üçün dövlət fondundan 23600 desyatin torpaq ayrılmışdı. Bununla yanaşı, yeni məskunlaşan əhali 10 il müddətinə bütün vergilərdən azad olunmuşdu.[25]

Çar hökumətinin apardığı siyasət nəticəsində Rusiya imperiyasının müxtəlif quberniyalarından köçkünlər Abxaziyaya axışdılar. Tarixi mənbələrə görə XIX əsrin sonu – XX əsrin əvvəllərində Abxaziyada 20 rus, 15 yunan, 6 moldovan, 10 erməni, 5 eston və 3 alman məskəni yaranmışdı.[26] 1879-cu ildə yaranan bu koloniyaların 3-ü də – Qnadenburq, Neydorf və Lindau Suxumi qəzasında yerləşirdilər. Bir faktı da qeyd edək ki, yuxarıda adı çəkilən etnoslardan savayı Abxasiyaya gürcü əhalisinin də kortəbii axını başlamışdı. Meqreliya Svnetiya, Quriya və sair qonşu əyalətlərdən torpaqsız kəndlilər Abxaziyada qanunsuz olaraq torpaq sahələrini ələ keçirir və məskənlər yaradırdılar. XX əsrin əvvəllərində onların sayı 15-ə çatırdı.[27] Çar hökuməti Abxaziyada gürcülərin məskunlaşdırılmasını planlaşdırmasa da, pravoslav əhalinin burada qanunsuz yerləşməsinə barmaqarası baxırdı.

Almanların sayı çox deyildi. Təəssüflər olsun ki, Abxaziyada yaşayan alman kolonistlərinin sayı barədə dəqiq məlumat yoxdur. Alman koloniyaları ənənəvi olaraq planlı şəkildə salınırdı. Əgər gürcü, yunan erməni, moldovan yaşayış məntəqələri daha çox səpələnmiş, xutor şəklində mövcud idisə, rus, eston, o cümlədən alman kolonyaları böyük məntəqələr şəklində yaradılırdılar və hər məntəqədə ən azı 500-600 sakin yaşayırdı. Ekstrapolyasiya metodundan istifadə edərək deyə bilərik ki, Abxaziyanın 3 alman koloniyasında 1500-2000 arası əhali məskunlaşmışdı.[28]

Beləliklə, nəticəyə gələ bilərik XIX əsrin II yarısından başlayaraq çar hökuməti Cənubi Qafqazda daha çox slavyan-rus, pravoslav elementinin güclənməsində maraqlı idi və bu xətt özünü Abxaziyanın məskunlaşdırılmasında daha qabarıq büruzə verdi. 1870-ci illərdən sonra Cənubi Qafqazda gəlmə mühacirlər hesabına 3 yeni koloniya yaradıldı, qalanları isə artıq mövcud olmuş koloniyaların "törəmələri" idi.

Alman əhalisinin XIX əsrin əvvələrində Cənubi Qafqaza köçürülməsi, onun yeni etnik, konfessional, siyasi, iqtisadi şəraitə uyğunlaşması, onun Cənubi Qafqazın yerli əhalisi və bu regiona miqrant kimi gəlmiş başqa etnoslarla qarşılıqlı münasibəti məsələləri böyük maraq doğurur.

S.Q.Qmelin, İ.A.Güldenstedt, G.Y.Klaprot kimi alman mənşəlli alimlərin Qafqaza səyahət edərək bu region haqqında iqtisadi, mədəni, etnoqrafik material toplamış, Qafqazın etnik xəritəsi barədə qiymətli qeydlər aparmışlar. Ancaq, bütün bu adı çəkilən mənbələrdə Cənubi Qafqaz əhalisinə onun mədəniyyətinə bir qədər subyektiv yanaşma nəzərə çarpır ki, bu da bizim fikrimizcə, almanlarda və ümumən Avropa xalqlarında Şərq haqqında, burada yaşayan xalqlar haqqında formalaşan stereotiplərlə bağlıdır.

XIX əsrin 90-cı illərində Rusiya ictimai fikrində Qafqazda aparılan daxili siyasətin mahiyyəti müzakirə obyektinə çevrilir. Bir çox publisistlər, tarixçilər və sair ziyalı təbəqəsinin nümayəndələri Qafqazda xarici miqrantların yerləşdirilməsinin, əsasən də alman və erməni mənşəli mühacirlərin yerləşdirilməsinin

səhv addım olduğunu söyləyirlər. Onların fikrincə, Qafqazda rus əhalisinin yerləşdirilməsi dövlət siyasəti nöqteyi-nəzərindən daha məqsədəuyğun olardı. Yerli mətbuat əsasən Osmanlı imperiyası və İrandan ermənilərin Cənubi Qafqaza köçürülməsini, onların sayının bu regionda artmasını dövlət maraqları üçün gələcəkdə təhlükə yarada biləcək amil kimi qiymətləndirirdi.

1896-1899-cu illərdə Qafqaz qəzetinin redaktoru olmuş V.L.Veliçko da almanlar haqqında mənfi fikrini açıqlayaraq yazırdı ki, "almanların köçürülməsi (Qafqaza – İ.A.) hökumətin ümidlərini doğrultmadı. Belə ki, alman koloniyaları xəzinənin və yerli əhalinin hesabına varlansa da, sonuncular üçün yaxşı heç nə gətirmədilər, əksinə onları öz nökərlərinə çevirdilər".[29]

V.L.Veliçkonun fikri o fakta əsaslanırdı ki, XIX əsrin II yarısında alman kolonistlərinin təsərrüfatlarında geniş şəkildə muzdlu əməyindən istifadə olunurdu. Elə kolonist təsərrüfatları var idi ki, onlar yalnız muzdlu işçilərin hesabına mövcud idi. Muzdlu işçilər müxtəlif xalqlardan olurdular: onların arasında azərbaycanlılar, gürcülər, ermənilər, aysorlar, kürdlər, farslar, ruslara və s. rast gəlmək olardı. Ev təsərrüfatı işlərini yerinə yetirmək üçün kolonistlər daha çox azərbaycanlıların əməyindən istifadə edirdilər. Torpaq və bağlarda qulluq məqsədilə kolonistlər müvəqqəti muzdlu işçi qüvvəsindən istifadə edirdilər ki, onlar əsasən koloniyada almanlarla birgə yaşayırdılar.

Kolonistlərlə muzdlu işçilər arasında işçi münasibətləri mövcud idi. Şəxsi dostluq və yaxud qarşılıqlı bağlılıq haqqında söhbət belə gedə bilməzdi. Hətta bəzi kolonistlər muzdlu işçilərlə özlərini çox amansızcasına aparırdılar. Məsələn, Qafqaz qəzeti 1880-ci il 219 saylı nömrəsində iki azərbaycanlının alman tərəfindən muzdlu işə götürülməsindən və onların almanlar tərəfindən aldadılaraq razılaşmadan əlavə istismar olunması faktından yazırdı.[30] Ayrı-ayrı alman-sahibkarların muzdlu və xüsusən də müsəlman dininə aid işçilərlə qeyri-bərabər davranışı çar hökumətinin apardığı milli siyasətin nəticəsi idi. Məsələn, 1857-ci ildə qəbul olunmuş "Rusiya imperiyasındakı xarici koloniyalar haqqında Nizamnamə"yə nəzər salsaq, görərik ki, burada kolonistlərin ətraf xalqlarla münasibətlərini təyin edən maddələr

vardır. Məsələn, 168-ci maddəyə əsasən alman kolonistlərinə yerli Qafqaz xalqlarının nümayəndələrindən köləliyə satın almaq hüququ verilmişdi.[31] Nizamnamədə göstərilirdi ki, xristian xalqların – gürcü, erməni və yaxud rusların kölәlikdə saxlanılması qadağandır. Kolonist yalnız müsəlman və yaxud bütpərəstlərdən köləliyə işçi ala bilərdi. Köləliyin müddəti 7 ildən artıq ola bilməzdi.[32]

1857-ci il "Nizamnaməsi"nin 399-cu maddəsində kolonistlərə "bütün qonşularla mehriban və dostcasına davranmaq, onlarla torpaq məsələlərində münaqişə etməmək, hər hansı bir kobudluqdan çəkinmək" tövsiyə edilsə də faktiki olaraq 168-ci maddəyə əsasən müsəlman əhaliyə qarşı hər hansı özbaşnalığın törədilməsi üçün şərait yaradılırdı. XIX əsrin II yarısında dövri mətbuatda almanların yerli müsəlman əhali ilə amansız davranışı haqqında yazılar dərc olunurdu.

XX əsrin əvvəllərində P.Basixin almanları xarakterizə edərək yazırdı: onlar öz vətənlərini və yaşayış tərzini əhəmiyyətsiz dəyişikliklər etməklə, yeni-rus şəraitinə gətirdilər. Kolonistlərdə öz milli dəyərlərinə dərin məhəbbət olduğu üçün başqa millətlərə qarşı dözülməzdirlər".[33]

XX əsrin əvvəllərində başqa bir müəllif, Y.Abramov Cənubi Qafqaz almanları haqqında yazırdı ki, almanlar "onları əhatə edən əhaliyə heç bir mədəni təsir göstərməmişlər. Özlərindən razı, hər şeydən şübhələnən, təkəbbürlü, başqa millətin nümayəndələrinə hansısa aşağı bir təbəqə kimi, yuxarıdan aşağı baxırdılar, ən zəruri hallardan savayı onlarla heç bir ünsiyyətə girmirdilər".[34]

Şübhəsiz, "Qafqaz" qəzetində dərc olunan bu yazıların obyektiv əsası vardı. XIX əsrin I yarısında almanlar lüteranlıq ideyalarının sadiq daşıyıcıları kimi var-dövlətə, sələmçiliyə biganə yanaşır, zəngin yaşamağı, başqalarını istismar etməyi günah sayırdılar. Kapitalizmin inkişafı kolonistlərin şüurunda əsaslı dəyişikliklərə gətirdi və bu dəyişikliklər nəinki koloniyadaxili həyata, həm də kolonistlərin yerli əhali ilə münasibətlərinə böyük təsir etdi.

Çar hökuməti almanların onları əhatə edən xalqlarla münasibətlərini çərçivəyə salmağa, almanları təcridolunmuş şəkildə

saxlamağa çalışsa da qarşılıqlı mədəni, iqtisadi əlaqələr mövcud idi və bu baxımdan kolonistlərlə Qafqaz xalqları arasında mövcud olan həqiqi münasibətlər böyük maraq doğurur.

Qafqazda yaranan alman koloniyalarının əhəmiyyətli hissəsi tarixən azərbaycanlıların məskunlaşdığı ərazilərdə yaranmışdı və çar hökumət dairələrinin məhdudiyyətlərinə baxmayaraq almanlar və azərbaycanlılar arasında iqtisadi, mədəni əlaqələr formalaşmışdı.

Azərbaycanlıların alman kolonistləri ilə münasibətləri çoxməzmunlu olmuşdur. Burada həm əməkdaşlıq, həm də müəyyən konfliktlərə də aid səhifələrə rast gəlinir, amma ədalət naminə qeyd etməliyik ki, bu münasibətlər tarixində əməkdaşlıq daha çox yer tutur.

Yelizavetpol quberniyası ərazisinə köçürdükləri ilk günlərdən azərbaycanlı əhali onları dostcasına qarşılamış və bir müddət onları öz evlərində yerləşdirilmişlər.

Təbii ki, hər hansı bir miqrant üçün ən birinci problem yeni coğrafi areala, yeni təsərrüfat formalarına və vərdişlərinə, yeni sosial-iqtisadi mühitə uyğunlaşmaqdır. Bu problem Qafqaz almanlarından yan keçməmişdir.

Azərbaycan almanları əsasən çöl və yarımçöl iqliminə xas olan bir ərazidə məskunlaşmışdılar və təbii ki, yeni bir coğrafi şəraitdə öz həyat tərzlərini tapmaqda, fəaliyyətə başlamaqda çətinliklər çəkirdilər. Almanların məskunlaşdıqları ərazi dəniz səviyyəsindən 750 metr yüksəklikdə, Kiçik Qafqaz sıra dağlarının şimal ətəklərində yerləşirdi. Bu əraziyə yağıntılar çox az düşürdü və buna görə mədəni-texniki bitkilərin becərilməsi süni suvarma sistemi olmadan, mümkün deyildi. Kolonistlər üçün ən başlıca problem içməli su problemi idi. İlk illər almanlar içməli suyu açıq kanallardan götürürdülər ki, bu da onlar arasında müxtəlif epidemiyaların yayılmasına şərait yaradırdı. İçməli su problemi azərbaycanlı ustaların köməyi ilə həll edildi. Onlar alman əhalisi üçün kəhrizlər qurdular və tezliklə alman əhalisi təmiz, sağlamlıq üçün əhəmiyyətli kəhriz sularından istifadə etməyə başladı. XIX əsrin ikinci yarısında alman koloniyalarında kəhrizlərin sayı o qədər artmışdı ki, artıq kəhriz suyundan süni

suvarma məqsədilə də istifadə olunurdu.Təsadüfü deyil ki, "kəhriz", "usta" kimi Azərbaycan sözləri alman əhalisinin leksikonunda daimi yer tutmuşdu.[252].

Məskunlaşmanın ilk illərində kolonistlərin maddi vəziyyəti çox ağır idi. Azərbaycanlılar almanlara bacardıqları formada köməklik göstərmişlər. Məsələn, general-mayor İsmayıl xan Şəkinski Sartiçalıda məskunlaşan kolonistlərə 30 inək, 27 dana, 200 qoyun bağışlamışdı.[36] İlk yaşayış evlərini də almanlar azərbaycanlıların köməyi ilə tikmişdilər ki, onun yarısı torpaqda yerləşirdi. Bu cür yaşayış evini almanlar russayağı "zemlyanka" və yaxud azərbaycanca "yurt" adlandırırdılar. Sonralar, XIX əsrin ikinci yarısında almanlar qotika stilində daş evlər tikəndə də, yerli memarlığ elementlərindən də istifadə edirdilər.[37]

Yeni coğrafi şəraitdə düzgün qidalanma böyük əhəmiyyət kəsb edirdi və təbii ki, yüzillərin sınağından çıxmış yerli mətbəx bu baxımdan daha rasional idi. Almanlar azərbaycanlılarla ünsiyyət qurdular, Azərbaycan milli xörəklərini hazırlamağın sirlərini öyrəndilər. "Dolma", "bozbaş", "lülə-kabab", "aş" və sair Azərbaycan milli yeməkləri alman əhalisinin gündəlik qida rasionuna daxil oldu.[38]

Çar hökumət orqanları məskunlaşmanın ilk illərində alman və azərbaycanlıların yaxın təmasda olmasını arzulamırdı. Bunun əsas səbəbi, bizim fikrimizcə, xiliaizm ideyalarının yerli əhali arasında yayılmasının qarşısını almaq məqsədi idi. Bundan başqa hökumət dairələri yerli əhalinin almanlara "mənfi" təsir göstərəcəyindən ehtiyatlanırdı. Almanların uzun illər təcrid olunmuş şəkildə yaşamaları heç də onların yerli xalqın mədəniyyətinə "yuxarıdan aşağı baxma" kimi, qiymətləndirilməməlidir. Sadəcə olaraq təcrid halda yaşamaq və fəaliyyət göstərmək – bu rəsmi dairələrin apardığı siyasətin nəticəsi idi. Bu fikrin doğruluğuna şübhə qalmaması üçün 1857-ci ildə qəbul edilmiş "İmperiyadakı xarici koloniyaların Nizamnaməsi"nə diqqət yetirmək çox vacibdir.[39] Bu Nizamnamədə alman koloniyalarının daxili həyatının bütün məsələləri öz əksini tapmışdı. Qaydalar o qədər şərt idi ki, kolonist Şultsun icazəsi olmadan koloniyanı tərk edə bilməzdi. Ailə və məişət məsələlərində ciddi olmaq, yeni tanışlıq

əlaqələri qurmamaq, özgələrlə ünsiyyətə girməmək və s. kimi qadağalar mövcud idi.

XIX əsrin ikinci yarısında almanlar yavaş-yavaş təcridolmadan yaxa qurtarmağa başladılar. Bu onunla izah olunur ki, 1871-ci il çar II Aleksandırın fərmanı ilə Cənubi Qafqazda yaşayan bütün kolonistlər ümumi idarəetmə sisteminə tabe etdirildilər və "kolonist" statusunu itirərək kəndlilərlə eyniləşdirildilər.[40] Faktiki olaraq koloniya hələ də bir vahid kimi saxlansa da, artıq əvvəlki koloniyadaxili sərt qaydalar bir qədər yüngülləşmişdi.

Alman-azərbaycanlı münasibətlərinin dərinləşməsinə xidmət edən ikinci bir faktor – bu Rusiyada 1860-1870-ci illər burjua islahatlarından sonra kapitalist münasibətlərinin inkişafıdır. Həyatın tələbindən irəli gələn iqtisadi inteqrasiya prosesləri hər iki xalqın yaxınlaşmasına, onlar arasında mədəni əməkdaşlığın intensivləşməsinə təkan verdi. İqtisadi sahədəki yeniliklər alman və azərbaycanlıların daha tez-tez işbirliyi qurmasını, əlaqə yaratmasını tələb edirdi.

Koloniyalarda əsas ünsiyyət vasitəsi alman dili olsa da, kolonistlərin 35% rus dilində yazmağı və oxumağı bacarırdılar. Azərbaycanlılar arasında rus dili bilənlər cəmi 10% təşkil edirdi.[41] Bu səbəbdən almanlar azərbaycanlılarla ünsiyyətdə tərcüməçilərin xidmətindən istifadə edirdilər. XIX əsrin sonlarına və XX əsrin əvvələrinə aid mənbələrdə almanların Azərbaycan dilini mükəmməl bilmələri haqda məlumatlara rast gəlinir.

Yuxarıda qeyd etdiyimiz kimi, almanların Cənubi Qafqazda ilk məskunlaşması Gürcüstan ərazisindən başladı və bu regionda yaranan 26 koloniyadan 17-si Gürcüstan ərazisində salınmışdı.[42] Gürcülərin alman kolonistləri ilə münasibəti məsələsinə gəldikdə, qeyd etməliyik ki, alman əhalisi ilə gürcülər arasında münasibətlər hələ XVIII əsrin sonlarından qurulmağa başlamışdı. 1817-1818-ci illərdə Cənubi Qafqaza köçən kolonistlərin əksəriyyəti Tiflis şəhəri ətrafındakı ərazilərdə məskunlaşmaq istəyirdilər. Bu ərazilər çoxdan mənimsənilmişdi və burada xarici mühacirlərin yerləşdirilməsi üçün boş torpaq sahəsi yox idi. Bu haqda A.P.Yermolov Sankt-Peterburqa dəfələrlə məlumat vermişdi. Bütün bunlara baxmayaraq kolonistlər mərkəzdən Gürcüstanda

məskunlaşmaq hüququ aldılar. Bu səbəbdən Azərbaycandan fərqli olaraq alman əhalisinin Gürcüstanda yerləşdirilməsi yerli gürcü əhalisinin narazılığına səbəb oldu. Noy-Tiflis koloniyası gürcü knyazı Amatunun torpaq mülklərində salınmışdı. Rus istilasına qarşı çıxdığı üçün onun mülkləri əlindən alınsa da bu torpaqların hüquqi vəziyyəti aydınlaşdırılmamışdı. Yelizavettal koloniyasının yaranması yerli gürcülərlə gərgin mübarizə şəraitində baş vermişdi. Hətta mübahisələrin silahlı toqquşmalara çevriləcəyindən ehtiyat edən hökumət orqanları kolonistləri qorumaq üçün 21 əsgər və 6 kazakdan ibarət mühafizə dəstəsi yaradaraq Yelizavettala göndərmişdi.[43]

Gürcü torpaq sahiblərinin alman məskunlarına qarşı mübarizəsi gürcü pravoslav kilsəsi tərəfindən fəal dəstəklənirdi. İstər Noy-Tiflisdə, istər Yelizavettalda, istərsə də Petersdorfda gürcü din xadimləri gürcü əhalisinin sıxışdırılmasının əleyhinə çıxır, almanları regionun başqa yerlərində – azad torpaq sahələrinin mövcud olduğu ərazilərdə yerləşdirilməsini tələb edirdilər.

Qeyd etmək lazımdır ki, bu mübarizə bəzən öz nəticəsini verirdi. Məsələn, Tiflisdən 12 km aralıda yaranan , ilk əvvəl "12 Apostol", sonra isə Petersdorf adı ilə tanınan koloniya yerli – gürcü əhalisi ilə uzun sürən çəkişmələrdən sonra, 1820-ci ildə ərazini tərk etməyə və Marinenfeld koloniyasına qatılmağa məcbur oldu.[44]

Gürcüstanda yaşayan almanların əksəriyyəti üzümçülüklə, şərabçılıqla məşğul olurdular və onların gürcülərlə təsərrüfat sahəsində münasibətləri bu sahə ətrafında qurulurdu. Gürcü üzümçülərin köməyi vasitəsi ilə almanlar mis kuporosu tətbiq edərək üzümlükləri bir sıra xəstəliklərdən qoruya bildilər. Almanlar üzümçüləri əsasən – şaltraube, rundveys, izabella, muskat kimi gətirilmə sortların becərilməsi ilə məşğul olurdular. Yerli əhalidən götürülən tarkveri, Təbriz, rkatsiteli kimi üzüm çubuqları tezliklə, 3-4 ildən sonra məhsul verməyə başladı, almanların gəlirinin artmasını və rifah halının yaxşılaşdırılmasını təmin etdi.[45]

Almanlarla ermənilər arasında tamam fərqli münasibətlər formalaşmışdı və onların qarşılıqlı təması 1821-ci ildən, yəni Bazel missionerləri Azərbaycanın Şuşa şəhərində qərarlaşdıqdan

sonra başladı. Çar hökuməti missionerlər qarşısında bütpərəstlər, müsəlmanlar, yəhudilər arasında xristianlığın yayılması vəzifəsini qoymuşdu. Bazel missionerlərinin qeyri-xristian əhali arasında 13 illik missionerlik fəaliyyəti əməli nəticə vermədi, əksinə, başqa xristian cərəyanlarının tərəfdarlarının, əsasən də erməni gənclərinin protestantizmə meyli müşahidə olunurdu. Şimali Qafqazın pravoslav əhalisi arasında da protestantizmi qəbul edənlərə rast gəlinirdi.

Bazel missionerlərinin Rusiyanın dövlət maraqlarına zidd fəaliyyətini nəzərə alaraq çar I Nikolay 26 iyun 1836-cı il fərmanı ilə Rusiya ərazisində missionerliyi qadağan etdi və missionerlər Qafqazı tərk etməli oldular.

Bazel missionerlərinin fəaliyyəti dayandırılsa da onların işini lüteranlığı qəbul etmiş erməni mənşəli Rusiya təəbələri davam etdirirdilər. Belə şəxslərdən biri alman missionerlərinin köməyi ilə Estlandiyada təhsil alan və 1841-ci ildə Şamaxıda erməni uşaqları üçün yevangelist-lüteran məktəbi təşkil edən Sarkis Ambarsumyan olmuşdur. Ermənilər arasında lüteranlığın yayılması erməni-qriqoryan kilsəsinin narazılığına səbəb oldu, lüteranlığın yayılması erməni xalqının parçalanması üçün şəraitin yaradılması kimi qəbul olunurdu.[46] 1888-ci ilə olan statistik məlumatlara görə Qafqazda artıq lüteranlığı qəbul etmiş ermənilərin sayı 284 nəfər təşkil edirdi.[47] Erməni-lüteranlar əsasən Şamaxıda, Aleksandropolda (indiki Gümrü şəhəri) və Bakıda yaşayırdılar. XIX əsrin 70-ci illərindən başlayaraq Rusiya rəsmi dairələrində ermənilər arasında lüteranlığın yayılmasına mənfi münasibət dəyişdi və hətta Qafqazdakı adda-budda erməni-lüteran icmaları Rusiya Lüteran-Yevangelist kilsəsinin himayəsinə qəbul edildilər.

Ermənilərin Bazel missionerləri ilə yaxınlaşmasında, lüteranlığın qəbul edilməsində öz siyasi məqsədləri var idi. Əvvəl ayrı-ayrı şəxslər tərəfindən başa düşülərək lüteranlığa atılan addım müəyyən dövrdən sonra geniş erməni kütləsi tərəfindən anlaşılmağa başladı. Bu dəyiçiklik onunla bağlı idi ki, 1878-ci ilin Berlin konfransından sonra bəzi Avropa ölkələrinin xarici siyasətində dəyişikliklər baş verdi. Rusiya və bir sıra Qərb ölkələri "Şərq məsələsi"nin həllində "erməni kartı"ndan istifadə etməyə

başladılar. Hətta Rusiyanın rəsmi dairələri erməni əhalisi arasında lüteranlığı yaymaqla qondarma "erməni məsələsi"nin həllində Almaniyanın dəstəyini qazanmaq niyyəti güdürdülər. Almaniyanın ermənilərlə təması yalnız dini-mədəni sahəni əhatə edirdi.

Almaniyada "erməni məsələsi" heç vaxt populyar olmamışdır. Almaniyalı siyasətçilər yaxşı başa düşürdülər ki, ermənilər lüteranlığı qəbul etməklə nə kimi siyasi məqsədlər güdürdülər və dırnaqarası "erməni milli hərəkatının" arxasında Rusiyanın Şərqi Anadolunu ələ keçirmək planları durur.

Hətta erməni lobbisinin səyləri nəticəsində bu problem imperator II Vilhelmin özünə şəxsən bildirilmişdi və imperator diplomatik şəkildə "ermənisevər" siyasətçilərə rədd cavabı vermişdi. Bütün bunların fonunda erməni əhalisində alman kolonistlərinə qarşı soyuq münasibətlər formalaşırdı.

Ermənilərin almanlara mənfi münasibətində başqa bir səbəb iqtisadi amillərlə baglı idi. XIX əsrin II yarısında kənd təsərrüfatında kapitalizmin inkişafı istehsalın daha çox bazar tələbləri üçün işləməsinə gətirib çıxardı. Alman-kolonist təsərrüfatları daha çox bazar iqtisadiyyatına istiqamətləndi və tezliklə iri şəhərlərdə – Tiflisdə, Bakıda, Gəncədə alman kolonistlərinə məxsus ticarət obyektləri fəaliyyətə başladı və onların sayı durmadan artırdı. Kolonistlərin ticarətlə məşğuliyyəti və başlıcası vasitəçisiz bazara çıxmaq imkanlarının əldə etməsi ticarətdə daha çox inhisarçılıq edən ermənilərin maraqlarına zidd idi.

Cənubi Qafqazda siyasi vəziyyətin mürəkkəbləşdiyi bir dövrdə alman kolonistləri çalışırdılar ki, milli məsələlərdə neytral mövqe tutaraq apolitik statuslarını saxlasınlar. Bu koloniyalarda sabitliyin qorunması çox vacib idi. Milli zəmidə baş verən istənilən münaqişə koloniyaya fəlakət gətirərdi.

4 noyabr 1904-cü il tarixdə Yelizavetpol qubernatoru Lutsay məxfi sərəncama imza atdı.[48] Burada göstərilirdi ki, bölgəyə "erməni milli-inqilab hərəkatının" törətdiyi cinayətlərin böyük əksəriyyətini İran və Türkiyədən gəlmiş ermənilər törədirdilər, hansıların ki, Rusiya imperiyası ərazisində yaşayışı rəsmi şəkildə qeydə alınmamışdır. Sənəddən görünür ki, yerli əhali (yerli ermənilər – İ.A.) onlara yaşayış yeri verir, onların cinayətkar

fəaliyyətinə göz yumur, bəzən də cinayətkarları gizlədirdilər. Bu səbəbdən qubernator göstəriş verirdi ki, koloniyada yaşayanların sənədləri yoxlanılsın, qeydiyyatsız yaşayan erməni aşkar olunarsa, onlar koloniyadan çıxarılsınlar və onlara himayədarlıq edən sahibkarlar cərimə olunsunlar".[49]

"Daşnaksuytun" partiyasının Yelizavetpoldakı komitəsi terrorçuları istiqamətləndirir, terror fəaliyyətini maliyyələşdirmək üçün alman mənşəli iş adamlarına hədə-qorxu gəlir, onlardan böyük miqdarda pul tələb edirdi. Əgər onların tələbinə imtina cavabı verilərsə, iş adamının həyatı təhlükə altına alınırdı və bəzən də faciə baş verirdi.[50] 1906-cı ildə Qotlib Frikə qarşı terror törədilmişdir. Tanınmış iş adamı Forerdən daşnaklar 30 min rubl ödəməyi tələb etmişdilər. Alman kolonistləri ermənilərin təzyiqlərini dəf etmək xahişilə Yelizavetpol quberniyasının müvəqqəti qubernatoru general Fleyşerə müraciət etdilər və ermənilərin koloniyadan uzaqlaşdırılması uğrunda inadkarcasına mübarizəyə başladılar. Yelenendorfda çoxsaylı mövsümi fəhlələr çalışırdılar və onlar koloniyada icarəyə mənzil götürərək, kolonistlərlə qonşuluqda yaşayırdılar. Ermənilərin koloniyada yerləşməsi ilə daxili sabitlik pozuldu. Erməni mənşəli cinayətkarlar koloniya sakinlərinin əmlakını oğurlayır, polis orqanları ilə küçələrdə atışmalar törədirdilər. 1906-cı ildə Molla Hacılı kəndində erməni qaçqınlarının yerləşdirilməsindən sonra daha da kəskinləşdi. Bu kənd azərbaycanlılara məxsus olmuşdur və 1905-1906-cı illərin hadisələri nəticəsində azərbaycanlılar kənddən qovulmuş, kənd ermənilər tərəfindən zəbt edilmişdi. Arximandrit Koryunun vasitəçiliyi və rəsmi orqanların razılığı ilə Molla Hacılıda Osmanlı imperiyasından gələn erməni ailələri yerləşdirildi.[51] Sonralar arximandrit Koryun 1905-1907-ci illərdə törətdiyi cinayətlərə görə katorqaya göndərildi. Koryunapat, yəni köhnə Molla Hacılı kəndinin adı dəyişdirilib Tserkovnı adlandırıldı və Yelizavetpola birləşdirildi. 1907-ci ildən sonrakı dövrdə ermənilərin terrorçu fəaliyyətinin qarşısı qismən alınsa da 1917-ci ilin yazından onların yenidən fəallaşması müşahidə olunurdu.

1917-ci ilin fevralın 23-də Petroqradda başlayan demokratik inqilab çarizmin devrilməsi ilə başa çatdı. Ölkədə demokratiyanın

bərqərar olması istiqamətində Müvəqqəti hökümət əhəmiyyətli addımlar atdı. Ancaq Fevral inqilabı demokratiya və azadlıqlarla yanaşı ölkəyə siyasi hərc-mərclik, özbaşnalıq da gətirdi. Azərbaycanda mövcud olmuş alman koloniyalarının 1917-1918-ci illərdə ictimai-siyasi həyatına aid arxiv sənədlərini araşdırarkən erməni millətçilərinin nəinki Azərbaycan türklərinə, o cümlədən Azərbaycanda məskunlaşan alman kolonistlərinə də düşməncəsinə yanaşdığı, onlara qarşı silahlı basqınlar etməsi faktı üzə çıxır.[52] Erməniləri almanlara qarşı təcavüzə sövq edən əsas iki amil var idi: birincisi erməni-azərbaycanlı münaqişəsində almanların erməni quldurlarını dəstəkləməməsi və hətta bəzi hallarda azərbaycanlıları müdafiə etməsi və ikinci, ermənilərin almanları öz yaşayış yerlərindən qovmaq, onların yüksək səviyyəyə malik təsərrüfatlarını, evlərini, geniş torpaq sahələrini, sənaye obyektlərini ələ keçirmək niyyəti.

Mart soyqrımı ərəfəsində erməni quldurları bütün yaşadıqları məntəqələrdə fəal hərəkata başlamışdılar. Artıq 22 mart 1918-ci il tarixdə Yelenendorfda və ətrafında yaşayan ermənilər alman kolonistlərinə qarşı mübarizəyə başladılar. Onların əsas məqsədi zor gücünə Yelenendorfda məskunlaşmaq idi. Ancaq Yelenendorf kənd komitəsi öz iclasında qərara aldı ki, ermənilərin Yelenendorfda yerləşdirilməsi azərbaycanlıların mənafeyinə zidd addım kimi qiymətləndirilə bilər. Kolonistlər bu mürəkkəb dövrdə neytrallıq saxlayır və bu səbəbdən koloniyada həm azərbaycanlıların, həm də ermənilərin məskunlaşmasını qadağan etdi. Yalnız bir-biri ilə düşmən münasibətdə olmayanlara Yelenendorfda yaşamaq hüququ verildi.[53]

Alman əhalisinin yerli Qafqaz xalqları ilə münasibətlərində 1918-1920-ci illərdə mühüm dəyişikliklər baş verdi. Bu dəyişikliklərin xarakteri Qafqaz dövlətlərinin apardığı daxili və xarici siyasət kursu ilə və birinci növbədə onların Almaniya ilə münasibətlərinin xarakterindən çox asılı idi.

Baden-Vürtemberqdən, Gessendən, Bavariyadan və sair alman torpaqlarından Qafqaza köçməyi qət edən almanların bu yeni regionun əhalisinin tarixi, mentaliteti, psixoloji durumu haqqında təsəvvürləri belə yox idi. Tarixində ən çətin dövrü yaşayan

azərbaycanlılar və gürcülər tarixi təcrübə ilə əlaqələnən etnik depressiv vəziyyətdə alman köçkünlərində “düşmən obrazı” yaratmadı, onlarla münasibətlərdə “özününkü” “özgə” prinsipi ilə sədd çəkmədi. Çünki Qafqaz xalqlarına ümumi “Qafqazlı şüuru”, “Qafqazlı özünüeyniləşdirməsi” daha xarakterik idi və bunun ən açıq ifadəsi ətrafdakılara tolerant münasibətdə özünü göstərirdi. Təbii ki, alman kolonistləri ilə Cənubi Qafqaz xalqları arasındakı münasibətləri ideallaşdırmaq olmaz, çünki birgə yaşayış prosesi çox mürəkkəb xarakterlidir.

Alman köçkünlərinin qonşu xalqlarla münasibətinə təsir edən ən başlıja amillərdən biri onların dini baxışları olmuşdur. Qafqaz regionuna və əsasən də Cənubi Qafqaza köçənlər üçün öz dini etiqadına sədaqət hər hansı maddi nemətdən üstün idi. Beləliklə, deyə bilərik ki, Qafqazda protestantizmin ən fanatik adeptləri məskunlaşmışdılar ki, bu da onların həyatına bir sıra xüsusiyyətlər gətirdi, əsasən də onları əhatə edən xalqlarla münasibətlərin spesifikliyinə təsir göstərdi.

Beləliklə, Qafqaz almanlarının yerli etnoslarla münasibətinin bəzi məsələlərinə nəzər saldıqdan sonra belə bir qənaətə gəlmək olar ki, azərbaycanlıların və gürcülərin almanlarla münasibətlərində müəyyən münaqişələr baş versə də, onlar məişət zəminində yaranırdı. Bu münaqişələr yüzillik birgə yaşayış dövründə heç vaxt etnik xarakter daşımamışdır. Azərbaycanlılar və gürcülər almanlarla simbioz münasibətlərdə olmuş, iqtisadi siyasi, mədəni məsələlərin həllində alman kolonistlərinə yardımçılıq etmişlər. Kolonistlərin əldə etdikləri yüksək nailiyyətlər məhz bu cür qarşılıqlı əməkdaşlıq nəticəsində mümkün olmuşdur.

[1] AKAK (Акты, собранные Кавказской археографической комиссией), T.6, Tiflis, 1884, s.701
[2] Azərbaycan Respublikası Dövlət Tarix Arxivi (qısa-ARDTA), f.508, siy.1, iş 436, v.23
[3] Дзюбенко П. Немецкие колонисты в Закавказе // "Кавказ", №313, 1882, s.3-4
[4] Аух Е-М. Немецкие колонисты в Закавказье //Российские немцы на Дону, Кавказе и Волге. Материалы российско-германской научной конференции. М., İВДК, 1995, с.106
[5] Yenə orada
[6] Сборник материалов для описания местностей и племён Кавказа, вып. 29, Тифлис, 1901, s.2
[7] Ибрагимов Н.А. Немецкие страницы Азербайджана.Б.: "Азербайджан", 1995, s.43
[8] ARDTA. f.508, siy.1, iş 436, v.24
[9] Heimatbuch 1961. Landsmanschaft der Deutschen aus Russland. Bearbeitet von Dr. Karl Stumpp, Stutgard, 1961,s.111
[10] Никифоров Н.К. Экономический быт немецких колонистов в Закавказском крае. МИЭБГКЗК. т.1. Тифлис, 1886 ПСЗ-1, т.16, №11720, СПб., 1830, s.46
[11] Aux E.M. Göstərilən əsəri, s.108
[12] Verdiyeva H.Y. XIX əsrin I yarısında Şimali Azərbaycanın əhalisi. Bakı, 1993, s. 224. (Hesablamalar müəllifindir.)
təşkil olunmuşdu. Bu forumlarda tərəflərin təklif etdikləri prinsiplər arasında köklü fərqlər ortaya çıxmışdı. Məsələn, 1919-cu ilin aprelin 25-də Tiflisdə işinə başlayan konfrans mühüm dövlətlərarası məsələri həll etmək üçün müxtəlif komissiyalar təşkil etmişdi. Onlardan birinin – ərazi komissiyasının mayın 14, 17 və 19-da olmuş iclaslarında ərazi ixtilaflarının nizamlanmasına dair ümumi prinsiplərin işlənib hazırlanmasına cəhd edildi (8, v.1-4). Müzakirələr gedişində tərəflər öz prinsiplərini təqdim etdilər. Azərbaycan tərəfinin təklifləri "təyini-müqəddərat", yəni etnodemoqrafik prinsipə söykənirdi, lakin bu zaman Dağlıq Qarabağa və s. bu kimi ərazilərə erməni iddialarının qarşısının alınması üçün mühüm bir şərt də irəli sürülürdü: mübahisəli rayon təsərrüfat-məişət və tarixi şərtlərlə digər mübahisəsiz rayonlarla bağlıdırsa, onda referendum ümumən götürülmüş bu rayonların hamısında keçirilməlidir.

Yeri gəlmişkən, konfransda Azərbaycan diplomatiyasının riayət etdiyi etnodemoqrafik prinsip onun çağırılması ərəfəsində Ü.Hacıbəyli – Birinci respublikanın intellektual liderlərindən biri tərəfindən bədii-siyasi ifadəsini belə tapırdı: "Hüdud məsələsi müzakirəsinə başlarkən bir əsas üzərində dayanmaq lazımdır... Biz... "etnoqrafi" əsas tərəfdarıyıq, yəni bir yerin, bir mahalın sakin olduğu millətlərindən çoxluq və azlıq kimin tərəfində olduğunu mülahizə edirik... Bizim... yalnız istədiyimiz budur ki, əksəri Azərbaycan türk və islamları ilə məskun olan yerlər Azərbaycan dövlətinə mütəəlliq olsun" (13).

Gürcü tərəfi öz müqəddəratını təyin etmə prisipi əsasında dövlət sərhədlərinin müəyyən edilməsi perspektivini dərhal rədd etmişdi: onun formulə etdiyi prinsip münaqişələrin nizamlanması zamanı dövlətlərin tarixi-strateji sərhədlərinin və mübahisəli bölgələrin təsərrüfat-məişət şəraitinin əldə rəhbər tutulmasını güman edirdi.

İrəli sürülən bu təklif gürcü etnik elementi tərəfindən zəif məskunlaşmış Zaqatala mahalı kimi vilayətlərin nə zamansa gürcü çarlığında bulunması faktından yeni Gürcüstan dövlətinin ərazi cəhətdən təsbitində əsas kimi istifadə etmək niyyətindən doğurdu. Elə "mübahisəli rayonun təsərrüfat-məişət şəraiti" ifadəsi də

həmin məqsədə xidmət edirdi: qeyd etdiyimiz kimi, müstəqillik elanı ərəfəsində Zaqatala dairəsi Tiflis quberniyası ilə kifayət qədər iqtisadi əlaqələrə malik idi.

Yeri gəlmişkən, gürcü tərəfinin apellyasiya etdiyi "tarixilik" prinsipinə Ü.Hacıbəylinin (və onun simasında, fikrimizcə, Azərbaycanın siyasi-intellektual dairələrinin) münasibəti yuxarıda qeyd etdiyimiz məqaləsində belə ifadə olunurdu: "Zatən biz də tarixə müraciət edə bilərik; ancaq bu şərtlə ki, o tarix "Nuh əyyamının" tarixi olmaya, yəni qədim tarix olmayıb da yaxın tarix bəhsi ola". Gətirilən fraqmentdən Üzeyir bəyin tarixi keçmişə müraciətində bir növ inamsızlığı nəzərə çarpır. Bu, ümumiyyətlə, Birinci respublika müəlliflərinin dövlət quruculuğunun və siyasi-ərazi identikliyinin ideoloji cəhətdən əsaslandırılmasında önəmli rol oynayan tarixi keçmiş haqqında bitkin və konseptual təsəvvürlərinin hələ qeyri-kafi halda olmasından xəbər verirdi. Öz etnoslarının tarixinə dair bu cür bitkin konseptual münasibət gürcü və erməni siyasi və sosiomədəni şüurunda artıq XIX əsrdə təşəkkül tapmışdı. Belə münasibət, etiraf olunmalıdır ki, həmin xalqların yetərincə zəngin tarixi ədəbiyyat ənənəsindən qaynaqlanırdı. Gürcü və ermənilərdən fərqli olaraq, Azərbaycan türklərində belə bir ənənənin demək olar ki, yoxluğu, və ümumiyyətlə, özünüidentikləşdirmənin etnik zəmində inkişafının qonşularına nisbətən daha gec başlaması Azərbaycan tarixi keçmişinə dair dolğun və bitkin konsepsiyanın o dövrdə hazırlanmamasına gətirib çıxarmışdı.

Universalist səciyyəli (sosial-demokratik) ideologiyanın daşıyıcıları olan gürcü menşeviklərinin xarici-siyasi kursunda ekspansionist mahiyyətli "tarixi-strateji" adlanan prinsipə istinad etmələri M.Ə.Rəsulzadənin də təəccübünə səbəb olmuşdu. O, "Azərbaycan" qəzeti səhifələrində bu məqama münasibətini belə ifadə edirdi: "Təyini-hüdud kibi məsələlərdəki əsrimizin ruhuna uyan milliyət və rəy-amm (referendum) olduğu hər kəsdən ziyadə Gürcüstan hökuməti başında duran sosial-demokratlara bəlli olsa gərək. Milli tələbləri demokratlıq cildinə geydirmək məharətində Sereteli kibi natiqəpərdaz hər nə qədər mahir olsalar da, təsirləri yalnız Azərbaycan hüdudunu Neftlikdən (indiki Naft-

luqi – Ş.R.) bir az uzaqlaşdırmaq, Tiflisə nəfəs verdirmək üzərinə aid ola bilir. Yoxsa qatı imperialist məsləki olan "hüdudi-tarixiyyə" əfsanəsini Sereteli cənabları belə söyləsə, kimsə bir həqiqət olaraq onu qəbul edəməz" (21).

Haqqında yuxarıda danışdığımız konfrans ərazi mübahisələrinin nizamlanmasına dair hərtərəfli prinsipləri işləyib hazırlamağa müvəffəq olmadı: Denikin təhlükəsi ilə əlaqədar işini dayandıran forum yetərincə yayğın, heç nəyə məcbur etməyən və iki şərti ehtimal edən qətnamə qəbul etdi. Birinci şərtə əsasən, yalnız dövlətlərarası sərhədyanı ərazilər mübahisə predmeti ola bilərdi. İkinci şərtə görə, bu mübahisələrin həlli maraqlı respublikaların razılaşmasına verilirdi. Sazişin baş tutmadığı halda isə məsələ arbitraj yolu ilə həll edilməli idi (8, v.3-4).

1920-ci ilin aprelində – Azərbaycanın sovetləşməsi ərəfəsində Tiflisdə keçirilən növbəti Cənubi Qafqaz konfransında (10, v.26-27) regional təhlükəsizlik və əməkdaşlıq sisteminin formalaşdırılması, həmçinin münaqişələrə müəyyən normativ baza verilməsi istiqamətində növbəti və daha ciddi addım atıldı. Konfransın 22 aprel iclasında "Transqafqaz cümhuriyyətləri şurasının" əsasnaməsi təsdiq edildi. Bu sənədə əsasən, "şuraya" olduqca geniş, o cümlədən mövcud ərazi mübahisələrinin dinc həllinə yönəlmiş tədbirlər almaq səlahiyyətləri verilirdi.

Faktiki olaraq bu konfrans sovetləşməyə qədər mövcud siyasi-hüquqi münasibətlər sistemi daxilində Cənubi Qafqaz regionunun inteqrasiya vektorunun konturlarını cızırdı.

1919-cu ilin yanvarın əvvəlində iki respublika arasında siyasi ixtilafa çevriləcəyi ilə hədələyən diplomatik qalmaqal qopdu. Azərbaycan hökuməti gürcü rəsmilərindən Zaqatala dairəsinə aid Tiflis şəhərindəki keçmiş Rusiya arxiv və təsisatlarının sənədlərinin verilməsini xahiş etmişdi. Məsələ onda idi ki, çar Rusiyası dövründə Zaqatala dairəsinin bir sıra mülki ehtiyacları məhz Tiflis quberniyasının müvafiq idarə və təsisatları tərəfindən təmin edilirdi. Ona görə də mahala dair sənəd və materialların əksəriyyəti də həmin quberniyanın mərkəzində yığılıb qalmışdı.

Gürcü hökuməti bu əsaslı xahişə "dairənin Gürcüstanın ayrılmaz ərazisi olması" formulu ilə qəti şəkildə rədd cavabı vermişdi (28, 1920, 4 yanvar, №3).

Gürcü hökumətinin bu qərarı milli-demokratların orqanı olan "Qruziya" qəzetində geniş və təkəbbürlü şəkildə şərh olundu (İqtibas aşağıdakı mənbə üzrə verilir: 32). Məqalənin əsas leytmotivi Zaqatala dairəsinin – "Saingilonun" Gürcüstana şəksiz mənsub olması haqqında tezis idi. Yazının sonunda Azərbaycan açıq-aşkar müharibə ilə hədələnirdi: "Gürcüstan hökuməti dairədəki mövcüd status – kvo-ya razılıq verməklə böyük güzəştə getmişdir (yəni məsələ hələ əvvəlcədən güc tətbiqi ilə həll edilə bilərdi – Ş.R.). Ona görə də Azərbaycan hakimiyyət orqanları həmçinin lazımi ehtiyatlılığa və dövləti mərifətə riayət etməlidir ki, düşünülməmiş təklifləri ilə gürcü xalqına arzuolunmaz nəticələr çıxarmağa bəhanə verməsin". Təhdidlərin daha müdhiş olması üçün isə yaxın keçmişdəki gürcü-erməni savaşına eyham edilirdi: "Məgər yaxın günlərin nümunəsi düşünülməmiş əməllərdən çəkinmək üçün zəhmli xəbərdarlıq deyildirmi... Gürcü xalqı həyasız düşməni qaçmağa məcbur etdi və o yeni macəraçılığı təkrarlamağa çətin ki, bir də cəhd edə".

Gürcüstan hökumətinin rədd cavabı və başlıcası isə "Qruziya" qəzetinin, fikrimizcə, öz ölkəsinin siyasi yuxarılarının mübhəm niyyətlərini müəyyən mənada açan şərhləri Azərbaycan ictimai-siyasi şüurunda Zaqatala mahalının identikliyi məsələsini aktuallaşdırdı.

Yarırəsmi "Azərbaycan" qəzetində 1919-cu ilin ilk aylarında sözügedən bölgəyə dair Azərbaycanın siyasi intellektualları kimi işarələdiyimiz zümrənin (M.Ə.Rəsulzadə, B.N.Kiçikxanov, Ü.Hacıbəyli, İ.Qəbulov) bir sıra məqalələri dərc edildi (14, 16, 17, 18, 19, 21). Bu məqalələrdə formalaşmaqda olan Azərbaycan milli-ərazi identikliyində Zaqatala mahalına verilən yüksək simvolik önəm aydın sezilməkdə idi: Zaqatala mahalı "Azərbaycanın zəngin hasilxiz (bərəkətli – Ş.R.), qəyyur (qeyrətli – Ş.R.) və həmiyyətmənd (şərəfli, ləyaqətl – Ş.R.)", "hər bir nöqteyi-nəzərdən ixtilaf götürməz" "bir qitəsi" (M.Ə.Rəsulzadə), "Azərbaycanın cüzi layənfəki, ayrılmaz bir cüzi" (B.N.Kiçikxanov, Ü.Hacıbəyli) kimi qavranılırdı.

M.Ə.Rəsulzadəyə görə, Zaqatala vilayətinin Azərbaycana mənsubiyyətini labüd edən "bariz sübutlar, cərh edilməz (yarılmaz; burada: inkar edilməz – Ş.R.) dəlillər, söz götürməz bür-

hanlar (arqumentlər – Ş.R.) var…”. Birincisi, “Zaqatala okrugu Zaqafqasiyanın xalis müsəlman əhalisi ilə məskun vilayətlərindəndir” və “türkcə bütün müsəlmanlar arasında danışılır ümumi bir dildir”. Bu arqumentasiya Azərbaycan xalq cümhuriyyətinin banilərinin, öz dövlətlərini Qafqazın türk-islam aləmini konsolidasiya edəcək siyasi varlıq kimi təsəvvür etmələrindən irəli gəlirdi. Rəsulzadənin ikinci dəlili coğrafi amil ilə bağlıdır: “Vilayətin Şimali Qafqasiya ilə olan rabitəsi aylarla bağlanıyor. Coğrafiya nöqteyi-nəzərindən Zaqatala Nuxa qəzasının mabədidir”. Burada təbii, sosial, təsərrüfat və mədəni hüdudlarla üst-üstə düşən daha “ədalətli” sərhədin çəkilməsinə çağırışı sezmək mümkündür: müəllif söyləmək istəyir ki, Nuxa qəzasının (oxu: Azərbaycanın) mabədi olan Zaqatala mahalı Dağıstandan fiziki-coğrafi baxımdan, Gürcüstandan isə sosiomədəni cəhətdən əlahiddələşmişdir. Rəsulzadənin bu dəlili Kiçikxanovun “Zaqatala haqqında” məqaləsində irəli sürülmüş aşağıdakı tezisdə bir növ davamını tapırdı: “Zaqatala ilə Gürcüstan həmhüdud olmaqdan başqa, tarixi, etnoqrafi və ictimai nöqteyi-nəzərdən əsla münasibətləri olmaması bir həqiqətdir”.

Və nəhayət Rəsulzadənin üçüncü dəlili Zaqatala sakinlərinin Azərbaycan siyasi məkanının könüllü inkorporasiya təxminindən nəşət edirdi: “Daha Cənubi Qafqas müsəlmanlarının Mərkəzi Komitəsi təşkil olunduğu zaman Zaqatal(a)lı qardaşlarımız kəndi nümayəndələrini göndərməklə bizimlə mərbut (bağlı, rabitəli – Ş.R.) olduqlarını göstərmişlərdi. Azərbaycan hökuməti ilk dəfə olaraq Gəncədə təşəkkül etdiyi zaman Zaqatal (a) vilayəti dəxi bu hökuməti tanıdı: onun göndərmiş olduğu məmurları qəbul elədi. Şimdiki halda dəxi Zaqatal nümayəndələri Azərbaycan parlamanında isbati-vücud ediyorlar”.

“Sənəd qalmaqalı” ilə paralel olaraq 1919-cu ilin əvvəllərində Gürcüstan-Azərbaycan arasında mübahisəli ərazilərdə gizli təşviqat müharibəsi də qızışmaqda idi. Mart ayında Zaqatala mahalına baş çəkən parlament üzvü B.N.Kiçikxanov“Azərbaycan” qəzetinə həyəcan dolu teleqram göndərmişdi (11). Orada bölgəyə gəlmiş gürcü təşviqatçılarının xüsusi dəstəsinin əhali, əlxüsus da ingiloylar arasında Gürcüstana birləşmək lehinə fəal

təbliğat aparmaları haqqında məlumat verilirdi. Müəllif Bakıya döndükdən sonra "Zaqatalada gürcülərin propaqandası" adlı məqaləsində oxuculara məsələnin təfərrüatlarını çatdırdı (18). Kiçikxanovun bilgilərinə əsasən, martın əvvəllərində Zaqatalanın strateji cəhətdən araşdırılması bəhanəsi ilə oraya gürcü hərbi topoqrafı Pavliyev göndərilmişdi. O, tezliklə Telavi qəzasında məntəqə komandanı Tartaraşvili və Xutsiyevi (onların hər ikisi əslən qaxlı idilər) Laqodexə dəvət edərək, buradan məntəqə komandanı Nadirov və daha dörd nəfərlə birlikdə Zaqatalaya yollanmışdı. Bu qrupun gəlişi yerli Zaqatala ziyalılarında narahatçılıq doğurmuş, lakin hakimiyyət orqanlarına müraciətlər nəticəsiz qalmışdı.

Məqalə müəllifinin sözlərinə görə, Pavliyevin qrupu silahlı idi və vilayət daxilində yetərincə sərbəst fəaliyyət göstərirdi: gürcü təbliğatçılar Əlibəyli, Qorağan, Tasmalı, Əliabad, Qax və s. kəndlərdə "Azərbaycandan bir şey çıxmayacağını, Zaqatala əhalisinin siyasətan və iqtisadan mənafeyi ancaq Gürcüstan hökumətinə tabe olmada olduğunu və tez bir zaman içində Zaqatalanı istila üçün gürcü əsgərləri göndərəcəyi" barədə şayiələr yayırdılar. Kiçikxanov gürcü təbliğatçılarının fəallaşmasını Zaqatala vilayəti sərhədinə yaxın məntəqələrdə – Laqodex və Haçaqaya qəsəbələrində gürcü əsgərlərinin toplaşması ilə əlaqələndirirdi. Prinsipcə, müəllif vəziyyəti düzgün qiymətləndirirdi: 1919-cu ilin fevral-mart aylarında Zaqatala mahalı və Sığnaq qəzaları arasında sərhədyanı zonada, "mübahisəli torpaq sahələri" məsələsi ilə əlaqədar gərginlik yaşanmışdı.

Zaqatala ətrafında gedən mübahisələr Ü.Hacıbəylinin də marağına səbəb olmuşdu. Onun "Zaqatala məsələsi" adlı məqaləsində (14) ixtilafın başlıca predmeti kimi bölgənin iqtisadi resursları göstərilirdi: "Bizcə iş tarix üstündə deyildir. Təbii sərvətlərə malik olan Zaqatala ölkəsi Gürcüstan üçün bir növ zəxirə (azuqə – Ş.R.) və ərzaq anbarıdır".

Üzeyir bəy Azərbaycan hakimiyyətinin mahal ilə əlaqədar strateji məqsədini belə təsəvvür edir : "...bizim borcumuz budur ki, Zaqatala ölkəsini bir tərəfdən gürcü təərrüzlərindən

(hücumlarından – Ş.R.) qorumaq və digər tərəfdən Azərbaycan mərkəzinə o qədər mərbut etmək ki, bu ölkə məmləkətimizin hər bir surətdə təbii olaraq layənfək bir cüzi mahiyyətini haiz olsun".

Beləliklə, 1919-cu ilin əvvəllərində baş vermiş hadisələr – "sənəd qalmaqalı", "təbliğat müharibəsi", sərhəddə vəziyyətin gərginləşməsi Azərbaycanın ictimai-siyasi şüurunda Zaqatala məsələsini aktivləşdirdi və aktuallaşdırdı: bölgə, onun tarixi, siyasi mənsubluğu kimi mövzular ilk dəfə idi ki, Azərbaycan mətbuatında belə açıqlıqla disskusiya olunmağa başlanıldı. İqtibas gətirdiyimiz məqalələrdə Zaqatala mahalının sərhədyanı bölgə kimi Azərbaycan üçün simvolik əhəmiyyəti təsbitlənirdi: mahal, indidən belə ictimai şüurda ölkənin siyasi, mədəni və coğrafi məkanının ayrılmaz üzvi hissəsi kimi öz qəti təsdiqini tapırdı.

1919-cu ilin ilk aylarında yuxarıda qeyd etdiyimiz hadisələrlə əlaqədar yaranmış gərginlik səngidikdən sonra Azərbaycan-Gürcüstan münasibətlərində bilavasitə Zaqatala mahalının mənsubluğuna dair məsələ nisbətən kəsərliliyini itirdi. Bu, bir qədər sonra bəhs etdiyimiz kimi, xarici-siyasi amil ilə bağlı idi: hər iki respublikanın fiziki mövcudluğuna real təhlükə doğuran Denikin faktoru onları yaxınlaşmağa sövq edirdi. Gürcü hakimiyyət orqanları "Qruziya" qəzetinin etirafına görə, "baş vermiş faktla" – mahalın Azərbaycan tərkibində qalması ilə barışmalı olmuşdular. Azərbaycan da Borçalıya münasibətdə analoji surətdə hərəkət etmək məcburiyyətində qalmışdı: halbuki bu qəzanın Azərbaycanın iddia etdiyi məntəqələrinin əhalisi türklərdən ibarət idi və həmin əhali dəfələrlə öz müraciətlərində Azərbaycana birləşmək arzusunu izhar etmişdi. Yeri gəlmişkən, etnokonfessional və tarixi baxımdan Azəbaycanla üzvi vəhdət təşkil edən Zaqatala və Borçalı bölgələrinin mənsubluğu məsələlərində mahiyyət fərqi də bu məqamda idi: Zaqatala dairəsinin əhalisi bulunduğu dövlətin tərkibinə könüllü daxil olmuşdusa, Borçalı qəzası, əhalinin ümumi rəyinə rəğmən, xarici-siyasi faktorun təsiri ilə Gürcüstan tərkibinə daxil edilmişdi.

Fikrimizcə, Gürcüstanın 1920-ci ilin mayınadək Zaqatalaya münasibətdə iddialarını açıq şəkildə reallaşdırmağa girişməkdən

çəkindirən əsas amillərdən biri də onun Borçalı məsələsinin aktuallaşmasından ehtiyatlanması idi.

Yekunda qeyd etmək istərdik ki, "Zaqatala məsələsinin" həmin dövrdə Cənubi Qafqazda baş verən analoji və sinxron münaqişələrdən fərqli cəhəti latent (gizli) formada cərəyan etməsi idi. Biz belə bir vəziyyətin səbəblərini aşağıdakı şəkildə görürük:

1) 1917-1920-ci illərdə regionda baş verən hadisə və proseslərin xarici-siyasi (beynəlxalq) kontekstdən asılılığını artıq qeyd etmişdik. Bir daha vurğulayardıq ki, xarici-siyasi çağırışlar (Denikin, daha sonra bolşevik təhlükəsi, beynəlxalq tanınmaya nail olma üçün xarici-siyasi fəaliyyəti uzlaşdırma zərurəti və s.) Azərbaycan və Gürcüstanın siyasi yaxınlaşmasını və deməli, mövcud ixtilafların arxa plana çəkilməsini zəruri edirdi.

2) "Zaqatala məsələsinin" açıq və hətta zorakı təzahür və cərəyan etmə forması kəsb etməsini əngəlləyən mühüm amillərdən biri də yerli müsəlman sosiumunun öz siyasi-dövləti identikliyinin təsbiti (26 iyun 1918-ci il qərarı) və bu seçimini əldə silah Qafqaz İslam Ordusu sıralarında döyüşməsi ilə təsdiqləməsi oldu. Mahalın ictimai-siyasi elitası və əhalisinin Gürcüstana birləşməyi qəti surətdə rədd etməsi gürcü siyasi dairələrinin radikal addımlardan çəkinməsində heç də sonuncu rolu oynamadı.

3) Qeyd etdiyimiz kimi, Gürcüstan ərazisində türk-müsəlman elementinin çoxluq təşkil etdiyi və mərkəzi gürcü hökuməti ilə ixtilafda olan bölgələr (Borçalı, Axalsıq, Acarıstan) kifayət qədər idi. Belə bir şəraitdə Zaqatala məsələsində gürcü rəsmilərinin konfrontasion xətt tutması onun özünün zərərinə ola bilərdi.

4) Fikrimizcə, gürcü və Azərbaycan xalqları arasında tarixi keçmişin ağır mirası kimi qanlı ixtilaf və ziddiyyətlərin olmaması da öz sözünü dedi. Azərbaycanın Ermənistanla etnoərazi ixtilaflarından fərqli olaraq, Gürcüstanla mövcud münaqişələrində tərəflərin məqsəd və maraqları təzadlı olsa da, tam ziddiyyətli qəbul olunmurdu. Yəni bu halda qarşılıqlı güzəşt və kompomiss mümkün idi.

1918-1920-ci illərdə mahalın mənsubluğu ilə bağlı mübahisə ilk növbədə simvolik sferada baş verirdi: orada gürcü və

Azərbaycan ərazi ideologiyaları, habelə sərhədlərin təsbitinin əsasında duracaq baza prinsipləri daim toqquşurdu.

Fəqət, Gürcüstan Zaqatalanın Azərbaycan Respublikası tərkibinə daxil olması ilə sadəcə de-fakto barışmışdı, de-yure isə vəziyyəti xeyrinə təsbit etməyə çalışaraq, müxtəlif sənədlərdə Zaqatala mahalını öz ərazisi kimi qələmə verirdi.

---


1. ARDA, f.28, s.1, iş 42.
2. ARDA, f.28, s.1, iş 84.
3. ARDA, f. 894, s.2, iş 9.
4. ARDA, f. 894, s.2, iş 66.
5. ARDA, f. 894, s.2, iş 102.
6. ARDA, f. 894, s.3, iş 42.
7. ARDA, f.897, s.1, iş 6.
8. ARDA, f.970, s.1, iş 72.
9. ARDA, f.970, s.1, iş 227.
10. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Siyasi Sənədlər Arxivi (ARPİİSSA), f.277, s.2, iş 69.
11. "Azərbaycan" 1919.
12. Azərbaycan tarixi. Yeddi cilddə. Beşinci cild (1900-27 aprel 1920) – Bakı: Elm, 2001.
13. Hacıbəyli Ü. Zaqafqaz konfransına dair – "Azərbaycan" 1919, 24 nisan (aprel), №165.
14. Hacıbəyli Ü. Zaqatala məsələsi. – "Azərbaycan", 1919, 3 aprel, №149.
15. Həsənov C. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920-ci illər) – Bakı: Azərnəşr, 1993.
16. Qəbulov İ. Konfrans dolayısı ilə Zaqatala məsələsi – "Azərbaycan", 1919, 27 may, №189.
17. Kiçikxanov B.N. Zaqatala haqqında – "Azərbaycan", 1919, 16 yanvar, №89.
18. Kiçikxanov B.N. Zaqatalada gürcülərin propaqandası – "Azərbaycan", 1919, 20 aprel, №161.
19. Kiçikxanov B.N. Parlamanın 6 fevral iclası – "Azərbaycan", 1919, 19 fevral, №117.
20. Nəsibzadə N. Azərbaycanın xarici siyasəti (1918-1920) – Bakı: Ay-Ulduz, 1998.
21. Rəsulzadə M.Ə. Zaqatala haqqında – "Azərbaycan", 1919, 14 yanvar, №87.
22. Süleymanov M. Qafqaz İslam Ordusu və Azərbaycan – Bakı: Hərbi Nəşriyyat, 1999.
23. Авалов З. Независимость Грузии в международной политике 1918-1921гг. Воспоминание. Очерки – Париc,1924.
24. Азербайджанская Демократическая Республика (1918-1920). Внешняя политика (Документы и материалы) – Баку: Азербайджан, 1998.
25. Азербайджанская Демократическая Республика (1918-1920). Законодательные акты. (Документы и материалы) – Баку: Азербайджан, 1998.

26. Азербайджанская Республика. Документы и материалы, 1918-1920 гг. – Баку: Элм, 1998.
27. Балаев А. Азербайджанское национальное движение в 1917-1918 гг. – Баку: Элм, 1998.
28. "Борьба", 1919, 1920.
29. Гаджиев А.Н. Демократические республики юго-западного Кавказа (Карская и Араз-тюркская республика) – Баку: Нурлан, 2004.
30. Документы и материалы по внешней политике Закавказье и Грузии – Тифлис: Типография грузинского правительства, 1919.
31. Колосов В.А., Мироненко Н.С. Геополитика и политическая география: Учебник для студ. вузов – 2-ое изд., испр. и доп.– М.: Аспект-Пресс, 2005.
32. К судьбе Закатальского округа. – "Наше время", 1919, 10 йанвар, №8
33. Ментешашвили А.М. Октябрская революция и национально-освободительная движение в Грузии (1917-1921) – Тбилиси: Ганатлеба, 1987.
34. Пипия Г.В. Германский империализм в Закавказье в 1910-1918 гг. – М.: Наука, 1978.
35. Раевский А. Английская интервенция и мусаватское правительство. Из истории интервенции и контр-революции в Закавказье – Баку: Красный Восток, 1927.

# XI FƏSİL

## 1920-ci ilin aprelindən – 1921-ci ilin noyabrına qədərki dövrdə AZƏRBAYCAN-GÜRCÜSTAN MÜNASİBƏTLƏRİ

Fəslin başlığına çıxarılmış xronoloji dövr Cənubi Qafqazın siyasi həyatında bifurkasiya səciyyəli idi. Dinamik sistemlər nəzəriyyəsindən əxz edilmiş "bifurkasiya" kateqoriyası (fransızca "la bifurcation" haçalanma mənasını verir) ictimai-siyasi hadisələrin idrakı metodu kimi çıxış edir. Bu anlayış mürəkkəb siyasi sistemlərin müvazinətdən uzaq durum və şəraitlərdə davranışını bildirir.[1] Bifurkasiya o zaman baş verir ki, sistemi strukturlaşdıran daxili qüvvələrlə onun mühiti olan xarici qüvvələr arasında balans pozulur. Qlobal müharibələr, inqilablar, dövlətlərin dağılması, siyasi və sosial quruluşların kardinal transformasiyası kimi fenomen – hadisələr məhz belə hallardandır.

Qeyd olunan balansın pozulduğu və dinamik sistemin müvazinət halından çıxdığı an bifurkasiya nöqtəsi adlanır. Belə bir nöqtədə sistem üçün tarixi inkişafın müxtəlif variantları arasında "seçim" imkanı meydana çıxır ki, o təsadüfilik elementini özündə yetərincə ehtiva edir. Çar Rusiyası üçün bu cür bifurkasiya nöqtəsi 1917-ci il idi – həmin il vaqe olan arxitektonik proseslər əvvəlki sistemin məhz keyfiyyətcə yeni duruma keçidinə təkan vermişdi.

Bu zaman Cənubi Qafqaz artıq 100 ildən çox idi ki, Rusiya siyasi və sosial-iqtisadi məkanına inkorporasiya olunmuşdu. Bu səbəbdən də təbii, sözügedən proseslər regionun siyasi taleyi üçün aparıcı və müəyyənedici faktora çevrilmişdi.

Məhz 1917-1921-ci illərdə bu tarixi-coğrafi diyarın xalqları, onların mövcudluqlarının bütün sferalarına təsir göstərən sistem xarakterli mürəkkəb dəyişikliklər (yəni bifurkasiya) dövrünü yaşamaqda idilər. 1920-ci ilin aprelin 28-i ilə 1921-ci ilin martın əvvəlləri arsındakı zaman kəsiyi isə bu dövrün final mərhələsini

təşkil edirdi: Cənubi Qafqaz tədricən formalaşmaqda olan yeni sovet sisteminə daxil edilmişdi. Bu yeni sosial-siyasi situasiyada Qafqaz xalqlarının, o cümlədən Azərbaycan-Gürcüstan qarşılıqlı münasibətləri də məzmunca yeni keyfiyyət xususiyyətləri kəsb etməyə başlamışdı.

Fəslin xronoloji çərçivəsi kimi göstərilən zaman kəsiyinin götürülməsi təsadüfi deyildir. Bu zaman kəsiyi özü keyfiyyətcə iki mərhələyə ayrılır: Gürcüstanın sovetləşməsinədək və ondan sonrakı mərhələ. Qeyd olunan dövrdə iki respublika arasında münasibətlər əsaslı metamorfozalara məruz qalmışdı.

Təqdim olunan mövzu Azərbaycan tarixşünaslağında xüsusi olaraq işlənilməmişdir. Məsələnin təfərrüatına varmadan, qeyd edərdik ki, Musa Qasımovun Sovet Azərbaycanının siyasi-diplomatik tarixinin ilkin dövründən bəhs edən əsərinin xüsusi bölümündə 1920-21-ci illərdə Azərbaycan-Gürcüstan münasibətlərinə nisbətən geniş yer ayrılmışdır.[2] Lakin müəllif bu münasibətləri bir çox hallarda faktoqrafik planda işıqlandırmışdır. Digər tərəfdən, müəllif qarşısına qoyduğu fərqli tədqiqat vəzifələri ilə əlaqədar "Zaqatala məsələsi" adlandırdığımız hadisəni xüsusi olaraq araşdırmamışdır.

R.S.Mustafazadənin 1918-1922-ci illərdə Azərbaycan-Rusiya münasibətlərindən bəhs edən monoqrafiyasının üçüncü fəslində Azərbaycanın sovetləşməsindən sonra Zaqatala mahalının mənsubluğu haqqında məsələsinin aktuallaşmasından bəhs edilmişdir.[3]

## §1. 1920-ci ilin aprel çevrilişinin Cənubi Qafqazda siyasi vəziyyətə təsiri

1920-ci ilin 28 apreli Qafqaz xalqlarının həyatının bütün sferalarında, habelə region və ətrafında cərəyan edən geosiyasi proseslərdə epoxal əhəmiyyətli dönüş nöqtəsi oldu. Ən əvvəla, Azərbaycanın sovetləşməsi bölgədə geosiyasi qüvvələr düzümünü kökündən dəyişdirdi. O, Antantanın (Qərbin) öz himayə və hegemonluğu altında Cənubi Qafqazın antisovet zəminində siyasi konsolidasiyası – "Transqafqaz kordonu" yaratmaq planlarının üstündən xətt çəkdi.

Azərbaycanda sovet hakimiyyətinin bərqərar olması Cənubi Qafqazda daxili-siyasi konfiqurasiyanın da əsaslı transformasiyasını doğurdu. O çağadək Rusiyadakı vətəndaş müharibəsinin tərəfləri regionda cərəyan edən proseslərdə əsasən bilvasitə – dolayı şəkildə iştirak edirdilər. 28 aprel hadisəsi, bu baxımdan, iki siyasi nəticəni şərtləndirirdi: 1) Obyektiv olaraq Avrasiya məkanında təmərküzləşdirici funksiyanı daşıyan bolşevik Rusiyası bu andan etibarən regiondakı proseslərin bilavasitə və həm də aparıcı subyektinə çevrilirdi. 2) Cənubi Qafqaz yenidən Rusiya vətəndaş müharibəsinin tərkib epizodu olurdu.

Postaprel situasiyası region xalqlarını və onların siyasi qüvvələrini, demək olar ki, ontoloji dilemma qarşısında qoymuşdu: ya Sovet Rusiyası – formalaşmaqda olan sosial-paternalist səciyyəli yeni Avrasiya ümumiliyi ilə birlikdə Qərbə qarşı, ya da Qərblə Rusiya əleyhinə. Bu zaman "Qərb" anlayışı bolşeviklərin metasiyasi şüur və leksikonunda zülm, istismar, əsarət və qəsbkarlığın metaforası (təşbehi) kimi çıxış edirdi və sovet ümumiliyinin ekzistensial düşməni mənasını verirdi.

Qeyd etdiyimiz dilemmanın çözümü bir neçə aspekti (geosiyasi, sosial-siyasi, iqtisadi, sosimədəni) ehtiva etməklə, sonrakı inkişafın vektor və perspektivini müəyyənləşdirirdi.

Gürcüstan Demokratik Respublikasının siyasi elitası 1920-ci ildə Azərbaycanın sovetləşməsi kontekstində bir daha faktiki Qərb lehinə siyasi seçimini etmişdi. Gürcü siyasi sisteminin baza elementi olan menşeviklərin təsəvvürüncə, bolşevik sovetizmi – geriliyin, cəhalətin, irticanın simvoluna çevrilmiş asiyaçılığın təzahürü idi. Bu baxımdan hökumət başçısı N.Jordaniyanın Gürcüstan Müəssislər Məclisinin aprelin 30-da olmuş fövqəladə iclasında etdiyi nitq əlamətdar idi: "...Mənim fikrimcə, bolşevist hərəkatı geri qalmış və siyasi cəhətdən inkişaf etməmiş xalqların hərəkatıdır... Azərbaycanın yolu ilə getmək və onun siyasi kredosunu qəbul etmək – bu azad və demokratik Gürcüstanı həmişəlik dəfn etmək, Avropadan əbədi qopub ayrılmaq və Asiya fanatiklərinin caynaqlarına düşmək deməkdir". Jordaniya tarixi-siyasi zamanın qoyduğu dilemmanı belə formulə və həll edirdi: "Avropa, yaxud Asiya? – Bu sual hal-hazırda qarşımızda konkret şəkildə qoyulmuşdur və mən bu gün... daha gur səslə, daha

enerjili təkrar edirəm – biz Avropanı, Avropa demokratiyasını seçirik". Gürcü Müəssislər Məclisi respublikanın siyasi liderinin bu çağırışına gözlənilən cavabını verdi: "...Müəssislər Məclisi... Avropadan Asiyaya üzünü tutmayacaqdır, demokratiya əvəzinə müstəbidliyə güzəştə getməyəcəkdir".[4]

Aprel çevrilişi Azərbaycanı məzmun xarakteristikasına görə yeni – Sovet Rusiyasının sosial-siyasi orbitinə qaytarmaqla bərabər, onu 20-ci illərin başlanğıcının unikal situasiyasının özümlü missiyasının daşayıcısına çevirmişdi: bu qısa zaman kəsiyində Azərbaycan o illərdə antiimperialist (və deməli, antiqərb) mübarizənin geniş vüsət aldığı Şərqə münasibətdə sovet strategiyasının mərkəzi qovşağı, habelə Cənubi Qafqazın sovetləşməsinin mühüm platsdarmı idi.[5] Bu barədə 1922-ci ildə Orconikidze etiraf edirdi: "Azərbaycan, Sovet hakimiyyəti bərqərar olduğu andan etibarən, bizim çıxış məntəqəmiz idi. Oradan biz millətçi-burjua-əksinqilabçı menşevik və daşnak hökumətləri üzərinə həmlə edirdlk".[6]

Bu spesifik vəzifəni Azərbaycan kommunistləri özləri belə artikulyasiya edirdilər: "Müstəqil Azərbaycanın füqərayi-kasibəsi bunu unutmamalıdır ki, Azərbaycan Şərq aləminin xilaskarı və mərkəz nöqtəsini təşkil ediyor. Azərbaycan imperializmaya vurulacaq yumruğun ən müdhişini vurmaq vəzifəsilə muvəzzəfdir (vəzifəlidir – Ş.R.)...".[7]

Beləliklə, Azərbaycanın sovetləşməsi regionu faktiki olaraq yeni geosiyasi hüdudlarla parçaladı: Gürcüstanın mövcud siyasi elitası siyasi dünyagörüşü və sosiomədəni yönəlişliyindən (ustanovkasından) çıxış edərək, habelə yaranmış hərbi-siyasi konyuktura ilə əlaqədar Qərb lehinə seçim etdi. Azərbaycan isə Qərbin siyasi, sosial, iqtisadi və mədəni antitezisi kimi formalaşmaqda olan yeni Avrasiya siyasi-dövləti strukturuna inkorporasiya (daxil) edilirdi.

### §2. Azərbaycan-Gürcüstan münasibətləri: siyasi müttəfiqlikdən hərbi konfrontasiyaya dönüş

Azərbaycanda sovet hakimiyyəti bərqərar olar-olmaz onun Gürcüstanla münasibətləri sürətlə pisləşdi: cəmi iki-üç gün

ərzində sabiq strateji müttəfiqlər faktiki müharibə aparan tərəflərə çevrildilər.

Məsələ onda idi ki, bolşevik strateqləri – Qafqaz bürosunun Q.K.Orconikidze və S.M.Kirov başda olmaqla bir qrup üzvü Azərbaycanın sürətlə sovetləşməsindən sonra bu təcrübəni Gürcüstanda da eyni uğurla təkrarlamağa ümid edirdilər. Mayın əvvəllərində məhz bu şəxslərin təşəbbüsü və bilavasitə rəhbərliyi altında gürcü bolşevikləri Tiflisdə silahlı dövlət çevrilişinə uğursuz cəhd etmişdilər.[8]

Aprelin sonu – mayın əvvəllərində sovet Azərbaycanı ilə menşevik Gürcüstanı arasında qızışmaqda olan hərbi əməliyyatlar da məhz bu kontekstdə anlaşıla bilər. Azərbaycanın xarici işlər komissarı M.D.Hüseynovun Gürcüstanın xarici işlər naziri Y.P.Gegeçkori ilə o günlərə aid diplomatik yazışması həmin əməliyyatların xarakteri və gedişi, onların arxasında duran bəzi mətləb və məqamlar haqqında müəyyən aydınlıq gətirir.

Hərbi əməliyyatlar qəfildən və yetərincə intensiv surətdə Qazax-Ağstafa bölgəsində – Poylu körpüsü, Ağstafa stansiyası və Şıxlı kəndi istiqamətində artıq aprelin 29-da alovlandı. Hüseynovun Gegeçkoriyə aprelin 30-da göndərdiyi ilk notada hücum edən tərəfin Gürcüstan olduğu iddia edilirdi və tələb olunurdu: əks tərəf 24 saat ərzində Azərbaycan ərazisindən qoşunlarını çıxarmalıdır. Tələbin qəbul olunmaması "casus-belli" (müharibəyə səbəb – Ş.R.) hesab ediləcəkdir".[9]

Gegeçkorinin cavab notası isə əksini iddia edirdi: "... Bakıda yeni hakimiyyət, elan edilməsi anından etibarən Gürcüstan Demokratik Respublikasına münasibətdə düşmən mövqe tutmuşdur ki, bu da teleqraf və dəmiryol rabitəsinin dərhal kəsilməsində, bizim parovoz və daşıma heyətimizin yaxalanmasında və gürcü missiyasının həbsində ifadə olunmuşdur. Əlbəttə ki, belə vəziyyətdə Gürcüstan hökuməti hərbi səciyyəli önləyici tədbirlər qəbul etməyə bilməzdi. Bu cür tədbirlərdən biri Poylu stansiyasının deyil, Poylu körpüsünün tutulmasıdır. Kür çayı üzərindəki göstərilən körpü Gürcüstan hüdudlarındadır, deməli, bizim qoşunların Gürcüstan sərhədini keçməsindən söhbət belə gedə bilməz. Həmçinin Ağstafa stansiyası yaxınlığında bizim zirehli qatarı-

mızın peyda olmasına dair sizin bəyanatınız da geçəkliyə uyğun gəlmir... Bizim qoşun hissələrinin Şıxlı kəndini atəşə tutması barədə deyilənlər də doğru deyildir. Əslində qoşunlarımız Gürcüstan Respublikası sərhədləri daxilində Xram çayı üzərindəki Qırmızı Körpünü tutur, sizin qoşun hissələriniz isə buna maneçilik törədərək, körpüyə atəş açırlar".[10]

Münaqişənin davam etdiyi müddət ərzində, yəni mayın 20-ci günlərinədək tərəflər arasında olmuş intensiv diplomatik yazışmaya bu cür təkzibedici ton səciyyəvi idi. Qənaətimizcə, konfrontasiya qarşı tərəflərin (opponentlərin) fərqli siyasi məqsədlərə can atımlarını kifayət qədər üzə çıxarırdı. Biz yuxarıda Qafqaz bolşevik liderlərinin Gürcüstanın da tezliklə sovetləşəcəyinə dair ümidlərinə toxunmuşduq. Bu mövzunu inkişaf etdirərək qeyd edərdik ki, Orconikidze iki dəfə – mayın 3 və 4-də V.İ.Leninə və İ.V.Stalinə XI Ordunun Gürcüstana daxil olmasına razılıq verilməsi barədə teleqramla müraciət etmişdi.[11]

Orconikidzenin bu siyasi canatımı Azərbaycan bolşevik rəhbərliyində M.D.Hüseynov və Ə.H.Qarayevin simasında qızğın əks-sədasını doğurmuşdu. Bunu M.D.Hüseynovun Gürcüstan XİN-nə mayın 11-də ünvanladığı nota da müəyyən mənada təsdiqləyir: "Müsavat hökuməti simasında Antanta agentlərinin əsarətini öz üzərindən atan Azərbaycan zəhmətkeşlərinin tək bir arzusu vardır: Gürcüstanın fəhlə və kəndlilərini bu cür azad, gürcü hökumətini isə zəhmətkeşlərin hökuməti kimi görmək".[12]

Gürcüstan hökumətinin əməllərinə gəldikdə isə onun obyektiv olaraq münaqişədə maraqlı olmadığı vurğulanmalıdır. Jordaniyanın Müəssisələr Məclisində aprelin 30-da etdiyi nitqdən bəlli olur ki, artıq aprelin 27-də gürcü hökumətinə Azərbaycan hökumətinin hərbi yardım haqqında xahişi daxil olmuşdu. Gürcü tərəfi, Jordaniyanın sözlərinə görə, Azərbaycan xalqının müqavimət göstərəcəyi təqdirdə müvafiq addımlar atmağa hazır idi. Fəqət, "həmin gün saat 1 radələrində biz xəbər aldıq ki, bolşeviklər Xaçmaza gəlib çatmışdır, axşam saat 7-də isə onlar artıq Sumqayıt stansiyası... yaxınlığında idilər, yəni 6 saat ərzində 100 verst qət etmişdilər". Bu, gürcü rəsmilərində bolşeviklərin Azərbaycana

xalqın razılığı ilə daxil olmaları haqqında təsəvvür aşılamışdı və onların hərbi əks təsir göstərməkdən çəkindirmişdi.[13]

Lakin gürcü hökuməti hər halda preventiv səciyyəli müəyyən addımlar atmışdı: strateji sərhəd məntəqələri olan Qırmızı və Poylu körpülərini, habelə bəzi sərhədyanı hündürlükləri tutmuşdu. Yeri gəlmişkən, bir faktı qeyd edək: indiki Qazax rayonunun Kür çayının sol sahilindəki Qarayazı və Ceyrançöl ərazisi çarizmin ədalətsiz inzibati bölgüsü nəticəsində Tiflis quberniyası tərkibinə düşmüşdü. Gürcüstan hökuməti 1918-ci ildə almanların himayəsi altında öz faktiki sərhədlərini bərqərar edərkən, bu amili bəhanə gətirərək, Kür çayının sol sahilindəki bəzi əzəli Azərbaycan ərazilərini də öz nəzarəti altına almışdı. Ona görə də Poylu körpüsü 1920-ci ildə (həmçinin 1921-ci ildə) sovet-gürcü hərbi qarşıdurması gedişində qarşımıza sərhəd məntəqəsi kimi çıxırdı.

Bir daha qeyd olunmalıdır ki, qarşıdumaya gürcülərin nə obyektiv marağı, nə də onu davam etdirmək üçün yetərli resurs bazası var idi. Bunu müəyyən dərəcədə Gegeçkorinin 4 may tarixli notası da təsdiqləyir: "Gürcüstan xalqı Azərbaycan xalqı ilə tam sülh və uzlaşma şəraitində yaşamışdır və onların qarşılıqlı münasibətlərində silahlı toqquşmaya dair bircə hadisə belə göstərilə bilməz. Yeni hakimiyyətin qısa mövcudluq müddəti ərzində sərhəd münaqişələrinin meydana çıxması faktı heyrət doğurur".[14]

Beləliklə, 1920-ci ilin aprelin sonu – mayın əvvəllərində Azərbaycan-Gürcüstan sərhədinin əvvəlcə Qazax-Borçalı, sonra isə Zaqatala-Siqnax məntəqəsində meydana çıxmış hərbi toqquşmaların (əslində isə lokal müharibənin) təşəbbüskarı başda Orconikidze olmaqla Qafqaz kommunist rəhbərliyi idi. Bu şəxslər münaqişəyə Gürcüstanın sovetləşməsini gerçəkləşdirəcək vasitələrdən biri kimi baxırdılar. Fəqət Qafqaz kommunistlərinin bu cür taktikası mərkəzi hakimiyyətin kəskin etirazına səbəb olmuşdu.

Mayın 4-də RK(b) P MK Siyasi Bürosu Orconikidzenin teleqramlarını nəzərdən keçirərək, qərar qəbul edir. Ona uyğun olaraq, Lenin və Stalin mayın 5-də Orconikidzeyə teleqram vururlar: "Mərkəzi Komitə Sizə bir vəzifə olaraq tapşırır ki, hissələri Gürcüstan torpağından çıxarıb sərhədə çəkəsiniz və Gürcüstan

üzərinə hücumdan imtina edəsiniz. Tiflisdə aparılan danışıqlardan sonra aydındır ki, Gürcüstanla sülh ola bilər".[15]

1920-ci ilin mayında Moskva rəhbərliyini Cənubi Qafqazı qəti surətdə sovetləşdirmədən çəkindirən ən əsas amil Polşa ilə yenicə başlanan müharibə idi. Antantanın bilavasitə iştirakı və təhriki ilə Polşa qoşunları aprelin 25-dən etibarən Ukraynada genişmiqyaslı hücum əməliyyatlarına başlayaraq, artıq mayın 7-də Kiyevi tutmuşdular.[16] Elə Qafqazda hərbi əməliyyatları dayandırmaq zərurəti də məhz yeni müharibənin arzuolunmaz gedişindən irəli gəlirdi.[17]

Digər tərəfdən Tiflisdə bolşevik çıxışının operativ surətdə ləğvi, habelə Qazax rayonunda gürcü qoşunları ilə mayın əvvəllərində olmuş ilk toqquşmalar sovet komandanlığına Gürcüstan Respublikasının daxili möhkəmliyini və dayanıqlığını nümayiş etdirdi: gürcülər hücum edən sovet qoşunlarına bir sıra hissedici zərbələr endirərək, Şıxlı, Qaymaqlı, Kəmərli və Aslanbəyli kəndlərini ələ keçirmişdilər.[18]

Bu arada Q.Uratadzenin başçılığı altında gürcü nümayəndə heyəti Moskvada sovet rəhbərliyi ilə danışıqlar aparırdı. Danışıqlar nəticəsində RSFSR və Gürcüstan Respublikası arasında sülh müqaviləsi imzalandı. Maraqlıdır ki, bu müqavilə Azərbaycan-Gürcüstan sərhədində hərbi əməliyyatlara son qoymadı. Əksinə, mayın 9-dan etibarən Zaqatala rayonu da intensiv toqquşmalar səhnəsinə çevrildi. Azərbaycanla Gürcüstan arasında atəşkəsə yalnız mayın 18-dən sonra nail olundu.[19]

## §3. Moskva və Ağstafa müqavilələri. Zaqatala mahalının siyasi mənsubluğu məsələsinin yenidən aktuallaşması

Moskva müqaviləsi Sovet Azərbaycanının siyasi rəhbərliyi üçün müəyyən mənada xoşagəlməz sürpriz oldu: bu aktla Moskva faktiki olaraq hərbi əməliyyatlara görə məsuliyyətdən yaxasını kənara çəkirdi və Bakı münaqişəni özü həll etmək məcburiyyəti ilə üzbəüz qalırdı. Fəqət ən böyük xoşagəlməzlik müqavilənin özündə, daha dəqiq desək, onun IV bəndində gizlənirdi: Rusiyanın

qeyd-şərtsiz Gürcüstan ərazisi kimi tanıdığı vilayətlər sırasında Zaqatala dairəsinin də adı çəkilirdi.[20]

Bu bəndin belə redaksiyada verilməsi bütün məsələrdə Moskva ilə hesablaşan yeni Azərbaycan rəhbərliyinin belə kəskin narazılığını doğurdu. Eyni zamanda mahalın Azərbaycana mənsubluğunu Orconikidze və ümumiyyətlə XI Ordunun Hərbi-inqilab şurası və RK(b)P MK Qafqaz bürosu üzvləri dəstəkləyirdi.

Orconikidze Moskva müqaviləsinin imzalanmasından dərhal sonra Lenin və Stalinə ünvanladığı teleqramda onları Azərbaycanın Zaqatala üzərində suverenliyini tanımağa çağırırdı: "Zaqatala dairəsi az qala iki ildir ki, Azərbaycan tərəfindən tutulmuşdur (?-Ş.R.). Hal-hazıfrda o Azərbaycan qoşunları tərəfindən tutulmuşdur. Zaqatala əhalisinin 95%-i müsəlmandır. Sovet Azərbaycanının bu dairəyə hüququnu təsdiqləmək və müqavilədən bu maddəni (dairəni Gürcüstanın tərkib hissəsi kimi tanıyan maddəni – Ş.R.) tamamilə atmaq lazımdır. Bu zəmində dəhşətli təhriklər baş verməkdədir. Müsavatçılar Azərbaycandakı yeni Sovet hakimiyyətinin Zaqatala dairəsini artıq satması və qırğın ərəfəsində olmağımız barəsində söhbətlər aparırlar. ... Təkrar edirəm, əgər siyasətimizin iflasa uğramasını istəmirsinizsə, sülh müqaviləsindən Zaqatala dairəsini çıxarıb atın və heç bir kompensasiyasız onu Azərbaycana həvalə edin".[21]

1920-ci ilin mayın 10-da Qafqaz bolşevik rəhbərliyi və XI Ordu komandanlığı üzvlərindən Orconikidze, Smilqa və Kirovun imzası ilə Leninin adına yeni etiraz teleqramı göndərildi: "Gürcüstana verilmiş Zaqatala dairəsi mübahisəsiz Azərbaycan və müsəlman ərazisidir, və bu çağadək Gürcüstan ona iddia etmirdi. Sizin xeyir-duanızla Gürcüstan bu dairə üzərinə hücuma başlamışdır, əhali gürcü istilaçılarına qarşı üsyan etmişdir. *Bu qəsbkarlığın tərəfimizdən tanınması Azərbaycanda sovet hakimiyyətinin sonunun başlanğıcıdır* (kursiv bizimdir – Ş.R.). Gürcüstanla müqayisədə əhəmiyyəti yüz qat artıq olan Azərbaycana belə münasibətin nədən doğduğunu izah edin... Bizim qarşımızda məsələ durur: ya Gürcüstanla müqavilə yenidən baxılmalı, yaxud da biz geri çağırılmalıyıq, çünki biz Xarici İşlər Komissarlığının Qafqaz məsələlərindəki nadanlığının hesabını ödəmək niyyətində deyilik. Gürcüstanın Zaqatala dairəsinin sərhədini

keçməsinin qadağan olunmasını qəti şəkildə təkid edirik, əks halda Gürcüstanla Azərbaycan arasında müharibə qaçılmazdır...".[22]

Bu şəxslər məsələyə dair mövqelərini əməli addımlarla da möhkəmlədirdilər. Məsələn, Qafqaz cəbhəsinin müvəqqəti komandanı Smilqa mayın 11-də, Moskva müqaviləsinin ziddinə olaraq, Zaqataladan XI Ordu hissələrinin çıxarılmaması haqqında əmr vermişdi.[23]

Qafqaz bolşevik rəhbərliyinin Zaqatala məsələsində bu mövqeyi heç də Azərbaycana xüsusi rəğbətdən irəli gəlmirdi. Orconikidze və məsləkdaşları Azərbaycanı dəstəkləyərkən, öz praqmatik siyasi maraq və məqsədlərdən çıxış edirdilər. Azərbaycanın maraqlarına Moskva müqaviləsində olduğu kimi açıqcasına saymazyana münasibət bolşeviklərin ölkəmizdə ilk vaxtlar onsuz da güclü olmayan siyasi və sosial dayaqlarını daha da zəiflədərdi və regionun sovetləşməsi ilə bağlı planlarına ağır zərbə vurardı.

Məhz Orconikidze və digərlərinin səy və təkidləriləri nəticəsində ali sovet rəhbərliyi gürcülərlə razılaşmalarına tələsik təshihlər etdi: mayın 12-də Moskvada sülh müqaviləsinə əlavə saziş imzalandı. O, müstəsna surətdə Zaqatala məsələsinə həsr edilmişdi və Azərbaycanın yeni rəhbərliyində Moskva müqaviləsindən sonra yaranmış naqolaylıq hissini səngitmək məqsədi güdürdü. Sazişin birinci maddəsinə əsasən, Azərbaycan-Gürcüstan sərhədində və Zaqatala dairəsində mübahisəli yerlər haqqında məsələ arbitraj komissiyasının həllinə verilirdi. İkinci maddədə isə qeyd edilirdi ki, komissiya tərəfindən məsələnin tam həllinə qədər anlaşan tərəflər Zaqatala dairəsinə yeni qoşun hissələri yeridə bilməzlər.[24]

Bu arada Azərbaycan (faktiki olaraq Sovet Rusiyası) ilə Gürcüstan arasında hərbi əməliyyatların dayandırılmasından sonra başlanılan danışıqlar iyunun 12-də Ağstafa stansiyasında sülh müqaviləsinin imzalanması ilə başa çatdı.[25]

On səkkiz maddədən ibarət Ağstafa müqaviləsinin II maddələsi iki respublika arasında sərhədi müəyyənləşdirirdi. Ona əsasən, "Borçalı və Qazax qəzaları arasında inzibati sərhəd erməni zonasından (vaxtı ilə Qazax elatının əzəli torpaqları olub, hal-hazırda Ermənistan respublikasının şimal-şərqində yerləşən ərazi

nəzərdə tutulur – Ş.R.) başlayaraq.., şimal-şərq istiqamətində, Tars və Babakər dağlarının şərq yamacının iki verstliyində yerləşən bulaqlaradək yönəlir, oradan Qırmızı körpünün ortasından keçir, sonra Xram və Kür çayları üzrə köhnə sərhəd boyunca davam edir, daha sonra Poylu körpüsünün ortasından keçərək, şimal-şərq istiqamətində... Yaylaqcıq sıra dağına yönəlir, ondan sonra cənub-şərqə doğru köhnə inzibati sərhəd üzrə Palan-tökən dağının cənub ətəyinədək uzanır, oradan inzibati xətt üzrə şimal-şərq istiqamətində Zaqatala dairəsinin sərhədinədək gedib çıxır".

Müqavilənin III və IV maddələri iki respublika arasında müvəqqəti, bir il müddətində mövcud olacaq neytral zonanı müəyyən edirdi. Qırmızı və Poylu körpüləri, habelə Kür çayının sol sahilindəki Azərbaycan torpaqları bu zonaya daxil edilmişdi. Müqaviləyə əsasən, neytral zona Azərbaycanın inzibati idarəçiliyində saxlanılırdı, lakin Azərbaycan tərəfinin orada istehkam ucaltmasına və qoşun yeritməsinə icazə verilmirdi.

Bu maddələr, birincisi, de-fakto təşəkkül tapmış və bölgənin etnik və təsərrüfat reallıqlarına cavab verməyən Azərbaycan-Gürcüstan sərhədinin Azərbaycan rəsmiləri tərəfindən tanınması demək idi.

İkincisi, bəhs etdiyimiz maddələrdə o günlərin hərbi-siyasi reallıqları də öz əksini tapmışdı: "neytral zonanın" Azərbaycan ərazilərini əhatə etməsi Azərbaycan sovet respublikasının may hadisələrindən itkilərlə çıxmasından xəbər verirdi.

Ağstafa müqaviləsinin ən əhəmiyyətli maddələrindən biri, Zaqatala mahalına aid VI maddə idi. Bu maddənin əsas hissəsi 12 may Moskva sazişinin müvafiq maddələrini təkrar edirdi. Fəqət maddəyə əlavə edilmiş iki qeyddə yeni notlar nəzərə çarpırdı. Birinci qeyddə tərəflərin Moskva müqaviləsinin və əlavə sazişin müvafiq maddələrinin təfsirinə, habelə mübahisənin mahiyyətinə dair razılığa gəlmədikləri vurğulanırdı. İkinci qeyd dairəyə yeni qoşun hissələrinin yeridilməməsi barədə maddənin dəqiq icrasına müşahidə üçün hər tərəfdən iki nəfər olmaqla xüsusi komissiyasının təsisini nəzərdə tuturdu.

Beləliklə, Ağstafa müqaviləsi Zaqatala mahalının siyasi mənsubluğunun mübahisə predmeti kimi Azərbaycan tərəfinin tanı-

dığı ilk hüquqi sənəd idi. Bu sənədin adekvat qavranılması və Zaqatala bölgəsinin siyasi perspektivində oynadığı rolu düzgün qiymətləndirmək üçün çərçivəsində təzahür və cərəyan etdiyi tarixi-siyasi kontekst nəzərdən keçirilməlidir. Qısaca olaraq qeyd edək ki, əvvəla, istər Moskva, istərsə də Ağstafa müqavilələri bolşevik rəhbərliyinin sadəcə taktiki gedişi idi; Qafqazın dövləti qurumlarının ərazi və sərhədlərinin yekun təsbiti regionun qəti sovetləşməsindən sonraya saxlanılırdı.

İkincisi, Zaqatala, xüsusən də iyun üsyanının yatırılmasından sonra, tamamilə sovet sferasına daxil olmuşdu, oraya Qızıl Ordunun əlavə hissələri yeridilmişdi və gürcü tərəfinin bununla bağlı bütün etirazları, adətən, qulaqardına vurulurdu. Hətta Gürcüstan XİN-in Azərbaycanın diplomatik nümayəndəliyinə 1920-ci ilin avqustun sonlarında təqdim etdiyi təliqəyə əsasən, qoşunların yerdəyişməsinə nəzarət edəcək xüsusi komissiya belə təşkil olunmamışdı.[26]

Ağstafa müqaviləsi Gürcüstan Müəssisələr Məclisində iyunun 25-də təsdiqləndi. Müqaviləni Məclisə təqdim edən gürcü menşeviklərinin liderlərindən olan A.Çxenkeli giriş və yekun nitqi ilə çıxış etmişdi.[27] Həmin nitqlərdə, təbii ki, Zaqatala məsələsinə də toxunulmuşdu.

A.Çxenkeli öz çıxışını Zaqatala bölgəsi haqqında ənənəvi gürcü konsepsiyasının səsləndirməklə başlamışdı. Daha sonra o, Moskva və Ağstafa müqavilələrinin mahala dair maddələrinin fərqli formulələrinə faktiki istinadla, Gürcüstan üçün açılmış hüquqi – diplomatik manevr meydanını göstərirdi. Məsələ onda idi ki, əgər 12 mayda Moskvada imzalanmış əlavə sazişə əsasən, arbitraj komissiyasına veriləcək mübahisə predmeti "Gürcüstan və Azərbaycan arasında və Zaqatala dairəsində mübahisəli yerlər haqqında məsələ" hesab olunurdusa, Ağstafa müqaviləsinin müvafiq maddəsində həmin predmet kimi bütünlükdə Zaqatala dairəsi müəyyənləşdirilirdi. Bu da təbii, adıçəkilən məsələyə münasibətdə tərəflərin fikir ayrılığını doğurmaya bilməzdi.

Məsələ ilə bağlı gürcü tərəfinin mövqe və arqumentasiyası bundan ibarət idi: 7 may Moskva müqaviləsi ilə Zaqatala Gürcüstanın ayrılmaz hissəsi kimi tanınırdı. Əlavə sazişin birinci bəndi

sadəcə Gürcüstan-Azərbaycan sərhədində, o cümlədən Zaqataladakı mübahisəli ərazilərin arbitraj məhkəməsinin baxılmasına verilməsini güman edirdi. Ağstafa müqaviləsinin VI maddəsinə gəldikdə isə, gürcü hökuməti həmin maddənin birinci qeydini əsas gətirirdi: orada, qeyd etdiyimiz kimi, tərflərin mübahisə ilə bağlı razılığa gəlmədikləri faktı konstatasiya olunurdu.

Çxenkelinin sözlərinə görə, gürcü rəsmiləri sovet hökumətinin məhz Moskva müqaviləsinə prioritet verəcəyinə ümid bəsləyirdilər. Onun yekun nitqində bu ümidlər ifadəsini belə tapırdı: "O ki, qaldı Zaqatala dairəsinə, o..., hal-hazırda formal, hüquqi cəhətdən, müqavilə mətninin mənasına görə ... Gürcüstan Respublikası ərazisinə daxil olmuşdur; və əgər mübahisə gedirsə, o bizim xeyrimizə həll olunmalıdır... Biz ümid edirik ki, müqavilə üzrə bizə nə vəd edilibsə, yerinə yetiriləcək".[28]

Hüquqi nöqteyi-nəzərdən gürcülərin mövqeyi əsassız idi: Ağstafa müqaviləsinin VI maddəsində arbitraj komissiyasının həllinə veriləcək məsələ kimi sərhədyanı mübahisəli yerlər yox, məhz Zaqatala dairəsi dəqiq göstərilirdi. Bu isə Moskva müqavilələri ilə mahalın guya Gürcüstan tərkibinə daxil olması barədə gürcü tərəfinin iddiasını tutarsız edirdi. Bunu "Борьба" qəzeti – menşevik (və qeyri-rəsmi surətdə hökumət) mətbu orqanı da dolayı şəkildə təsdiq edir: "Gürcüstan... Azərbaycana güzəştə getdi – müqaviləyə (Ağstafa müqaviləsinə – Ş.R.) görə Zaqatala məsələsi mübahisəli hesab olunur, onun həlli arbitraj komissiyasına verilir".[29]

Fəqət, hər halda bu məsələdə gürcü tərəfinin siyasi-diplomatik uğurunu qeyd etməmək olmaz: Azərbaycan, tərkibinə daxil olduğu Zaqatala mahalının mənsubluğunu mübahisə predmeti kimi tanıyırdı və ora öz qoşunlarını yeritməmək barədə təəhhüd götürürdü. Bu vəziyyət Azərbaycanın müxtəlif siyasi-ictimai, o cümlədən mühacir dairələrində olduqca mənfi qarşılanmışdı. M.Ə.Rəsulzadə "Azərbaycan Cümhuriyyəti" əsərində Ağstafa müqaviləsinə həmin dairələrin münasibətini belə ifadə edirdi: "Gürcüstanı təhdid edən Azərbaycan bolşevik hökuməti yapdığı bu sülhdə... Borçalı ərazisini bilatərəddüd Gürcüstana tərk etdi və əskidən Azərbaycan ərazisindən olduğu Gürcüstanca təslim

olunan Zaqatal(a) ərazisi üçün hökmə (burada: arbitraja – Ş.R.) müraciət eyləmək formulunu qəbul eylədi. Azərbaycanın siyasi mənfəətləri naminə hərbə başlayan hökumət, nəticədə məmləkət qitələrini hədiyyə etməklə sülh yapıyor".[532]

Azərbaycanın yeni rəhbərliyinin Ağstafa müqaviləsindəki güzəştli mövqeyi iki əsas amillə şərtlənmişdi: birincisi, Moskva müqavilələri ilə Azərbaycanın yeni sovet rəhbərliyi müşkül vəziyyətə salınmışdı. Siyasi və ideoloji cəhətdən Moskva hökuməti ilə subordinativ (iyerarxik) münasibətdə olan bu rəhbərlik mərkəzin siyasi taktikasına zidd hərəkət edə bilməzdi, ələlxüsus da Polşa hücumunun davam etdiyi bir şəraitdə.

İkinci amil müqavilənin imzalandığı gün davam edən Zaqatala üsyanı ilə əlaqədar idi – aşağıda görəcəyimiz kimi, onun gedişində keçmiş mahal elitasının bir qismi Gürcüstana birləşmək haqqında qərar çıxarmışdı. Belə bir vəziyyət də Azərbaycanın yeni rəhbərliyinin bu məsələyə dair mövqeyini kövrək edirdi.

Obyektivlik naminə qeyd olunmalıdır ki, Azərbaycan bolşevikləri, xüsusən də partiyanın nərimanovçu qanadı Moskva rəhbərliyinin Azərbaycan əraziləri hesabına Gürcüstan və Ermənistana güzəştə getmək siyasətinin əleyhinə çıxırdı. Məsələn, Azərbaycanın Moskvada Fövqəladə səlahiyyətli nümayəndəsi Behbud ağa Şahtaxtinski 1920-ci ilin avqust və sentyabrında Leninə ünvanladığı məktublarında Azərbaycanın şəksiz ərazilərinin, o cümlədən Zaqatala mahalının qopardılması taktikasını zərərli və yolverilməz hesab edirdi. O, 20 sentyabr məktubunda əhalinin siyasi əhval-ruhiyyəsini belə dəyərləndirirdi: "Azərbaycan əhalisi əvvəlcə düşünürdü ki, Bakıdakı sovet siyasəti yerli hakimiyyətin əməlləridir, o, (əhali – Ş.R.) Moskvaya inanırdı, onun müdafiəsinə və yardımına ümid bəsləyirdi, amma burada da tezliklə məyusluq baş verdi; Gürcüstanla sülh bağlanarkən Azərbaycanın xəbəri və razılığı olmadan birincisinə büs-bütün müsəlmanların yaşadığı Zaqatala dairəsi güzəştə gedildi".[31]

Tezliklə gürcü hökumətinin Zaqatala məsələsində Moskva müqaviləsinə bəslədiyi ümidlər puça çıxdı: iyulun 7-də RK(b) P MK Siyasi Bürosu "Qafqaz cəbhəsi Hərbi-İnqilab Şurası üzvlərinə və bizim Gürcüstan, Ermənistan və Türkiyədəki diplomatik

nümayəndəliyimizə təlimat"ı təsdiq etdi. Orada deyilirdi: "RSFSR-in gürcü hökuməti ilə bağladığı müqavilə bütün detalları ilə dönmədən icra olunmalı və həyata keçirilməlidir... Yalnız Zaqatala dairəsi haqqında maddə istisna təşkil edir: dairə, müqaviləyə əsasən Gürcüstana daxil edilmə əvəzinə, sədri RSFSR tərəfindən təyin ediləcək qarışıq komissiya tərəfindən bu və ya digər respublikaya mənsubluğu həll edilənə qədər mübahisəli ərazi hesab olunmalıdır".[32]

## §4. Zaqatalada 1920-ci il iyun üsyanı. Üsyan rəhbərliyinin "Gürcüstana birləşmək haqqında sazişə imza atması və onun siyasi mahiyyəti

Zaqatalada sovet hakimiyyəti artıq aprelin 29-da bərqərar olmuşdu. Həmin gün XI ordunun təlimatçılarından Menşikov adlı birisinin göstərişləri əsasında mahal inqilab komitəsi təşkil edildi: komitənin sədri vəzifəsinə əslən bu bölgədən olan 21 yaşlı Zəkəriyyə Ramazan oğlu Balaxlinski, onun müavini Mahmud Qocayev (əslən İlisulu), katibliyə isə Nikolay Levşin təyin olundu.[33]

Komitə üzvlərinin özlərinin etirafına görə, bu orqanın səlahiyyətləri o qədər də geniş deyildi. Faktiki olaraq vilayət bir müddət Qızıl Ordu hissələrinin tam ixtiyarına verilmişdi: qoşunlar evlərdə yerləşdirilirdi, hərbi komandanlıq özbaşına həbslər aparır, əhalidən ərzaq müsadirə edirdi.[34] Yəni inqilab sonrası tipik rus şablonu üzrə hərəkət etmə göz önündə idi ki, bu da əhalinin kəskin narazılığını doğururdu.

Bu narazılıqdan gürcü hakim dairələri məharətlə yararlanmağa çalışırdılar. Azərbaycanın sovetləşməsindən sonra iki ölkə arasındakı hərbi qarşıdurma gedişində, mayın 9-da Qabaqçöl rayonunda insan itkiləri ilə müşayət olunan toqquşmalar baş vermişdi.[35] Ehtimal ki, artıq onların gedişində gürcü komandanlığı ilə gələcək Zaqatala üsyanının bəzi rəhbərləri arasında müəyyən təmaslar qurulmuşdu.

1920-ci ilin iyunun 6-dan 18-dək davam etmiş Zaqatala üsyanının təfərrüatına varmadan,[36] onun təşkili və gedişində gürcü

faktoruna, həmçinin üsyan başçılarının gürcü hakimiyyəti ilə imzaladığı sazişə toxunmaq istərdik.

Üsyana dair materiallardan bəlli olur ki, mahalda silahlı çıxışa hazırlıq gürcü hərbi-siyasi dairələri ilə sıx koordinasiyada aparılmışdı. Üsyan ərəfəsində sərhədi məxfi surətdə keçən və özünü vilayətin Gürcüstana birləşməsi tərəfdarı kimi qələmə verən Balaxlinski Laqodex rayonundakı gürcü qoşunları komandanlığı ilə görüşə bilmişdi. Onun əldə etdiyi məlumatlara görə, gürcü hökuməti Zaqatalada öz hakimiyyətini bərqərar edəcəyi təqdirdə mahalın Gürcüstan tərkibində muxtariyyətini elan etməyi planlaşdırırdı: bu halda vilayətin idarəçiliyi müsavatçı nazirin təşkil etdiyi xüsusi orqana həvalə ediləcəkdi.[37]

M.D.Hüseynov Y.P.Gegeçkoriyə göndərdiyi 15 iyun tarixli teleqramda qeyd edirdi ki, "... gürcü hökumətinin agentləri Zaqatalada əks-inqilabi ünsürlərlə birlikdə gürcü komandanlığının adından Zaqatala dairəsinin sovet Azərbaycanından ayrılması və Gürcüstana birləşdirilməsi çağırışı ilə bəyannamələr paylayırdılar. Gürcü zabitləri və qoşun hissələri müxtəlif bəhanələrlə Zaqatala hüdudlarına əvvəlcədən daxil olmuş və dairədə üsyan hazırlamışlar...".[38]

Üsyan günlərində XI Ordunun Hərbi İnqilab Şurasının üzvü Y.İ.Vesnikin S.Orconikidzeyə verdiyi məlumata əsasən, gürcülər fəal addımlar atmaqda idilər: onların planlarında Zaqatala üsyançıları ilə birləşmək və hətta Nuxa və Qarabağ istiqamətində hərəkət etmək vəzifələri dururdu.[39]

Gürcü rəsmilərinin üsyanla bağlı müəyyən niyyətlərindən Gegeçkorinin Hüseynova 14 iyun tarixli teleqramı da işarə verirdi: "... Sazişə rəğmən sizin qoşunlar Nuxadan Zaqatala dairəsi üzərinə hücum etməkdədirlər və dairə sərhədində güclü artilleriya döyüşü gedir... Əgər bu hücum dayandırılmazsa, onda biz öz qoşunlarımıza Zaqatala dairəsinə daxil olmaq əmri verəcəyik...".[40]

"Грузия" qəzeti Zaqatala üsyanına dair xüsusi məqalə dərc etmişdi.[41] Orada üsyandan yararlanaraq, mahalı Gürcüstana birləşdirmək ümidində olan gürcü siyasi dairələrinin məramları artikulyasiya olunurdu. Məqalədə antisovet üsyanı iştirakçılarının və mahal əhalisinin əksəriyyətinin (bu zaman ingiloyların sayı

qəsdən şişirdilərək, türklərdən artıq göstərilirdi) Gürcüstana meyilli olduğu iddia edilir, bildirilirdi ki, hətta “tatarlar... Gəncə hadisələrindən sonra yalnız gürcülərə ümid bəsləyirlər”. Məqalə gürcü rəsmi qaynaqlarına istinadən həmçinin bildirirdi ki, üsyan günlərində Balakəndə Gürcüstandan gəlmiş təmsilçilərin iştirakı ilə bölgə əhalisinin 1500 nəfərdən ibarət qurultayı toplanmışdı. Qurultay, qəzetin informasiyasına görə, “Azərbaycan... bizim bütün əmlakımızı bolşeviklərin talanına vermişdir və biz belə hökuməti tanımırıq, ərazimizi isə Gürcüstanın ayrılmaz hissəsi hesab edirik” işarəsi altında keçmişdi.

Burada nəzəri haşiyə çıxaraq qeyd etmək istərdik ki, istənilən siyasi hərəkətin (o cümlədən qəzet publikasiyasının) “ekspressiv-simvolik tərəfi vardır... Bu cür simvolik ekspressivlik heç də hər zaman hissləri aldatmağı hədəfləmir; o diqqəti özünə cəlb etmək, motivlər yaratmaq, fəaliyyəti təhrik etməkdən ötrü ümumiyyətlə istənilən siyasətçi üçün zəruridir”.[42] Bu nəzəri yönəlişliyə istinadən güman edə bilərik: hökumət məqamları ilə sıx əlaqə saxlayan “Грузия” qəzeti usyan haqqında ekspressiv məfhumlara istinadən müəyyən informasiya mənzərəsini formalaşdırarkən digər (ideoloji və təbliğati səciyyəli) hədəflərlə yanaşı, gürcü siyasi camiəsini mahala münasibətdə zəruri bildiyi siyasi hərəkət məcrasına yönləndirmək məqsədi də güdürdü.

Həqiqətən də Zaqatala üsyanının başçıları (Hafiz əfəndi, Müslüm əfəndi, Məhəmməd əfəndi, Bəşir bəy Qalaciyev, Molla Məhəmməd Dibirov və başqaları) gürcü hakimiyyət orqanları ilə saziş imzalamışdılar. “Gürcüstana birləşmək haqqında” razılaşma 8 maddədən ibarət idi: 1) Mahalın sərhədlərini yerli əhali ilə birlikdə gürcü qoşunları qorumalı idi. Bu zaman Sovet Rusiyası qoşunlarının mahaldan qovulması icbari şərt kimi irəli sürülürdü. 2) Gələcəkdə yerli əhalinin hərbi xidmətə çağırılması Gürcüstanda mövcud qaydalar əsasında olmalı, fəqət müsəlmanların dini ayinləri saxlanılmalı idi. 3) İki il ərzində müsəlman zabitlərin qoşun hissələrindən xaric edilməsi istisna edilirdi. 4) Dairənin Gürcüstana birləşməsindən 3 il sonra xalq təhsili müstəsna “müsəlman” (Azərbaycan – Ş.R.) dilində aparılmalı idi. 5) Xalq şəriət məhkəməsinin saxlanılması şərt kimi irəli sürülürdü.

6) Dairənin Gürcüstana birləşməsinə qədər meydana çıxmış siyasi və cinayət işlərinə baxılmamalı idi. 7) Tədavüldə müxtəlif pul nişanələrinin dövriyyəsinə icacə verilirdi. 8) Mahalın idarəçilik qaydası mövcud ümumdövlət idarəetməsi əsasında olmalı idi.[43] Lakin sənəddən göründüyü kimi, "Грузия" qəzetinin iddiasına rəğmən, üsyan rəhbərliyi heç də mahalı "Gürcüstanın ayrılmaz hissəsi" hesab etmirdi.

Bu sazişi imzalayan şəxslərin bir çoxu 1918-ci ildə Azərbaycana birləşmək lehinə səs vermiş bölgənin nüfuzlu mənəvi və ictimai-siyasi xadimləri idi. Onların sözügedən akta imza atmalarında müəyyən motivlərlə şərtlənmişdi.

1920-ci ilin iyununda üsyan başçılarının Gürcüstan lehinə qərarı mahaldakı yeni, inqilabi gerçəkliyin onların sosial-siyasi maraq və statuslarına zidd və təhlükəli olmasından nəşət edirdi. Eyni zamanda Qızıl Ordu hissələrinin yerli mental xüsusiyyət və ənənələri nəzərə almadan Rusiyada tətbiq etdiyi şablon üzrə hərəkət etmələri əhalini yeni hakimiyyətə qarşı ovqata kökləndirir və üsyanın sosial bazasını genişləndirirdi. "Грузия" qəzetinin məqaləsində getmiş Balakən qurultayının "Azərbaycan... bizim bütün əmlakımızı bolşeviklərin talanına vermişdir və biz belə hökuməti tanımırıq" mühakiməsi də dediklərimizi təsdiqləyir.

Sazişlə diqqətli tanışlıq, onun təbəəliyə qəbul olma haqqında müqavilədən daha çox niyyətlər haqqında bəyannaməni xatırladığını söyləməyə əsas verir. Bir çox maddələrdə mövcud vəziyyətin daha 2-3 il müddətinə olduğu kimi saxlanılmasına dair şərtin olması sanki sazişin son və qətiliyini şübhə altına alırdı. Çox güman ki, gürcü hökuməti ilə bu aktı imzalamaqda üsyan rəhbərliyi ilk növbədə mümkün müvəffəqiyyətsizlikdən sığortalanmaq məqsədi güdürdü: çıxışın məğlub olacağı təqdirdə qonşu respublika ərazisi geri cəkilən üsyançılar üçün təbii sığınacaq rolunu oynaya bilərdi. Gürcü hökuməti isə bu zaman antibolşevik hərəkatın fəal maddi və mənəvi himayədarına çevrilirdi. Həqiqətən də üsyanın məğlubiyyətindən sonra Bəşir bəy Qalaciyev, Aslan bəy Qardaşov, Müslüm əfəndi, Hafiz əfəndi və digərləri öz dağınıq dəstələri ilə Laqodex və Çarskiye Kolodsı (indiki Siteli-Skaro) rayonlarında sığınacaq tapmışdılar.[44]

Zaqatalada iyun üsyanı gedişində Gürcüstan hökuməti nəinki üsyançılara yardımlar göstərmiş, həmçinin gürcü hərbi hissələrini mahalın ərazisinə də daxil etməklə,[45] müəyyən mənada hətta hadisələrin iştirakçısına çevrilmişdi. Onun bu cür davranışı mövcud vəziyyətdən irəli gəlirdi.

1920-ci ilin yayında Azərbaycanda sovet hakimiyyəti arzu olunan səviyyədə möhkəmlənməmişdi, sovet qoşunlarının sayı da çox deyildi. Hətta 1920-ci ilin payızında, regiona əlavə hissələr gətirildikdən sonra belə Cənubi Qafqazdakı sovet qoşunlarının sayı 26-27 mini keçmirdi.[46]

Eyni zamanda Sovet-Polşa cəbhəsində döyüşlərin intensiv xarakter alması, iyunun 7-dən Vrangel qoşunlarının hücuma keçməsi gürcü hökumətinə daha inamlı hərəkət etmək cəsarəti verirdi.

Həmin dövrdə Gəncədə, Zaqatalada, Qarabağda alovlanan üsyanlar da gürcü hakim dairələrində Azərbaycanda sovet hakimiyyətinin perspektivinə dair müəyyən ümidlər yaratmışdı. Yeri gəlmişkən, 1920-ci ilin yayında Tiflis Qafqazın sovet əleyhinə mübarizə aparan qüvvələrinin özünəməxsus mərkəzinə çevrilmişdi. Orada təşkil olunmuş "Azərbaycanın qurtuluş komitəsi" silahlı çıxışların, o cümlədən Zaqatala üsyanının hazırlanmasında mühüm rol oynamışdı. Bununla əlaqədar, XI Ordunun komandanı M.K.Levandovski Bakı Sovetinin İcraiyyə Komitəsinin iclasında məruzəsində iddia edirdi: "Aydındır ki, Zaqatala qəzası Gürcüstana lazım deyildi, fəqət o, Tiflisdə bulunan … köhnə Azərbaycan hökumətinə lazım idi".[47] Analoji ehtimala Orconikidzedə də rast gəlirik. Kirovla həmin günlərə aid söhbətində o, iddia edirdi: "Gürcülər Zaqatala dairəsindən başda müsəlman-müsavatçılar və hətta sabiq nazirlər olmaqla muxtar vahid yaratmaq, və dairəni Sovet Azərbaycanına qarşı bazaya çevirmək istəyirlər. Yelizavetpol hadisələri ilə əlaqədar biz VII və XVIII kavaleriyanı Zaqataladan çıxarmışıq; hal-hazırda gürcülər müsavatçılarla birlikdə orada üsyan qaldırırlar".[550]

Zənn edirik ki, Tiflisdə toplaşan Azərbaycan siyasi mühacirləri ilə Gürcüstan hökumətinin o dövrdə siyasi maraqları üst-üstə düşürdü; bu halda Zaqatala üsyançılarının bəhs etdiyimiz qərarı

Azərbaycan mühacir rəhbərliyinin göstərişi ilə də qəbul oluna bilərdi. Lakin bolşeviklərə qarşı səylərini fəallaşdıran gürcü siyasi yuxarıları, eyni zamanda Sovet Rusiyası ilə açıq konfrontasiyadan yayınırdılar, çünki belə bir addımın gürcü dövlətçiliyinin aqibəti üçün mümkün nəticələrini çox gözəl anlayırdılar.

Ona görə də gürcü tərəfi Zaqatala üsyanı günlərində tərəddüdlü və qeyri-ardıcıl hərəkət etməkdə idi. Gegeçkori Azərbaycanın xarici işlər komissarlığına iyunun 14, 16 və 20-də də notalarla müraciət etmişdi.[49] O, bölgəyə sovet hissələrinin yeridilməsinə qəti etiraz edir və hətta adekvat addımlar atacaqları ilə hədələyirdi. Fəqət nə onun etirazları bir nəticə vermədi, nə də gürcülər kiçik istisnalarla mahala hərbi qüvvələrini sövq etmədilər, baxmayaraq ki, Laqodex rayonundakı gürcü qoşunları komandiri general Sumbatov iyunun 20-də Zaqatala dairəsindən sovet qoşunlarının təxirə salmadan çıxarılması barədə ultimatumla çıxış etmişdi.[50] Görünür, Azərbaycanda antisovet üsyanlarının yetərincə qısa müddətdə və son dərəcədə amansızlıqla yatırılması gürcü hökumətinə çəkindirici təsir göstərmişdi.

Üsyan günlərində mahalın bəzi sərhədyanı məntəqələrinə daxil olmuş gürcü qoşunları, çox güman ki, tezliklə geri çağrılmışdılar: XI Ordu komandanlığının 7 iyul tarixli əmrindən də göründüyü kimi, Zaqatala ərazisində gürcü hissələri artıq yox idi.[51]

## §5. 1920-ci ilin iyun üsyanından sonra Zaqatala mahalının siyasi və iqtisadi vəziyyəti

Yuxarıda Zaqatala üsyanının səbəblərindən danışarkən Azərbaycandakı hərbi hissələrin faktiki olaraq zorakılıq və qarətçiliklə məşğul olduqlarını qeyd edilmişdi. Hətta üsyanla əlaqədar vəziyyət daha da ağırlaşmışdı. Qəza İnqilab Komitəsi sədrinin məlumatlarında bildirilirdi ki, "üsyançı hərəkətin ləğvindən sonra... əhalinin rifahı kəskin surətdə pisləşdi. Bu üsyanı ləğv etmiş suvari diviziyası və piyada briqadası... sözün əsl mənasında, xüsusən də dənli məhsullar və furaj baxımından dairəni yeyib qurtarmışlar".[52] Əhalidə olan yem və taxılın müsadirəsində ordu ilə yanaşı ərzaq şöbəsi (prodotdel) də fəal iştirak edirdi. Zaqatala

dairəsinin müvəqqəti müvəkkili Əliyevin AK(b) MK-ya təqdim etdiyi məruzəsində (7 iyul, 1920) deyilirdi ki, "Qızıl Ordu hissələrinin vəhşilikləri haqqında təhriklərdən qorxuya düşmüş əhali qoşunlarımızın hücum etməsi zamanı özünün bütün əmlakını ataraq, dağlara qaçmışdı və bunun nəticəsində çoxmilyonluq mal-varidat qarət edilmiş və minlərlə baş mal-qara sahibsiz bütün mahalda dolaşmaqdadır". Məruzə müəllifi küllü miqdarda mal-qaranın gürcülərin əlinə keçməsindən, həmçinin Ordunun mahalda saxlanılmasının yerli kəndlilər üçün baha başa gəldiyindən söz açırdı.[53]

Bir başqa məlumatda deyilirdi ki, bütün müsadirələrdən sonra zaqatalalıların yeganə ümidi Alazan çayının sağ sahilindəki əkin sahələrinə idi. "Fəqət Zaqatala dairəsinə bu taxılı yığmağa icazə verən gürcülər... onun dairə mərkəzinə aparılmasına maneçilik törədərək, deyirlər: "bolşeviklər getdikdən sonra ondan yararlanasınız".[54]

Zaqatalalıların Şirək düzündə yetişmiş və biçilmiş taxılının aparılmasına gürcülərin izin verməməsi vilayətdə, xüsusən də Əliabad və Almalı nahiyələrində real aclıq təhlükəsi yaratmışdı. Bu məsələ o qədər ciddi idi ki, hətta AK(b)P-nin Zaqatala Qəza Komitəsi özünün avqustun 8-də olmuş iclasında problemin həlli üçün Bakıya nümayəndə göndərməyi qərara almışdı.[55] Düzdür, payıza doğru vəziyyət nisbətən dəyişdi: Zaqatala Qəza Partiya Komitəsinin 28 oktyabr iclasında bəlli oldu ki, Gürcüstan hakimiyyət orqanları yalnız mahal kəndlilərinin şəxsi ehtiyaclarını təmin edəcək miqdarda taxılın çıxarılmasına hər halda icazə vermişdi.[56] Yeri gəlmişkən, gürcülər sözlərinin üstündə durdular: həmin il vadidə 16000 pud (təqr. 256 ton) taxıl yetişmişdi ki, onun sadəcə yarısını zaqatalalılar Alazan çayının sol sahilinə daşıya bilmiş, yerdə qalanı isə ya gürcü hökuməti tərəfindən müsadirə olunmuş, ya da məhv olub getmişdi.[57]

Taxılın qismən aparılmasına icazə verməklə, qismən də özündə saxlamaqla gürcü hakimiyyəti iki vəzifənin həllinə çalışırdı. Birincisi, iqtisadi üsullarla (taxılın aparılmasının əvvəlcə yasaqlanması, sonra isə qismən icazə verilməsi ilə) əhalini özünə cəlb etmək istəyirdi. Hətta bu məqsədlə Gürcüstanın mahalla həmsərhəd rayonuna küllü miqdarda şəkər və başqa ərzaq məhsulları

gətirilərək, zaqatalalılara ucuz qiymətə, lakin yalnız gürcü valyutasına satılırdı.[58]

Belə addımlar, şübhəsiz, bolşeviklərin müsadirə siyasətindən cana gəlmiş əhali arasında müəyyən rezonans doğurmaya bilməzdi. Qızıl Ordunun Zaqataladakı süvari korpusunun komandiri A.Tkaçev öz raportunda (1920, 31 iyul) əhalinin Gürcüstana meylini belə təsvir edirdi: "... Yaşanılan an əhaliyə hələlik heç bir fayda gətirməmişdir, əksinə, gündən-günə onun ehtiyaclarını inkişaf etdirir. Şüursuz yerli müsəlmanlıq üçün ... ona heç nə verməyən Bakının hakimiyyətindən azad olmaq və Tiflislə əlaqəyə girmək olduqca cazibədar görünür".[59]

Lakin gürcü hökuməti bu zaman aşkar görünməyən bir başqa məqsəd də güdürdü. Bəlli olduğu kimi, Zaqatala dairəsinə aparılan taxılın heç də hamısı kəndlilərə qalmırdı: həyata keçirilən "ərzaq sapalağı" (prodrazverstka) siyasəti çərçivəsində onun xeyli hissəsi dövlət orqanlarının, Zaqatala dairəsində isə hərbi hakimiyyətin sərəncamına keçirdi. Təbii ki, taxılın miqdarı məhdudlaşdıqca, yerli əhalinin payına düşən hissə də azalırdı. Deməli, gürcü hökuməti Zaqatala əhalisi ilə sovet hakimiyyəti arasında nifaqı bu yolla daha da dərinləşdirməyə çalışırdı. Zaqatala Qəza Partiya Komitəsinin 28 oktyabr iclasında Şirəkdən gətirilmiş taxılın kəndlilərdən hətta müsadirəsi məsələsi qaldırılmışdı. Təbii ki, bu təklifin qəbul olunması onsuz da narazı əhalinin yeni çıxışına səbəb ola bilərdi və ona görə də rədd edilmişdi.

Yeri gəlmişkən, əhalinin narazılığının artmasında müsadirələr və həbslərlə yanaşı, 1921-ci ilin baharına qədər Zaqatala mahalında yeni hakimiyyətin formalaşması və strukturlaşmasının başa çatmaması da önəmli rol oynayırdı. Bəhs etdiyimz dövrdə bölgədə ikihakimiyyətlilik bərqərar olmuşdu: bir tərəfdən mülki hakimiyyət (Mahal İnqilab Komitəsi və onun yerli orqanları), digər tərəfdən isə hərbi hakimiyyət (Qızıl Ordu hissələrinin komandanlığı). Faktiki olaraq real hakimiyyət Qəza inqilab komitələri ilə müqayisədə daha üstün səlahiyyətlərə malik hərbi struktura məxsus idi.

Çox vaxt hərbi orqanlar yerli inqilab komitələrini bacarıqsızlıqda və siyasi etibarsızlıqda suçlayırdı. Məsələn, mahaldakı

xüsusi şöbənin fəal hissəsinin rəisi Aşukin 1920-ci ilin sonlarında apardığı təftiş nəticəsində belə qənaətə gəlmişdi: “Yerli hakimiyyət orqanlarının tam fərasətsizliyi və kənddə bacarıqsız işi bahara doğru böhranlı vəziyyət yarada bilər və dairədəki hissələri məhvə məhkum edər...”[60]

Həqiqətən də, vilayətdə mülki hakimiyyəti heç bir dövləti idarəçilik praktikası olmayan, siyasi təcrübəsi isə qeyri-leqal inqilabi fəaliyyətlə məhdudlaşan Z.Balaxlinski (o, sentyabr ayında Moskvaya təhsil almağa getmişdi), X.Ağamirov, M.Qocayev, S.Qocayev kimi 21-23 yaşlı gənclər təmsil edirdilər.[61] Yeri gəlmişkən, bu cür vəziyyət o dövrdə Azərbaycanın yeni hakimiyyəti üçün səciyyəvi idi. Təcrübəsizlik isə, təbii, səhvlər doğururdu.

Fəqət həqiqətin bir başqa üzü də mövcud idi: kənardan gəlmiş və yerli xüsusiyyətlərdən tamamilə baş çıxarmayan hərbi-siyasi inzibatçılar – hərbi rütbəlilər və xüsusi şöbə işçiləri inqilab komitələrinin fəaliyyətinə kobud müdaxilələri ilə mahalın idarə edilməsini pozur, hətta iflic vəziyyətinə salırdılar. Məsələn, 1920-ci ilin noyabrında Zaqataladakı inqilab komitələri üzvlərinin demək olar hamısı hərbi hakimiyyət tərəfindən həbs edildi. Vilayət bir müddət başda keçmiş poruçik S.R.Serebryakov olmaqla ruslardan (Şvyakov, Mişin və b.) və ermənilirdən (T.Ayrapetov, R.Vartazarov, Elçibekov, Atamyants) ibarət Hərbi-İnqilab Komitəsi tərəfindən idarə olundu.

Bu barədə 1921-ci ilin martında N.Nərimanova ünvanladığı məruzəsində Xəlil Ağamirov (İnqilab Komitəsinin 1920-ci ilin noyabr ayında sədri) yazırdı ki, onları əks-inqilabi fəaliyyətdə ittiham edərək, karserə salmışdılar. Kolçakla döyüşlərdə ağır yaralanmış, Orta Asiyada sovet hakimiyyətinin qurulmasında fəal iştirak etmiş Ağamirovun “burada sovet hakimiyyətidir, ya yox” sualına “sən haradan bizim yoldaşımız oldun” cavabını vermişdilər.[62]

Saxlanılan şəxsləri yalnız 19 gündən sonra Bakıdan xüsusi göstərişin daxil olması ilə azad etdilər.

Hərbi hissələrin Azərbaycanda, o cümlədən Zaqatalada özbaşına hərəkətləri yalnız 1921-ci ilin baharında səngidi: XI Qızıl Ordu hissələrinin Gürcüstanın sovetləşməsi ilə əlaqədar ora dislokasiya edilməsi[63] yerli hakimiyyət üzərinə təzyiqlərin nisbətən zəifləməsinə gətirib çıxardı.

Sadalanan amillər sovet hakimiyyətinin bölgədə nüfuzuna ciddi zərbə vururdu və qeyd etdiyimiz kimi, Gürcüstana müəyyən meylin meydana çıxmasına səbəb olmuşdu. Narazı əhval-ruhiyyəni sakitləşdirmək məqsədi ilə 1920-ci ilin avqustun 20-də Zaqatala şəhərində Müzəffər Nərimanovun sədrliyi altında mahalın məntəqə inqilab komitələri sədrlərinin qurultayı çağırıldı. Onun iştirakçıları digər məsələlərlə yanaşı, Gürcüstana birləşmək lehinə təbliğatla fəal surətdə mübarizə aparmaq haqqında bəyanat qəbul etdilər.[64]

1920-ci ilin coşqun may-iyun aylarından sonra Zaqatala mahalı ətrafında cərəyan edən proseslər nisbətən sakit məcraya düşdü, hərçənd sərhəddə müəyyən olaylar baş verməkdə idi. Məsələn, Şirək düzündə gürcülər, qeyd etdiyimiz kimi, biçilmiş taxılı müsadirə edirdilər, ara-sıra zaqatalıların mal-qarasını aparırdılar.[65]

Sentyabrın sonlarında Gürcüstanın kiçik kəşfiyyat dəstəsi Qabaqçöl rayonunda sərhədi keçərkən yaxalanmışdı.[66] Bundan əlavə, payız aylarında Gürcüstan və Azərbaycan xarici siyasət idarələri bir-birini sərhəddə qoşun toplamaqda ittiham edən notalarla mübadilə edirdilər.[67]

## §6. Gürcüstanın sovetləşməsi və Zaqatala mahalının mənsubluğu haqqında məsələnin həll olunması

1920-ci ilin noyabrın 20-də Ermənistanda Sovet hakimiyyəti bərqərar olduqdan sonra Gürcüstan Cənubi Qafqazda Sovet təsir sferasından kənarda qalan yeganə ölkəyə çevrilmişdi. O zaman Sovet Rusiyasının siyasi vəziyyəti də xeyli möhkəmlənmişdi: oktyabrın 12-də Riqada Polşa ilə barışıq imzalanmış, noyabrın ortalarında isə Krım yarımadası Vrangel qoşunlarından tamamilə təmizlənmişdi. Hadisələrin bu məcrada inkişafı Gürcüstana münasibətdə sovet siyasətinə özünün yeni məntiqini dikta edirdi.

Gürcüstana dair siyasətə təshihlər etmək arzusu Qafqaz bolşevik rəhbərliyində artıq 1920-ci ilin oktyabrın sonlarında yaranmışdı. Həmin günlərdə Kazım Qarabəkir paşanın komandanlığı altında türk qoşunlarının erməni cəbhəsini yarması və sürətlə İrəvan istiqamətində irəliləməsi müəyyən mənada sovet-türk

münaqişəsi ehtimalını doğurmuşdu. Yeri gəlmişkən, buna Antanta da can atırdı.[68]

Sovet rəhbərliyi Qafqazda, ilk növbədə Bakı və ümumən Azərbaycanın əlverişli geostrateji mövqeyinə görə ehtiyat edirdi. Vəziyyəti öyrənmək üçün İ.V.Stalin oktyabrın sonlarında əvvəlcə Vladiqafqaza, sonra isə Bakıya ezam olundu. Noyabrın 9-da o, RK(b)P MK Qafqaz bürosunun, AK(b)P MK-nın, Azərbaycan SSR İnqilab Komitəsinin və partiyanın Bakı komitəsinin Bakıda olmuş birgə iclasında ən yaxın vəziyyətə dair ətraflı məruzə ilə çıxış edir. Məruzədə Gürcüstan hökuməti daxilində dağılmanı gücləndirmək barədə təkliflər səslənmişdi.[69]

Noyabrın sonlarında Ermənistanın sovetləşməsi faktiki olaraq Gürcüstanın siyasi taleyində həlledici rol oynadı. Artıq 1920-ci ilin dekabrın 15-də RK(b)P MK-nın Qafqaz bürosunun Bakıda keçirilmiş birləşmiş müşavirəsində Gürcüstanın sovetləşməsinə əməli yardım göstərilməsi barədə qətnamə qəbul olundu. Fəqət V.İ.Lenin o zaman bu qərarın həyata keçirilməsini qəti surətdə yolverilməz hesab edirdi. Məhz onun təkidi ilə dekabrın 17-də Mərkəzi Komitə əvvəlki siyasi kursunu təsdiqlədi.

1921-ci ilin yanvarın 21-də Orconikidze və Kirov Moskvaya, Gürcüstanın sovetləşdirilməsi zərurətini əsaslandırmaq üçün "Bütün RK(b)P MK üzvlərinə" başlıqlı məktub göndərdilər.[70]. Gürcüstan məsələsi yanvar ayı ərzində bir neçə dəfə Siyasi Büroda müzakirə olundu. Ən nəhayət, Orconikidze və Kirovun səyləri öz nəticəsini verdi: yanvarın 26-da RK(b)P MK plenumu məsələ haqqında qətnamə qəbul etdi. Orada "zərurət halında Gürcüstan zəhmətkeşlərinə hərbi yardım göstərilməsi" nəzərdə tutulurdu. Gürcüstanın müstəqil dövlət kimi aqibətində məşum rol oynayan qərar isə RK(b)P MK Siyasi Bürosunun 8 fevral iclasında qəbul olundu. [71]

Azərbaycan hökumətinin Gürcüstana münasibəti də təbii, Qafqaz Bürosunun müvafiq siyasi kursu ilə müəyyənləşirdi. Müdaxilə ərəfəsində Gürcüstan XİN-i Ağstafa müqaviləsinin şərtlərinin pozulması ilə əlaqədar 2 dəfə Azərbaycana müraciət etmişdi. Xarici işlər naziri Y.P.Gegeçkorinin Avropada olması ilə əlaqədar onu əvəz edən Sabaxtarişvili M.D.Hüseynova 1920-ci ilin dekabrın

24-də göndərdiyi təliqədə (eyni məzmunlu təliqə RSFSR-in Gürcüstandakı diplomatik missiyasına da ünvanlanmışdı) Ağstafa müqaviləsinin 6-cı maddəsinə rəğmən Zaqatala dairəsində qoşunların toplanması ilə bağlı öz hökumətinin narahatlığını ifadə edirdi.[72] M.D.Hüseynov cavab təliqəsində gürcü tərəfinin Zaqatala dairəsində qoşunların toplanması ilə bağlı iradı tamamilə danılırdı. Həmçinin gürcü hökumətinin Zaqatala əhalisinə "qayğı" ifadə etməsi Azərbaycan SSR-in daxili işlərinə yolverilməz müdaxilə hesab olunurdu.[73]

Sabaxtarişvili 1921-ci ilin yanvarın 21-də Azərbaycan Xalq Xarici İşlər Komissarlığına növbəti təliqə ünvanladı.[74] Bu diplomatik sənəd Zaqatala mahalının taleyi ilə bağlı Moskva sazişinin 4-cü maddəsinin 1920-ci il iyunun 25-də Çxenkelinin Müəssislər Məclisindəki nitqində artikulyasi edilmiş gürcü rəsmi təsirini bir daha təqdim edirdi. Məhz adı çəkilən təfsirin (sazişlə guya Zaqatala mahalı Gürcüstan ərazisi kimi təsbit olunmuşdur; mübahisə predmeti isə yalnız dairə hüdudlarında bəzi sahələr ola bilər) məntiqi Gürcüstanın xarici-siyasət idarəsini o zaman tamamilə qeyri-real görünən iqrara sövq edirdi: "Ona görə də Zaqatala dairəsinin əhalisinə münasibətdə qayğı və himayədarlıq sərgiləməklə, Gürcüstan hökuməti öz vəzifəsini yerinə yetirir; bu vəzifə başqasının işlərinə müdaxilə kimi sayıla bilməz və hansı tərəfin olursa olsun heyrətini doğura bilməz". Beləliklə, təliqədə Zaqatala dairəsinin Gürcüstana mənsubluğu iddia edilirdi və arbitraj komissiyasının təşkili məsələsi bir daha qaldırıldı.

1921-ci ilin yanvarın 14-də AK(b)P MK Siyasi və Təşkilat bürosunun iclasında M.D.Hüseynov Gürcüstan Xarici İşlər nazirinin 12 yanvar tarixli teleqramı barədə məlumat verdi. İclasda gürcü hökumətinə nümayişkaranə cavab vermək və komissiyaya razı olmamaq qərara alındı.[75] Bu, faktiki olaraq sovet tərəfinin Gürcüstanla bağladığı müqavilələrin birtərəfli qaydada denonsasiyası mənasını verirdi.

1921-ci ilin fevralın 11-də Lori rayonunda bolşevik təhriki ilə alovlanan erməni üsyanı Gürcüstanın sovetləşməsinə bir növ işarə oldu. Fevralın 16-da Gürcüstan İnqilab Komitəsi təşkil olundu və elə həmin gün bu ölkəyə qarşı sovet müdaxiləsi başlandı. Yeri

gəlmişkən, Azərbaycan sovet hökuməti də Gürcüstana müharibə elan etmişdi. Fevralın 17-də Leninə və Çiçerinə göndərdiyi teleqramda M.D.Hüseynov bu qərarı doğuran amillər sırasında gürcülərin Zaqatala mahalındakı əks-inqilabi fəaliyyətini də qeyd edirdi.[76]

Yeri gəlmişkən, Azərbaycan ərazisi – Qazax, habelə Zaqatala rayonları Gürcüstana hücum edən sovet qoşunları üçün əsas platsdarm rolunu oynamışdı.

1921-ci ilin sovet-gürcü müharibəsi kifayət qədər şiddətli və sürəkli xarakter almışdı: məsələn, Tiflis şəhərinin fevralın 19-na planlaşdırılmış işğalı yalnız fevralın 25-də baş tutdu. Hərbi əməliyyatlar isə martın 18-dək, gürcü hökumətinin Batumdan evakuasiyasına qədər davam etdi.[77]

Cənubi Qafqazın sovetləşməsinin başa çatması region xalqlarının münasibətləri tarixində keyfiyyət etibarı ilə yeni dövrün başlanması demək idi. Sovet dövləti mahiyyətcə əhatəli unifikasiyaedici strukturu təmsil edirdi. Belə bir keyfiyyət onu müxtəlif etnosiyasi mübahisə və münaqişələri nizamlamağa və həll etməyə sövq edirdi. Bu zaman münaqişələrin tənzimləmə metodu kimi inteqrasiya çıxış edirdi: onun əsasında dövlətdə mövcud etnos və etnik qrupları etnik identiklikdən daha geniş olan ümumi identiklik (bizim nümunəmizdə sovet identikliyi) əsasında vahid siyasi bütövə inteqrasiya cəhdi dururdu.[78]

1921-1923-cü illərdə sovet dövlətçilik sistemi çərçivəsində Cənubi Qafqaz respublikalarının inzibati-ərazi bölgüsü həyata keçirildi: o, iri etno-ərazi münaqişələrini aradan qaldırmaqla bərabər, region xalqlarının nəhayət etibarı ilə siyasi-ərazi identikliyini təsbit etməyə çağrılmışdı.

1921-ci ilin mayın 2-də RK(b)P Qafqaz bürosu S.M.Kirov başda olmaqla Cənubi Qafqaz respublikaları arasında sərhəd mübahisələrini həll etmək üçün xüsusi komissiya təşkil etdi.[79]

1921-ci ilin iyunun sonlarında Tiflisdə Cənubi Qafqaz respublikalarının daxili sərhədlərinin nizama salınması üzrə konfrans öz işinə başladı. Konfrans iyul ayının 5-də F.Maxaradze və N.Nərimanovun imzası ilə Azərbaycan və Gürcüstan arasında sərhəd xəttinin müəyyənləşdirilməsinə dair beş maddədən ibarət qətnamə qəbul etdi.

Qətnamənin ikinci maddəsi Azərbaycanla Gürcüstan arasında sərhədləri ümumi qaydada müəyyən edirdi və faktiki olaraq, Ağstafa müqaviləsinin müvafiq maddələrinin qüvvədən düşməsi anlamına gəlirdi. Yeni anlaşma əvvəlki müqavilə ilə müqayisədə iki respublika arasında etnososial mülahizələrə istinadən, daha ədalətli sərhədlərin qoyulmasını bəyan edirdi. Faktiki olaraq bu sənədlə çarizmin ədalətsiz bölgüsü nəticəsində Tiflis quberniyası tərkibinə keçmiş bəzi (amma heç də hamısının yox) əzəli Azərbaycan torpaqlarının Azərbaycana qaytarılmasına start verilirdi

N.Nərimanov – F.Maxaradze sazişinin dördüncü maddəsi Zaqatala mahalına həsr edilmişdi. Ona əsasən Gürcüstan SSR dairəyə olan hər hansı iddiasından əl çəkirdi və bu barədə Gürcüstan İnqilab Komitəsi müvafiq bəyanat verməli idi.[80]

Konfransın qərarına uyğun olaraq sərhədlərin yerlərdə müəyyən edilməsi üçün Ə.Abbasov (Azərbaycan) və V.Kandelakinin (Gürcüstan) sədrliyi altında xüsusi qarışıq komissiya yaradılmışdı. Bu komissiya əsasən Qarayazı, Eldar və Çatma düzlərində Gürcüstan-Azərbaycan sərhədinin demarkasiyası ilə məşğul olmuşdu. Komissiyanın 1921-ci il 8 noyabr iclasında Qazax qəzası ilə Gürcüstanın müvafiq həmsərhəd qəzaları arasında sərhəd xətti məsələsinə baxıldı.[81] Əldə olunmuş razılığa əsasən, Qarayazı bölgəsi iki hissəyə ayrılırdı: Yuxarı Qarayazı Gürcüstana, Aşağı Qarayazı isə Azərbaycana aid edilirdi. David-Qareci monastır kompleksi rayonunda sərhəd Quzey-Keşiş dağına uzanaraq, oradan sıra dağlar ilə cənub-şərqə istiqamətlənərək, David-Qareci monastırının şimalında ucaldılmış qüllədən keçirdi. Deməli, monastır kompleksi bütünlükdə Azərbaycan tərkibində təsbit olunurdu.

Komissiyanın gəldiyi qənaətlər noyabrın 15-də Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin sədri Muxtar Hacıyev və Gürcüstan İnqilab Komitəsinin sədri Budu Mdivani arasında imzalanmış yeni sazişdə ifadəsini tapdı[82]. Bu sazişdə iki respublika arasında sərhədlər Nərimanov-Maxaradze razılaşması ilə müqayisədə daha dəqiq göstərilirdi. Onun 3-cü paraqrafına əsasən, Zaqatala dairəsi haqqında əvvəlki qərar qüvvədə qalırdı. Zaqatala və Siqnax qəzaları arasında əvvəlki inzibati sərhəd saxlanılmışdı.

Beləliklə, 1921-ci ilin iyulun 5-də və noyabrın 15-də qəbul edilmiş sənədlər Gürcüstanın Zaqatala dairəsinə olan iddialarından imtinasını rəsmiləşdirirdi. Zaqatala mahalının siyasi (dövləti) mənsubluğu ilə bağlı münaqişə beləcə həllini tapdı. Konfliktoloji nöqteyi-nəzərdən, münaqişənin həlli üçün opponentlərin hər ikisinin və ya heç olmasa, birisinin mövqeyinin dəyişməsi zəruridir.[83] Bizim halda bu, yeni gürcü sovet elitasının dairədən rəsmən imtinasında özünü büruzə verirdi.

Bəzən belə bir fikirlə rastlaşırıq ki, Zaqatalanın Azərbaycan tərkibində qalması Borçalı və Yuxarı Qarayazının Gürüstana verilməsi hesabına mümkün olmuşdu. Bu tezis bizdə şübhə doğurur. Əvvəla, həm Borçalı, həm də Qarayazı 1918-ci ildə alman süngüsünün köməyi ilə Gürcüstanın nəzarəti altına keçmişdi. Qarayazı, qeyd etdiyimiz kimi, Azərbaycanla Gürcüstan arasında 1921-1922-ci illərdə həyata keçirilmiş ərazi mərzlənməsi gedişində bölünmüşdü. Ümumiyyətlə, 20-ci illərin əvvəllərində Qarayazı, Çatma və Eldar düzlərində Azərbaycana ümumən 79600 desyatin, yəni 86963 hektar ərazi qaytarılırdı ki, bunlardan 9200 desyatini (10051 ha) meşə, 3600 des. (3933 ha) şumluq, 67500 des. (73743 ha) otlaqlar təşkil edirdi.[84]

Qarayazı çöllərindən fərqli olaraq, Borçalı qəzası regionun sovetləşməsindən sonra Gürcüstanın Azərbaycanla deyil, Ermənistanla müzakirə mövzusu idi. Kirovun sədrliyi altında ərazi məsələləri üzrə komissiya 1921-ci ilin iyununda Borçalı məsələsini məhz Gürcüstanla Ermənistan arasında mübahisə predmeti kimi nəzərdən keçirmişdi. Nəhayət, Borçalı elinin tədqiqatçılarından Ş.Məmmədlinin gətirdiyi sənədlərdən də bəlli olur ki, 1921-ci ilin iyulun 7-də Azərbaycanın bu qədim tarixi mahalı respublikamızın iştirakı olmadan RK(b)P MK Qafqaz Bürosu tərəfindən Gürcüstanla Ermənistan arasında bölüşdürülmüşdü.[85]

20-ci illərin ortalarından etibarən, Gürcüstan rəhbərliyi Azərbaycana qaytarılmış torpaqların xeyli hissəsini müxtəlif bəhanələrlə öz ərazisinə qata bilmişdi. Qısaca olaraq qeyd edək ki, 1924-cü ilin oktyabrında Zaqatala kənd icmalarına mənsub "Çiaur meşəliyi" adlanan rayonda 5000 hektar, Şirək çölündə təqribən 20000 hektar, 1926-cı ilin dekabrında Qabırrı (İori) çayı yaxın-

lıqlarında, Ceyrançölə bitişik təqr. 8000 ha, yenə 1926-cı ilin dekabrında ümumi sahəsi 18000 ha-dan artıq Çatma düzünün təqr. 12885 ha-sı, nəhayət, 1929-cu ilin fevralın 19-da Eldar düzündən 15000 desyatin (16050 ha), bircə gürcünün yaşamadığı, alban mədəni və tarixi irsinin görkəmli abidələrindən olan Keşikçidağ (David-Qareci) monastırı rayonundan üç sahədə ümumən 2640 des. (2825 ha) torpaq kəsilərək, Gürcüstana verilmişdi.[86]

Zaqatala mahalının mənsubluğu məsələsinin Azərbaycanın lehinə çözülməsində, fikrimizcə, iki amil önəmli rol oynamışdı. Əvvəla, mahalın əhalisinin mütləq əksəriyyətini – təqr. 92%-ni müsəlmanlar təşkil edirdi. Türklər, avarlar və ingiloylardan ibarət bu toplum Azərbaycan tarixi və sosiomədəni məkanının ayrılmaz hissəsi idi ki, bu, özünü Zaqatala Milli Şurasının 26 iyun 1918-ci il tarixli Azərbaycana birləşmək haqqında qərarında da ifadəsini tapmışdı.

İkincisi, mahalın göstərilən tarixdən etibarən Birinci Azərbaycan Respublikasının siyasi məkanında, özü də əhalinin könüllü seçimi nəticəsində bulunması faktı da məsələnin ədalətli həllinə təsirini göstərmişdi. Həmçinin Orconikidze və Kirovun timsalında RK(b)P MK Qafqaz Bürosunun məsələ ilə bağlı yuxarıda səsləndirilən praqmatik mövqeyi də öz rolunu oynamışdı.

Yeni Gürcüstan rəhbərliyinin Zaqatala bölgəsinə olan iddialardan rəsmən əl çəkməsi öz-özlüyündə simvolik məna kəsb edirdi: bu aktla gürcü bolşevikləri XIX əsrin ortalarından gələn gürcü milli-intellektual ənənəsindən və onun tərkib hissəsi olan ərazi ideologiyasından məsafə saxlamış olurdular. Gürcü bolşevikləri Avrasiya bolşevizminin üzvü hissəsi idilər və bu qisimdə onların ideya-simvolik məkanında Gürcüstanın tarixi-yarıməfsanəvi sərhədlərinin bərpası məsələsi aktual əhəmiyyət və anlam kəsb etmirdi. Onların ideoloji mənzərəsində mərkəzi konsept (məzmunlu anlayış) kimi "zəhmətkeşlərin azadlığı" məfhumu çıxış edirdi: o, vahid siyasi, iqtisadi, sosiomədəni məkanda müxtəlif xalqların məzlum (əməkçi) siniflərinin birliyini, xəlitəsini arzulayırdı və nəzərdə tuturdu.

Söylənilənlərdən gürcü menşevikləri və bolşeviklərinin mühüm siyasi, daha fundamental planda isə həmçinin sosiomədəni

fərqi nəzərə çarpır. 1918-1921-ci illərin özünəməxsus sosio-siyasi situasiyasında obyektiv olaraq menşeviklər "millət-dövlətin", bolşeviklər isə geniş planda "imperiyanın" adeptləri idilər. Rusiya alimi İ.Q.Yakovenkonun definisiyasına görə, milli dövlətin baza inteqratoru (birləşdirici amili) millətdir. Bu zaman millətin təşəkkülü – çəpərləmə, hansısa öz şəxsi məkanına ayırma, öz xüsusiliyini fiksasiya etmə aktıdır. Ənənəvi imperiyanın baza inteqratoru – ideyadır. İdeya inam dəyərlərində – ideologiyada və xüsusi sosiomədəni kompleksdə – imperiya şüurunda təcəssüm edir.[87]

Sovet dövlətini mahiyyət etibarı ilə sosial-paternalist və ideokratik imperiya kimi qəbul etsək, əvvəlki fikirlərimizi ümumiləşdirərək, söyləyə bilərik: bolşevik yuxarıları – imperiyanın yeni hakim sinfi vahid siyasi və ideya təməli üzərində Avrasiya məkanında yaşayan çeşidli etnosları bir ümumiliyə inteqrasiya etməyə çalışırdılar. Bu da etno-ərazi münaqişələrinin tezliklə yoluna qoyulması istəyini obyektiv olaraq şərtləndirirdi.

Burada bir məqama da diqqət yetirilməlidir: sovet dövləti imperiya idi. Fəqət o 1917-1921-ci illərin milli-dövlətçilik təcrübəsinə də etinasız yanaşa bilməzdi. Məhz ona görə də milli-ərazi təşkilinin əsasına federativ dövlət quruluşu forması qoyulmuşdu. Sovet federasiyası çərçivəsində yaradılan respublikaların (bunlar özünəməxsus millət-dövlətləri xatırladırdı) ərazilərinin təsbiti isə tarixi, təsərrüfat, etnodemoqrafik və s. səbəblər üzündən mübahisə və ixtilaflar doğurmaya bilməzdi.

Onu da unutmamalıyıq ki, milli-ərazi əlahiddələşmələrin praktiki gerçəkləşdirilməsi zamanı tarixi, etnosiyasi və etnososial reallıqlar müəyyən hallarda ya az nəzərə alınır, ya da onlara etina edilmirdi. Azərbaycanın 20-30-cu illərə aid bu sahədə acı təcrübəsi – əzəli torpaqlarımızın qonşulara verilməsi prosesi də deyilənlərə dəlalət edir.

[1] "Siyasi bifurkasiya" anlayışı üçün bax: Политическая энциклопедия. В двух томах. Т. 1. М.: Мысль, 2000, стр. 131-132.
[2] Qasımov M. Xarici dövlətlər və Azərbaycan (aprel işğalından SSRİ yaradılana qədərki dövrdə diplomatik-siyasi münasibətlər) – Bakı: Qanun, 1998, səh.229-256.
[3] Мустафазаде Р.С. Две республики. Азербайджано-российские отношения в 1918-1922 гг. – М.: МИК, 2006, стр. 144-151.
[4] "Борьба", 1920, 4 may, № 98 (653).
[5] Bu fakt sonralar sovet tarixşünaslığında "Sovet Azərbaycanı Şərqdə inqilabın forpostu oldu" tezisində əksini tapdı: Азизбекова П., Мнацаканян А., Траскунов М. Советская Россия и борьба за установление и упрочение власти советов в Закавказье – Баку: Азерб.гос.изд-во, 1969, стр. 180; Победа советской власти в Закавказье – Тбилиси: Мецниереба, 1971, стр. 448; Галоян Г.А. Октябрьская революция и возрождение народов Закавказья – М.: Мысль, 1977, стр.151.
[6] Орджоникидзе Г.К. Статьи речи. В 2-х томах. Том 1-й. – М.: Госполитиздат, 1956, стр.256.
[7] Əhməd Bədi. 29 nisan. – "Azərbaycan müvəqqəti inqilab komitəsinin əxbarı", 1920, 29 aprel, №1.
[8] Махарадзе Н.Б. Победа социалистической революции в Грузии – Тбилиси: Сабчота Сакартвело, 1965, стр. 369; Жвания Г.К, Великий Октябрь и борьба большевиков Закавказья за советскую власть Тбилиси: Сабчота Сакартвело, 1967, стр. 262-263; Азизбекова П., Мнацаканян А., Траскунов М. Советская Россия…стр. 206.
[9] Azərbaycan Respublikası Dövlət Arxivi (ARDA), f.28, s.1, iş 63, v. 19; iş 113, v. 2.
[10] Yenə orada, iş 38, v. 2; iş 113, v.3.
[11] Жвания Г.К, Великий Октябрь и борьба большевиков…стр.269; Хармандарян С.В. Ленин и становление Закавказской Федерации (1921-1923) – Ереван: Айастан, 1969, стр. 41.
[12] ARDA, f.28, s.1, iş 38, v.30.
[13] Речь Н.Жордания на заседании Учредительного Собрания Грузии от 30 апреля – "Борьба", 1920, 4 may, №98 (653).
[14] ARDA, f.28, s.1, iş 113, v.7.
[15] Lenin V.İ. Əsərlərinin tam külliyyatı. Rusca beşinci nəşrindən tərcümə. Cild 51 (may-noyabr 1920) – Bakı: Azərbaycan dövlət nəşriyyatı, 1984, səh. 222; 487.
[16] История СССР с древнейших времен до наших дней. В 2-х сериях. В 12-ти томах. Том VII – М.: Наука, 1967, стр. 571-572.
[17] Bax: V.İ.Leninin L.D.Trotskiyə məktubu (4 may 1920) – Lenin V.İ. ƏTK. Cild 51… səh. 223; 487.
[18] ARDA, f. 28, s.1, iş 38, v.31.
[19] Yenə orada, v.44.
[20] Борьба за советскую власть в Грузии. Документы и материалы (1917-1921 гг.) – Тбилиси: Сабчота Сакартвело, 1953, sənəd №563, səh. 564; "Борьба", 1920, 6 iyun, № 125 (680).
[21] Мустафазаде Р.С. Две республики. Азербайджано-российские отношения в 1918-1922 гг… стр.145-146.
[22] Yenə orada, səh. 146.

[23] Yenə orada.
[24] Борьба за советскую власть в Грузии… sənəd №567, səh.572; "Борьба", 1920, 6 iyun, №125 (680).
[25] ARDA, f. 28, s.1, iş 54, v.1-5; iş 56, v.1-8.
[26] Yenə orada, iş 54, v.16.
[27] Учредительное собрание Грузии – "Борьба", 1920, 27 iyun, №143 (698); 30 iyun №145 (700).
[28] Заключительная речь А.М.Чхенкели – "Борьба", 1920, 30 iyun №145 (700).
[29] Тифлис, 27 июня (Передовица) – Yenə orada, 27 iyun, №143 (698).
[30] Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti – Bakı: Elm, 1990, səh.73.
[31] Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Siyasi Sənədlər Arxivi (ARPİİSSA), f.1, s.1, iş 2 "a", v.25.
[32] Yenə orada, v.18; Гулиев Дж.Б. Борьба Коммунистической Партии Азербайджана за осуществление ленинской национальной политики в Азербайджане – Баку: Азерб. гос. изд.-во, 1970, стр.557-558.
[33] ARDA, f.27, s.1, iş 684, v.2-2 (arxa), 6.
[34] Yenə orada.
[35] Yenə orada, f.28, s.1, iş 38, v.7, 10, 29, 31; iş 98, v.98, v. 48-48 (arxa), 50; iş 113, v.9-11.
[36] Üsyan haqqında bax: Azərbaycan tarixi. Yeddi cilddə. Altıncı cild (aprel 1920 – iyun 1941) – Bakı: Elm, 2000, səh.43-44; Кадищев А.Б. Интервенция и гражданская война в Закавказье – М.: Военное изд.-во, 1960, стр. 300-301; Гулиев Дж.Б. К истории образования… стр. 46-47; İbişov F. Azərbaycan kəndində sosial-siyasi proseslər (1920-1930) – Bakı: Mütərcim, 1996, səh. 48; Süleymanov M. Azərbaycan Ordusu (1918-1920) – Bakı: Hərbi Nəşriyyat, 1998, səh. 450.
[37] ARPİİSSA, Surət fondu, №299, v. 1.
[38] ARDA, f.28, s. 1, iş 98, v. 3.
[39] ARPİİSSA, Surət fondu, №317, v. 1, 2.
[40] ARDA, f. 28, s.1, iş38, v.55.
[41] Переворот в Закаталах – "Грузия", 1920, 16 iyun, №61.
[42] Поцелуев С.П. Символическая политика: констелляция понятий для подхода к проблеме – "Полис", 1999, №5, с.63.
[43] ARPİİSSA, Surət fondu, №329, v. 1-2.
[44] ARPİİSSA, Surət fondu, №330, v. 1; ARDA, f. 27, s.1, iş 684, v. 6.
[45] ARPİİSSA, Surət fondu, №328, v. 1.
[46] Кадищев А.Б. Интервенция и гражданская война… стр. 311.
[47] "Коммунист" (rusca), 1920, 23 iyun, №43.
[48] ARPİİSSA, Surət fondu, №325, v. 3.
[49] ARDA, f. 28, s. 1, iş 113, v. 26, 32.
[50] Yenə orada, v. 33.
[51] Интернациональная помошь XI Армии в борьбе за победу Советской власти в Азербайджане. Документы и материалы (1920-1921) – Баку: Азернешр, 1989 – sənəd №79, səh. 87, 88-89.
[52] ARDA, f. 27, s.1, iş 684, v.17-18.
[53] ARPİİSSA, f. 1, s.1, iş 124, v. 6-7.
[54] ARDA, f. 27, s.1, iş 684, v.6 (arxa).
[55] ARPİİSSA, f. 1, s.1, iş 247, v. 4.
[56] Yenə orada, iş 124, v. 35-35 (arxa).
[57] ARDA, f. 2502, s.1, iş 20, v.53 (arxa).

[58] Yenə orada, f. 27, s.1, iş 684, v.18.
[59] ARPİİSSA, f.1, s. 1, iş 124, v. 17.
[60] Yenə orada, Surət fondu, №330, v.2.
[61] Bu xadimlər haqqında məlumat üçün bax: Активные борцы за советскую власть в Азербайджане – Баку: Азерб. гос. изд-во, 1957 – стр. 203-204 (Z.R.Balaxlanski), 216-217 (S.B.Qocayev), 258-259 (M.M.Qocayev), 387-388 (X.A.Ağamirov).
[62] ARPİİSSA, f.1, s.2, iş 135, v.19.
[63] Azərbaycan tarixi. Altıncı cild, səh. 24-25.
[64] ARDA, f.27, s. 1, iş 684, v. 15.
[65] Yenə orada, f. 28, s.1, iş 168, v.1.
[66] Yenə orada, iş 71, v.97.
[67] Bu barədə arayış üçün bax: Qasımov M. Xarici dövlətlər və Azərbaycan… səh. 244-246.
[68] Bu barədə bax: Чохели А.И. Политика Франции в отношении Грузии в 1917-1921 годах – Тбилиси: Мецниереба, 1980, стр.155-157, 161-163.
[69] Хармандарян С.В. Ленин и становление Закавказской Федерации… стр. 47.
[70] ARPİİSSA, f.1, s.2, iş 24 "a", v. 2-3.
[71] Bu barədə bax: Жвания Г.К, Великий Октябрь и борьба большевиков… стр. 304-309; Азизбекова П., Мнацаканян А., Траскунов М. Советская Россия…стр. 217-219; Хармандарян С.В. Ленин и становление Закавказской Федерации… стр. 55-57.
[72] Gürcüstan Dövlət Tarix Arxivi (GDTA), f.1864, s.1, iş 87, v.34; f.1866, s.1, iş 1, v. 140
[73] Yenə orada, f.1867, s.1, iş 4, v.82 (arxa).
[74] Yenə orada, v.79-79 (arxa), 82-82 (arxa).
[75] ARPİİSSA, f.1, s.2, iş 18, v.16.
[76] ARDA, f.28, s.1, iş 61, v.68.
[77] Sovet-gürcü müharibəsinin gedişi haqqında bax: Кадищев А.Б. Интервенция и гражданская война… стр. 374-380, 386-420; Ахалая И.Д. Революционные комитеты Грузии в борьбе за установление и упрочение советской власти (февраль 1921 г. - март 1922 г.) – Сухуми, Алашара, 1968, стр.86-105.
[78] Аклаев А.Р. Этнополитическая конфликтология: Анализ и менеджмент – М.: Дело, 2005 – стр. 331-332.
[79] ARPİİSSA, f. 1, s. 2, iş 25, v.2.
[80] ARDA, f. 28, s. 1, iş 78, v. 6-6 (arxa); f.2502, s.2, iş 3, v. 1-1 (arxa).
[81] ARDA, f. 2502, s.2, iş 3, v.92-92 (arxa).
[82] Yenə orada, f. 28, s.1, iş 84, v. 7-7 (arxa).
[83] Анцупов А.Я., Шипилов А.И. Конфликтология: Учебн. для вузов – 2-е изд., перераб. и доп. – М.: ЮНИТИ-ДАНА, 2004 – стр. 504-505.
[84] ARDA, f. 2502, s. 2, iş 4, v. 9-11.
[85] Məmmədli Ş. Paralanmış Borçalı: 1918-ci il Ermənistan-Gürcüstan müharibəsinin acı nəticəsi – Bakı: Azərnəşr, 1995, səh. 39-40.
[86] ARDA, f. 379, s. 2, iş 1234, v. 18 (arxa) – 19, 19 (arxa)-20; f. 2502, s. 2, iş 26, v. 82-84.
[87] Яковенко И.Г. От империи к национальному государству (Попытка концептуализации процесса) – "Полис", 1996, №4 – стр. 118-119, 121-122.

# XII FƏSİL

## SOVET DÖVRÜNDƏ GÜRCÜSTAN AZƏRBAYCANLILARININ SOSİAL-MƏDƏNİ VƏ İQTİSADİ DURUMU

Gürcüstan Rusiyanın tərkibinə daxil olana qədər burada yaşayan azərbaycanlıların sosial həyat tərzi pis olmamışdır. Təəssüf ki, Çar Rusiyası dövründə bu firavan həyatdan heç bir əsər-əlamət qalmamışdı. Əgər Gürcüstanın inkişafda olan Batumi, Suxumi, Qori və Kutaisi şəhərlərinin əhalisini nəzərə almasaq, Borçalı mahalının yalnız mərkəzi Şuləver, Sarvan, Qarayazı, Ç.Qəmərli, Cəlaloğlu və s. məntəqələrdə yaşayan soydaşlarımızın həyat tərzi nisbətən yaxşı vəziyyətdə idi. Qeyd etmək lazımdır ki, 1880-ci ilə qədər bütün yaşayış yerlərinin hamısı qara damlardan, yeraltı qazma zirzəmilərindən ibarət idi. Bu sosial-iqdisadi vəziyyət əhalinin kor-təbii inkişaf etməsinə, onun dünya görüşünün dar çərçivə daxilində formalaşmasına gətirib çıxarırdı. Əlbəttə, bu bölgədə yaşayan azərbaycanlıların belə acınacaqlı həyat tərzi, mədəni mühiti əhalinin təbii və mexaniki hərəkətinə də təsir göstərməyə bilməzdi. Bu baxımdan mahalın əmək qabiliyyətli əhalisi xalq təsərrufatının yalnız iki sahəsi üzrə ixtisaslaşmışdı. Düzən ərazilərdə asasən Sarvan, Qarayazı, Ç.Qəmərlinin çay vadilərində bitkiçilik, bağçılıq, bostançılıq, qismən heyvandarlıqla dağlıq va dağətəyi məskənlərdə isə qədimdən heyvandarlıq, dəmyə əkinçiliyi və arıçılıqla; Saqareco, Laqodexi, Telavi va Msxeta rayonlarının bütün ərazilərində isə zərif yunlu qoyunçuluq və atçılıqla məşgul olurdular.

Bununla paralel bölgələrdə, şəxsi evlərdə xırda kustar təsərrüfatı da fəaliyyət göstərirdi (xalçaçılıq: kilim, farmaş, xurcun, corab, əlcək və s.).

Xanlıq və Sultanlıq dövründə əmək qabiliyyətli əhalinin 2/3 hissəsi xırda burjua mülkədar-fermer təsərrüfatında calışardı, qalan 1/3 hissəsi isə öz şəxsi həyətyanı təsərrüfatında və

muzdlu-digər fermerlərin təsərrüfatında işləyirdi. Əhalinin bir qismi bəzən 5-7 ay öz evlərindən uzaqlarda çörək pulu qazanırdılar. Bu məcburi əmək fəaliyyəti, şübhəsiz ki, əhalinin ictimai-mədəni və iqtisadi həyatına da təsir etməyə bilməzdi.

Borcalı regionunda 1939-cu ildə əmək qabiliyyətli əhalinin 83,9 faizi kolxozçulardan ibarət olduğu halda, bu gostərici 1959-cu ildə 69,7 faiz olmuşdur.

Borçalı və onun ətraf (Saqareco, Laqodexi, Telavi və Msxeta, Kaspi, Kareli, Tbilisi sonradan isə Rustavi) bölgələrində əmək qabiliyyətli azərbaycanlılar bir qayda olaraq, əsasən, iki sosial qrupa bölünmüşdür. Birinci sosial qrupa, qeyd etdiyimiz kimi, kolxozçular, ikinci qrupa isə fəhlə və qulluqçular daxildirlər. Əhalinin cəmi 0,4 faizini isə üçüncü qrup – xırda kustar və kənd fermerləri təşkil edirdi. Sonralar bu ərazilərdə həyat tərzi nisbətən yaxşılasdı, son 50 ildə kəndlər, şəhərlər və b. sosial binalar, körpülər, dəmir və şosse yolları kimi obyektər tikildi.

Əhalinin iqtisadi cəhətdən təminatı və inkişafı, şübhəsiz, onun sosial sahələrinin quruluşundan çox asılıdır. Digər bölgə və ərazilərdə olduğu kimi, Borçalı və onun ətraf bölgələrində əhalinin sosial vəziyyəti başlıca olaraq onun iş qabiliyyətli əhalisinin ictimai əmək bölgüsündə tutduğu yerdən, yaşayış tərzinin inkişafından və real gəlirindən, daha sonra isə sosial infrasturukturundan asılı olmuşdur. Bütün bu üç blokun birgə yaranıb formalaşması və inkisafı bölgələrin sosial vəziyyətinin inkişafını təşkil etmisdir.

Gürcustan Nazirlər Kabinetinin verdiyi məlumata görə, Respublikada Marneuli, Bolnisi, Qarayazı, Başkeçid, Laqodexi, Saqareco, Telavi rayonlarının əhalisi ən çox işlə təmin olunmuşdur. (78 faizi-1985-ci ildə).[1] Baxmayaraq ki, əhalinin 70-80 faizi məşğul idi, lakin real gəlir respublikanın digər bölgələrində yaşayıb-çalışan qeyri-Azərbaycan millətlərinin real gəlirindən təxminən 2- 2,5 dəfə aşağı olmuşdur.

Qeyd etməliyik ki, 1970-ci ildə işləyən azərbaycanlılar arasında maaş 104,1 rub. olduğu halda, 1985-ci ildə 179 rub. təşkil edirdi. Bu rəqəmlər Gürcüstanın qərb rayonlarında təxminən 2 dəfədən yuxarı olmuşdur.[2]

Əhalinin əsas gəlir mənbəyi Marneuli, Qarayazi bölgələrində şəxsi təsərrüfatdan, Başkeçid, Bolnisi bölgələrində isə, bir qayda olaraq, sovxoz-kolxoz idarələrindən və şəxsi heyvandarlıq təsərrüfatından olmuşdur.

Qeyd olunmalıdır ki, indiki Aşağı Kartli bölgəsi əhalisinin sosial məsələlərinin həlli son 70 ildə 40-50 faiz (şəhər və qəsəbələrdə), kənd məntəqələrində və dağlıq bölgələrdə isə cəmi 10 faiz həllini tapmışdır. Dağlıq Başkeçid rayonunda hər 5 kəndə 1 nəfər həkim, 2 nəfər tibb bacısı, hər 10 kəndə isə 1 nəfər cərrah düşürdü. Bu, 1989-cu ilin statistik məlumatıdır. Hazırda isə bu rəqəmlər 5 dəfə aşağı enmişdir. Əhalinin sosial problemlərinin əsasını xidmət sahələri, onun il boyu ərzaq məsulları ilə təminatı təşkil edir. Maraqlıdır, 40-50 il bundan əvvəl bütün rayon mərkəzlərində və iri kənd məntəqələrində qonaq evləri, mehmanxana, hamam tikililəri və onların təmiri, çörək zavodları, bazar və s. obyektlər olduğu halda, XX əsrin lap axır çağlarında bu sosial obyektlərdən (bəzi məntəqələri çəxmaq şərtilə) hələ də əsər-əlamət yoxdur. Məsələn, azərbaycanlılar məskunlaşan ərazinin ən inkişaf etmiş rayonu və şəhəri olan Marneulidə indinin özündə belə nə qonaq evi, nə də mehmanxana vardır. Buradan aydın olur ki, mahalda sosial məsələlər çox yararsız vəziyyətdədir. Əhalinin içməli suya, yanacağa, təbii qaza, dağlıq ərazilərdə və kəndlərdə doldurma balon maye qaza hələ də ehtiyacı lap çoxdur.

Əhali üçün ən zəruri sosial məsələlərdən biri də onun ev, mənzil problemidir. Qeyd etməliyik ki, Borçalının ətraf bölgələrlə birlikdə olan 200-ə yaxın yaşayış məntəqəsinin yalnız 25-30 faizində, şəhər yerlərində hər nəfərə 12-13 kv.m. mənzil düsdüyü halda, kənd yerlərində 9-11 kv.m. mənzil sahəsi düşürdü. Əlbəttdə, əhalinin bu cür vacib sosial təminatını yararsız hesab etmək olar. Əgər qeyd etsək ki, bölgələrin kənd məntəqələrində hər ailəyə təxminən 5-6 nəfər uşaq düşdüyü halda, şəhərlərdə 2-3 nəfər düşür. Deyilənlərə əsasən onların normal istirahəti, əylənməsi va yaşaması haqqında sohbət açmaq yersizdir.

Maraqlıdır ki, bütün yaşayış məntəqələrinin cəmi 2-2,1 faizi kanalizasiya, icməli su kəmərləri və qızdırıcı qurğularla təmin olunmuşdur. Bu rəqəm dağlıq Başkeçid, Bolnis rayonlarında və Marneulinin bəzi məntəqələrində 0,8-1,0 faiz təşkil edir.[3]

Kareli, Kaspi, Saqareco, Laqodexi və s. bölgələrin azərbaycanlılar yaşayan məntəqələrində isə yox dərəcədədir.

Bu bölgələrdə əhalinin sağlamlığı, müalicəsi və maarif-təhsil ocaqları günün tələbləri səviyyəsindən çox aşağıdır.

1989-1991-ci illərə qədər bölgələrdə cəmi 103 orta, 46 natamam orta, 27-8 illik və ibtidai məktəb fəaliyyət göstərirdi. Bütün bu məktəblərdə 7194 nəfər müəllim çalışırdı.

Ərazinin tibbi-müalıcə müəssisələri və onların inkişafı digər sosial sahələri kimi zəif inkişaf etmişdir. Düzdür, son 5-6 ildə müasir tibbi avadanlıqla və savadlı mütəxəssislərlə təmin olunmuş Marneuli şəhər xəstəxanası fəaliyyətə başlayıb. Lakin mahalın ən ucqar dağ kəndlərindən bu xəstəxanaya gəlmək indiki nəqliyyat baxımından çətindir.

Aşağı Kartlidə qeydiyyatdan keçmiş 38 əczaxana və 25-ə yaxın sahə xəstəxanası, poliklinika və ambulatoriya fəaliyyət göstərir. Şübhəsiz, bu sayda və təchizatda həmin ocaqlar əhalinin 3/1 hissəsini təmin etmir. Bu baxımdan azərbaycanlıların təxminən 20-25 faizi Bakı, 18-20 faizi Gəncə və 1987-ci ilə qədər 50 faizə qədəri isə Tbilisi xəstəxanalarına müraciət edirdilər. Son 5-6 ildə Tbilisiyə pənah aparan azərbaycanlıların sayı 70-80 faiz aşağı düşmüşdür. Bunun səbəbi son illərdə baş verən milli münaqişələr, bölgələrdə kriminogen hadisələr və əhalinin imkansızlığı ilə bağlıdır. Bölgələrdə əhalinin mədəni həyat tərzi bilavasitə onun iqtisadi imkanlarından və sosial şəraitindən asılıdır.

Bu baxımdan bölgədə əhalinin mədəni və sosial həyat tərzi daha acınacaqlıdır. Düzdür, əhalinin bir qismi (daxili və şəxsi imkanlar) bölgələrdə mədəni həyat tərzi sürməkdədir. Lakin onların əksəriyyəti insanlar üçün zəruri olan mədəniyyət və istirahət ocaqlarından tam kənardadır. Yalnız iri kənd məntəqələrində mədəniyyət sahələri kinoteatrlar, xırdasalonlu klublar və kitabxanalar fəaliyyət göstərir. Xalqımız yüksək mədəniyyət sahibidir. Onun dünya şöhrəti tapmış sənətçilərinin sorağı uzaq keçmişimizdən xəbər verir, inkişaf etmiş ərəb dovlətlərindən, yaxın və orta şərq ölkələrindən gəlir. Borçalıda və ətraf bölgələrdə oğuz-qıpçaq tayfalarının olmasını təsdiqləyən tarixi faktlarla yanaşı, bu günümüzə qədər öz memarlıq incilərini və şərq

aləminin zəngin ornament xəzinəsini qoruyub saxlayan onlarla məscid, türbə, korpü, su quyuları, darin kəhrizlər, qala divarları, qoç, at, qoyun, yeralti şəhərciklər, tunel və kümbəzlər və s. kimi muxtəlif orijinal formalı heykəl və abidələr diqqəti cəlb edir.[4] Bu abidələrə Sarvan (Marneuli), Araplı, Təkəli, Sadaxlı, Quşçu, Qızılhacılı, Görarxı, Hallavar, Çoruk-Qəmərli (Bolnisi), Arıxlı, Saraclı, Faxralı, Kəpənəkçi, Başeçid (Dmanisi), Yirgan-çaq, Ormeşən, Səfərli, Hamamlı, Qəmərli, Qızılkilsə, Lök-Candar, Qaraçöp, Muğanlı və s. məntəqələrdə rast gəlmək olur.

Azərbaycan feodal dövlətlərindən Ağqoyunlu, Səfəvi dövlətlərinin ərazisinə daxil olmuş Tiflis və yuxarıda adlarını çəkdiyimiz Oğuz-Qıpçaq ellərində müxtəlif növ abidələr salınmış, sonrakı nəslə yadigar saxlanılmışdır. Səfəvi şahlığı dövründə (1502-1737) Tiflis, İrəvan, Dağıstan Azərbaycanın tərkibində olmuş şah İsmayılın hakimiyyəti illərində (1501-1524) Azərbaycan ərazisinin ümumi sahəsi 2 milyon 800 min $km^2$ təşkil etmişdir. Bu illərdə Səfəvi sahlığı dövründə Tiflis və onun ətraf ərazilərində bir neçə məscid və türbələr inşa edilmiş, abidələr ucaldılmışdır.

Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920) dövründə Borçalı, Tiflis, Sığnaq inzibati rayonlarının bəzi əraziləri və İrəvan mahalı bütövlüklə Azərbaycanın tərkibinə daxil idi.[5] Bu vaxtı Azərbaycanın ümumi ərazisi 114 min $km^2$ (Cənubi Azərbaycan daxil deyil) olmuşdur. Beləliklə, Azərbaycan hökuməti fəaliyyətə başlayandan sonra, Tiflisdə, İrəvanda, Borçalıda və s. ərazilərdə olan müsəlman abidələrinin bir qismini təmir edirdi. Gürcüstanda Sovet hakimiyyəti qurulduqdan (25 fevral 1920-ci il) sonra müsəlman abidələrinə ögey münasibət bəslənilməyə başlandı.

Onu demək yerinə düşərdi ki, sovet hakimiyyəti illərində müsəlman abidələri mədəniyyət mərkəzləri tərəfindən rəsmi qeydiyyata alınmadı. Elə o illərdən başlayaraq (1930-1960) qədim tarixə malik olan bir sıra abidə o cümlədən, Tiflis şəhərinin mərkəzi kuçə və rayonlarında yerləşmiş Şah Abbas məscidləri və Camaşırxanaları yerlə yeksan edilərək, yerində körpülər, Gürcu milli ornamentli inzibati va yaşayış binaları ucaldıldı. Son məlumata əsasən 2009-cu ilin yanvar ayından etibarən Tbilisinin Ortaçala və keçmiş Şeytan bazar rayonları ərazisində görkəmli

ədib, filosof və dövlət xadimi olan M.F.Axundovun, M.Ş.Vazehin və s. ev muzeyi kimi xatırlanan bu sosial obyektlərin sökülməsinə sərəncam verildi. Sovet dövləti tərəfindən uçurulmayan binalar isə baxımsızlıq və qayğısızlıq üzündən dağılmış, bəzilərindən isə tədarük məntəqəsi (zirzəmi, anbar) kimi istifadə edilmişdir. Belə məscidlərdən Cameni misal göstarmək olar. Bu məscid Tiflisdə ilk məscid olub, 730-cu ildə tikilmişdir. 644-cü ildə ərəb qoşunu tərəfindən şəhər zəbt edilərək, 1222-ci ilə qədər onların əlində qalmışdır. VII əsrin axırları və VIII əsrin əvvəllərində inşaa olunmuş məscid ilk dəfə 842-ci ildə Tiflisli Yezid oğlu Xəlil, XI əsrdə türk sərkərdəsi Alp Arslan tərəfindən bərpa edilmişdir. Doqquz yüz il keçdikdən sonra məscid üçüncü dəfə Qafqaz Müsəlmanları Ruhani İdarəsinin müftisi Hüseyn Əfəndi Qayibzadənin (1917) təşəbbüsü ilə bərpa və əsaslı təmir olunur. Hazırda bu məscid axund Rasim Mehdi oğlunun rəhbərliyi altında fəaliyyət göstərir.

Digər qədim abidələrdən biri də Bəktaşiyyə məscididir. Ağqoyunlular sülaləsinin sərkərdəsi Xəlil bəy Bəktaşi (1453-1478) Uzun Həsənin əmri ilə Gürcüstana hücum edib, Tiflisi, Qorini ələ keçirib, nəticədə qələbə münasibətilə Xəlil bəy Bəktaşinin şərəfinə həmin məscid ucaldılıb.

Hazırda o məsciddən heç bir əsər-əlamət qalmayıb. Öz memarlıq inciləri ilə fərqlənən iki müxtəlif ölkədə (1522-1524) inşa edilmiş Əli məscidlərini də qeyd etmək olar. Onların birincisi (1523) Tiflis, ikincisi isə bir il sonra Iranın İsfahan şəhərində ucaldılmışdır. Hər iki məscidin memarı və ustası vəzir Mirzə Şah Hüseyn olmuşdur. Tiflis məscidinin tikilmə tarixi belə olmuşdur.

Səfəvi qoşunları şah İsmayılın (1501-1524) hakimiyyəti illərində Tiflisi üç dəfə yadelli qoşunlardan təmizləmişdir. Üçüncü dəfə qızılbaşlar (1522-1523) Gürcüstana qoşun yeritmişdir. Bu, əsasən, Kaxetiya çarı Levanın Şəki üzərinə etdiyi yürüşlə əlaqədar olmuşdur. O zaman şah İsmayıl Naxçıvanda dincəlməkdə idi. Fürsəti əldən verməyən Şəki xanı Həsən bəy yardım üçün ona müraciət edir. Qısa bir vaxt ərzində Qızılbaş sərkərdəsi Div Sultan Rumlu Zəyli və Karem qalalarını alır. Nəticədə Levan təslim olur, ondan möhlət istəyir. Bunun ardınca İmperiya çarı Mənuçəhr,

Mexet çarı IV Kvar-Kvas, şah İsmayıla bac-xərac verməyi təklif edir. Əvəzində şah İsmayıl I imam Əli ibn Əbu-Talıb (9) şərəfinə bir məscidin tikilməsini tələb edir. 1522-ci ildə Tiflisin ən möhtəşəm və mənzərəli yerində əzəmətli bir məscid tikilir, adı isə Əli məscidi qoyulur.[6]

O da qeyd olunmalıdır ki, sonralar Tiflis şəhərində çox zəngin, abad və qədim üslubda tikilmiş camasırxanalar, türbə və karvansaralar, şərq mədəniyyətini ozündə tam əks etdirib cəmləşdirən ticarət mərkəzi, bazar və çayxanalar diqqəti cəlb edir. Adları çəkilən bu memarlıq incilərinin bir qismi fəaliyyətini dayandırmış, bir qismi isə hazırda fəaliyyət göstərir. Lakin son illərdə (1940-1950) bu obyektlərin bir neçəsi yerli hakim dairələrin səhlənkarlığı, biganəliyi üzündən xarabazara çevrilib dağıdılmışdır. Bu proses indinin özündə də davam edir.

Borçalının digər bölgələrində və ətraf ərazilərdə də bir sıra tarixi abidələr və məscidlər tikilmişdir. Bunlara misal olaraq Sadaxlı, Sarvan, Qaraçöp, Gorarxi, Arıxlı, Araplı, Ç.Qəmərlinin kəndlərindəki tikililəri göstərmək olar.

Gorarxı məscidi eyni adli kəndin mərkəzində tikilmişdir. Bu məscid 1590-ci ildə şah Abbasın əmriylə tikilmiş, Allah Evi kimi yerli camaatın istifadəsinə verilmişdir. Məscid uzun illər təmirsiz qalmiş, nəhayət birinci dəfə 1882-ci ildə Hacı Əlləmə Hacı oğlunun təşəbbüsü ilə onun öz hesabına təmir etdirilmişdir. Hazırda həmin məscid kənd əhalisinin təşəbbüsü ilə üçüncü dəfə təmir edilib, həyata qaytarılmışdır. Bu məscid beş ildir ki, fəaliyyət göstərir.

Sadaxlı məscidi eyni adlı kənddə fəaliyyət göstərdikdən sonra bir muddət öz fəaliyyətini dayandırmışdı. Başlıca səbəbi məscidin dövlət tərəfindən qeydiyyatdan keçməməsi və 400 ilə yaxın bir müddətdə əsaslı təmir olunmamasıdır.

Qaraçöp məscidi XIX əsrin axırları – XX əsrin əvvəllərində inşa edilmişdir.[7] Hazırda məscid yerli əhali tərəfindən təmir edilib, fəaliyyətini indi də davam etdirir.

Sarvan yaşayış məntəqəsi bütun mahalın digər bolgələri arasında öz cografi movqeyinə görə fərqlənsə də, XX əsrin əvvəllərinə qədər burada 119 məscid fəalyyət göstərmişdir. Lakin bu

məscidlərin ikisi müharibəyə qədər müəyyən səbəblər üzündən ləğv olunmuş, biri isə uçub dağılmaq ərəfəsindədir. Lakin Bakıda yaşayan bir qrup Sarvan ziyalılarının təşəbbüsü və qayğıkeşliyi nəticəsində 2000-ci ildə vəsait toplanmış, yerli soydaşların rəhbərliyi səyəsində yeni ornamentli məscid tikilib sarvanlılara verilmişdir.

Hazırda Borçalı mahalının bir çox yaşayış məntəqələrində əhalinin sosial-iqtisadi baxımdan vəziyyəti acınacaqlı səviyyədədir və get-gedə bu məsələlər qabarıq şəkil alır. 90-ci illərdə istər Borçalıda və istərsə də ətraf bölgələrdə 130-a yaxın (70 min) kənd əhalisi tibbi, sosial və iqtisadi cəhətdən tam mənada kənarda qalmışdır.

Son 20-25 ildə soydaşlarımızın yaşadığı istər kənd, istərsə də şəhər məntəqələrində əhalinin sosial-iqtisadi fəaliyyəti, əsasən, kənd təsərrüfatı məhsullarının inkişafı istiqamətində olmuşdur. 1940-1950-ci illərdən bu günə kimi Borçalı və ətraf bölgələrin sənaye obyektləri, bir qayda olaraq, rayon mərkəzlərində – Marneuli, Bolnisi, Qardabani, Dmanisi, dəmiryol nəqliyyatının və yeraltı sərvətlərinin inkişafı ilə əlaqədar inkişaf etməkdə olan Kazret, Şülaver, Tşop, Qızılhacılı, Imir, Qaraçöp, Qabal və s. kimi məntəqələrdə inkişaf tapmışdır. Marneuli şəhəri respublika əhəmiyyəli iri sənaye mərkəzinə, Qardabani, Bolnisi şəhərləri isə kənd təsərrüfatı məhsulları emal edən mərkəzlərə çevrilmişdir.

Dmanisi şəhəri isə rayon tabeliyində inkişaf edən emaledici kənd təsərrüfatı mərkəzi sayılır. Bölgələrin sənayesinin əsasını aqrar-sənaye kompleksləri təşkil edir.

Yuxarıda adları çəkilən şəhərlərdə 1981-1986-ci illərə qədər geniş ölçülü iri sənaye tikintiləri aparıldı. Aşağı Kartlinin istər xammal, istərsə də hazır kənd təsərrüfatı məhsulları 50-yə yaxın xarici olkəyə ixrac olunurdu. Son zamanlar əsas təsərrüfat sahələri demək olar ki, tam dağıdılıb, heç bir rəsmi orqan tərəfindən mühafizə olunmur.

Əhalinin sosial-iqtisadi şəraitinə təsir göstərən amillərdən biri də xalq təsərrüfatının aparıcı sahəsi olan nəqliyyat, şosse və boru-kəmər yollarından ibarətdir. Nəqliyyatın inkisafı son 20-25 ildə tikinti və təmirdən ibarətdir. Tbilisi-Marneuli-İrəvan,

Tbilisi-Marneuli-Kazret, Tbilisi-Marneuli-Marabda-Ahılkələk dəmir yolları və onların müasir tikintisini qeyd etmək olar. Avtomobil (şosse) yolları və onların təmiri başlica olaraq bölgələrin rayon mərkəzləri ilə Tbilisi şəhəri arasında əlaqə yaratmağa xidmət edir. Hazırda bərk ortüklü şosse yollarının uzunluğu təxminən 1500 km-3 bərabərdir.

Əhalinin sosial şəraitinin yaxşılaşmasında tikintinin çox böyük əhəmiyyəti vardır. Çətin da olsa, əldə etdiyimiz son məlumata görə bütün bölgələr üzrə 1990-cı ildə tikintiyə ayrılan kapital qoyuluşu 1,550 mln. rub. olmuşdur. Bunun 280 mln. rub. tək Marneuli inzibati rayonunun payına düşmüşdür. Bu onu göstərir ki, mahalda yeni yaradıcılıq, sanaye və kənd təsərrüfatı obyektləri son illər durgunluq əlaməti olaraq inkişaf etdirilmir. Nəticədə mahalın bu sahələrinin get-gedə tənəzzülə uğraması açıq-aydın özünü büruzə verir. Son 10-12 ildə isə borçalıların duçar olduqları bugünkü iqtisadi və sosial vəziyyəti bütövlukdə Azərbaycanda baş vermiş Qarabag münaqişəsinin ermənilərin əsrlərlə həyata keçirə bilmədikləri, bu günlərdə isə zorla da olsa, hələlik həyata keçirdiyi Böyük Ermənistan xülyası ideyasının Borçalıya səpdiyi toxumun cücərtiləri kimi baxmaq lazımdır.

---

[1] Постановление ЦК КП и Совета Министров Груз. ССР (15), 1985, Тбилиси.
[2] Нагиев С.К. Пути развития сельского населения и расселения марнеульского района Груз.ССР. Канд.дисс.
[3] Rəqəmlər inzibati rayonların kommunal-təmir idarlərinin hesabatlarından götürülmüşdür (1981-1982)
[4] Sadıqovun M. bölgələrə elmi ezamiyyətə (1993) getdiyi vaxt əldə etdiyi arxeolojı tapıntılar.
[5] Məmmədli S. “Paralanmiş Borçalı” – Azərb. Dövlat Nəşriyyati, Bakı, 1991
[6] Кавказский календарь на 1847, Тифлис – 1846, с.150
[7] Qədim mədəni abidələr. “Azərbaycan” qəzeti, N 23, 1992

## XIII FƏSİL

## XX ƏSRİN 90-CI İLLƏRİNDƏ AZƏRBAYCAN RESPUBLİKASI İLƏ GÜRCÜSTAN ARASINDA MÜNASİBƏTLƏR

Mehriban qonşuluq siyasətinin yürüdülməsi Azərbaycan Respublikasının xarici siyasətinin əsas prinsip və istiqamətlərindən biridir. Buna görə də, müstəqillik əldə etdikdən sonra Azərbaycanın xarici siyasətində Gürcüstan ilə dostluq münasibətlərinin qurulması və inkişafı əsas problemlərdən biri kimi mühüm yer tutur. Azərbaycan və Gürcüstan Respublikaları arasındakı münasibətlərin məzmunu, xarakteri təkcə iki respublika üçün deyil, bütöv Qafqaz üçün xüsusi əhəmiyyət kəsb edir.

Azərbaycan-Gürcüstan münasibətlərinə təsir edən, onun yönünü şərtləndirən bir sıra amillər vardır. Oxşar sosial-iqtisadi problemlərin mövcudluğu, separatizmlə üz-üzə qalmaları, etnik münaqişələr, Rusiyanın təzyiqləri, Gürcüstanda yarım milyondan çox azərbaycanlının yaşaması kimi faktlar bu amillərdən sayılır. Bunların arasında sonuncu, yəni Borçalı (Kvemo-Kartli, azərbaycanlıların kompakt yaşadığı bölgə) məsələsi öndə dayanır. Sadaladığımız bu və digər amillər iki dövlət arasında dostluq və əməkdaşlıq münasibətlərinin qurulmasını və genişləndirilməsini tələb və zəruri edirdi.

SSRİ süqut etdikdən sonra Gürcüstanda yaşayan azərbaycanlılara münasibətdə baş verən dəyişikliklər narahatçılıq doğurmaya bilməzdi. Hələ Sovet hakimiyyətinin mövcud olduğu illər ərzində, xüsusilə də, 1950-80-ci illərdə Gürcüstan ərazisində yaşayan azərbaycanlıların konstitusiya hüquqlarının pozulması, onların heç bir əsas olmadan məsul vəzifələrdən uzaqlaşdırılması, azərbaycanlılara aid qədim tarixi abidələrin, mədəniyyət ocaqlarının dağıdılmasına yerli hakimiyyət orqanlarının şərait yaratması, toponimlərin dəyişdirilib gürcüləşdirilməsi, hüquq-mühafizə

orqanlarının laqeydliyi üzündən azərbaycanlılara xəsarət yetirilməsi və sair bu kimi hallar artmaqda idi. Hətta 1987-ci ildə Gürcüstanın Svaneti bölgəsində baş verən təbii fəlakətdən sui-istifadə edildi. Svanlar (dağlı gürcülər) azərbaycanlılar yaşayan bölgələrə köçürüldü[1]. Məqsəd isə azərbaycanlı mühitində gürcü mühiti yaratmaq və nəticə etibarı ilə onları gürcüləşdirərək gürcü millətinin sayını artırmaq idi. Reallıqda isə svanların köçürülməsi onsuz da etnik münaqişələrin içərisində çabalayan Gürcüstanda yeni etnik qarşıdurmanın yaranması üçün zəmin yaradırdı.

1989-cu ildə ilk dəfə olaraq azərbaycanlı-gürcü qarşıdurması yarandı[2]. Azərbaycanlılara qarşı təzyiq və hücumlarda svanlar xüsusi canfəşanlıq göstərirdilər. 1989-cu ilin iyul ayında Marneuli, Bolnisi və Dmanisi rayonlarına Gürcüstanın daxili qoşun və milis dəstələrini yeritməklə azərbaycanlı əhali arasında kütləvi gərgin mənəvi-psixoloji vəziyyət yaradıldı[3]. Bu isə yüzlərlə ailənin doğma yerlərini tərk etməsi ilə nəticələndi. Bolnisi və Dmanisi şəhərləri azərbaycanlılardan demək olar ki tamamilə təmizləndi. Təkcə Dmanisi şəhərindən 1200-dən çox azərbaycanlı ailə qədim yurdlarından məcburən çıxarıldı[4].

Hətta 1989-cu ilin iyul ayında ümidsiz vəziyyətə düşən Marneuli rayonunun azərbaycanlı əhalisi azərbaycanlıların öz doğma torpaqlarından planlı şəkildə çıxarılmasına qarşı kor-təbii surətdə çıxmışdı. Həmin ilin iyulun 24-də Marneuli şəhərində keçirilən mitinqdə Gürcüstan SSR Nazirlər Sovetinin sədr müavini O.Kvilatayanın başçılıq etdiyi hökumət komissiyası ilə işləmək üçün nümayəndələr komitəsi belə seçildi[5]. Ancaq komissiyanın yaradılması sadəcə göstəriş oldu. Azərbaycanlıların Gürcüstandan sıxışdırılması davam etdi.

Radikal-millətçi Zviad Qamsaxurdiyanın hakimiyyətə gəlməsi ilə azərbaycanlıların sıxışdırılmasının yeni mərhələsi başlandı. Məhz bu dövrdən etibarən Gürcüstanın iki böyük etnik azlığından biri olmasına baxmayaraq, azərbaycanlıların sıxışdırılması gücləndi. Onun hakimiyyət başına gəlməsi ilə yüksək dövlət səviyyəsində diskriminasiya siyasəti yeridilərək azərbaycanlılar bütün idarə orqanlarından çıxarıldı[6]. Azərbaycanlılara torpaq verilməsi dayandırıldı, pasport qeydiyyatı məhdudlaşdırıldı,

azərbaycanlı kənd adları dəyişdirildi. Bir sözlə, Gürcüstanın rəhbərliyi səviyyəsində azərbaycanlıların hüquqları taptalanırdı. Təkcə Z.Qamsaxurdiyanın iki illik hakimiyyəti dövründə 94 nəfər azərbaycanlı oğurlanmış, 660 nəfər vəzifəsindən kənarlaşdırılmış, 27500 nəfər öz yurd yuvasını tərk etməyə məcbur edilmişdi[7]. Beləliklə, azərbaycanlılara qarşı Gürcüstanda ayrı-seçkilik və zorakılıq mütəmadi xarakter almışdı.

Lakin Gürcüstanda baş verən diskriminasiya siyasətinə qarşı Ə.Vəzirov, daha sonra A.Mütəllibov başda olmaqla Azərbaycanın rəhbərliyi biganə yanaşaraq heç bir əməli iş görmürdü. Gürcüstanda azərbaycanlılara qarşı yönəldilmiş millətçilik siyasəti və respublikanın azərbaycanlı əhalisinin genişmiqyaslı sıxışdırılmalara məruz qalması barədə hadisələrin ilkin mərhələsində belə Azərbaycanın hakimiyyət dairələrində ətraflı məlumat vardı. Lakin qeyd edildiyi kimi mövcud iqtidar Borçalı olayları ilə bağlı tendensiyalı siyasət yeridirdi. Məhz bu baxımdan da Gürcüstanda azərbaycanlıların sıxışdırılmaları, onların konstitusiya hüquqlarının pozulması respublikalararası müzakirə mövzusuna çevrilmirdi. Bir sözlə, rəsmi Bakı qonşu ölkədə yaşayan azərbaycanlıların hüqüqlarının qorunması qayğısına qalmır, Gürcüstan tərəfdən azərbaycanlıların öz tarixi məskənlərində maneəsiz yaşamaları üçün dövlət təminatı tələb etmirdi. Əksinə, Gürcüstanın hakimiyyət dairələri Azərbaycanda yaşayan gürcülərin milli problemlər içərisində boğulduğunu iddia edir və həmin problemlərin dərhal aradan qaldırılmasını tələb edirdilər.

Məhz belə ittihamlarla Azərbaycan Respublikasının prezidenti Ayaz Mütəllibov 1991-ci ilin iyulun 12-də Tbilisiyə səfəri zamanı qarşılaşmışdı[8]. Tbilisidə oradakı azərbaycanlıların vəziyyətini müzakirə etmək əvəzinə, Z.Qamsaxurdiya Azərbaycandakı gürcülərin çətin problemlərlə üzləşdiyini nəzərə çatdırdı. Həmin səfərin əsas məqsədi isə dostluq və mehriban qonşuluq haqqında ikitərəfli müqaviləni imzalamaq idi. Səfər zamanı A.Mütəllibovla Z.Qamsaxurdiya arasında Gürcüstanın Ali Sovetinin binasında söhbət olduqdan və müzakirələr keçirildikdən sonra "Azərbaycan Respublikası ilə Gürcüstan Respublikası arasında dostluq və mehriban qonşuluq haqqında" Müqavilə imzalandı[9].

Müqavilədə göstərilirdi ki, Azərbaycan və Gürcüstanın ali rəhbərliyi bir-birlərinin dövlət suverenliklərini, ərazi bütövlüyünü və bir-birinin daxili işlərinə qarışmamaq prinsipini qarşılıqlı surətdə qəbul etmək, meydana çıxan bütün ixtilafları və mübahisəli məsələləri yalnız özləri arasında birbaşa məsləhətləşmələr və danışıqlar yolu ilə həll etmək, Qafqazda sülh və vəziyyətin sabitləşməsi uğrunda mübarizə aparmaq haqqında razılığa gəlmişlər[10]. Eyni zamanda Müqavilə iki ölkə arasında ticarət-iqtisadi əməkdaşlığın ən əlverişli rejiminin yaradılmasını, elm və mədəniyyət, ədəbiyyat və incəsənət sahələrində əlaqələrin hər vasitə ilə inkişaf etdirilməsini nəzərdə tuturdu[11].

Qeyd olunan Müqavilənin əsas əhəmiyyəti ondan ibarətdir ki, Gürcüstan Azərbaycana ərazi iddialarının olmasına baxmayaraq, Azərbaycan Respublikaının ərazi bütövlüyünü tanıdı. Təəssüf ki, müqavilənin digər müddəaları elə kağız üzərindəcə qaldı və heç bir əməli tədbirlər görülmədi. Belə olduqda iki dövlət arasında dostluq və mehriban qonşuluğun qurulması haqqında söhbət gedə bilməzdi.

Qeyd etmək lazımdır ki, Azərbaycanda yaşayan gürcülərin problemlər içərisində olduqlarını şişirtməyə çalışan Z.Qamsaxurdiya və onun milliyyətçi ətrafının əsas məqsədləri Gürcüstanda insan hüquqlarının pozulması barədəki faktları anoloji "faktlarla" zərərsizləşdirmək idi. Yəni onlar Zaqatala-Qax bölgəsində məskunlaşan gürcülərin problemlər məngənəsində sıxıldıqları barədə hay-küy yaratmaqla əslində Gürcüstanda həyata keçirdikləri şovinizm siyasətinə haqq qazandırmaq niyyətini güdürdülər.

Əksinə, həmin dövrdə Azərbaycanın hakimiyyət dairələri Gürcüstanda baş verən hadisələrin əsl mahiyyətini ölkə ictimaiyyətindən gizlətməyə, gürcüstanlı qaçqınların respublikaya pənah gətirməsi faktını danmağa cəhd göstərmişdi. Bu da bir sıra səbəblərlə bağlı idi.

Birincisi, mövcud iqtidarı daha çox yenicə əldə etdiyi hakimiyyətin taleyi maraqlandırırdı.

İkincisi, Azərbaycanın hakimiyyət dairələri hələ ki Gürcüstandakı hadisələrlə bağlı rəsmi Tbilisiyə təsir etmək iqtidarında deyildi.

Ümumiyyətlə, rəsmi Bakı Borçalı probleminin mövcudluğu məsələsini yaxına belə buraxmır, belə bir problemin əslində olmadığını iddia edirdi.

Beləliklə, problemin dövlət səviyyəsində bütovlükdə danılması və gizlədilməsi aşağıdakılarla nəticələndi:

– Gürcüstan azərbaycanlılarına qarşı dövlət səviyyəsində həyata keçirilən diskriminasiya siyasəti daha da gücləndirildi;

– Gürcüstan azərbaycanlılarının konstitusiya hüquqlarının pozulması, adamların kütləvi şəkildə departasiya olunmaları faktı, eləcə də bölgədə kriminogen durumun olduqca ağırlaşması və s. beynəlxalq təşkilatlar və ictimaiyyətin diqqətindən yayındırıldı;

– Dmanisi və Bolnisi şəhərlərinin, o cümlədən həmin rayonların azərbaycanlı əhalisinin böyük bir qisminin doğma yerləri tərk etməsinin qarşısını almaq və onların hüquqlarını qorumaq mümkün olmadı;

– Gürcü şovinistləri müəyyən dərəcədə etnik təmizləmə aparmağa nail oldular;

– Gürcüstan azərbaycanlıları miqyası bəlli olmayan maddi və mənəvi itkilərə məruz qaldı[12].

Beləliklə, yuxarıda göstərilən proseslərin baş verməsi, nəticədə yenicə müstəqilliyi əldə etmiş qonşu respublikalar arasında diplomatik-siyasi əlaqələrin qurulmasını ləngidirdi. Bu isə öz növbəsində və başlıca olaraq onsuzda sərt ayrı-seçkilik siyasəti ilə üzləşən Gürcüstan azərbaycanlılarının vəziyətini daha da ağırlaşdırırdı. Bu əlaqələrin qurulmasını ləngidən digər amillər kimi hər iki ölkənin qeyri-sabit siyasi durumunu, baş verən hakimiyyət dəyişikliklərini, iqtidarda olan qüvvələrin qeyri-konstruktiv mövqe tutmalarını göstərmək olar. Baxmayaraq ki, Azərbaycanın erməni təcavüzü ilə, Gürcüstanın isə Abxaziya və Cənubi Osetiyada separatizmlə üzləşməsi, Rusiyanın hər iki respublikaya etdiyi təzyiqlər, sosial-iqtisadi böhran və s. bu kimi amillər diplomatik-siyasi əlaqələrin tez bir zaman içərisində qurulmasını şərtləndirirdi.

Gürcüstanda Z.Qamsaxurdiya hakimiyyətdən uzaqlaşdırıldıqdan, Azərbaycanda isə Xalq Cəbhəsi hökuməti hakimiyyətə gəlməsindən sonra da Gürcüstandakı azərbaycanlıların vəziyyətində

dəyişiklik baş verməsə də, ikitərəfli diplomatik-siyasi münasibətlərin qurulması yolunda müəyyən səmərəli addımlar atıldı.

Azərbaycan Respublikası ilə Gürcüstan arasında diplomatik əlaqələr 1992-ci il noyabrın 18-də quruldu. Həmin gün Azərbaycanın və Gürcüstanın xarici işlər nazirləri Tofiq Qasımov və Aleksandr Çikvaidze tərəfindən Bakıda iki dövlət arasında diplomatik münasibətlər yaradılması və Xarici İşlər Nazirliklərinin əməkdaşlığı haqqında protokollar imzalandı[13].

İmzalanmış protokollarda müxtəlif məsələlər üzrə müntəzəm məsləhətləşmələrin aparılması, beynəlxalq və regional təşkilatların işində iki tərəfində iştirakı zamanı razılaşdırılmış mövqelərin işlənib hazırlanması, təcrübə keçən şəxslərin mübadiləsi və s. razılaşmalar əks olunmuşdu[14]. Keçirilmiş mətbuat konfransında xarici işlər nazirləri tərəfindən bu sənədlər iki Cənubi Qafqaz respublikaları arasındakı əlaqələrin yeni səviyyədə inkişafının təməli kimi qiymətləndirildi[15].

Bir gün öncə isə, noyabrın 17-də Azərbaycanda səfərdə olan gürcü nümayəndə heyəti Azərbaycan Respublikası Ali Sovetinin sədri İsa Qəmbərov, daha sonra prezidenti Əbülfəz Elçibəy tərəfindən qəbul edildi. Görüşlərdə tarixən mehriban qonşuluq əlaqələri saxlamış iki dövlətin sıx əməkdaşlığının vacibliyi və bu məqsədlə parlamentlərarası əlaqələrin inkişaf etdirilməsinin zəruriliyi bildirildi, müxtəlif sahələrdə gələcək qarşılıqlı faydalı əməkdaşlığın perspektivləi müzakirə olundu[16]. Bundan əlavə, Azərbaycan tərəfi öz ərazisindən İran qazının Gürcüstana ötürülməsinə razılıq verdi. Müzakirələrin nəticələrindən biri də iki qonşu ölkə arasında dosluq və əməkdaşlıq haqıında hər şeyi əhatə edən dövlətlərarası müqavilənin, habelə iqtisadiyyat, mədəniyyət, elm, təhsil və s. sahələrdə ikitərəfli münasibətləri tənzim etməli olan sazişlər zərfinin hazırlanması üzrə işçi qrupların yaradılması barədə qərarın qəbul edilməsi oldu. Qeyd etmək lazımdır ki, müzakirə obyektlərindən biri də azərbaycanlıların Gürcüstandakı problemləri oldu.

Lakin diplomatik əlaqələrin yaradılmasına baxmayaraq, antiazərbaycanlı hərəkat Gürcüstanın rəsmi dairələri tərəfindən hələ də himayə olunurdu və artıq total xarakter almışdı. Belə olduqda

Gürcüstanda yaşayan azərbaycanlıların hüquqlarının müdafiəsinə Azərbaycanda fəaliyyət göstərən, həmçinin Gürcüstanda yaradılan ictimai-siyasi təşkilatların ayağa qalxması problemin faciəvi xarakter almasının az da olsa qarşısını aldı. Azərbaycanda "Yurddaş", "Borçalı" və "Qaraçöp" kimi cəmiyyətlərin, Gürcüstanda isə "Qeyrət", "Birlik", "Ozan", "Ümid" kimi cəmiyyətlərin keçirdikləri konfranslarda, konfrans zamanı qəbul etdikləri qərarlarda Azərbaycan hökumətindən təcili olaraq müvafiq addımlar atmaq tələb olunurdu.

Nəhayət, Milli Məclisinin 1992-ci il 2 dekabr tarixli iclasının gündəliyinə "Gürcüstanda yaşayan soydaşlarımızın vəziyyətinə dair" məsələ salındı. Həmin iclasda Qaçqınlar və Xaricdə yaşayan soydaşlarımızla əlaqə Komissiyasının sədri Vaqif Qasımovun məlumatı dinlənildi. V.Qasımov Gürcüstanda yaşayan 500 mindən çox azərbaycanlının son illərdə qarşılaşdıqları problemlər, məruz qaldıqları təzyiq və haqsızlıqlar haqqında çox ətraflı məlumat verdi[17]. Geniş müzakirələrdən sonra qərara alındı ki, vəziyyəti yerində öyrənmək və əməli danışıqlar aparmaq üçün Gürcüstana dövlət və hökümət nümayəndələrindən ibarət heyət göndərilsin[18]. Beləliklə, Gürcüstanda yaşayan azərbaycanlıların vəziyyəti ilk dəfə dövlət səviyyəsində müzakirə edildi və problem dövlətlərarası danışıqların mövzusuna çevrildi.

1992-ci ilin dekabrın 13-də Azərbaycan Respublikası Ali Soveti sədrinin birinci müavini Tamerlan Qarayevin başçılığı ilə nümayəndə heyəti danışıqlar və Borçalıdakı vəziyyətlə bağlı müzakirələr aparmaq üçün Gürcüstana səfər etdi[19]. Çoxdan gözlənilən birgünlük səfər Gürcüstanda yaşayan azərbaycanlıların ümidlərini doğrultmadı. Nümayəndə heyəti Gürcüstanda yaşayan azərbaycanlıların həyat şəraiti və mövcud durumu ilə tanış olmaq üçün yarım milyonluq Borçalı əhalisi ilə deyil, Tbilisi yaxınlığındakı Tsodoreti kəndinin sakinləri ilə görüşə getdi[20]. Lakin yenə də bu səfər gözlənilən nəticəni vermədi.

Gürcüstanda və Azərbaycanda yaşayan milli azlıqların hüquqlarının təmin olunması, ikitərəfli əlaqələrin, o cümlədən parlamentarası əlaqələrin inkişaf etdirilməsi kimi məsələlər 1992-ci ilin dekabrın 21-də Azərbaycan və Gürcüstan parlamentləri

üzvlərinin iki dövlətin sərhəddində keçirilmiş görüşündə bir daha müzakirə olundu[21].

1992-ci il dekabrın 25-də isə, bu dəfə Gürcüstan parlamenti sədrinin müavini V.Rçeulişvilinin başçılıq etdiyi parlament nümayəndə heyəti Bakıya gəldi. Gürcü nümayəndə heyətinin Azərbaycan Respublikası prezidenti Əbülfəz Elçibəy tərəfindən qəbulu zamanı ölkələr arasında əlaqələrin, o cümlədən parlamentlərarası əməkdaşlığın genişləndirilməsi ilə bağlı müzakirələr aparıldı. Azərbaycan Ali Soveti sədrinin birinci müavini T.Qarayev və Gürcüstan parlamenti sədrinin müavini V.Rçeulişvili tərəfindən "Gürcüstan Respublikası parlamenti ilə Azərbaycan Respublikası Milli Məclisi arasında parlament əlaqələrinin inkişafı haqqında" Protokolun imzalanması aparılan danışıqların nəticəsi oldu[23]. Parlament nümayəndələrinin səfərləri və bu səfərlərin nəticəsi kimi imzalanmış protokol iki ölkə arasında parlament əlaqələrinin inkişaf etdirilməsini nəzərdə tuturdu.

Beləliklə, iki qonşu respublika arasında diplomatik-siyasi münasibətlər quruldu. Bu münasibətləri tezliklə hərtərəfli qarşılıqlı faydalı dövlətlərarası münasibətlər həddinə çatdırmaq lazım idi və buna səbəb aşağıdakılar idi:

Birncisi, Gürcüstanda təxminən 500 mindən çox azərbaycanlının yaşaması. Azərbaycanlıların burada hüquqları pozulurdu, bu, Gürcüstanda yeni bir odlu nöqtənin yaranacağı təhlükəsi yaradırdı. Hər iki respublikanın düşmənləri bunda hələ də maraqlıdırlar. Gürcüstan Ali Soveti sədrinin müavini V.Rçeulaşvili Azərbaycana rəsmi səfəri zamanı bu haqda danışmışdı[24]. Gürcüstanda başa düşürlərdi ki, onların Azərbaycanla konstruktiv münasibətləri məhz bu problemin həllindən asılıdır. Təsadüfi deyildir ki, məhz 1992-ci ilin sonlarından etibarən Gürcüstan azərbaycanlılarının qarşılaşdıqları problemlərin həlli artıq dövlət səviyyəli məzmun kəsb etməyə başladı.

İkinci məsələ isə, iqtisadi münasibətlərlə əlaqədardır. Azərbaycan coğrafi cəhətdən sərfəli ərazidir. Gürcüstan üçün nəzərdə tutulan yüklər məhz Azərbaycan ərazisindən keçir. Abxaziyada müharibə getdiyi bir vaxta Gürcüstana bütün yüklər dəmir yolu və avtomobil yolu ilə aparılırdı. Buna görə də Azərbaycanla

əlaqələri pozmağın Gürcüstan üçün heç bir xeyri yox idi. Əks təqdirdə Gürcüstan blokada vəziyyətinə düşə bilərdi. Gürcüstan Azərbaycandan elektroenerji, yanacaq alırdı. Neft və qazdan məhrum olmaq onsuz da böhran vəziyyətində olan respublika iqtisadiyyatına ciddi zərbə vura bilərdi. Gürcüstan iqtisadi cəhətdən Azərbaycanla normal münasibətlər qurmaq niyyətində idi. Bu məsələnin həllində Gürcüstanın azərbaycanlı əhalisi böyük rol oynayırdı. Azərbaycanlılarla bağlı şərtlərini irəli sürə bilərdi. O, neft, qaz, işıq verərək Gürcüstanın azərbaycanlı əhalisinin hüquqlarının müdafiəsini tələb edərdi. Gürcüstan da öz növbəsində Azərbaycan üçün sərfəli idi. Ən başlıca səbəb Azərbaycanı Qərbə, o cümlədən Qara dənizə bağlayan ən sərfəli və etibarlı ərazi olması idi. Beləliklə, hələ çox çətin və ciddi danışıqlar aparmaq lazım idi.

Bu və digər səbəbləri nəzərə alaraq, 1993-cü fevralın 3-də Gürcüstan parlamentinin sədri-dövlət başçısı Eduard Şevardnadze Bakıya ilk rəsmi səfər etdi[24]. Eduard Şevardnadzenin Azərbaycan Respublikasının prezidenti Əbülfəz Elçibəylə və Ali Sovetin sədri İsa Qəmbərovla keçirdiyi görüşlərdən sonra nümayəndə heyətləri arasında danışıqlar aparıldı. Qarşılıqlı razılaşmaya əsasən Gürcüstan Azərbaycana 8-10 adda mal, o cümlədən daş-kömür, metal prokatı, polad borular, elektrik naqillər və s. məhsullar göndərəcək idi. Azərbaycan isə 64 adda məhsul, o cümlədən neft məhsulları, elektrotexnika, maşınqayırma, kimya sənayesi məhsulları göndərməyi öhdəsinə götürdü[25].

Səfərin əsas nəticəsi kimi 26 maddədən ibarət "Azərbaycan Respublikası ilə Gürcüstan Respublikası arsında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında" Müqavilə bağlandı.

Bundan başqa, parlamentlərarası əlaqələr haqqında müqavilə imzalandı. Bütünlükdə isə ticarət-iqtisadi əməkdaşlıq, nəqliyyat əlaqələri, bank qarşılıqlı münasibətləri, gömrük rejimi, diplomatik münasibətlər, səhiyyə, turizm haqqında 20-dən çox saziş bağlandı[26]. Eyni zamanda qərara alındı ki, əldə edilmiş razılaşmaları həyata keçirmək üçün hökümətlərarası komissiya yaradılsın.

Səfərin sonunda Gürcüstanın dövlət başçısı E.Şevarnadze və baş naziri T.Siqua Bakı Sosial İdarəetmə və Politologiya

İnstitutunda və Gürcüstandan olan azərbaycanlı ziyalıların nümayəndələri ilə görüşlər keçirtdilər. Ziyalılarla görüşdə E.Şevardnadze azərbaycanlılara qarşı Gürcüstanda son vaxtlara qədər ayrıseçkilik hallarının yol verildiyini və bu sahədə problemlərin hələ də mövcudluğunu etiraf edərək, bu problemlərin aradan qaldırılacağına söz verdi[27].

Beləliklə, bu səfərdən sonra imzalanmış sənədlər əsasında ikitərfli münasibətlərin təməli qoyuldu. Təbii ki, bu sənədlər arasında beşillik müddətinə bağlanılan "Azərbaycan Respublikası ilə Gürcüstan Respublikası arsında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında" Müqavilə mühüm əhəmiyyət kəsb edirdi.

3 fevral 1993-cü il tarixli "Dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında" Müqavilə iki dövlət arasında bağlanan klassik, qarşılıqlı faydalı əməkdaşlıq və dostluq müqaviləsidir. Müqavilədə hər iki ölkə bir-birlərinin dövlət suverenliyinə və müstəqilliyinə, ərazi bütövlüyünə, sərhədlərin pozulmazlığına, bir-birinin daxili işlərinə qarışmamaq prinsipinə hörmət edəcəklərinə, BMT nizamnaməsinin, Helsinki Yekun aktının, yeni Avropa üçün Paris Xartiyasının və Avropada Təhlükəsizliyə və Əməkdaşlığa dair Müşavirənin başqa sənədlərinin prinsiplərinə bağlılıqlarını bildirirdilər[28].

1993-cü il 3 fevral Müqaviləsi Azərbaycan Respublikası ilə Gürcüstan arasında geniş əhatəli bir çərçivə müqaviləsi olaraq iki ölkə arasındakı münasibətlərin istiqamət və yönlərini müəyyən edirdi. Belə ki, ikinci maddə ikitərəfli əməkdaşlığın əsasən hansı sahələr üzrə aparılacağına həsr edilmişdi: "tərəflər iki ölkə arasında siyasi, ticarət-iqtisadi və mədəni sahələrdə qarşılıqlı faydalı və etimada əsaslanan çoxtərəfli münasibətlərin inkişafına kömək göstərəcəklər"[29].

Ayrıca olaraq səkkizinci, doqquzuncu, onuncu və on üçüncü maddələr iki ölkə arasında ticarət-iqtisadi və elmi-texniki əməkdaşlığın konkret sahələr üzrə möhkəmləndirilməsini və genişləndirilməsini nəzərdə tuturdu.

On birinci maddədə hər iki ölkənin tranzit ölkəsi olması önə çəkilərək, on ikinci maddə də bildirilirdi ki, tərəflər tranzit

nəqliyyat kommunikasiyalarının və nəqliyyatın bütün sahələrində, onlarla bağlı infrastrukturların inkişafında və təkmilləşdirilməsində əməkdaşlıq edəcəklər[30].

On dödüncü maddədə tərəflər ekoloji təhlükəsizliyin təmin edilməsi məqsədilə ətraf mühitin mühafizəsi, təbii ehtiyyatlardan səmərəli istifadə edilməsi sahəsində əməkdaşlığın aparılacağını bildirmişdilər.

İki qonşu xalq arasında tarixi və elmi-mədəni əlaqələrin mövcudluğunu nəzərə alaraq on beşinci maddə iki ölkə arasında elm, mədəniyyət, incəsənət, ədəbiyyat, təhsil, təbabət, mətbuat, radio, televiziya, kino, turizm və idman sahəsində əməkdaşlığın və təcrübə mübadiləsinin inkişafına həsr edilmişdi.

On altıncı maddədə isə tərəflər razılığa gəlirdilər ki, müəllimlərin mübadiləsi, pedaqoji işçilərin hazırlanması, habelə elmi vəsaitlərin inkişafı və təkmilləşdirilməsi sahəsində əməkdaşlıq edəcəklər[31]. Göründüyü kimi, son iki maddə iki ölkə arasında elmi-texniki və mədəni münasibətlərin ayrı-ayrı sahələr üzrə inkişafını nəzərdə tuturdu.

On yeddinci maddə iki tərəfin vətəndaşları arasında əlaqələrin inkişafının, ictimai təşkilatlar, siyasi partiyalar, həmkarlar ittifaqları, gənclər və qadın təşkilatları, dini qurumları arasında əməkdaşlığın zəruriliyini xüsusi olaraq vurğulayırdı.

3 fevral Müqaviləsi eyni zamanda beynəlxalq və regional müstəvidə ikitərəfli əməkdaşlığı da təşviq edirdi. Belə ki, üçüncü maddədə tərəflər bildirirdilər ki, beynəlxalq sülhün, sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsi üçün birgə səy göstərəcəklər, o cümlədən regional təhlükəsizlik sisteminin yaradılmasına xüsusi əhəmiyyət verəcəklər, habelə regionda və dünyada müsbət dəyişikliklərə kömək məqsədilə beynəlxalq təşkilatlar çərçivəsində sıx əməkdaşlıq edəcəklər[32].Yeddinci maddədə əlavə olaraq tərəflər müxtəlif beynəlxalq iqtisadi, maliyyə və başqa təşkilatların, sazişlərin, konvensiyaların səmərəliyini yüksəltmək məqsədilə "onlarda əlbir iştirak edəcəklər"ini razılaşdırmışdılar. Dördüncü maddə isə, qarşılıqlı maraq doğuran beynəlxalq və regional problemlər üzrə ildə azı iki dəfə vaxtaşırı məsləhətləşmələrin keçirilməsini nəzərdə tuturdu.

Müqavilənin beşinci və altıncı maddələrində qarşılıqlı təhlükəsizlik məsələlərinə toxunulmuşdu. Bu məsələlərlə bağlı beşinci maddədə məsləhətləşmələrin və informasiya mübadiləsinin ediləcəyi barədə razılıq əldə olunmuşdu. Ermənistanın təcavüzü ilə üzləşən Azərbaycan üçün, eyni zamanda Abxaziyada və Cənubi Osetiyada separatizmlə qarşılaşan Gürcüstan üçün Müqavilənin altıncı maddəsi xüsusi əhəmiyyət kəsb edirdi. Bu maddədə tərəflərin hər biri digər tərəfə qarşı yönəldiləcək hər hansı hərəkətlərdə və ya tədbirlərdə iştirak etməkdən çəkinəcəyi və öz ərazisində digər tərəfə qarşı təcavüzkarlıq və ya başqa zorakılıq hərəkətləri üçün istifadə olunmasına yol verməyəcəyi ilə bağlı öhdəlik götürürdülər[33]. Göründüyü kimi, Cənubi Qafqazın üç ölkəsindən ikisi – Azərbaycan və Gürcüstan öz ərazilərindən biri-birinə qarşı sui-istifadə olunmasının yolverilməzliyini qəbul edərək və bu sahədə öhdəliklər götürərək, regional təhlükəsizlik sisteminin yaradılmasının mümkünlüyünü ilk dəfə nümayiş etdirdilər.

Nəhayət, "Dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında" Müqavilənin mühüm əhəmiyyətini onun ilk dəfə olaraq hər iki respublikada yaşayan milli azlıqların hüquqlarının müdafiəsini nəzərdə tutmasında görmək olar. Hətta milli azlıqlara aid on doqquzuncu maddə ifadə tərzinə görə danışıqlar zamanı fikir ayrılığına səbəb olmuş və geniş müzakirələrdən sonra razılaşdırılmışdı.

Beləliklə, Müqavilənin ondoqquzuncu maddəsi ilə hər iki tərəf öz ərazisində yaşayan milli azlıqların hüquqlarının müdafiəsi işini öhdələrinə götürürdülər. Müqavilənin on doqquzuncu maddəsində qeyd edilirdi ki, "tərəflər milli azlıqlara mənsub şəxslərin öz insani hüqüqlarını və əsas azadlıqlarını tamamilə və səmərəli şəkildə həyata keçirmək və heç bir ayrı-seçkilik olmadan və qanun qarşısında tam bərabərlik şəraitində həmin hüquqlardan tam istifadə etmək hüququna zəmanət verir", eləcə də "öz ərazilərində milli azlıqların etnik, mədəniyyət, dil və din özgürlüyünün qorunmasını təmin edir və bu özgürlüyün təşviq edilməsi üçün şərait yaradırlar"[34]. Həmin maddədə eyni zamanda tərəflər milli, irqi, etnik və ya dini ayrı-seçkilik, düşmənçilik və ya nifrət

əsasında zorakılığın qarşısını alacaqlarına dair öhdəliklər götürdülər. Bununla da Gürcüstan azərbaycanlılara qarşı aparılan ayrı-seçkiliyə qarşı tədbirlərin görüləcəyinə və qarşısının alınacağına dair rəsmi öhdəlik götürmüş oldu.

İki ölkənin qanunverici orqanları arasında əməkdaşlığın dövlətlərarası münasibətlərin inkişafında zəruriliyini anlayaraq tərəflər iyirmi ikinci maddəni iki dövlətin parlamentləri və parlament üzvləri arasında əlaqələrin inkişafına həsr etmişdilər. Hətta səfər zamanı qeyd etdiyimiz kimi əlavə olaraq parlamentlərarası əməkdaşlıq haqqında saziş də imzalanmışdı. Sazişdə hər iki ölkənin parlamentində digər tərəfin parlamenti ilə əlaqələr üzrə deputat qrupunun yaradılması, həmin qruplar arasında ikitərəfli münasibət məsələlərinə, qarşılıqlı maraq doğuran beynəlxalq və regional problemlərə dair mütəmadi danışıqların və məsləhətləşmələrin keçirilməsi, daimi parlament komissiyaların əməkdaşlıqlarının təmin edilməsi barədə razılıq əldə olunmuşdu[35].

Gürcüstanın dövlət başçısı Eduard Şevardnadzenin Bakıya ilk rəsmi səfərinin, səfər zamanı aparılmış danışıqların, imzalanmış sənədlərin, xüsusilə də, "Dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında" Müqavilənin geniş təhlili aşağıdakı nəticələrə gəlməyə imkan verir:

Birincisi, SSRİ süqut etdikdən sonra müstəqillik əldə etmiş iki qonşu ölkə rəsmi dövlət səviyyəsində bir-birinin müstəqilliyini, ərazi bütövlüyünü tanıdı;

İkincisi, qeyd etdiyimiz kimi, səfər zamanı imzalanmış sənədlər əsasında ikitərəfli münasibətlərin hüquqi-normativ cəhətdən özülü qoyuldu;

Üçüncüsü, SSRİ-nin dağılması ilə qırılmış iqtisadi əlaqələrin bərpasına zəmin yaradıldı. Çünkü müxtəlif növ məhsulların idxal-ixracını artırmaqla yanaşı, iqtisadi əməkdaşlıq haqqında bir sıra sənədlər imzalandı;

Dördüncüsü, beynəlxalq və regional məsələlər, o cümlədən Qafqazda sülh və təhlükəsizlik problemləri ilə bağlı fikir və mövqe birliyinin mövcudluğu təsbit edildi;

Beşincisi, Gürcüstan azərbaycanlılarına qarşı yönəldilmiş və E.Şevardnadzenin dövlət rəhbəri kimi ilk dəfə rəsmi olaraq

etiraf etdiyi ayrı-seçkilik hallarının aradan qaldırılacağına dair Gürcüstan öhdəlik götürdü. Bu o demək idi ki, Gürcüstanda yaşayan azərbaycanlıların qarşılaşdıqları problemlər nəinki təsdiqini tapdı və dövlətlərarası müzakirələrə çevrildi, eyni zamanda onların həlli artıq dövlət səviyyəli məzmun kəsb etməyə başladı.

Nəhayət, danışıqlar zamanı fikir ayrılığının olmasına baxmayaraq, dövlətlərarası problemlərin sülh yolu ilə, danışıqlar masası arxasında həll etməyin mümkün olduğu göstərildi.

Lakin qeyd olunan müsbət məqamlara baxmayaraq, 3 fevral 1993-cü il tarixli Müqavilə, bəhs edilən on doqquzuncu maddədə daxil olmaqla tam qüvvəsi ilə işə düşə bilmədi. Müqavilə şərtlərinin tamamilə və qeyri-şərtsiz yerinə yetirilməməsinin bir neçə səbəbləri var idi.

Birincisi, hər iki ölkə daxilindəki dərin siyasi, iqtisadi və mənəvi böhran, eləcə də müstəqilliyi təzəcə qazanmış bu ölkələrə xarici təsirlərin güclənməsi, ölkədaxili mühafizəkar qüvvələrin maneçilik cəhdləri və s. müqavilə öhdəliklərini tam yerinə yetirməyə imkan vermirdi. Həm Azərbaycanın, həm də Gürcüstanın zorla müharibəyə cəlb edilmələri, hər iki ölkədə qaçqınlar problemi vəziyyəti xüsusilə ağırlaşdırırdı.

İkincisi, müqavilənin işə düşməsi üçün tərəflər qarşılıqlı fəaliyyət mexanizmi əldə edə bilməmişdilər.

Üçüncüsü, Gürcüstanda mövcud xaotik vəziyyətdə fəallıqlarını artıran millətçi-radikal və mafioz qruplar demoqrafik prosesə birbaşa təsir etdiklərindən müqavilə öhdəliklərini yerinə yetirmək mümkünsüzləşirdi.

Ümumiyyətlə, Gürcüstanda müəyyən qruplar Borçalı bölgəsində siyasi sabitliyin əldə olunmasını qətiyyən istəmirdilər. Ona görə də, 1993-cü ilin ikinci yarısına qədər azərbaycanlılar yaşayan rayonlarda kriminogen vəziyyət kifayət qədər gərgin olmuşdu[36]. Nəticədə isə bir tərəfdən azərbaycanlıların köçü davam edirdi, digər tərəfdən isə dövlətlərarası əlaqələrdə gərginlik artırdı. Belə olduqda iki qonşu ölkə arasında hərtərəfli qarşılıqlı faydalı əməkdaşlıq istək və zərurət olaraq qalmaqda idi.

1993-cü ilin iyununda Azərbaycana hakimiyyətə qayıdan və prezident seçilən Heydər Əliyevin fəaliyyətinin mühüm sahələ-

rindən biri də onun xarici siyasət fəaliyyətidir. Həmin dövrdə elə bir xarici siyasət yürütmək lazım idi ki, o ən əvvəl milli mənafeyə, yenicə əldə olunmuş müstəqilliyin möhkəmlənməsinə xidmət etsin, əvvəlki rəhbərliklərin buraxdığı səhvlərin sayəsində yaranmış problemlərimizin həllinə kömək olsun, beynəlxalq arenada Azərbaycan özünə layiq yer tuta bilsin. Heydər Əliyevin parlaq və aydın zəkası, zəngin bilik və təcrübəsi bu çətin işin öhdəsindən uğurla gəlməyə imkan verdi.

Artıq 1993-cü ilin oktyabrında Azərbaycan Respublikasının prezidenti seçilən Heydər Əliyev keçirilən andiçmə mərasimindəki çıxışında ölkənin xarici siyasətinin başlıca vəzifələrini və istiqamətlərini xalqın və bütün dünya qarşısında bəyan edərək demişdi: “Bizim xarici siyasətimiz birinci növbədə Azərbaycanın dövlət müstəqilliyini təmin etməyə yönəldilməlidir. Vəzifə dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı faydalı əlaqələr yaratmaq və inkişaf etdirməkdən, bu əlaqələrdən həm Azərbaycan Respublikasının beynəlxalq mövqelərini möhkəmlətmək üçün, həm də respublikanın iqtisadiyyatını, elmini, mədəniyyətini, inkişaf etdirmək üçün səmərəli istifadə etməkdən ibarətdir”[37]. Beləliklə, 1993-cü ilin ikinci yarısından hazırlanıb həyata keçirilən Azərbaycan Respublikasının xarici siyasəti Heydər Əliyevin adı və fəaliyyəti ilə bağlıdır.

Məhz 1993-cü ilin ortalarından etibarən Azərbaycanın xarici siyasət kursunda real durumları nəzərə alan və dövlətin milli maraq və mənafelərinin qorunmasına istiqamətlənmiş əməli dəyişiklər edildi. Qafqaz bölgəsindəki dövlətlərlə və xalqlarla dostluq və mehriban qonşuluq münasibətlərinin yaradılması Azərbaycanın yeni formalaşmış xarici siyasətinin mühüm əhəmiyyət kəsb edən istiqamətlərindən biri oldu.

Qeyd etdiyimiz kimi, müstəqilliyin ilk illərində Azərbaycanda və Gürcüstanda hakimiyyətə gələn qüvvələr qonşularla münasibətləri rassional deyil, emossional əsaslarda qurdular. Təbii olaraq bundan da ən çox zərər çəkən Azərbaycan-Gürcüstan münasibətləri, xüsusilə də Borçalıda yaşayan yüz minlərlə soydaşlarımız oldu.

1992-ci ilin əvvəllərindən Gürcüstanda yeni iqtidarın hakimiyyətdə olmasına baxmayaraq, Borçalı azərbaycanlılarının

vəziyyəti ağır və acınacaqlı olaraq qalmaqda idi. Yəni, hakimiyyətin dəyişməsi azərbaycanlıların vəziyyətində hələ bir irəliləyişə səbəb olmurdu. 1993-cü ilin mayında Gürcüstan Statistika İdarəsi maraqlı rəqəmlər bəyan etmişdi. Verilən məlumata görə Gürcüstanda 5 milyon 440 min əhali yaşayırdısa, köçənlərin sayı iki il ərzində 152 min nəfərə çatmışdı. Həmin 152 min köçkünün təxminən yarısı öz dədə-baba torpaqlarından qovularaq Azərbaycana pənah gətirmiş azərbaycanlılar idi[634].

Xalqın tələbi ilə hakimiyyətə qayıtmış Heydər Əliyevin xarici siyasət sahəsindəki ilk addımlarından biri də məhz mövcud Azərbaycan-Gürcüstan münasibətlərinin inkişafını normal məcraya salması oldu. Bununla da ikitərəfli münasibətlərin yeni inkişaf dövrü başlandı. Bu dövrü isə şərti olararaq iki mərhələyə ayırmaq lazımdır:

Birinci mərhələ – 1993-cü ilin ortalarından 1995-ci ilin sonlarına kimi davam etmişdir. Bu mərhələnin qısa xarakteristikası: dövlətlərarası münasibətlərdəki mövcud gərginlik aradan qaldırıldı, ikitərəfli əməkdaşlığın inkişafı və genişləndirilməsi üçün zəmin hazırlandı, tərəflər arasında bir çox məsələlər, xüsusilə də beynəlxalq və regional xarakterli məsələlər üzrə qarşılıqlı etimad və uyğunlaşdırılmış mövqelər əldə olundu.

İkinci mərhələ – 1996-2000-ci illəri əhatə edir: ikitərəfli münasibətlər yüksələn xətlə və intensiv şəkildə inkişaf edərək strateji tərəfdaşlıq və iqtisadi partnyorluq səviyyəsinə qalxdı.

1993-cü ilin ikinci yarısından başlayaraq dövlətlərarası münasibətlərin genişləndirilməsi məqsədilə müxtəlif səviyyəli rəsmi və qeyri-rəsmi səfərlərin, görüşlərin nəinki kəmiyyətinə, eyni zamanda keyfiyyətinə diqqət artırıldı.

Qeyd olunan birinci mərhələ ərzində ondan çox müxtəlif səviyyəli qarşılıqlı səfər baş tutdu. Xüsusilə də, Gürcüstanın dövlət və hökumət nümayəndə heyətlərinin səfərləri səmərəli nəticələri ilə ikitərəfli münasibətlərin inkişafında mühüm önəm daşıdı.

1993-cü ilin iyunun 17-də və iyulun 7-də Gürcüstanın baş nazirinin birinci müavini Aftandil Marqianinin, avqustun 3-də Gürcüstan Ali Soveti sədrinin müavini Vaxtanq Rçeulişvili və baş nazirin müavini Zurab Kervalişvilinin, dekabrın 1-də və

1994-cü ilin fevralın 22-də Gürcüstanın baş naziri Otari Patsasiyanın, 1994-cü ilin fevralın 14-də Gürcüstanın xarici işlər naziri Aleksandr Çikviadzenin, 1995-ci ilin yanvarın 5-də Gürcüstan parlamenti sədrinin birinci müavini Vaxtanq Qoquadzenin, aprelin 15-də Gürcüstanın Milli Təhlükəsizlik naziri İqor Georqadzenin, mayın 1-də Gürcüstan Nazirlər Kabineti sədrinin birinci müavini Zurab Kervalişvilinin, iyulun 26-da Gürcüstan İnsan Hüquqları Müdafiəsi və Millətlərarası Münasibətlər üzrə Dövlət Komitəsinin sədri Aleksandr Kavsadzenin, oktyabrın 21-də Gürcüstan parlamentinin vitse-spikeri Vaxtanq Rçeulişvilinin başçılıq etdiyi nümayəndə heyətlərinin Azərbaycana səfərləri zamanı Azərbaycan rəhbərliyi tərəfindən qəbul edilməsi, bir sıra mühüm ikitərəfli və regional məsələlərin müzakirə edilməsi zamanı müəyyən olundu ki, bir çox məsələlər barədə hər iki tərəfin təklifləri arasında fikir ümumiliyi vardır.

Bundan əlavə, Gürcüstan nümayəndə heyətlərinin Bakıya səfərləri zamanı bir sıra saziş və razılaşmalar bağlandı, Gürcüstan üçün Azərbaycan Respublikası tərəfindən kreditlər ayrıldı. Belə ki, Gürcüstanın baş nazirinin birinci müavini A.Marqianinin 1993-cü il 17 iyun tarixli səfəri zamanı bağlanmış hökumətarası sazişə görə, Azərbaycan tərəfindən Gürcüstana neft məhsulları və başqa sənaye məhsulları göndərilməsi üçün 3 milyard manat dövlət krediti verilməsi nəzərdə tutuldu[39]. Gürcüstan tərəfindən isə Azərbaycan üçün nəzərdə tutulan və Gürcüstanın ərazisindən keçən bütün yüklərin yola salınmasının hökumətin xüsusi nəzarəti altında olacağına dair vəd verildi. Göründüyü kimi, Azərbaycan tərəfi özü çətin, müharibə vəziyyətdə olmasına baxmayaraq, Gürcüstanın xahişinə əməl etdi, ona kredit ayırdı və yanacaq verdi. Bu, Azərbaycanın iki qonşu ölkə arasındakı münasibətlərə verdiyi önəmin ifadəsi idi.

Gürcüstanın baş naziri O.Patsasiyanın həmin ilin dekabrın 1-də Bakıda Azərbaycan rəhbərliyi ilə apardığı danışıqlar zamanı da analoji razılaşma əldə olundu. Razılaşmaya görə, Azərbaycan hökuməti 1994-cü il aprelin 1-dək Gürcüstanı elektrik enerjisi ilə təmin olunmasına yardım göstərdi[40].

Qeyd etdiyimiz kimi, Gürcüstanda hakimiyyət dəyişikliyinə baxmayaraq yarım milyonluq azərbaycanlıların hələ də sıxışdırılması, yaşayış yerlərinin adlarının dəyişdirilməsi, torpaq islahatı altında onlara torpaq verilməməsi prosesi gedirdi. Bunlar da iki ölkə arasındakı münasibətlərə mənfi təsir göstərirdi.

Gürcüstanda yaşayan azərbaycanlıların həyatı, onların sosial-iqtisadi problemlərinin həlli, sərhədyanı rayonların əlaqələrini gücləndirmək məsələləri 1993-cü ilin iyulun 16-da Bakıda Azərbaycan Respublikasının dövlət katibi Lalə Şövkət Hacıyevanın Gürcüstan parlamentinin deputatı, Gürcüstan Milli Demokratiya Partiyası MK üzvü Vaxtanq Kalatadze ilə görüşündə əsas müzakirə obyekti oldu[41].

Gürcüstan azərbaycanlılarının problemləri ilə yaxından tanışlıq üçün dövlət katibi L.Ş.Hacıyevanın başçılıq etdiyi nümayəndə heyəti həmin ilin noyabrın 15-də Gürcüstanda səfər etdi. Dmanisi, Marneuli və digər rayonlarda yaşayan azərbaycanlıların vəziyyəti ilə tanışlıq sayəsində onların hələ də ağır və dözülməz durumda olmaları təsbit edildi. Gürcüstanın dövlət başçısı E.Şevardnadze ilə görüş zamanı Azərbaycan nümayəndə heyəti azərbaycanlıların üzləşdikləri problemlər haqqında geniş məlumat verdi. Sonra 1993-cü ildə Azərbaycan və Gürcüstan arasında imzalanmış və hər iki respublikanın parlamentində bəyənilmiş “Dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında” Müqavilənin təsdiqnamələrinin mübadiləsi mərasimi keçirildi[42]. Lakin dövlət katibi L.Ş.Hacıyevanın Gürcüstan rəhbərliyi ilə keçirdiyi danışıqlara baxmayaraq, Gürcüstanda azərbaycanlıların vəziyyəti yaxşılaşmadı.

Bunun bir neçə səbəbləri var idi:

– İkitərəfli münasibətlər hələ də lazımı səviyyəyə çatmamışdı;

– Gürcüstan xaotik vəziyyətdən hələ də çıxmamışdı. Yəni, separatizm, cinayətkarlıq, adam oğurluqları və s. baş alıb gedirdi ;

– Gürcüstan rəhbərliyində şovinist əhval-ruhiyyə qalmaqda idi ;

– Azərbaycanın özünün müharibə vəziyyətində olması, qaçqınlar probleminin ağır olması Gürcüstanda olan azərbaycanlılara mövcud diqqətin artırılmasına imkan vermirdi.

Siyasi münasibətlərin mühüm tərkib hissəsi olan parlamentlərarası əməkdaşlığın genişlənməsində Gürcüstan parlamenti

sədrinin birinci müavini V.Qoquadzenin 1995-ci il 2 və 5 yanvar tarixli səfərləri mühüm əhəmiyyət kəsb etdi. Eyni zamanda bu səfərlər, həmçinin Gürcüstan parlamentinin vitse-spikeri V.Rçeulişvilinin həmin ilin oktyabrın 21-də Bakıya səfəri zamanı Azərbaycan tərəfi azərbaycanlıların gürcülərdən sonra böyük etnik azlıq olmasına baxmayaraq Gürcüstan parlamentində bir nəfərlə belə təmsil olunmaması məsələsini ciddi narahatlıqla bildird[43]. Nəhayət, 1995-ci ilin noyabrında Gürcüstanda keçirilən parlament seçkilərindən sonra bu problem həllini tapdı.

Gürcüstan parlamentinin üzvləri və Gürcüstan Birləşmiş Respublika partiyasının nümayəndələri İ.Melaşvilinin və Q.Beraşvilinin 1994-cü ilin iyulun 7-də Bakıya səfərinin də məqsədi iki dövlətin parlamentləri arasında dostluq və əməkdaşlıq əlaqələrinin möhkəmləndirilməsi idi.

Siyasi əlaqələrlə yanaşı iki ölkə arasında iqtisadi əməkdaşlığın genişləndirilməsi ilə bağlı geniş müzakirələr 1993-cü ilin iyulun 7-də Bakıda Azərbaycan Respublikası prezidenti səlahiyyətlərəni həyata keçirən Ali Sovetin sədri Heydər Əliyev ilə Gürcüstan Ticarət naziri M.Zankalani arasında keçirilmiş görüşdə aparıldı[44]. Gürcüstanın baş naziri O.Patsasiyanın qeyd olunan səfərləri zamanı da Azərbaycan və Gürcüstan arasında iqtisadi əlaqələrin genişləndirilməsi məsələləri ətraflı müzakirə edildi.

1995-ci ildə aparılmış danışıqların nəticəsi kimi Azərbaycan neftinin dünya bazarına nəql olunması ilə bağlı Gürcüstan xəttinin seçilməsi iki ölkə arasındakı başqa sahələrdə də əməkdaşlığın genişlənməsinə, münasibətlərin, o cümlədən siyasi əlaqələrin istiləşməsinə və inkişafına təkan verdi. Başqa sözlə desək, bu ildən etibarən Azərbaycanın enerji ehtiyatlarının nəqli məsələsi ikitərəfli münasibətlərin inkişafına və genişlənməsinə təsir edən başlıca amillərdən birinə çevrildi.

Təhlil aparılan dövrdə ikitərəfli münasibətlərin inkişafına yönəldilmiş daha bir mühüm sənəd imzalandı. Bu, 1995-ci il aprelin 15-də imzalanan Azərbaycanın Milli Təhlükəsizlik Nazirliyi ilə Gürcüstanın müvafiq təhlükəsizlik orqanı arasında əməkdaşlıq, qarşılıqlı fəaliyyət haqqında sazişdir. Bu saziş iki müstəqil qonşu ölkənin dövlətçiliyinin qorunmasının, cinayətkarlığa

qarşı mübarizədə səylərin birləşdirilməsinin hüquqi əsasını qoydu. Saziş iqtisadi mənafelərin qorunmasında, dövlətlərarası və regionlararası xarakter daşıyan korrupsiyaya və mütəşəkkil cinayətkarlığa, beynəlxalq terrorçuluğa, qaçaqmalçılığa, narkobiznesə, adamların girov götürülməsi hallarına qarşı mübarizə aparılmasında əməkdaşlıq etməyi və birgə fəaliyyət göstərməyi nəzərdə tuturdu.

1993-cü ilin ortalarından 1995-ci ilin sonlarına kimi olan dövrdəki qarşılıqlı səfərlərin, müxtəlif səviyyəli ikitərəfli görüşlərin təhlili nəticəsində tərəflər arasında aparılan müzakirələrin prioritet məsələlərini müəyyən etmək olar:

– Ərazi bütövlüyü və separatizm ilə bağlı, o cümlədən təhlükəsizlik sahəsinə dair məsələlər;

– Bağlanmış saziş və müqavilələrin müddəalarının həyata keçirilməsi;

– Diplomatik-siyasi münasibətlərin daha da inkişaf etdirilməsi;

– Beynəlxalq arenada uyğunlaşdırılmış mövqedən çıxışın razılaşdırılması;

– Gürcüstanda yaşayan azərbaycanlıların üzləşdikləri problemlər və onların həlli yolları;

– Ticarət-iqtisadi əməkdaşlığın genişləndirilməsi, o cümlədən mal dövriyyəsinin artırılması;

– Azərbaycanın malik olduğu enerji ehtiyatlarının nəql edilməsində Gürcüstan variantının perspektivləri;

– Gürcüstana Azərbaycan Respublikası tərəfindən kredit və yardımların verilməsi.

Qeyd etmək lazımdır ki, dövlətlərarası münasibətlərin inkişafına mənfi təsir göstərən amillərdən biri də hər iki respublikanın bir-birlərində səfirliklərinin olmaması idi. Hələ 1991-ci il 12 iyul tarixli "dostluq və mehriban qonşuluq" haqqında Müqavilənin üçüncü bəndinə görə, Azərbaycan və Gürcüstan "beynəlxalq təcrübəyə uyğun olaraq sonralar müvafiq müəssisələr açmaqla diplomatik nümayəndələr mübadiləsi edəcəklər"ini bildirmişdilər[45]. 1993-cü ilin yanvarın 27-də isə Azərbaycan Respublikasının Ali Soveti həmin müqaviləyə əsasən Tbilisidə Azərbaycan səfirliyinin təsis edilməsi barədə qərar qəbul etdi[46].

Nəhayət, 1995-ci ilin fevral-aprel ayları ərzində ilk öncə Gürcüstanın Azərbaycanda səfirliyi açıldı. Gürcüstan Respublikasının Azərbaycana təyin olunan ilk səfiri Georgi Çanturiyanın etimadnaməsini Prezident Heydər Əliyev 1995-ci ilin aprelin 14-də qəbul etdi[47]. 1996-cı ilin mart ayında isə Tiblisidə Azərbaycan Respublikasının səfirliyi açıldı. Azərbaycanın qonşu ölkədə ilk səfiri Hacan Hacıyev təyin olundu. Hər iki ölkədə səfirliklərin açılması mövcud ikitərəfli münasibətlərin sürətlə inkişafına şərait yaratdı.

1993-cü ilin ortalarından – 1995-ci ilin sonuna qədər olan dövrdəki ikitərəfli münasibətlərin inkişafına nəzər salsaq aşağıdakıları müəyyən etmiş olarıq:

– Yüksəkvəzifəli şəxslərin səfərləri intensivləşir;

– Bağlanmış saziş və müqavilələrin müddəalarının yerinə yetirilməsinə nəzarət artırılır;

– Gürcüstan azərbaycanlılarının problemlərinə dövlət səviyyəsində ciddi nəzər yetirilir və aradan qaldırılmasına müəyyən səylər göstərilir;

– Əvəzində Gürcüstana Azərbaycan tərəfindən yüksək kreditlər və yardımlar ayrılır;

– Gürcüstanın dövlət səviyyəsində Azərbaycana olan ərazi iddialarından əl çəkilir;

– Separatizmlə üzləşən hər iki tərəf regionda sülhün və təhlükəsizliyin təmin olunması sahəsində birgə mövqedən çıxış etməyə başlayırlar;

– Neft amili ikitərəfli münasibətlərin inkişafına və genişlənməsinə təsir edəcək mühüm bir amilə çevrilir;

– Yuxarıda qeyd olunanların baş verməsində iki ölkə prezidentləri – Heydər Əliyev-Eduard Şevardnadze dostluğu mühüm amil kimi çıxış edir.

Beləliklə, Azərbaycan Respublikası ilə Gürcüstan arasındakı münasibətlər özünün yeni mərhələsində Heydər Əliyevin uğurlu xarici siyasətinin həlledici təsiri ilə yüksələn xətt üzrə inkişaf edirdi və tam formalaşaraq genişlənməyə doğru gedirdi.

1993-cü ilin ortaları – 1995-ci illərdə Azərbaycan Respublikası ilə Gürcüstan arasındakı münasibətlərin araşdırılması bir sıra ümumiləşdirilmiş nəticələri müəyyənləşdirməyə imkan verir:

– İkitərəfli münasibətlərin yeni mərhələsində atılan addımlar səmərəli, hər iki tərəfə faydalı və günü-gündən artan oldu;

– Ermənilərin Gürcüstana qarşı olan ərazi iddialarının mövcudluğu, gürcü-abxaz müharibəsi zamanı Abxaziya tərəfində erməni batalyonlarının vuruşması faktları, ümumiyyətlə, Gürcüstanda ermənilərin separatizmdə fəal iştirak etmələri, və digər bir tərəfdən ermənilərin Azərbaycana təcavüzkarlığı, onun 20 faizdən çox ərazisinin işğal edilməsi, bir milyondan çox azərbaycanlının məcburi köçkün və qaçqın vəziyyətində olması Azərbaycan-Gürcüstan münasibətlərinin canlanmasına, birgə vahid bir mövqedən çıxış etməsinə və tədricən onların strateji tərəfdaşlara çevrilməsinə şərait yaradırdı;

– Azərbaycan Gürcüstanın, Gürcüstan da Azərbaycanın xarici siyasətində əhəmiyyətli yer tutdu və qarşılıqlı əlaqələr hər iki ölkəyə faydalı oldu;

– Azərbaycan Gürcüstan üçün Asiyaya pəncərədir. Yəni Azərbaycan Gürcüstan üçün Asiya ölkələrinə çıxmaqda əlverişli və etibarlı tranzit yolunu oynayırdı. Digər tərəfdən Abxaziya və Cənubi Osetiya münaqişələrinin mövcudluğu Gürcüstana edilən daşınmaların Azərbaycandan həyata keçirilməsini zəruri edirdi. Üstəlik Ermənistanın Gürcüstana ərazi iddialarının mövcud olduğu bir şəraitdə Gürcüstanın düşdüyü vəziyyət onu Türkiyəilə Azərbaycan arasında özünəməxsus yer tutmağa sövq edirdi. Bu da həm Azərbaycanın, həm də Gürcüstanın mənafeyinə uyğun idi;

– Gürcüstan Azərbaycan üçün Avropaya pəncərədir. Azərbaycanın Ermənistanla müharibə vəziyyətinin olması, şimalda isə Rusiyanın tez-tez dəmiryolunu bağlaması, Rusiyanın imperialist siyasəti, İran İslam Respublikasının da Qərblə soyuq və gərgin münasibətlərinin olması Azərbaycanı müəyyən mənada blokadaya salırdı. Belə bir şəraitdə Gürcüstanın Azərbaycan üçün əhəmiyyətliliyi zəruri və mühüm idi. Yəni Gürcüstan regionda mühüm əhəmiyyətə malik tranzit ölkəsi kimi önə çıxmağa başladı;

– Gürcüstanın Azərbaycanla münasibətlərinin genişlənməsində dərin iqtisadi maraqları vardır. Azərbaycandan elektroenerjinin, yanacağın alınması Gürcüstanın Rusiyadan iqtisadi

asılılığını müəyyən dərəcədə azalda bilərdi. Digər tərəfdən, Azərbaycan enerji resurslarının Gürcüstan ərazisi ilə nəqli Gürcüstanın büdcəsinə əlavə gəlirlər gətirə bilərdi;

– Azərbaycan-Gürcüstan münasibətləri beynəlxalq prinsiplərə uyğunluğu ilə yanaşı, Qafqazda sülhə, təhlükəsizliyə və əməkdaşlığa xidmət edirdi.

Yuxarıda qeyd olunanları nəzərə alsaq qəti olaraq demək olar ki, Azərbaycan-Gürcüstan münasibətlərinin geniş perspektivləri var idi. Bu perspektivlər isə ikitərəfli münasibətlərin növbəti mərhələsində (1996-2000-ci illər) üzə çıxır.

1996-cı ildən başlayaraq Azərbaycan və Gürcüstan dövlətləri arasında münasibətlər yeni səviyyəyə qalxdı. Ümumiyyətlə, həm 1996-cı il, həm 1997-ci il ikitərəfli münasibətlərin inkişafında və genişlənməsində çox əhəmiyyətli oldu. Çünki həm iki ölkənin dövlət və hökumət rəhbərlərinin rəsmi səfər və intensiv görüşlərinə, həm də dövlətlərarası münasibətlərin ayrı-ayrı sahələrini tənzimləyən mühüm sənədlərin imzalanmasına görə bu iki il Azərbaycanın xarici siyasətinin Qafqaz istiqamətində ən müvəffəqiyyətli və uğurlu illər kimi nəzərə çarpır.

Digər tərəfdən, hər iki qonşu xalqın istiqlaliyyət qazandığı, öz müstəqil dövlətlərini qurduğu tarixi bir mərhələdə ikitərəfli münasibətlərin möhkəmləndirmək və intensivləşdirmək işində dövlət rəhbərlərinin qarşılıqlı səfərləri, şəxsi görüşləri və danışıqları həm zəruri idi, həm də böyük əhəmiyyətə malik idi.

Hələ 1995-ci ilin iyulunda Gürcüstanın Dövlət Komitəsinin sədri A.Kavsadzenin Azərbaycana səfəri zamanı Azərbaycan Prezidenti H.Əliyev Gürcüstana rəsmi səfərə dəvət olunmuşdur[48]. 1996-cı ilin yanvarın 6-da Gürcüstanın xarici işlər naziri İ.Menaqarişvilinin Bakıya əməli səfərinin də əsas məqsədi Azərbaycan prezidentinin Gürcüstana dəvət edilməsi idi. Rəsmi qonağın prezident H.Əliyevlə görüş zamanı ikitərəfli məsələlərlə yanaşı, regional məsələlərdə müzakirə obyektinə çevrildi və sonda İ.Menaqarişvili E.Şevardnadzenin şəxsi məktubunu prezident H.Əliyevə çatdırdı[49].

Nəhayət, 1996-cı ilin martın 8-də Azərbaycan Prezidenti H.Əliyevin Tbilisiyə gözlənilən ilk rəsmi səfəri baş tutdu.

Həmin gün ilk öncə prezidentlər arasında təkbətək görüş oldu. Söhbət zamanı prezidentlər Azərbaycanın və Gürcüstanın qarşılaşdığı eyni xarakterli problemlərin aradan qaldırılması yolları barədə fikir mübadiləsi apardılar. Daha sonra imzalanacaq sənədlər ətrafında danışıqlar apardılar və bir sıra digər məsələləri də nəzərdən keçirdilər[50]. Prezidentlərin təkbətək görüşündən sonra iki ölkənin nümayəndə heyətləri arasında danışıqlar aparıldı və sənədlərin imzalanması mərasimi oldu. Nəticədə 15 sənəd imzalandı. Onlardan üçü – "Dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizliyin möhkəmləndirilməsi haqqında müqavilə", "Qafqaz regionunda sülh, təhlükəsizlik və əməkdaşlıq haqqında bəyannamə" və "Neftin nəqlinin bəzi mövcud vasitələrinin inkişafı və modernləşdirilməsi, neftin nəqlinin yeni vasitələrinin işlənib hazırlanması və belə vasitələrin köməyi ilə neftin Gürcüstan ərazisindən nəqli haqqında saziş" Azərbaycan və Gürcüstan üçün, həmçinin ikitərəfli əlaqələrin dərinləşməsində müstəsna əhəmiyyətə malikdir[51]. Danışıqların yekununa əsasən bir sıra başqa sənədlər – "Azərbaycan Respublikasının prezident Heydər Əliyevin Gürcüstana rəsmi səfəri zamanı Gürcüstanın və Azərbaycan Respublikasının nümayəndə heyətləri arasında danışıqların nəticələri haqqında protokol", "Gürcüstan Xarici İşlər Nazirliyi ilə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi arasında məsləhətləşmələr haqqında danışıqların protokolu", "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə Gürcüstan Ədliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında saziş", habelə neft sahəsində, hüquqi münasibətlər, azad ticarət, investisiyaların həvəsləndirilməsi və qarşılıqlı surətdə qorunması, ticarət-iqtisadi əməkdaşlığın prinsipləri, ticarət gəmiçiliyi, kənd təsərrüfatı və ərzaq haqqında müqavilə və sazişlər bağlandı.

Bu sənədlər arasında "Dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizliyin möhkəmləndirilməsi haqqında" çərçivə sənədini xüsusilə qeyd etmək lazımdır. Beş il müddətinə bağlanmış müqavilə 22 maddədən ibarət idi[52]. Bu sənəd iki ölkə arasında başlıca qarşılıqlı münasibətləri tənzimləyən son dərəcə əhəmiyyətli müqavilə olaraq, iki dövlət arasında partnyorluq üçün hüquqi-normativ əsas yaradırdı.

Qeyd etmək lazımdır ki, vaxtilə iki dövlət arasında müqavilə imzalanmışdır. Lakin hər iki dövlətdə baş vermiş mühüm hadisələr, yəni konstitusiyaların qəbul edilməsi, parlament və prezident seçkilərinin keçirilməsi kimi yeni reallıqları nəzərə alan yeni və daha geniş müqaviləyə ehtiyac duyulurdu. Ümumiyyətlə, müqavilədə siyasi, ticarət-iqtisadi, mədəni və digər sahələrdə qarşılıqlı faydalı münasibətlərin inkişafına imkan yaradılması kimi öhdəliklər əks olunmuşdur. Milli azlıqlara aid 13-cü maddədə isə deyilirdi ki, razılığa gələn tərəflər milli azlıqlara mənsub olan şəxslərin insan hüquq və əsas azadlıqlarının beynəlxalq hüquq normalarına uyğun olaraq, heç bir ayrı-seçkilik olmadan və qanun qarşısında tam bərabərlik şəraitində tamamilə və effektiv həyata keçirilməsinə təminat verir, eləcədə milli azlıqlara öz etnik, mədəni, dil və dini özgürlüyünü sərbəst ifadə etməyə, inkişaf etdirməyə və onun müdafiəsinə təminat verir və zəruri şərait yaradırlar. Beləliklə, bir daha hər iki tərəf öz ərazisində yaşayan milli azlıqların hüquqlarının müdafiəsi işini üzərlərinə götürürdülər. Bu isə Gürcüstanda yaşayan azərbaycanlıların hələ ki, heç də yaxşı olmayan vəziyyətlərinin yaxşılaşdırılmasına zəmanət demək idi. Nəticə etibarı ilə, müqavilə qonşu respublikaları strateji tərəfdaş və etibarlı iqtisadi partnyorlara çevirdi.

Danışıqlar başa çatdıqdan və sənədlər imzalandıqdan sonra dövlət başçıları H.Əliyev və E.Şevardnadze birgə mətbuat konfransı keçirdərək geniş bəyanatlar verdilər[53].

Azərbaycan Prezidentinin Gürcüstana səfərinin əhəmiyyətli məqamlarından biri də Gürcüstan parlamentinin xüsusi iclasındakı çıxışı olmuşdur. Çıxış zamanı prezident H.Əliyev iki ölkə arasında münasibətlərin inkişaf edilməsinin zəruriliyi və əhəmiyyətindən, regionda mövcud olan münaqişələrdən, Qafqazda sülh və təhlükəsizliyin zəruriliyindən, bağlanmış müqavilələrin əhəmiyyətindən, Gürcüstan parlamentinə azərbaycanlıların ilk dəfə olaraq seçilməsindən və s. geniş söz açmışdır[54].

Azərbaycan Prezidenti səfərin ikinci günü bir sıra mühüm görüşlər keçirtdi və tədbirlərdə iştirak etdi. Martın 9-da prezident H.Əliyev Gürcüstan prezidenti E.Şevardnadze ilə birlikdə Tbilisi Aviasiya Birliyində, Tbilisi şəhər cümə məscidində,

Z.Paliaşvili adına Dövlət Akademik Opera və Balet Teatrında Gürcüstan azərbaycanlıların nümayəndələri ilə görüşlər keçirtdilər. Görüşlərdə mövcud ikitərəfli əlaqələrdən və onların perspektivlərindən, Gürcüstanda yaşayan azərbaycanlıların vəziyyətindən söhbətlər açılmışdır[54].

Səfər çərçivəsində Azərbaycan və Gürcüstan prezidentləri həmçinin Azərbaycanın üç görkəmli şəxsiyyətinin – Mirzə Şəfi Vazehin, Mirzə Fətəli Axundovun və Fətəli xan Xoyskinin qəbirlərini ziyarət etdikdən sonra sonuncunun qəbirüstü abidəsinin açılışı mərasimində iştirak etdilər[56].

Səfərin sonuna yaxın Prezident H.Əliyev Gürcüstanda akkreditə olunmuş xarici ölkə səfirləri, müxtəlif dövlətlərin və beynəlxalq təşkilatların Tbilisidəki nümayəndəliklərinin rəhbərləri ilə görüşmüş, suallarına cavab vermiş, fikir mübadiləsi aparılmış və daha sonra Gürcüstan televiziyasının müxbirinə müsahibə vermişdir[57].

Beləliklə, Azərbaycan Respublikasının Prezidenti H.Əliyevin Gürcüstana ilk rəsmi səfəri və bu səfər çərçivəsində aparılan danışıqlar nəticəsində bağlanmış müqavilələr iki ölkə arasında dostluq və əməkdaşlıq münasibətlərinin intensivləşməsinə və inkişafına zəmin yaratmaqla bərabər, həm də Gürcüstanda yaşayan azərbaycanlılara qarşı münasibətlərin yaxşılaşmasına müsbət təsir göstərmişdir. Bununla da ikitərəfli əlaqələrin bütün sahələrində iki dövlətin strateji əməkdaşlığı vüsət aldı.

"Dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizliyin möhkəmləndirilməsi haqqında" müqavilənin 15-ci maddəsində deyilir ki, hər iki tərəf parlamentləri və parlament üzvləri arasında əməkdaşlığa və əlaqələrin inkişafına xüsusi diqqət yetirəcəklər[58]. Bunu və parlamentlərarası əməkdaşlığın zəruriliyini nəzərə alaraq 1996-cı il və sonrakı illər ərzində hər iki dövlətin parlamentinin sədrləri və nümayəndə heyətləri mütəmadi olaraq qarşılıqlı faydalı səfərlər etdilər. Belə səmərəli səfərlərdən biri Gürcüstan parlamentinin sədri Z.Jvaniyanın başçılıq etdiyi parlament nümayəndə heyətinin 1996-cı ilin aprelin 11-13-də Azərbaycana səfəri oldu. Qonaqlar Bakıya gəlməmişdən əvvəl Qazax və Gəncə bölgələrində olaraq burada bir sıra görüşlər keçirdilər.

Bakıya gəldikdən sonra Gürcüstan nümayəndə heyətinin Azərbaycan Prezidenti H.Əliyev və Milli Məclisin sədri ilə görüşü zamanı Prezident H.Əliyevin Gürcüstana ilk rəsmi səfərinin nəticələri, parlamentlərarası münasibətlər və ikitərəfli əlaqələrin digər aspektləri haqqında fikir mübadiləsi aparıldı[59].

Həmin ilin iyulun 24-29-da isə Milli Məclisin yerli özünüidarə məsələləri daimi komissiyasının sədri Z.Qaralovun başçılıq etdiyi parlament nümayəndə heyəti Gürcüstanda səfərdə oldu. Səfər zamanı parlamentlərarası əməkdaşlığa dair görüşlər keçirildi, Azərbaycan parlamenti nümayəndələrinin təşəbbüsü ilə ildə iki dəfə elmi-nəzəri seminar keçirilməsi qərara alındı, rabitə, energetika, bank sahəsində əməkdaşlığa dair sənədlər imzalandı, Azərbaycan-Gürcüstan sərhədində ikiqat gömrük vergisinin ləğv olunması haqqında razılıq əldə edildi. Bundan başqa Azərbaycanın millət vəkilləri Gürcüstan parlamentinin sədri Z.Jvaniya ilə də üç dəfə görüş keçirtdilər[60].

Gürcüstan parlamentinin sədri Z.Jvaniya növbəti dəfə Azərbaycana 1996-cı ilin noyabrında böyük Füzulinin 500 illiyi münasibətilə yubiley şənliklərində iştirak etmək üçün səfər etdi. Bu səfər zamanı, noyabrın 8-də Z.Jvaniya Azərbaycan Prezidenti H.Əliyevlə və Milli Məclisin sədri M.Ələsgərovla görüşlər keçirtdi. Spikerlərin görüşündə parlamentlərarası əlaqələri daha da inkişaf etdirməyin zəruri olduğu vurğulandı, habelə Azərbaycan-Gürcüstan parlamentlərarası komissiyanın Tbilisidə keçirilən ilk birgə iclasından danışıldı[61]. Həmin iclasda gömrük, vergi problemlərinin və digər məsələlərin həlli yolları müzakirə edilmişdir.

1996-cı ildə ikitərəfli əlaqələrin inkişafında Azərbaycan Respublikası İcra Aparatının rəhbəri R.Mehdiyevin Gürcüstan prezidenti dövlət dəftərxanasının yerli idarəetmə və regional siyasəti əlaqələndirmə xidmətinin rəhbəri T.Pipiya ilə görüşü xüsusi əhəmiyyət kəsb etdi. İyulun 24-də baş tutmuş görüşdə respublikalarda mövcud münaqişələr, gedən iqtisadi-siyasi və sosial proseslər haqqında məlumat verildi, habelə iki ölkə arasında iqtisadi-siyasi və elmi-mədəni əlaqələrin inkişaf etdirilməsi ilə bağlı fikir mübadiləsi aparıldı[62].

Gürcüstanın xarici işlər naziri İ.Menaqarişvilinin dəvəti ilə Azərbaycan Respublikasının xarici işlər naziri H.Həsənovun

1996-cı ilin dekabrın 24-25-də Gürcüstana rəsmi səfəri 1996-cı ildə Azərbaycan Prezidenti H.Əliyevin rəsmi səfərindən sonra ən səmərəli və əhəmiyyətli səfər oldu[63]. Səfər ərzində H.Həsənov Gürcüstan prezidenti E.Şevardnadze, parlamentin sədri Z.Jvaniya, xarici işlər naziri İ.Menaqarişvili ilə görüşmüş və ikitərəfli münasibətlərin inkişaf etdirilməsi məsələlərinə, qarşılıqlı maraq doğuran beynəlxalq və regional problemlərə dair danışıqlar aparmış və fikir mübadiləsi etmişdir. Bundan başqa Gürcüstan prezidenti E.Şevardnadze ilə söhbət zamanı iki dövlətin müstəqilliyini və suverenliyini möhkəmlətmək, onları yaxınlaşdırmaq yolunda birgə səylərin, siyasi-iqtisadi və mədəni sahələrdə əməkdaşlığı inkişaf etmək səylərinin vacibliyi və əhəmiyyət qeyd olundu. H.Həsənovun Gürcüstan parlamentinin sədri ilə görüşü zamanı isə iki dövlətin parlamentlərarası komissiyanı yaratmağın vacibliyi qeyd olundu, özəl şirkətlərin və kommersiya strukturlarının qarşılıqlı fəaliyyəti üçün əlverişli şərait yaradılması barədə fikir mübadiləsi edildi, Gürcüstan ilə Azərbaycan arasında dövlət sərhədinin silahsızlaşdırılması və demarkasiyası sahəsində işin səmərəli olduğu qeyd olundu[64].

Azərbaycan xarici işlər nazirinin səfərinin ən əhəmiyyətli yekunları Gürcüstanın xarici işlər naziri İ.Menaqarişvili ilə keçirtdiyi görüş və apardığı danışıqlar oldu. Nazirlər arasında aparılmış danışıqlarda ikitərəfli əlaqələr təhlil edildi, strateji tərəfdaşlıq məsələləri, habelə Gürcüstan prezidenti E.Şevardnadzenin Bakıya rəsmi səfəri üçün zəmin hazırlandı. Nazirlər konsulluq konvensiyası imzalamış, ekoloji cəhətdən təmiz, avtomatlaşdırılmış xüsusi nəqliyyat və onun infrastrukturu sahəsində əməkdaşlıq haqqında sazişi paraflamış, həmçinin H.Həsənovun Gürcüstana səfəri barədə birgə məlumat qəbul edilmişdir.

Nazirlərin imzaladıqları konsulluq konvensiyası vətəndaşların qarşılıqlı hüquqi təminatı üçün hüquqi-müqavilə bazası yaradılması və konsulluq əlaqələrinin tənzimlənməsi baxımından böyük əhəmiyyət kəsb edir.

Bundan başqa səfər zamanı H.Həsənov M.F.Axundovun ev-muzeyində, Tbilisi Cümə məscidində Azərbaycan diasporunun nümayəndələri ilə görüşmüş, Azərbaycanın Tbilisidəki səfirliyin

fəaliyyəti ilə tanış olmuşdur[65]. H.Həsənovun Gürcüstana iki günlük rəsmi səfəri ikitərəfli münasibətləri hərtərəfli möhkəmlətmək işində mühüm addım oldu.

Azərbaycan-Gürcüstan əlaqələrinin inkişafı tarixində 1997-ci ildə çox səmərəli və əhəmiyyətli il oldu. Məhz həmin ilin fevralında Gürcüstan prezidenti E.Şevardnadzenin Azərbaycana 1993-cü ildən sonra, iki dövlətin strateji tərəfdaşlığının inkişafı tarixində yeni səhifə açmış ikinci rəsmi səfəri baş tutdu.

Lakin bu səfərə qədər iki tərəf arasında bir sıra qarşılıqlı faydalı görüşlər və danışıqlar keçirildi. 1997-ci ilin yanvarın 8-də Gürcüstanın xarici işlər nazirinin müavini Mixail Ukleba Azərbaycana gəldi[66]. M.Uklebanın Azərbaycan prezidenti H.Əliyevlə görüşü zamanı Gürcüstan prezidentinin H.Əliyevə ünvanlanmış məktubu təqdim edildi və həmçinin ikitərəfli əlaqələrin inkişafı haqqında fikir mübadiləsi aparıldı[67].

Fevral ayının 8-10-da isə, bu dəfə Gürcüstan xarici işlər naziri özü Azərbaycana səfər etdi[68]. Səfər zamanı İ.Menaqarişvili Azərbaycanın xarici işlər naziri H.Həsənovla birlikdə Azərbaycanın Qax, Zaqatala və Balakən rayonlarına baş çəkdilər. Onlar burada yaşayan saxur və gürcü sakinlərlə görüş keçirərək onların həyatı və sosial problemləri ilə yaxından tanış oldular. Görüşdə bir qrup adamın separatçı ədəbiyyatı gətirib Azərbaycan ərazisində yayması faktı qəti pislənildi və belə addımlara qarşı xüsusi tədbirlərin görülməsi qərara alındı[69]. Həm M.Uklebanın, həm də İ.Menaqarişvilinin səfərlərinin əsas məqsədi isə Gürcüstan prezidentinin Azərbaycana gözlənilən rəsmi səfərinin hazırlanması ilə bağlı idi.

Hərtərəfli geniş əməkdaşlığa maneəsiz yol açmaq üçün müəyyən mübahisə doğura biləcək məsələlərin həllində irəliləyiş əldə edildi. Belə məsələlərdən biri də iki dövlət arasında sərhədlərin demarkasiya və delimitasiya məsələsi idi. 1997-ci ilə kimi iki dövlət arasında sərhədlərin çox hissəsi artıq delimitasiyadan keçdi[70]. Bu məsələ ilə bağlı 1997-ci ilin fevral ayında Azərbaycan xarici işlər nazirinin müavini Albert Salamovun başçılıq etdiyi nümayəndə heyəti Gürcüstanın paytaxtında oldu. Danışıqların nəticəsi kimi A.Salamov və Gürcüstanın xarici işlər

nazirinin müavini M.Ukleba Azərbaycan-Gürcüstan sərhədlərinin demarkasiyası və delimitasiyası haqqında birgə protokol imzaladılar.

Strateji tərəfdaş kimi iki dövlət arasında hüquq-mühafizə sahəsində də əməkdaşlığın genişlənməsi həm zəruri, həm də çox əhəmiyyətli idi. Bu sahədə müəyyən irəliləyişə Gürcüstan prezidentinin milli təhlükəsizlik məsələləri üzrə köməkçisi, Gürcüstan Milli Təhlükəsizlik Şurasının katibi Nuqrar Sacaya və Gürcüstanın baş prokuroru Camlet Babilaşvilinin 1997-ci il yanvarın 28-də Bakıya səfərləri zamanı nail olundu[71]. Azərbaycan prezidenti H.Əliyevlə görüş zamanı C.Babilaşvili qeyd etmişdir ki, prezidentlər arasında olan gözəl münasibətlər iki ölkənin hüquq-mühafizə orqanları arasında yaxşı münasibətlərin yaranmasını şərtləndirir ki, bu da bütün məsələləri operativ sürətdə həll etməyə imkan verir. Prezident H.Əliyev müvafiq idarələr və orqanlar arasında əməkdaşlığın təkmilləşdirilməsi məsələsini müzakirə etmək üçün Gürcüstan nümayəndələrinin Bakıya səfərindən məmnun olduğunu və bu təşəbbüsün ənənəyə çevriləcəyinə ümid etdiyini vurğulamışdır.

Azərbaycan-Gürcüstan münasibətlərinin genişlənməsinə və bu iki dövlət arasında strateji əməkdaşlığın daha da dərinləşdirilməsinə Gürcüstan prezidenti E.Şevardnadzenin Azərbaycana 1997-ci ilin fevralın 18-20-dəki rəsmi səfəri və bu səfər çərçivəsində imzalanmış sənədlər şərait yaratdı və təkan verdi[72]. Fevralın 18-də Prezident sarayında prezidentlərin təkbətək görüşündən sonra onların rəhbərliyi ilə Azərbaycan və Gürcüstan nümayəndə heyətləri arasında danışıqlar başlandı. Heydər Əliyevlə təkbətək görüşdən sonra E.Şevardnadze qeyd etmişdir ki, "bu gün müzakirə olunan bütün məsələlərdə Azərbaycanın və Gürcüstanın mövqeləri tamamilə üst-üstə düşür"[73]. Elə həmin gün hər iki tərəf üçün böyük əhəmiyyətə malik ikitərəfli sənədlərin imzalama mərasimi oldu. İmzalanan sənədlər arasında "Azərbaycan Respublikası ilə Gürcüstan arasında strateji əməkdaşlığın daha da dərinləşdirilməsi haqqında" bəyannamə və "Azərbaycan Respublikası ilə Gürcüstan arasında neft-qaz sənayesi sahəsində əməkdaşlıq haqqında" müqavilə böyük əhəmiyyət kəsb edir[74].

Strateji əməkdaşlığın daha da inkişaf etdirilməsi haqqında sənəd hər iki tərəf üçün bir proqram kimi, gələcək əməkdaşlığın aydın və dəqiq yolunu müəyyənləşdirərək, gələcəkdə bu iki ölkənin həqiqətən strateji tərəfdaşlar kimi əməkdaşlıq etməsinə, bir-birinə lazımı yardım və həyanlıq göstərə bilməsinə yönəldilmişdir.

Bundan əlavə, E.Şevardnadzenin səfəri çərçivəsində tərəflər arasında xüsusi nəqliyyat, onun infrastrukturu sahəsində əməkdaşlıq, iki dövlətin Daxili İşlər Nazirliklərinin nümayəndələrinin mübadiləsi, gənclər işləri, təhsil sahəsində əməkdaşlıq, borcların dövlət borcu kimi rəsmiləşdirilməsi, geodeziya, xəritəşünaslıq, standartlaşdırma, metrologiya və sertifikatlaşdırma sahəsində əməkdaşlıq, elmi-texniki əməkdaşlıq, ətraf mühitin qorunması sahəsində əməkdaşlıq, Bakı şəhər icra hakimiyyəti ilə Tbilisi şəhəri bələdiyyəsi arasında əməkdaşlıq, sərhəd məsələlərinə dair əməkdaşlıq haqqında və s. sazişlər, protokollar, ikiqat vergi qoymaya yol verilməməsi haqqında konvensiya və Rabitə Nazirlikləri arasında niyyətlər haqqında memorandum da imzalandı[75]. Bütövlükdə 22 sənəd imzalandı. Qeyd etmək lazımdır ki, Azərbaycan və Gürcüstan müstəqil dövlətlər olduğu vaxtdan bu səfərə qədər 32 sənəd imzalanmışdır və beləliklə, iki respublika arasında imzalanmış sənədlərin sayı 54 çatmışdır. Bu o demək idi ki, Azərbaycan və Gürcüstan ikitərəfli əməkdaşlığın daha da inkişaf etdirmək və genişləndirmək üçün qısa müddətə iki dövlət arasında kifayət qədər müqavilə-hüquqi əsas yaratmağa müvəffəq olmuşdular.

İkitərəfli sənədlərin imzalanmasından sonra dövlət başçıları birgə mətbuat konfransı keçirdərək bəyanatla çıxış etdilər və jurnalistlərin suallarına cavab verdilər[76]. Gürcüstan prezidenti səfərinin ikinci günü Milli Məclisin iclasında çıxış edərək ikitərəfli əlaqələrin mövcud vəziyyətindən və perspektivlərindən, hər iki dövlətin ərazisində mövcud olan münaqişələrin həlli yollarından, parlamentlərarası əməkdaşlığın əhəmiyyətliliyindən söz açdı[77]. Səfər ərzində əlamətdar hadisələrdən biri də fevralın 19-da Azərbaycan və Gürcüstan prezidentlərinin iştirakı ilə Bakıda Gürcüstanın Azərbaycandakı səfirliyi binasının təntənəli açılış mərasimi oldu[78]. Qeyd etmək lazımdır ki, hələ 1918-1921-ci

illərdə Gürcüstan Respublikasının Azərbaycandakı nümayəndəliyi bu binada yerləşdirilmişdir[79].

Beləliklə, Gürcüstan dövlət başçısının Bakıya rəsmi səfəri və bu səfər zamanı imzalanmış sənədlər ikitərəfli strateji tərəfdaşlığın və əməkdaşlığın daha da inkişaf etdirilməsi və dərinləşdirilməsi üçün şərait və imkan yaratdı. Digər tərəfdən, ikitərəfli münasibətlərin bütün sahələrində hüquqi-normativ əsasların yaradılması demək olar ki, başa çatdı.

E.Şevardnadzenin Azərbaycana səfəri zamanı imzalanmış sazişlərin reallaşdırılması ilə bağlı Azərbaycanlı həmkarları ilə fikir mübadiləsi aparmaq, habelə əməkdaşlığın gələcək perspektivlərini müzakirə etmək üçün Gürcüstanın xarici işlər naziri İ. Menaqarişvili 1997-ci ilin aprelin 8-də Bakıya səfər etdi. İ.Menaqarişvili Azərbaycan prezidenti H.Əliyevlə görüşündə, Xarici İşlər Nazirliyində keçirdiyi görüşlər zamanı hər iki tərəfin fikirlərinin üst-üstə düşdüyünü bildirdi. Prezident H.Əliyev xarici siyasət idarəsində aparılan danışıqların nəticələrindən razı qaldığını bildirdi və belə səfərlərin iki ölkə arasında dostluq əlaqələrinin inkişafında əhəmiyyətli rol oynadığını qeyd etdi[80].

İkitərəfli əməkdaşlığın genişləndirilməsində Milli Məclisin sədri M.Ələsgərovun başçılıq etdiyi Azərbaycan parlamenti nümayəndə heyətinin 1997-ci ilin may ayının 13-dən 15-dək Gürcüstana rəsmi səfəri mühüm əhəmiyyət kəsb etdi[81]. Səfərin birinci günü M.Ələsgərov Gürcüstan parlamentinin sədri Z.Jvaniya ilə təkbətək görüş keçirdi. Görüşdə iki ölkə arasında əməkdaşlığın daha da möhkəmləndirilməsi, qanunvericilik sahəsində əməkdaşlıq, qanunların uyğunlaşdırılması və parlamentlərarası əməkdaşlıq məsələləri müzakirə edildi[82]. Həmin gün Milli Məclisin sədrinin Ümumgürcüstan katalikosu patriarx II İlya, Gürcüstanın xarici işlər naziri İ.Menaqarişvili və daha sonra prezident E.Şevardnadze ilə görüşü oldu. İki ölkə arasında əməkdaşlığa dair məsələlər, habelə Dağlıq Qarabağ və Abxaziya problemləri həmin görüşlərin müzakirə obyektinə çevrildi[679].

Lakin ən səmərəli nəticələr M.Ələsgərovun və onun başçılıq etdiyi nümayəndə heyətinin mayın 14-də Z.Jvaniya ilə keçirtdiyi görüşdə və gürcüstanlı həmkarlarla aparılan danışıqlarda əldə

edildi. İki parlamentin sədrlərinin söhbəti zamanı parlamentlər arasında əməkdaşlıq məsələləri müzakirə olundu[84]. Danışıqların yekunu kimi M.Ələsgərov və Z.Jvaniya "Azərbaycan Respublikası Milli Məclisi və Gürcüstan parlamenti arasında qanunvericiliyin uyğunlaşdırılması haqqında" saziş imzaladılar. Parlamentlərarası əməkdaşlığın genişləndirilməsi üçün böyük əhəmiyyətə malik olan saziş regionda əməkdaşlığın inkişafı, uyarlı qanunvericilik məkanının yaradılması ilə qanunvericiliyin yaxınlaşdırılması, uyğunlaşdırılması və digər hüquqi məsələləri təsbit edir.

Bundan başqa, Milli Məclisin nümayəndə heyəti Gürcüstan parlamentinin iclasında iştirak etdi və M.Ələsgərov həmin iclasda çıxış etdi. Səfərin sonunda M.Ələsgərovun və parlament nümayəndə heyətinin Gürcüstanda yaşayan azərbaycanlılarla görüşü oldu[85]. Parlamentlərarası əməkdaşlığın inkişafında yeni səhifələr açan bu səfəri iki ölkə arasında son iki ildə genişlənən əlaqələrin davamı kimi qiymətləndirmək olar.

Qeyd etmək lazımdır ki, ikitərəfli əlaqələrin inkişaf etməsi üçün hər iki dövlətin səfirlikləri də mühüm işlər görmüş və müəyyən nailiyyətlər əldə etmişlər. 1997-ci ilin dekabrın 25-də Azərbaycan prezidenti Gürcüstanın Azərbaycana yeni təyin olunmuş səfiri Z.Qumberidzenin etimadnaməsini qəbul etdi[86].

Beləliklə, 1996-1997 illərdə Azərbaycan-Gürcüstan münasibətləri yüksələn xətlə, intensiv şəkildə inkişaf etmişdir. Bu illər ərzində hər iki dövlət və hökumət rəhbərlərinin səfərləri və görüşlərində, aparılan danışıqlarda iki dövlət arasında münasibətlərin bütün sahələri intensiv və geniş müzakirə olunmuş, böyük əhəmiyyətə malik ikitərəfli sənədlər imzalanmış, qarşılıqlı faydalı əməkdaşlığın yeni-yeni perspektivləri aşkarlanmış və həyata keçirilmişdir.

1998-1999-cu illər də Azərbaycan-Gürcüstan münasibətlərinin inkişafında və genişlənməsində çox mühüm və səmərəli illər oldu. Bu iki il ərzində iki ölkə başçılarının və hökumət rəhbərlərinin intensiv görüşlərinin keçirilməsi ilə yanaşı, hər iki tərəf üçün də çox mühüm olan tarixi tədbirlər və layihələr həyata keçirildi. Qeyd etdiyimiz görüşlərin əksəriyyəti müxtəlif regional və beynəlxalq təşkilatların iclas və konfransları zamanı baş

tutmuşdur. İki dövlət başçılarının və digər dövlət rəsmilərinin görüşlərində ikitərəfli əlaqələrin bütün aspektləri bərabər, həm hər iki tərəf üçün maraq doğuran regional məsələlər, həm də onların regional və beynəlxalq təşkilatlarda birgə fəaliyyəti müzakirə edilirdi. Bu görüşlərdə hər iki tərəf, böyük problemə çevrilmiş ərazi bütövlüyünün təmin edilməsi məsələsində də eyni mövqedən çıxış etmişdilər.

Təhlil olunan illər ərzində ikitərəfli əlaqələrin inkişafında hər iki ölkənin Xarici İşlər Nazirliyi əhəmiyyətli işlər görmüş və yüksək nailiyyətlər əldə etmişdir. Xarici idarələr arasında əməkdaşlıq həm nazirlərin qarşılıqlı səfərləri, həm də beynəlxalq və regional təşkilatların iclas və yığıncaqlarında keçirilmiş ikitərəfli görüşləri zamanı inkişaf etmişdir. 1998-ci ildə Gürcüstanın xarici işlər naziri Azərbaycana dəfələrlə səfər etdi. Bu səfərlərin əksəriyyəti müxtəlif mənəvi-mədəni xarakter daşıyan tədbir və mərasimlərdə iştirak etmək üçün edilmişdir. Çünki 1998-ci il hər iki dövlət üçün yubiley ili olduğundan həmin ildə baş verən qarşılıqlı səfərlərin çoxu yubiley tədbirlərində iştirak məqsədi daşıyırdı.

İkitərəfli və regional məsələlər haqqında fikir mübadiləsi aparmaq üçün Gürcüstanın xarici işlər naziri İ.Menaqarişvili 1998-ci ilin iyul ayının 7-də Azərbaycana əməli səfər etdi[87]. İ.Menaqarişvili Azərbaycan Prezidenti H.Əliyevlə görüşü zamanı belə bir nəticəyə gəlinmişdir ki, iki dövlətin xarici siyasət idarələri arasında görüşü və mühüm məsələlərin müzakirələrini müntəzəm həyata keçirmək lazımdır[88]. Elə həmin gün nazirlər arasında görüş və iki tərəf arasında danışıqlar baş tutdu. Səmimilik və dostluq şəraitində keçən danışıqlar zamanı ikitərəfli münasibətlərlə, regional və beynəlxalq siyasətlə bağlı məsələlər qarşılıqlı anlaşma və etimad ruhunda müzakirə olundu. Danışıqların nəticəsi olan birgə bəyanatda təcavüzkar aktların, separatçılığın və terrorizmin bütün forma və təzahürləri pislənilirdi, həmçinin Qafqazda sülhün və təhlükəsizliyin təmin olunması üçün səylərin birləşdirilməsinə hazırlıq bəyan olunurdu[89].

Azərbaycan-Gürcüstan münasibətlərinin saf inkişaf etdirilməsi üçün 26 iyul 1999-cu ildə Gəncədə Azərbaycanın xarici işlər nazirinin müavini, Dövlət sərhədinin demarkasiyası və deli-

mitasiyası üzrə Dövlət Komissiyasının sədri X.Xələfovun Gürcüstan Dövlət Komissiyasının sədri V.Çeçelaşvili ilə növbəti dəfə keçirilən görüşündə sərhəd məsələləri ilə bağlı danışıqlar və geniş müzakirələr aparıldı, mövqelər dəqiqləşdirildi. İki dövlətin müvafiq komissiyaları arasında birgə iclasın müntəzəm olaraq həyata keçirilməsi qərara alındı.

Xarici işlər nazirlərinin təhlil olunan illər ərzində qarşılıqlı səfərləri içərisində Azərbaycan xarici işlər naziri Tofiq Zülfüqarovun 1999-cu ilin avqustun 23-25-də Gürcüstana rəsmi səfəri mühüm əhəmiyyət kəsb etdi[90]. Səfər dövründə T.Zülfüqarov Gürcüstan prezidenti E.Şevardnadze, dövlət naziri V.Lordkipanidze, parlamentin sədri Z.Jvaniya və xarici işlər naziri İ.Menaqarişvili ilə görüş keçirdi. Bütün görüşlərdə hər iki tərəf bir-birlərinə ölkələrində aparılan siyasi və sosial-iqtisadi islahatlar haqqında məlumat verdi. Bundan əlavə ikitərəfli əməkdaşlığın inkişafı, bir sıra regional və beynəlxalq problemlər, Ermənistan-Azərbaycan və gürcü-abxaz münaqişələri ilə bağlı məsələlər müzakirə edildi. Azərbaycanın və Gürcüstanın xarici işlər nazirləri səfərin yekunlarına dair birgə bəyanat imzaladılar. Bəyanatda deyilirdi ki, Azərbaycanın və Gürcüstanın xarici siyasət kursları ikitərəfli əlaqələrin artan inki-şafını, iki ölkə arasında strateji partnyorluğun dəstəklənməsini və möhkəmləndirilməsini təmin edir[91]. T.Zülfüqarovun Gürcüstana səfəri səmərəliliyi ilə iki ölkə arasında bütün sahələrdə strateji partnyorluğun və əməkdaşlığın yüksəlmiş səviyyəsini göstərdi.

Təhlil olunan illər ərzində bütün sahələrdə olduğu kimi hərbi sahədə də Azərbaycan-Gürcüstan əməkdaşlığı inkişaf edirdi. Xüsusən də 1998-1999-cu illərdə hərbi nazirlərin ikitərəfli və çoxtərəfli görüşləri çoxluğu və mütəmadiliyi ikitərəfli strateji əməkdaşlığın möhkəmlənməsinə xidmət etdi. İkitərəfli hərbi əməkdaşlığın inkişaf etdirilməsində Azərbaycanın müdafiə naziri general-polkovnik Səfər Əbiyevin 1999-cu ilin mart ayının 16-18-də Gürcüstana rəsmi səfəri mühüm yer tutur. Səfərin ilk günü iki ölkənin müdafiə nazirləri general-polkovnik S.Əbiyev və general-leytenant David Tevzodze, habelə onların başçılıq etdikləri nümayəndə heyətləri arasında görüş və danışıqlar oldu[92].

Martın 18-də S.Əbiyev Gürcüstan prezidenti E.Şevardnadze, dövlət naziri V.Lordkipanidze, parlamentinin sədri Z.Jvaniya, xarici işlər naziri İ.Menaqarişvili ilə görüşlər keçirdi. Azərbaycan-Gürcüstan əməkdaşlığın hərbi aspektləri və onların Qafqazda sülhün və təhlükəsizliyin təmin edilməsi, Azərbaycanın və Gürcüstanın ərazi bütövlüyünün bərpa edilməsi üçün həm ikitərəfli, həm də regional səviyyədə genişlənməsi həmin görüşlər və danışıqlar zamanı müzakirə obyektinə çevrildi, həmçinin Azərbaycan-Gürcüstan hərbi əməkdaşlığının əsas istiqamətlərinin təyin olunması ilə bağlı danışıqlar aparıldı[93]. Bundan əlavə NATO-nun "Sülh uğrunda partnyorluq" proqramı, GUAM çərçivəsində ikitərəfli əməkdaşlığın intensivləşməsi, hər iki ölkənin silahlı qüvvələrində olan problemlər, Böyük İpək Yolunun, Bakı-Supsa və Bakı-Tbilisi-Ceyhan neft kəmərinin, Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin qorunması, sülhməramlı hərbi bölüklərin yaradılması, hərbi kadrların hazırlanması və s. məsələlər haqqında fikir mübadiləsi aparıldı. Səfərin sonunda Azərbaycan və Gürcüstan müdafiə nazirləri arasında görüşlərinin və danışıqlarının yekunlarına dair protokol imzalandı[94].

1999-cu ilin avqustun 21-də qarşılıqlı razılaşma əsasında 3 fevral 1993-cü il tarixində Bakıda imzalanmış "Azərbaycan Respublikası ilə Gürcüstan arasında vizaların qarşılıqlı tanınması haqqında" sazişin fəaliyyətinin dayandırılması barədə nota mübadiləsi edildi. Bu Azərbaycan-Gürcüstan dostluq əlaqələrinin yüksək səviyyədə olmasının daha bir göstəricisi idi.

XXI əsrin əvvəllərində də Azərbaycan-Gürcüstan münasibətləri davamlı və intensiv olaraq inkişaf etmiş, daha da dərinləşmiş və genişlənmişdir. Belə ki, Azərbaycan prezidenti H.Əliyevin 2000-ci ilin 22-23 martında Gürcüstana 2001-ci ilin 29 sentyabrında isə Gürcüstan prezidenti E.Şevardnadzenin Azərbaycana rəsmi səfərləri ikitərəfli əlaqələrin inkişaf etdirilməsində və genişləndirilməsində yeni mərhələyə çevrilmişdir. Həmin səfərlər zamanı keçirilmiş görüşlər, aparılmış danışıqlar və imzalanmış sənədlər iki ölkə arasında mehriban qonşuluq və strateji tərəfdaşlıq əlaqələrinin inkişafı üçün yeni stimullar yaratmışdır[95]. Bütövlükdə, tədqiq edilən dövrdən sonrakı illərdə də həm dövlət

başçıları səviyyəsində, həm digər səviyyələrdə ikitərəfli görüşlər və səfərlər, istər qarşılıqlı şəkildə, istər regional və beynəlxalq səviyyədə müntəzəm və intensiv olaraq həyata keçirilmişdir.

Beləliklə, 1996-cı ildən başlayaraq Azərbaycan-Gürcüstan əlaqələrinin inkişaf etdirilməsi yolunda həyata keçirilən məqsədyönlü siyasət tədricən öz bəhrəsini vermiş və hazırda iki respublika arasında qarşılıqlı faydalı əməkdaşlıq münasibətləri hər iki tərəf üçün də sərfəli olan yüksək səviyyədədir.

Ümumiyyətlə, 1996-1999-cu illər ərzində iki ölkə arasında ikitərəfli və çoxtərəfli əlaqələri tənzimləyən, strateji əməkdaşlıq və tərəfdaşlıq münasibətlərini dərinləşdirən və inkişaf etdirən möhkəm hüquqi və siyasi baza yaradılmışdır ki, bu da həm Azərbaycanın, həm də Gürcüstanın müstəqil bir dövlət kimi yaşamasına, beynəlxalq aləmdə öz maraqlarını və təhlükəsizliyini qorunmasına və həmçinin bölgədə sülhün və sabitliyin yaradılmasına imkan yaradır. Azərbaycan və Gürcüstan hər iki dövlət üçün böyük problemə çevrilmiş ərazi bütövlüyünün təmin edilməsi sahəsində uyğun mövqedə durmuşlar və mövcud münaqişələrin həllində sülh mövqedən çıxış etmişlər.

Beləliklə, Azərbaycan-Gürcüstan dostluq və əməkdaşlıq münasibətləri təhlil olunan illər ərzində yüksələn xətlə intensiv inkişaf etmiş və ikitərəfli əlaqələr iki dövlətin strateji maraqlarını təmin edilməsinə real zəmin yaratmışdır. Mehriban qonşuluq və dostluq prinsipləri üzərində qurulmuş Azərbaycan-Gürcüstan münasibətlərinin strateji tərəfdaşlıq səviyyəsinə qalxması və bu istiqamətdə inkişafı gələcəkdə hər iki dövlətə və xalqa böyük fayda verə bilər. İkitərəfli əlaqələrin hər iki ölkənin qarşısında duran vəzifələrin həyata keçirilməsində oynaya biləcəyi rolu görən Azərbaycanın və Gürcüstanın prezidentləri – H.Əliyev və E.Şevardnadze təhlil olunan illər ərzində bütün diplomatik və siyasi vasitələrdən istifadə etmiş və dövlətlərinin maraqlarını nəzərə alaraq ikitərəfli strateji tərəfdaşlığın möhkəm bünövrəsini qoymuşlar. Mövcud dostluq, strateji əməkdaşlıq və tərəfdaşlıq münasibətləri həm Azərbaycan və Gürcüstan üçün lazımdır, həm də Qafqazda sülhün, sabitliyin və təhlükəsizliyin yaradılması və möhkəmləndirilməsi üçün böyük əhəmiyyət kəsb edir.

[1] Kərimli Ş. Borçalı ağrıları."Azərbaycan" qəz., 1992, 28 oktyabr, № 25, s.7.
[2] Ömərli V.A. Qarayazı: Gürcüstanda türklər. I hissə, Bakı: Çaşıoğlu, 2001, 232 s.
[3] Azərbaycan Respublikası Milli Məclisinin Arxivi: f. 2941, siy. 1, iş 126, v. 3.
[4] Yenə orada, v. 4.
[5] Нурмамедов Т., Сулейманоглу Э. Борчалы: что ждёт их завтра? "Azərbaycan" qəz., 1990, 31 avqust, № 32-33, s. 10.
[6] Qurbanov Ş. Borçalı gözdən uzaqdır. "Xalq qəzeti", 1993, 17 fevral, № 26, s.1.
[7] Xarici ölkələrdə yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin Gürcüstanda yaşayan azərbaycanlıların problemləri ilə bağlı Xüsusi Arayışı. Bakı, s. 4
[8] "Gürcüstan" qəz., 1991, 13 iyul, № 79.
[9] Ломсадзе Е. Подписан договор о дружбе. Газ."Свободная Грузия", 1991, 13 июля, № 126-127, s. 2.
[10] "Kommunist" qəz., 1991, 13 iyul, № 136.
[11] Azərbaycan Respublikası Milli Məclisinin Arxivi: f. 2941, siy. 1, iş 2, v. 91.
[12] Şamıoğlu Ş. Borçalıda etnik proseslər və millətlərarası münasibətlər (XIX-XX əsrlər). Bakı: Azərbaycan, 1997, s.166-167.
[13] Газ."Свободная Грузия", 1992, 20 ноября, № 156.
[14] "Gürcüstan" qəz., 1992, 21 noyabr, № 49.
[15] "Xalq qəzeti", 1992, 19 noyabr, № 215.
[16] "Azərbaycan" qəz., 1992, 19 noyabr, № 40.
[17] Azərbaycan Respublikası Milli Məclisinin Arxivi: f. 2941, siy. 1, iş 126, v.2-3.
[18] Azərbaycan Respublikası Milli Məclisinin Arxivi: f. 2941, siy. 1, iş 126, v.14-15.
[19] Vəliyev Y. Azərbaycan-Gürcüstan: yeni siyasət, yeni qarşılıqlı münasibət. "Azadlıq" qəz., 1993, 5 yanvar, № 1, s.5.
[20] Şamıoğlu Ş. Borçalıda etnik proseslər və millətlərarası münasibətlər (XIX-XX əsrlər). s. 173.
[21] "Xalq qəzeti", 1992, 23 dekabr, № 237.
[22] Газ."Бакинский рабочий", 1992, 29 декабря, № 229.
[23] Vəliyev Y. Azərbaycan-Gürcüstan: yeni siyasət, yeni qarşılıqlı münasibət."Azadlıq" qəz., 1993, 5 yanvar, № 1, s.5.
[24] Месхи Дж., Гогиадзе В. Грузия-Азербайджан: на пути к полно-масштабному сотрудничеству. Газ."Свободная Грузия", 1993, 3 февраля, № 20, s. 1.
[25] Əmrahqızı E. Fevralın 3-də Gürcüstan parlamentinin sədri Eduard Şevardnadze Bakıya bir günlük səfərə gəlib."Azadlıq" qəz., 1993, 4 fevral, № 14.
[26] Клдиашвили Л. Выражая волю грузинского и азербайджанского народов. Газ."Свободная Грузия", 1993, 5 февраля, № 22.
[27] "Xalq qəzeti", 1993, 5 fevral, № 19.
[28] "Xalq qəzeti", 1993, 10 fevral, № 22.
[29] Azərbaycan Respublikası Milli Məclisinin Arxivi: f. 2941, siy. 1, iş 148, v. 97.
[30] Yenə orada, v.100.
[31] Yenə orada, v.101.
[32] Yenə orada, v.97.
[33] Yenə orada, v.98.
[34] Yenə orada, v.103.
[35] Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin cari arxivi."Gürcüstan. Sazişlər" qovluğu, v.518-519.

[36] Şamıoğlu Ş. Borçalıda etnik proseslər və millətlərarası münasibətlər (XIX-XX əsrlər). s. 175.
[37] Qurbanlı M. Sülhə gedən yol. Bakı: Ozan, 2000, s.54.
[38]"Azərbaycan" qəz.,1993, 22 may, № 97.
[39] Yenə orada, 1993, 18 iyun, № 114.
[40] Yenə orada, 1993, 2 dekabr, № 233.
[41] Yenə orada, 1993, 20 iyul, № 136.
[42]"Azadlıq" qəz., 1993, 2 dekabr, № 128.
[43]"Azərbaycan" qəz., 1995, 24 oktyabr, № 203.
[44]"Xalq qəzeti", 1993, 9 iyul, № 107.
[45] Azərbaycan Respublikası Milli Məclisinin Arxivi: f. 2941, siy. 1, iş 2, v.91.
[46] Azərbaycan Respublikası Milli Məclisinin Arxivi: f. 2941, siy. 1, iş 141, v.169.
[47]"Azərbaycan" qəz., 1995, 15 aprel, № 70.
[48]"Azərbaycan" qəz., 1995, 27 iyul, № 139.
[49] Газ."Зеркало", 1996, 13 января, № 2.
[50] Azərbaycan-Gürcüstan: Dostluğumuzun təntənəsi. Bakı: Şərq-Qərb, 1996, s. 7-8.
[51] Yenə orada, s.8.
[52] Yenə orada, s.10-16.
[53] Azərbaycan beynəlxalq aləmdə: 5 cilddə, II c., Bakı: Göytürk, 1997, s. 413.
[54] Шукуров И. Дипломатия мира. Баку: Азербайджан, 1997, с. 298-301.
[55] Azərbaycan-Gürcüstan: Dostluğumuzun təntənəsi. s. 45-65.
[56] Yenə orada, s. 46.
[57] Əliyev H. Müstəqilliyimiz əbədidir: 14 cilddə, V c., Bakı: Azərnəşr, 1998, s. 446-451.
[58] Azərbaycan-Gürcüstan: Dostluğumuzun təntənəsi. s. 15.
[59] "Azərbaycan" qəz., 1996, 13 aprel, № 70.
[60] Cəfəroğlu İ. Azərbaycan-Gürcüstan əlaqələri möhkəmlənir."Azərbaycan" qəz., 1996, 31 iyul, № 145.
[61] "Azərbaycan" qəz., 1996, 9 noyabr, № 217.
[62] "Azərbaycan" qəz., 1996, 26 iyul, № 142.
[63] "Xalq qəzeti", 1996, 25 dekabr, № 249.
[64] "Xalq qəzeti", 1996, 28 dekabr, № 252.
[65] "Xalq qəzeti", 1996, 27 dekabr, № 251.
[66] "Xalq qəzeti", 1996, 27 dekabr, № 251.
[67] "Xalq qəzeti", 1997, 9 yanvar, № 5.
[68] "Azərbaycan" qəz., 1997, 14 fevral, № 30.
[69] "Xalq qəzeti", 1997, 11 fevral, № 28.
[70] İsmayılzadə E. Gürcüstan-Azərbaycan: Eyni geostrateji maraqlar dil tapmağı asanlaşdırar."Azadlıq" qəz., 1997, 18 fevral, № 32, s. 3-5.
[71] "Xalq qəzeti", 1997, 29 yanvar, № 18.
[72] Abbasbəyli A. Azərbaycan müasir dövrdə. Bakı: Hərbi Nəşriyyat, 1998, s. 25.
[73] Mehdiyev A. Bakı-Tbilisi anlaşması nələri vəd edir? "Müxalifət" qəz., 1997, 22 fevral, № 15.
[74] "Xalq qəzeti", 1997, 19 fevral, № 35.
[75] "Azərbaycan" qəz., 1997, 19 fevral, № 33, s. 1-3.
[76] Əliyev H. Müstəqilliyimiz əbədidir: 14 cilddə, VIII c., Bakı: Azərnəşr, 1998, s. 416-426.
[77] "Azərbaycan" qəz., 1997, 20 fevral, № 34, s. 1-3.

[78] "Xalq qəzeti", 1997, 20 fevral, № 36.
[79] "Azərbaycan" qəz., 1997, 20 fevral, № 34, s.1-3.
[80] "Xalq qəzeti", 1997, 9 aprel, № 73.
[81] Həsənov M. Azərbaycan-Gürcüstan dostluğunun yeni mərhələsi. "Azərbaycan" qəz., 1997, 18 may, № 99, s.1-2.
[82] "Azərbaycan" qəz., 1997, 14 may, № 95.
[83] Həsənov M. Azərbaycan-Gürcüstan dostluğunun yeni mərhələsi. "Azərbaycan" qəz., 1997, 18 may, № 99, s.1-2.
[84] "Azərbaycan" qəz., 1997, 15 may, № 96.
[85] Həsənov M. Azərbaycan-Gürcüstan dostluğunun yeni mərhələsi. "Azərbaycan" qəz., 1997, 18 may, № 99, s.1-2.
[86] "Azərbaycan" qəz., 1997, 26 dekabr, № 284.
[87] "Xalq qəzeti", 1998, 8 iyul, № 178.
[88] "Azərbaycan" qəz., 1998, 8 iyul, № 153.
[89] "Xalq qəzeti", 1998, 9 iyul, № 179.
[90] "Azərbaycan" qəz., 1999, 24 avqust, № 192.
[91] Газ."Бакинский рабочий", 1999, 26 августа, № 163.
[92] Məmmədov Ş. Azərbaycan Müdafiə nazirinin Gürcüstana səfəri."Xalq qəzeti", 1999, 18 mart, № 70.
[93] "Azərbaycan" qəz., 1999, 20 mart, № 63.
[94] Məmmədov Ş. Səfər başa çatdı."Xalq qəzeti", 1999, 19 mart, № 71.
